MİNGƏÇEVİR
DÖVLƏT
UNİVERSİTETİ

İSSN-2788-9726 (Print)
İSSN-2788-9734 (Online)

# DAYANIQLI İNKİŞAF

(multidisiplinar elmi jurnal)

Cild 3 №2

2023

elmi.jurnal@mdu.edu.az | www.mdu.edu.az | dayaniqli.inkishaf@mdu.edu.az

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

# DAYANIQLI İNKİŞAF

**(multidisiplinar elmi jurnal)**

## CİLD 3, № 2, 2023

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş xüsusi buraxılış**

**Baş redaktor: i.f.d., dos. Şahin Bayramov**

**R e d a k s i y a  h e y ə t i**

i.e.d., prof., Veysəl Əyyubov (baş redaktor müavini); tex.f.d., dos. Vüqar Mustafayev (məsul katib); i.f.d., dos. Nüşabə Qədimli (iqtisad elmləri bölməsi üzrə redaktor); tex.f.d., dos. Almaz Əliyeva (təbiət və texnika elmləri bölməsi üzrə redaktor); t.f.d., dos. Nizami Zeynalov (humanitar elmlər bölməsi üzrə redaktor); Günel Kərimli (dizayner və texniki redaktor)

**R e d a k s i y a  ş u r a s ı**

i.e.d., prof. Ədalət Muradov (Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan); i.e.d., prof. Vilayət Vəliyev (Azərbaycan Texniki Universiteti, Azərbaycan); t.e.d., prof. Cəfər Cəfərov (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan); r.e.d., prof. Natiq İbrahimov (Lənkəran Dövlət Universiteti, Azərbaycan); fil.e.d., prof. İsmayıl Məmmədli (AMEA Dilçilik İnstitutu); t.e.d., prof. Qasım Hacıyev (AMEA Tarix İnstitutu); tex.e.d., prof. Əsgər Tağızadə (Azərbaycan Texniki Universiteti); tex.e.d., prof. Səyyəddin Cəfərov (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti); p.e.d., prof. Fərrux Rüstəmov (Azərbaycan Dövlət Pedaqoji Universiteti); r.e.d., prof. Araz Əliyev (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti); i.e.d, dos. Mayis Gülalıyev (Azərbaycan Texnologiya Universiteti); prof., dr. Mahmut Selvi (Qazi Universiteti, Türkiyə); prof., dr. İnqa Zaleniene (Mykolas Romeris Universiteti, Litva); dos., dr. Almaz Kadıraliyev (Qırğızıstan İqtisad Universiteti, Qırğızıstan); prof., dr. Wang Xia (Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti, Çin), Dr. Andrea Gatto (CED İqtisadi İnkişaf və Sosial Dəyişiklikllər Mərkəzi, Naples, İtaliya), prof. Məsud Əfəndiyev ("Helmholtz" Elmi-Tədqiqat Mərkəzi, Münhen, Almaniya)

**Təsisçi: MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr № 4332**

**Mingəçevir Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

Jurnal aşağıdakı Beynəlxalq elmi məlumat bazalarına daxildir:

Academic Resource Index ResearchBib

*Academic Resource Index ResearchBib*

INTERNATIONAL STANDARD SERIAL NUMBER

**Print - 2788 – 9726 (çap nəşri üçün)**

**E-ISSN - 2788 – 9734 (onlayn versiyası ücün)**

***Dayanıqlı inkişaf, 2023, Cild 3, № 2 (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş xüsusi buraxılış) – 166 s.***

**Redaksiyanın ünvanı:** Azərbaycan, Mingəçevir ş., D.Əliyeva küç., 21, AZ4500

**WWW:** https://mdu.edu.az/dayaniqli-inkisaf-jurnali

**Materiallardan istifadə zamanı jurnala istinad zəruridir.**

*© Mingəçevir Dövlət Universiteti, "Dayanıqlı inkişaf" multidisiplinarelmi jurnalı, 2023*

# MÜNDƏRİCAT

## İQTİSAD ELMLƏRİ BÖLMƏSİ

**Baş redaktordan** ........ 5

**Azərbaycanın iqtisadi strategiyasının formalaşmasında Heydər Əliyev fenomeni**
Ş.V.BAYRAMOV ........ 6
**Azərbaycanın müasir milli kadr siyasətinin formalaşmasının Heydər Əliyev modeli**
V.S.ƏYYUBOV, A.M.TAĞIYEV ........ 12
**Heydər Əliyev və Azərbaycanın bank sisteminin inkişaf yolları**
E.M.SADIQOV ........ 18
**Azərbaycanda sənayenin formalaşmasında Heydər Əliyev irsi**
R.R.ƏLİYEV ........ 29
**Azərbaycanın dayanıqlı maliyyə sisteminin formalaşmasında Heydər Əliyevin rolu**
N.A.QƏDİMLİ ........ 37
**Mingəçevirin sənaye şəhəri kimi inkişafında Heydər Əliyevin misilsiz xidmətləri**
A.Ə.ƏLİYEVA, A.M.ABDURRAHMANOVA ........ 46
**Azərbaycanda sahibkarlıq mühitinin yaranması və inkişafında Ulu öndər Heydər Əliyevin rolu**
E.Y.HÜSEYNOVA, T.T.XƏLİLOV ........ 53
**Azərbaycanın müasir vergi sisteminin formalaşmasında Heydər Əliyevin xidmətləri**
V.Ə.MƏMMƏDLİ ........ 59

## TƏBİƏT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

**Dünyanın enerji xəritəsinə Azərbaycanın adını yazdıran Lider**
L.Ç.SÜLEYMANOVA, A.B.ŞƏFİYEVA ........ 67
**Azərbaycanda maşınqayırmanın inkişafında Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri**
V.S.MUSTAFAYEV, S.Ə.QƏHRƏMANOV, R.P.MUSTAFAYEV ........ 72
**Azərbaycanda nəqliyyat infrastukturunun inkişafında Heydər Əliyevin rolu**
Ə.H.ƏLİYEV, M.B.İSMAYILOV, Ə.H.TAĞIZADƏ ........ 83
**Heydər Əliyev dövründə Azərbaycanın kimya sənayesində yenilik və tərəqqi**
A.D.ASLANOV, M.S.MEHDİYEV, P.S.SƏFƏROVA ........ 88
**Azərbaycanda informasiya texnologiyaları sənayesi: Heydər Əliyev siyasətinin innovatıv inkişafa təsiri**
A.M.MUSTAFAYEVA, E.N.İSRAFİLOVA, E.O.XƏLİLOV ........ 94
**Azərbaycanın təbii sərvətlərinin qorunması: Heydər Əliyev irsi**
V.S.MUSTAFAYEVA ........ 99

## HUMANİTAR ELMLƏR BÖLMƏSİ

**Azərbaycan-Türkiyə münasibətlərinin düsturu: "Bir millət – iki dövlət"**
E.H.CƏFƏROVA ........ 102
**Heydər Əlíyev síyasətíndə tolerantlığın yeri və Azərbaycan pedaqojí mühítínə təsirlərí**
F.C.CƏLİL ........ 110
**Ümummilli lider Heydər Əliyevin İlyas Əfəndiyev dramaturgiyasına verdiyi önəm**
F.K.NAMAZOVA ........ 115

**Ana dilinin inkişafına böyük qayğı**
N.R.MANAFOV ........................................................................................................ 122
**Историческая роль Гейдара Алиева в подготовке высококвалифицированных кадров за пределами Азербайджана**
M.Н.РАГИМОВ ........................................................................................................ 126
**Heydər Əliyev və Azərbaycanda ali təhsil sisteminin transformasiyası**
V.E.MƏHƏRRƏMOVA ........................................................................................................ 130
**Heydər Əliyevin fenomenal natiqlik bacarıqları**
R.M.MƏMMƏDOVA ........................................................................................................ 136
**Azərbaycanın milli intibahının Heydər Əliyev dövrü**
A.N.İSMAYILOV ........................................................................................................ 145
**Uşaq ədəbiyyatında Heydər Əliyev obrazı**
S.A.AĞAKİŞİYEVA ........................................................................................................ 150
**Ədəbiyyatda Heydər Əliyev idealının təsvir və tərənnümü**
A.Ç.BABAZADƏ ........................................................................................................ 155

MƏQALƏLƏRƏ QOYULAN TƏLƏBLƏR ........................................................................ 162
MAKALELERDE YER ALAN GEREKSİNİMLER ........................................................ 163
REQUIREMENTS FOR THE ARTICLES ……………………………………………… 164
ТРЕБОВАНИЯ К СТАТЬЯМ ........................................................................................ 165

## BAŞ REDAKTORDAN

Mingəçevir Dövlət Universitetinin (MDU) təsis etdiyi "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalı üçüncü ildir ki, nəşr edilir. Redaksiya heyəti və redaksiya şurası jurnalın ölkəmizin populyar elmi jurnallarından birinə çevrilməsi kimi məsuliyyətli və çətin vəzifəni üzərinə götürərək, onun nəşrlərinin elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması hədəfinə çatmaq üçün inamla çalışır.

Bu günə kimi jurnalın 5 nömrəsi nəşr olunmuşdur. Bu nömrələrdə ümumilikdə 130 elmi məqalə dərc edilmişdir, onlardan da 52-si iqtisad elmləri, 40-ı təbiət və texnika elmləri, 38-i humanitar elmlər bölməsinə aiddir. Bu nömrədə isə 24 məqalə yer almışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev ili" elan edilmişdir. "Heydər Əliyev İli" çərçivəsində MDU-da reallaşdırılan çoxsaylı layihələr və tədbirlər sırasında Ümummilli liderin 100 illik yubileyinə, bütövlükdə Heydər Əliyev dühasına həsr edilmiş "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalının təqdim olunan xüsusi buraxılışının mühüm əhəmiyyət kəsb edəcəyi qənaətindəyik. Heydər Əliyevin zəngin irsinin araşdırılması və təbliği istiqamətində görülən işlərə töhvə vermək məqsədi daşıyan bu buraxılışda Ulu Öndərin şərəfli ömür yoluna və titanik fəaliyyətinin müxtəlif sahələrinə həsr edilən elmi məqalələr yer almışdır.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq, onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Sevindirici haldır ki, jurnalın bu buraxılışında yer alan məqalələrdə Heydər Əliyev fenomeni, onun nəhəng dövlət və görkəmli siyasi xadim olması, idarəçilik prinsipləri, dövlət quruculuğundakı fədakarlığının gələcək nəsillərə örnək olması və s. məsələlər elmi cəhətdən əsaslandırılmış, real tarixi faktlara söykənərək araşdırılıb şərh edilmişdir.

İnanırıq ki, jurnalın bu buraxılışı Heydər Əliyev irsinin tədqiqatçılarına, gənc alimlərə gələcək elmi fəaliyyətləri üçün dəyərli töhfə, əbədiyaşar liderimizin əziz xatirəsinə böyük hörmət və ehtiramın nümunəsi olacaqdır.

Jurnalın ərsəyə gəlməsində əməyi və dəstəyi olan redaksiya heyəti və redaksiya şurası üzvlərinə, məqalə müəlliflərinə təşəkkürümü bildirirəm.

**Şahin Bayramov,**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universitetinin rektoru

## İQTİSAD ELMLƏRİ BÖLMƏSİ

UOT 33:005; 316.17

# AZƏRBAYCANIN İQTİSADİ STRATEGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV FENOMENİ

**Şahin Vaqif oğlu Bayramov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
shahin.bayramov@mdu.edu.az

***Xülasə**: Azərbaycan müasir və sürətlə qloballaşan dünya iqtisadi sisteminin ayrılmaz tərkib hissəsindən birinə çevrilmişdir. Qürurla qeyd edə bilərik ki, Azərbaycan dünya miqyaslı mühüm beynəlxalq enerji, nəqliyyat-logistika layihələrinin birbaşa təşkiledicilərindən biri olmaqla böyük imic əldə etmişdir.*

*Bütün bu nailiyyətlərin əsasında isə Heydər Əliyev fenomeni durur. Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi vaxtdan milli dövlətçiliyimizin və milli iqtisadiyyatımızın formalaşdırılması istiqamətində həyata keçirmiş olduğu məqsədyönlü siyasətin nəticəsidir ki, ölkəmiz hazırda qloballaşma prosesinin aktiv iştirakçılarından biri kimi özünə beynəlxalq nüfuz qazana bilmişdir.*

***Açar sözlər**: Heydər Əliyev, Ümummilli Lider, fenomen, iqtisadi inkişaf, iqtisadi strategiya, iqtisadi model*

## Giriş

Heydər Əliyev – müasir Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi, xilaskarlıq missiyasını yerinə yetirmiş qüdrətli şəxsiyyət, dövlət müstəqilliyinin banisi, xalqının və dövlətinin inkişafında əvəzsiz xidmətlər göstərmiş Ümummilli liderdir. Heydər Əliyev təkcə Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən parlaq tarixi şəxsiyyət deyil, həm də tarix yaradan, bizim həmişə qurur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

1993-cü ilin iyun ayından Azərbaycan xalqının tələbi ilə tariximizin ən ağır dövründə ikinci dəfə respublika rəhbərliyinə qayıdan Heydər Əliyev ölkədə gedən bütün proseslərin, islahatların təşkilatçısı olmuşdur. İslahatların həyata keçirilməsinin hər bir istiqamətinin səciyyəvi xüsusiyyətlərini nəzərə alan Ümummilli Lider sosial yönümlü islahatların seçilməsini məqsəd kimi xüsusilə zəruri hesab etmişdir. Eyni zamanda, bu yanaşma bir daha sübut edir ki, istehsalın səmərəliliyinin artırılması Azərbaycanda həyata keçirilən islahatların əsas meyarıdır. Ulu Öndərin iqtisadi islahatların həyata keçirilməsi istiqamətləri ilə bağlı ideyalarını xarakterizə edən ən mühüm xüsusiyyət islahatların həyata keçirilməsi istiqamətlərinin düzgün müəyyənləşdirilməsi və Azərbaycanın iqtisadi modelinin yaradılması olmuşdur. Sahibkarlığın inkişafı və genişləndirilməsinə imkan verən iqtisadi islahatlar bazar iqtisadiyyatına gedən yolda əsas vasitə kimi qiymətləndirilmişdir. Ümumi islahatlar sistemində sahibkarlığın yerini düzgün müəyyənləşdirməyin, sahibkarlıq fəaliyyəti üçün lazımi şəraitin yaradılmasının, dövlət tərəfindən maliyyə və hüquqi dəstəyin əsasını məhz Ulu Öndər qoymuşdur.

## İqtisadi inkişafın ilkin mərhələsi

Ümummilli liderin irsinin araşdırılması belə nəticə çıxarmağa imkan verir ki, Azərbaycanın iqtisadi inkişafı tarixini 2 mərhələyə bölə bilərik: 1969-1982-ci illər – Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyətdə olduğu dövr və 1993-2003-cü illər – müstəqil və müasir milli iqtisadi inkişafımızın Heydər Əliyev dövrü.

Respublikanın bütün sahələrində uzunmüddətli milli iqtisadi inkişaf strategiyasını müəyyənləşdirmiş Ümummilli lider Heydər Əliyev müasir dövrün tələblərinə uyğun olaraq, həm yeni Azərbaycan dövlətçiliyi ideyasını yaratmış, həm də bu ideyanı həyata keçirən siyasi və

intellektual qüvvələri – səriştəli idarəçiləri və ölkəni mütərəqqi sosial-iqtisadi inkişaf orbitinə çıxarmağa qadir olan milli kadrları formalaşdırmağa nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin ilkin dövründə Azərbaycan iqtisadiyyatının inkişafı və onun səmərəliliyinin yüksəlməsi təmin edilmişdir. Belə ki, 1970-1980-ci illərdə məcmu ictimai məhsulun və milli gəlirin həcmi ayrılıqda 2,1 dəfə, o cümlədən sənaye istehsalının həcmi 2,2 dəfə, əmək məhsuldarlığı 67,0 faiz, fond verimi isə 26,4 faiz artmışdır. 1970-ci ilə nisbətən 1982-ci ildə elektrik enerjisi istehsalı 1,4 dəfə artaraq, 16,9 milyard kvt.saat təşkil etmişdir. Uyğun olaraq, mineral gübrələr 2 dəfə, dərinlik nasosları 1,2 dəfə, pambıq lifi 2,3 dəfə, soyuducular 3,8 dəfə təşkil etmişdir. Bu illər ərzində Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodları, Sumqayıtda Kompressor zavodu, Üst trikotaj fabriki, Bakıda tikiş, ayaqqabı hissələri fabrikləri, Gəncədə ət kombinatı, Lənkəranda, Xudatda konserv zavodları, Mingəçevirdə istilik elektrik stansiyasının ilk blokları və s. tikilib istifadəyə verilmişdir. Neft hasilatı, emalı və neft kimyası sənayesi, əlvan və qara metallurgiya, maşınqayırma sənayesi sürətlə inkişaf etmişdir. Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyətdə olduğu dövr iqitisadiyyatımızın “qızıl dövrü” kimi qiymətləndirilir və müasir milli iqtisadi inkişafımızın bünövrəsi hesab edilir.

1982-ci ildə Heydər Əliyev kecmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunandan sonra respublikanın makroiqtisadi göstəricilərində və təsərrüfat fəaliyyətində tənəzzül və iqtisadi böhran özünü sürətlə biruzə verdi. 1982-ci ildən 1991-ci ilə kimi olan dövrdə ölkənin iqtisadi sistemində əvvəlki yüksək artım tempi və sıçrayışlı iqtisadi uğurlar ətalət, durğunluqla əvəz olundu və iqtisadi potensialdan səmərəli surətdə istifadə edilmədi. Respublikanın əsas makroiqtisadi göstəricisi olan ümumi milli gəlir üzrə artım tempi 1982-ci ildən başlayaraq tədricən aşağı enməyə başladı. 1986-cı ildə ümumi milli gəlirin səviyyəsi 1985-ci ilə nisbətən 102,6 faiz olmuşdu ki, bu göstərici Azərbaycan üçün son 10 ildə ən aşağı artım tempi idi. 1989-cu ildə ümumi milli gəlirin artım tempi 1988-ci ilə nisbətən 99,8 faiz, 1990-cı ildə isə 91,9 faiz təşkil etmişdir. Qeyd etmək lazımdır ki, ümumiyyətlə, həmin dövrdə Azərbaycanın bütün makroiqtisadi və sosial göstəriciləri aşağı düşmüşdür.

**İqtisadi inkişafın müasir mərhələsi**

1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı dərinləşən siyasi və sosial-iqtisadi böhrana və hakimiyyət çəkişmələrinə son qoydu, quruculuq işlərinin davam etdirilməsi və qlobal işlərin həyata keçirilməsinə münbit şərait yarandı. Hakimiyyətinin ilk illərində Heydər Əliyev yaxşı bilirdi ki, müstəqilliyi təhlükə altında olan ölkənin, ilk növbədə, milli iqtisadiyyatını dircəltmək və inkişaf etdirmək lazımdır. Bunlardan ilki və ən ümdəsi isə neft sahəsində təşəbbüslər, tədbirlər oldu. Ümummilli lider Heydər Əliyev milli iqtisadi inkişafımızın milli adət-ənənələrə və ölkənin iqtisadi potensialına uyğun olaraq, “milli iqtisadi inkişafımızın modeli”ni qurmağı qarşıya məqsəd qoymuş və buna nail olmuşdur. Bütün çətinliklərə və bəzi fövqəl dövlətlərin təzyiqinə baxmayaraq, Heydər Əliyevin qətiyyətli iradəsi sayəsində, 1994-cü ilin sentyabr ayının 20-də, hamıya əfsanə kimi görünən, “Əsrin müqaviləsi” bağlandı. Xəzərin Azərbaycan hissəsindəki “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istifadəsi və neft hasilatının həcminin artırılmasının təmin olunması üçün beynəlxalq razılaşmalara nail olundu. Bu müqavilənin iştirakçıları beynəlxalq konsorsium təşkil etdilər ki, həmin konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında 30 il müddətinə müqavilə, artıq qeyd edildiyi kimi, “Əsrin müqaviləsi” imzalandı. Bağlanılan müqavilədən sonra Azərbaycana, xüsusilə, Xəzər neftinə dünya miqyasında maraq artdı, Azərbaycanı işıqlı sabahlara aparan yeni neft strategiyasının icrasına başlanıldı. Beləliklə, “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a. s, LUKoyl SƏHMDAR CƏMİYYƏTİ, MakDERMOTT AZƏRBAYCAN İNK., PENNZOYL KASPİAN KORPO-REYŞN, REMKO XƏZƏR ENERCİ LİMİTED, TÜRKİYE PETROL LERİ A. O., YUNOKAL XƏZƏR, LTD arasında Saziş qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə

verilmişdir" [1]. Ümummilli Liderimizin apardığı geniş miqyaslı siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyasının düzgün və ona uyğun təşkil edilməsi olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda "Qədim İpək Yolu"nun bərpasına nail olundu. Bununla da "Qədim İpək Yolu" Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi statusu aldı və AB-nin TRACECA proqramı çərçivəsində maliyyələşdirilməyə başlandı və qərargah (Daimi Katibliyi) Azərbaycanda yerləşdirildi.

Eyni zamanda, beynəlxalq maliyyə qurumları ilə də (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və s.) sıx əməkdaşlıq münasibətləri quruldu və bu təşkilatlar ölkə iqtisadiyyatının təşəkkül tapmasında, dünya iqtisadiyyatına inteqrasiya olunmasında və milli iqtisadiyyatımızın maliyyə təminatlığında yaxından iştirak etdilər. Azərbaycanın makroiqtisadi göstəricilərinin təhlili və araşdırılması bir daha belə bir nəticə hasil etməyə imkan verir ki, deməli, milli iqtisadiyyatımızın dinamik inkişafı bütün sahələrdə, istər neft, istərsə də qeyri-neft sahələri olsun, özünü göstərirdi. Milli iqtisadiyyatının stabil və davamlı inkişafı vergi daxilolmalarında, büdcənin artması və kəsirsiz yerinə yetirilməsində, inflyasiyanın sabitləşməsi və birrəqəmliyə çevrilməsində, yoxsulluğun və işsizliyin azalmasında daha qabarıq nəzərə çarpırdı. Müstəqillik bərpa edildikdən bir müddət sonra, yəni Heydər Əliyevin rəhbərliyi ilə 1997-ci ildən başlayaraq, Respublikamızda makroiqtisadi sabitləşmə və iqtisadiyyatın davamlı və dayanaqlı inkişafı sahəsində böyük uğurlar əldə edilməsini şərtləndirmişdir. Sosial-iqtisadi sferada əldə olunmuş uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsinə, məşğulluğun təmin edilməsinə, işsizliyin və ən əsası – yoxsulluğun azaldılmasına xidmət etmişdir.

**Qloballaşma şəraitində Azərbaycan Avropa və regionun enerji təhlükəsizliyinin təminatçısı kimi**

XX əsrin son onilliyində Azərbaycan dövləti yenidən müstəqilliyə nail olduqdan sonra beynəlxalq iqtisadi əlaqələr sahəsində müxtəlif səviyyədə acıq iqtisadiyyat siyasəti həyata keçirərək dünya ölkələri ilə inteqrasiyaya uzlaşmağı qabarıq şəkildə özünü biruzə vermişdir. Bu müddəa iki təməl üzərində ortaya çıxmışdır: qloballaşma və regionlaşma. Məhz bu baxımdan müstəqilliyin ilk illərində bütün çətinliklərə baxmayaraq, Xəzərin Azərbaycan bölməsində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından birgə istifadə edilməsi və neft-qaz hasilatının daha da artırılması ücün Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə hazırladığı, "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan neft strategiyasının müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla həyata kecirilməsi Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin təminatında ən önəmli ölkələr sırasına cıxarmışdır. Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyası əsasında Azərbaycan dünyanın qabaqcıl ölkələr sırasına daxil olmuş və hazırda ölkədə neft-qaz sahəsində müxtəlif dövlətlərin bir necə iri neft şirkətləri fəaliyyət göstərir. Beləliklə, Azərbaycanın bir dövlət kimi müstəqilliyinin möhkəmlənməsində enerji layihələrinin rolu danılmazdır və diqqət mərkəzində qalmaqdadır.

Hazırda Azərbaycan neftini dünya bazarına catdırmaq üçün üç marşrut fəaliyyət göstərir – ikisi Qara dənizə, biri isə Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Aralıq dənizinə çıxır [3]. Qeyd edilənlər bir daha göstərir ki, Azərbaycan ilk dəfə Xəzər dənizi ilə Aralıq dənizini birləşdirərək Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib əhəmiyyət daşımaqla inkişaf etmiş ölkələrin diqqət mərkəzinə cevrilmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Azərbaycanın Qərblə siyasi və iqtisadi əlaqələrini uzlaşdıran körpü rolunu oynamaqla, ölkəmiz, demək olar ki, neft-qaz nəqli üçün tranzit ölkələrdən birinə cevrilmişdr. Son illər isə bir necə regional ölkələr yaxın zamanlarda özlərinin hasil etdikləri neftinin məhz Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqlinə çox ciddi maraq göstərirlər. Qloballaşma şəraitində Avropa və regionun enerji təhlükəsizliyinin təminatçısı kimi Azərbaycanda neft-qaz sahəsində ciddi irələyişlər əldə edilmiş, bu sahəyə iri həcmli kapital qoyuluşlarının cəlb edilməsi, müasir texnologiyaların tətbiqi özünü doğrultmuş, beynəlxalq standartlara cavab verən enerji sisteminin yaradılması və formalaşmasında yüksək nəticələrə nail olunmuşdur. Belə ki, ilk illər karbohidrogen ehtiyatlarının işlənməsi sahəsində ölkədə fəaliyyət göstərən beynəlxalq şirkətlər qarşısında hasilatda azalma prosesinin dayandırılması və yenidən artıma nail olunması ilə bağlı müəyyən vəzifələr

qoyulmuşdur. Beləliklə, Azərbaycan Respublikasının Prezidentinin bu məsələdə tutduğu prinsipial mövqe, yanacaq-enerji kompleksinə qoyulmuş iri həcmli investisiyalar neft və qaz hasilatında artımı reallaşdırmışdır.

Əgər Azərbaycanın neft strategiyasının əsası 1994-cü ildə Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdusa, bu siyasəti sonrakı illərdə də Prezident İlham Əliyev uğurla və məharətlə davam etdirməyə başlamışdır. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan hissəsindəki "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi üzrə "Əsrin müqaviləsinin" yeni dövrü başlanmışdır. 2049-cu ilə qədər artırılmış hasilatın pay bölgüsü sazişi bir sıra əhəmiyyətli göstəriciləri ilə fərqlənmişdir: SOCAR-ın payı 11 faizdən 25 faizə yüksəldilmiş və mənfəət neftinin 75 faizinin Azərbaycana qalması təmin edilmişdir [5].

Ulu Öndərin rəhbərliyi dövründə qaz sahəsində həyata keçirilən layihələr də neft layihələrindən geri qalmamışdır. 1996-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən beynəlxalq neft şirkətləri ilə yaradılmış konsorsium dünyada nəhəng qaz yataqlarından biri hesab olun "Şahdəniz" yatağında (yataqda qaz ehtiyatları təqribən 1,2 trilyon kubmetrdir) zəngin qaz ehtiyatları aşkar etmiş, nəticələr bütün gözləntiləri üstələmişdir [2]. Sonrakı illərdə "Ümid" və "Abşeron" yataqlarının kəşfi də Azərbaycanın böyük qaz ehtiyatlarına malik olduğunu təsdiqləmişdir. Bununla da Azərbaycan təbii sərvətləri tarixində daha bir mərhələyə qədəm qoymuşdur.

Mərhələli şəkildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz kəməri) istismara verilmiş (2007-ci il); "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsində hasil edilən qaz Gürcüstan, Türkiyəyə ixrac edilməyə başlanmış; Azərbaycan və Türkiyə arasında TANAP (Trans-Anadolu qaz kəməri) layihəsinə dair saziş imzalanmış (2012-ci il); Azərbaycanın iradəsi və rəhbərliyi sayəsində bu gün Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlamış Cənub Qaz Dəhlizi ideyası həyata keçirilməyə başlanmış; "Əsrin müqaviləsi"nin iyirminci ildönümündə Cənub Qaz Dəhlizi layihəsinin təməlqoyma mərasimi keçirilmiş (2014-cü il); Cənub Qaz Dəhlizinin mühüm tərkib hissəsi olan TANAP-ın rəsmi açılış mərasimi baş tutmuş (29 may 2018-ci il); Türkiyənin Eskişehir şəhərində TANAP boru kəmərinin istifadəyə verilməsi mərasimi keçirilmiş (12 iyun 2018-ci il); Cənub Qaz Dəhlizi layihəsinin əsas tərkib hissələrindən biri olan Cənubi Qafqaz qaz kəmərinin genişləndirilməsi başa çatdıqdan sonra "Şahdəniz-2" çərçivəsində kommersiya qazının Türkiyəyə nəqlinə başlanılmışdır (30 iyun 2018-ci il) [4].

Qaz layihələri sahəsində Azərbaycan qazının Avropaya çatdırılması xüsusi diqqət çəkmişdir. Bu məqsədlə "Şahdəniz" konsorsiumu TANAP qaz kəməri ilə nəql olunacaq Azərbaycan qazının Avropaya nəqli üçün Türkiyə sərhədini İtaliyanın cənubu ilə birləşdirən TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihəsini və boru kəmərinin tikintisini seçmiş (2013-cü il) və bu işlər 2020-ci ildə tamamlanmışdır. Belə ki, Azərbaycan təbii qazının Avropaya nəql olunduğu TAP boru kəməri ilə 2020-ci il dekabrın 31-də təbii qazın kommersiya nəqlinə start verilmişdir [6].

Ümumiyyətlə, "Şahdəniz" yatağı ilə İtaliyanın cənubunu birləşdirən bu layihələr enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzsiz infrastruktur layihəsinə çevilməklə "Cənub Qaz Dəhlizi" layihəsini həyata keçirməyə, Azərbaycanın zəngin qaz ehtiyatlarını qısa və təhlükəsiz şəkildə Türkiyə və Avropa ölkələrinə çatdırılmasına imkan verir.

Azərbaycanda qaz ehtiyatlarınını təsdiq olunmuş həcmi 2,6 trilyon kubmetr, proqnoz verilən ehtiyatlar həcmi isə 3 trilyon kubmetrə yaxındır. Təkcə "Ümid" yatağının potensialı 200 milyard kubmetrdən çoxdur. Bu, Azərbaycanın qarşıdakı 100 ildə karbohidrogen məhsullarını etibarlı təchiz edən ölkə kimi tanınmasına imkan verir [6].

Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi ölkəmizin xüsusi çəkiyə malik olması haqqında dünyanın bir sıra super dövlətlərinin görkəmli siyasətçiləri və dövlət rəhbərləri tərəfindən dəstəklənməsi Azərbaycanı dünya miqyasında reytinqinin daha da artmasına tutarlı bir sübutdur.

Hazırda hec kimə sirr deyil ki, müasir dövrdə dünyada ölkələrinin siyasi və milli iqtisadi təhlükəsizliyinin ən mühüm və səciyyəvi xüsusiyyətlərindən biri, bəlkə də əsası, enerji təhlükəsizliyinin təmin edilməsidir. Belə ki, qloballaşma şəraitində sivilizasiyanın elə bir dövrünə qədəm qoyulmuşdur ki, enerji təhlükəsizliyinə və bununla əlaqədar müsbət nəticələrə nail olmadan digər sahələrdə uğur qazanmaq və yüksək nəticələr əldə etmək mümkün deyil. Qloballaşma

şraitində müasir tələblərə uyğun aparılan və formalaşan dövlət siyasətinin məqsədyönlü tərkib hissələrindən əsası kimi ölkəmizin neft-qaz sənayesi kompleksinin yenidən qurulması istiqamətində beynəlxalq standartlara uyğun aparılan geniş miqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin edmiş, hətta Avropa və regionun enerji təhlükəsizliyinin təminatçısı kimi cıxış etmişdir.

Məhz bu baxımdan "Enerji Təhlükəsizliyi" məsələsi araşdırıldıqda görünür ki, Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynayır və "Cənub Qaz Dəhlizi" layihəsinin icrası mühüm əhəmiyyət kəsb etməklə buna bir daha əyani sübutdur. TANAP-ın daxil olduğu "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycan və Türkiyənin birlikdə "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsində liderlik keyfiyyətlərini qabarıq şəkildə üzə cıxartmışdır. Qeyd edilən nailiyyətlər bir daha qloballaşma şəraitində Azərbaycanın regional inteqrasiyasının güclənməsinə və "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla həyata kecirilməsinə şərait yaratmışdır.

**Nəticə**

1993-2003-cü illərdə Azərbaycanda aparılan iqtisadi siyasət və iqtisadi islahatlar Azərbaycanın iqtisadi strategiyasının və modelinin formalaşmasının əsasını qoymuşdur. Ulu Öndərin iqtisadi irsinə söykənən bu strategiya və modelin əsas xüsusiyyətləri iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan strateji qərarların qəbul edilməsi, inkişaf istiqamətlərinin sahə üzrə proqramlar ilə əlaqələndirilməsi və sosialyönümlülük, beynəlxalq təcrübə və milli mentalitetin nəzərə alınmasıdır.

Bundan başqa Ümummilli lider Heydər Əliyevin iqtisadi irsinin tədqiqi nəzəri-konseptual cəhətdən xüsusi əhəmiyyətli bir sıra məsələlərlə əlaqələndirmək mümkündür:

- iqtisadi sistemin inkişafının ictimai sistemin inkişafı ilə kompleks şəkildə reallaşdırılması;
- milli maraqların tam şəkildə öyrənilməsi;
- sosial sistemin milli-mental dəyərlərinə iqtisadi sistemin uyğunluğunun təmin edilməsi;
- dövlətin müstəqilliyinin və milli təhlükəsizliyinin qorunması.

Ulu Öndərin səyləri nəticəsində Azərbaycan qloballaşma şəraitində Avropa və regionun enerji təhlükəsizliyinin təminatçısına, enerji və nəqliyyat qovşağına, etibarlı kimi tərəfdaşa çevrilmişdir.

Ümummilli Liderin mükəmməl əsəri olan Azərbaycanın iqtisadi modeli ilk növbədə ölkə vətəndaşlarının sosial rifahı səviyyəsinin yüksəldilməsinə istiqamətlənmişdir. Respublikanın milli iqtisadi inkişaf modelində başlıca xüsusiyyətlərindən birini isə sosialyönümlülük təşkil etmişdir. İstehsal sahibkarlığının inkişafı, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin həlli ilə əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana xəttini təşkil etmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 2 dekabr 1994-cü il, № 933

2. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağının kəşfiyyatı və işlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 4 oktyabr 1995-ci il, № 222

3. Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Sazişin və həmin Sazişə əlavə edilmiş sənədlərin, İstanbul Bəyannaməsinin və Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 26 may 2000-ci il, № 885-IQ. [elektron resurs] URL: https://e-qanun.az/framework/22

4. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 25 fevral 2014-cü il, № 287

5. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 oktyabr 2017-ci il, № 818-VQ

6. Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. [elektron resurs] URL: https://president.az/

## IN THE FORMATION OF THE ECONOMIC STRATEGY OF AZERBAIJAN HAYDER ALIYEV PHENOMENON

**Sh.Bayramov**
doctor of philosophy in economics, associate professor
Mingachevir State University

***Abstract***: *Azerbaijan has become an integral part of the modern and rapidly globalizing world economic system. We can proudly note that Azerbaijan has already achieved a globally competitive image, a participant in important international fuel-energy, transport-logistics projects.*

*All these achievements are based on the phenomenon of Heydar Aliyev. It is the result of the purposeful policy implemented by Heydar Aliyev, the national leader of the Azerbaijani people, in the direction of the formation of our national statehood and national economy since he came to power for the second time, that our country has now gained international prestige as one of the active participants in the globalization process.*

***Keywords***: *Heydar Aliyev, national leader, phenomenon, economic development, economic strategy, economic model*

## ФЕНОМЕН ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ ЭКОНОМИЧЕСКОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

**Ш.В.Байрамов**
доктор философии по экономике, доцент
Мингячевирский государственный университет

***Резюме***: *Азербайджан стал неотъемлемой частью современной и быстро глобализирующейся мировой экономической системы. Можем с гордостью отметить, что Азербайджан уже добился конкурентоспособного на глобальном уровне имиджа участника важных международных топливно-энергетических, транспортно-логистических проектов.*

*Все эти достижения основаны на феномене Гейдара Алиева. Именно в результате целенаправленной политики, проводимой общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым в направлении формирования нашей национальной государственности и национальной экономики с момента его второго прихода к власти, наша страна сегодня приобрела международный авторитет как один из активных участников процесса глобализации.*

***Ключевые слова***: *Гейдар Алиев, общенациональный лидер, феномен, экономическое развитие, экономическая стратегия, экономическая модель*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 21.06.2023**
**Çapa qəbul edilib: 29.06.2023**

UOT 33-051; 331.5; 314; 316.37

# AZƏRBAYCANIN MÜASİR MİLLİ KADR SİYASƏTİNİN FORMALAŞMASININ HEYDƏR ƏLİYEV MODELİ

[1,3]**Veysəl Seyfəl oğlu Əyyubov,** [2,3]**Arif Məmmədhəsən oğlu Tağıyev**
[1]iqtisad elmləri doktoru, professor
veysel.eyyubov@mdu.edu.az
[2]arif.taqiyev@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Məqalə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dövrdə uğurla həyata keçirdiyi milli kadr siyasətinin əsas məqamlarını özündə əks etdirir. Sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrlərdə və sonrakı, müstəqil Respublikanın rəhbəri kimi hakimiyyətdə olduğu dövrlərdə formalaqşdırdığı kadr siyasəti həyata keçirilməsi baxımından bir-birindən fərqlənsə də, mahiyyət etibarı ilə eyni məqsədə xidmət edirdi – Azərbaycan üçün, Azərbaycanın gələcəyi üçün, onun müstəqilliyini, davamlı inkişafını təmin edəcək yüksək potensiallı milli kadrların hazırlanması olmuşdur. Bu mənada məqalədə bu siyasətə bir milli model kimi yanaşılmış, Ülu Öndərin sağlığı dövrü*
*ndə formalaşdırdığı milli kadr siyasəti modeli və onun ideyalarının davamçısı İlham Əliyev cənablarının bu siyasətin daha da təkmilləşdirilməsi və uğurla davam etdirməsi məqalənin əsas ana xəttini təşkil etmişdir.*

***Açar sözlər:*** *milli kadr potensialı, elm, təhsil, insan kapitalı, kadr siyasəti, innovativ inkişaf*

## Giriş

Bütün dövrlərdə və ölkələrin tarixində inkişafın təkanverici qüvvələrindən biri kifayət qədər inkişaf etmiş, savadlı, işgüzar, intellektual potensiala malik milli kadrlar olmuşdur. Hər bir millətin, xalqın tarixi boyu yetişdirdiyi milli kadr potensialı onun ümumi, o cümlədən sosial-iqtisadi və milli-mədəni inkişafına əsaslı təsir göstərə bilmişdir. Tarixi araşdırmalar göstərir ki, dünya tarixində müxtəlif dövrlərdə ayrı-ayrı regionların, imperiyaların və ya dövlətlərin digərlərinə nisbətən daha yüksək inkişafında rol oynayan əsas amillərdən biri. məhz, yüksək potensiala malik milli kadrlar-dövlət başçıları, dövlət xadimləri, alimlər, hərbi mütəxəssislər və sərkərdələr, müxtəlif peşələr üzrə mühəndis-texniki işçilər, yüksək təhsilə malik ziyalılar olmuşdur. Bu tendensiya hazırkı dövrümüzdə də sürətlə inkişaf etməkdədir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dünya təsərrüfatı sistemində mövcud güclü rəqabət şəraitində öz mövqeyini qoruyub saxlamaq üçün əhəmiyyətli olan əsas şərtlərdən biri ölkənin təhsil sistemi və milli kadr hazırlığı siyasətidir. Hətta özünün inzibati amirlik sistemi ilə seçilən Sovet dövlətində belə mövcud məhşur devizlərdən biri "Hər şeyi kadrlar həll edirlər!" olmuşdur. Bu gün ABŞ, Avropa Birliyi ölkələri, Yaponiya, Çin və digər inkişaf etmiş ölkələrin timsalında təhsilə, kadr hazırlığına verilən diqqət göz qabağındadır.

**Azərbaycanın milli kadr potensialının formalaşması tarixinə qısa baxış**

Azərbaycanın müstəqillik dövrlərdə milli kadrların hazırlanması həmişə prioritet məsələlərdən biri olmuşdur. Bununla belə, həm Çar Rusiyası, həm Azərbaycan Xalq Cümhuriyyəti (AXC), həm də Sovetlər İttifaqı dövründə Azərbaycanda kifayət qədər intellektual, yüksək potensiallı, dünya səviyyəsində tanınmış ziyalılar, dövlət xadimləri, siyasətçilər, alimlər, hərbiçi sərkərdələr, yazıçı və şairlər, heykəltaraş və rəssamlar, bəstəkarlar, musiqiçilərlə birlikdə müxtəlif peşələr üzrə mühəndis-texniki işçilər və mütəxəssiuslər, iri sahibkarlar və iş adamları yetişmişdir.

Tariximizdə nə qədər təzadlı bir dövr olsa da, hələ çar Rusiyası dövründə yetişmiş milli kadrlarımız Rusiya İmperiyasının süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyətinin və ya başqa

adla ilk Azərbaycan Demokratik Respublikasının yaradılması, onun müstəqil respublika kimi Avropada və dünyada tanıdılması, 23 ay ərzində bu statusda fəaliyyət göstərməsində əsas aparıcı qüvvə olmuşlar. AXC-nin mövcud olduğu 23 ay ərzində həyata keçirdiyi milli dövlətçilik siyasətinin məqsədyönlü layihələrdən biri milli kadr hazırlığı siyasəti olmuşdur. Məhz bu məqsədlə 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına Avropanın və digər dünya ölkələrinin qabaqcıl universitetlərinə göndərmək olmuşdur. Maraqlıdır ki, gələcək tələbələrin seçimində Azərbaycanın bütün bölgələri nəzərə alınırdı. Həmin dövrün tarixi sənədlərinə istinadən qeyd edə bilərik ki, seçilmiş 100 tələbədən 26 nəfəri Bakı və Bakı kəndlərini, 9 nəfər Gəncəni, 19 nəfər Şuşanı, 6 nəfər Şamaxını, 3 nəfər Zəngəzuru, 5 nəfər İrəvan quberniyasını, 8 nəfər Tiflisi, 5 nəfər Dağıstanı və Azərbaycanın digər bölgələrini təmsil edirdilər. Çox təəssüf ki, AXC-nin süqutundan sonra maliyələşmə mənbəyini itirən bir çox tələbələr təhsillərini başa vura bilməmişlər.

Azərbaycan dövlətçiliyi tarixində, onun milli kadrlarının formalaşması və inkişafında 70 il ərzində tərkibində olduğumuz Sovetlər İttifaqı dövrünün də xüsusi əhəmiyyəti olmuşdur. Ancaq ədalət naminə bu dövrü biz iki mərhələyə ayıra bilərik: Heydər Əliyev dövrünə kimi olan mərhələ və Heydər Əliyev dövrü mərhələsi.

İnzibati amirlik dövrünün bütün neqativ hallarını kənara qoyaraq bir daha ədalət naminə qeyd edə bilərik ki, Sovetl İttifaqı tərkibində olduğumuz dövrdə ölkəmizdə təhsilin, elmin, mədəniyyət və incəsənət sahələrinin inkişafında, o cümlədən milli kadr potensialının, ziyalı təbəqəsinin formalaşmasında kifayət qədər uğurlar əldə edilmişdir. Bu dövr ərzində, demək olar ki, ölkəmizdə savadsızlıq ləğv edilmiş, ölkənin bütün ərazisi orta təhsil sistemi ilə əhatə olunmuş, onlarla ali və orta təhsil müəssisələri açılmış, Elmlər Akademiyası və onun geniş şəbəkəsi yaradılmış, ölkəmizdə dünyaca məhşur alimlər, elm, mədəniyyət, incəsənət xadimləri, mütəxəssislər, idarəetmə kadrları, dövlət xadimləri yetişmişdir.

Bütün bunlarla bərabər, ölkəmizin sosial-iqtisadi inkişafında, önun milli kadr potensialının yüksəldilməsində sovetlər dönəminin Heydər Əliyev dövrü xalqımızın yaxın tarixində xüsusi yer tutur.

**Azərbaycanın milli kadr potensialının formalaşması Heydər Əliyev dövrü**

Aparılan araşdırmalar göstərir ki, Ulu Öndərin Azərbaycanda hakimiyyətə olduğu hər iki dövrdə həyata keçirdiyi dövlətçilik siyasətində milli kadr siyasəti əsas yerlərdən birini tuturdu. Hələ Sovetlər İttifaqı dövründə Azərbaycana rəhbərliyə təyin olunduqdan sonra onun diqqətini çəkən əsas məqamlardan biri ölkədə milli kadr potensialının zəif olması, dövlət idarəetməsində, iqtisadiyyatın, xüsusilə sənayenin aparıcı sahələrində, hüquq mühafizə orqanları və hərbidə milli kadr çatışmazlığı olmuşdur. Odur ki, respublikaya rəhbərlik etdiyi ilk dövrlərdən Heydər Əliyev həmin dövrün imkanları daxilində özünün yeni milli kadr hazırlığı siyasətinin əsaslarını qoydu. Ulu Öndər həmin dövrlərdə milli kadr potensialının yüksəldilməsinin əsas yollarından biri kimi ölkədə təhsilin, xüsusilə ali təhsil sisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, yeni ali təhsil müəssisələrinin açılması, daha vacib və prestijli ixtisasların açılması, elmin inkişaf etdirilməsi, xüsusilə Respublika Elmlər Akademiyasında və onun struktur bölmələrində yeni islahatların aparılması, fəaliyyətinin təkmilləşdirilməsi, elmin istehsala yaxınlaşmasında görürdü. Xüsusilə, respublikada ali təhsil sisteminin təkmilləşdirilməsi, yeni institutların, xüsusi tələbat olan ixtisaslar üzrə fakültə və kafedraların yaradılması bu siyasətin tərkib hissəsi olmuşdur. Nəticədə bu dövr ərzində ölkədə mövcud olan ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə yüksəlmiş, mövcud ixtisasların sayı, tələbə qəbulu kifayət qədər artmışdır. Həmin dövrün statistik məlumatlarına görə bu illər ərzində tələbə kontingentinin sayı 70 mindən 100 minə qədər yüksəlmişdi. Lakin milli kadr potensialının yüksəldilməsi siyasəti bununla məhtudlaşmırdı. Ulu Öndərin milli kadr hazırlığı siyasətinin uğurlu layihələrindən biri də, 70-80 ci illərdə azərbaycanlı gənclərin daha keyfiyətli təhsil almaları, respublikamızda tədris olunmayan ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün

Sovet İttifaqının qabaqcıl universitet və institutlarına, hərbi məktəb və akademiyalara göndərilməsi idi.

Ötən əsrin 70-ci illərinə qədər də, respublikamızdan SSRİ-nin digər şəhərlərinə ali təhsil almaq üçün gənclər göndərilirdi. Lakin onların sayı həddindən artıq az və əsasən rusdilli gənclər olduğu üçün burada azərbaycanlı tələbələrin sayı digər millətlərin nümayəndələrindən daha az idi. Bu səbəbdən onların çoxu respublikaya qayıtmırdılar. Məhz bu səbəbdən hakimiyyətdə olduğu ilk dövrlərdən H.Əliyev tərəfindən respublikadan kənara ali təhsil almaq üçün göndərilən tələbələrin sayının artırılması ilə bərabər, onların tərkibində azərbaycanlı tələbələrin xüsusi çəkisinin artırılmasına xüsusi diqqət yetirilirdi. İnzibati amirlik sisteminin ənənələrinə uyğun olaraq bu gənclərdən çoxu rus dilini yaxşı bilməsələr də Bakıda öz dilində qəbul imtahanları verib müxtəlif ali təhsil müəssisələrinə təyinat alır, orada bir müddət dil öyrənir və sonradan təhsillərini davam etdirirdilər. Bu siyasət nəticəsində artıq 5 ildən sonra, yəni 1975-ci ildən başlayaraq göndərilən tələbələrin sayı təxminən 700 nəfəri, artıq 3 ildən sonra isə 800-900 nəfəri ötürdü. Daha önəmlisi isə onların tərkibində azərbaycanlı tələbələrin xüsusi çəkisinin çox yüksək olması idi. Belə ki, əgər 1970-ci ilə kimi bu tələbələrin tərkibində azərbaycanlıların xüsusi çəkisi 40 faizdən aşağı olduğu halda, artıq 1976-cı ildə bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərdə isə artıq 98 faizə qədər yüksəlmişdi [4].

Təbii ki, həmin illərdə rus dilində təhsil almış və o cümlədən qeyri-azərbaycanlı tələbələrin sərbəst olaraq SSRİ-nin digər respublika və şəhərlərində imtahan verərək, sərbəst surətdə ali təhsil müəssisələrinə daxil olmaq və təhsil almaq imkanları da olduqca yüksək idi.

Heydər Əliyevin kadr siyasətinin tədqiqatçılarından biri, p.e.d, prof., əməkdar elm xadimi F.Rüstəmovun 3 mart 2023-cü il tarixli "Azərbaycan müəllimi" qəzetində dərc olunmuş "Heydər Əliyev və Azərbaycandan kənarda ali təhsilli kadr hazırlığı" adlı məqaləsində qeyd etdiyi kimi, "Əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə cəmi 47 nəfər göndərilmişdisə, 1975-ci ildə onların sayı 700 nəfərə çatdı. 1975-ci ildən başlayaraq, azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı. 1978-ci ildən başlayaraq, hər il kənara 800-900 nəfər tələbənin göndərilməsinə nail olundu. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı. Faktlara diqqət yetirək: 1977-ci ildə 1970-ci illə müqayisədə göndərilən tələbələrin sayı 14 dəfədən çox artaraq 818 nəfərə, ixtisasların sayı 5 dəfə artaraq 244-ə çatmış, ali məktəblərin sayı 140-a, ali məktəblərin yerləşdiyi şəhərlərin coğrafiyası genişlənərək 40-a yüksəlmişdi. Bu proses sonrakı illərdə də (1978-1982) intensiv olaraq artmış, 1978-ci illə müqayisədə 1982-ci ildə tələbələrin sayı 11 % artmış, ali məktəblərin sayı 151-dən 170-ə yüksəlmiş, ixtisasların sayı 244-dən 250-yə qalxmış, ən zəruri istiqamətlərin sayı 80-ə çatmışdır. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək 40 % təşkil edirdi. 1976-cı ildə bu rəqəm 85 %-ə, 1977-ci ildə 92 %-ə, 1980-ci illərin əvvəllərində isə 98 %-ə yüksəlmişdi." [1]

Buradan göründüyü kimi, həmin dövrdə H.Əliyev siyasətinin əsas istiqaməti ancaq kəmiyyət göstəricisi, yəni tələbə sayının artırılması deyil, onun keyfiyyət göstəricisi idi. Odur ki, göndərilən tələbələrin daha çox SSRİ-nin tanınmış, yüksək potensiala ali təhsil müəssisələrinə, eyni zamanda o ixtisaslara ki, onların resbublikamızın ali təhsil müəssisələrində hazırlanması nəzərdə tutulmamışdır.

Seçilmiş ali təhsil müəssisələri içərisində M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, P.Lumumba adına Xalqlar Dostluğu Universiteti, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, Kiyev Politexnik İnstitutu, Moskva Energetika İnstitutu, Moskva Kimya Maşınqayırma İnstitutu, Moskva Dəzgahqayırma İnstitutu, Ukrayna Kənd Təsərrüfatı Akademiyası və digər onlarla tanınmış institutlarda azərbaycanlı tələbələr ali təhsil almaqla bərabər öz təhsillərini

aspiranturalarda davam etdirir, dissertasiya müdafiə edərək, alimlik dərəcələri əldə edir, elmin müxtəlif sahələri üzrə alim kimi yetişirdilər.

Ulu Öndər hələ Moskvada işlədiyi dövrlərdə tez-tez təhsil almaq üçün respublikadan kənara göndərdiyi gənclərlə görüşər, onların təhsilləri, həyat şəraitləri ilə maraqlanar, onlara hər cür qayğı göstərərdi. Bu ənənəni o, sonralar da davam etdirər, respublikadan kənarda təhsil alaraq ölkəmizin dövlət idarəçiliyi, sənaye, iqtisadiyyat, elm sahələrində yüsək səviyyəli mütəxəssislər kimi çalışan məzunlarla görüşərdi. Özünün də dəfələrlə qeyd etdiyi kimi, çox böyük çətinliklərlə yetişdirdiyi bu kadrlara o, öz övladları kimi baxır, onlara inanır, yüksək vəzifələrə təyin edirdi.

Milli kadr hazırlığında Heydər Əliyevin diqqət yetirdiyi digər bir məqam isə ölkəmizin milli hərbi kadrlarının hazırlanması idi. Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş tədbirdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Ülu öndərin milli kadr siyasətinin bu məqamına da toxunaraq qeyd etmişdir ki, “Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Bu da Ulu Öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan hərbçiləri yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq”. Həqiqətən, 44 günlük Vətən müharibəsində əsası Heydər Əliyev tərəfindən qoyulmuş silahlı qüvvələrimizin ildırım surətli qələbəsi başda Ali Baş Komandan olmaqla məhz bu siyasətin nəticəsində formalaşmış milli hərbi kadrların, zabit və generalların hazırlığı, taktiki bilik və bacarıqları, təbii ki, əsgərlərimizin qəhrəmanlığı və şücaəti nəticəsində baş tutmuşdur.

Heydər Əliyevin kadr siyasətinin ikinci mərhələsi, onun, artıq müstəqillik əldə etmiş ölkəmizə ikinci dəfə hakimiyyətə gəlişi ilə başlamışdır. Öz ənənəsinə sadiq qalan Ulu Öndər hakimiyyəti dövründə bütün sahələrdə, o cümlədən hərbi, xüsusi və mülki təyinatlı milli kadrların hazırlanmasına, ali təhsil sisteminin təkmilləşdirilməsinə, yeni universitetlərin yaradılmasına çox ciddi yanaşmaqla bərabər, ölkəmizin istedadlı gənclərinin dünyanın aparıcı xarici ölkə Universitetlərində təhsil almasına çox önəm verirdi. Həmin dövrlərdə və sonradan xarici ölkələrin aparıcı universitetlərində təhsil almış bir çox gənclərimiz indi yüksək ixtisaslı mütəxəssislər kimi ölkəmizin dövlət idarəetməsi sistemində, elm və ali təhsil sistemində, firma və şirkətlərdə, istehsal və xidmət sahibkarlığı subyektlərində rəhbər vəzifələrdə və aparıcı mütəxəsislər kimi çalışırlar. Onlardan bu gün ölkəmizin Nazirlər Kabinetinin Baş naziri Əli Əsədovu, DİM rəhbəri Məleykə Abbaszadəni, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevi, digər tanınmış dövlət və ictimai xadimləri, alimləri, iş adamlarını, general və admiralları misal göstərə bilərik [3].

**Heydər Əliyevin milli kadr siyasətnin davamçısı**

Heydər Əliyevin milli kadrlar siyasətinin ölkəmizə verdiyi ən uğurlu və layiqli nümunələrindən biri onun layiqli davamçısı və ilk növbədə övladı, onun ailə məktəbində və dövlət idarəçilik akademiyasında formalaşmış, hazırda, son 20 il ərzində Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanı olan İlham Əliyev cənablarıdır. Yüksək diplomatik təhsil almış, çox gənc yaşlarından ARDNŞ-nin I vitse prezidenti vəzifəsində H.Əliyevin “Neft strategiyası”nın xarici siyasətinin reallaşdırılmasına birbaşa rəhbərlik etmiş, Ulu Öndərin fərdi tapşırığı ilə neft gəlirlərindən daha səmərəli istifadə üzrə dünya təcrübəsini öyrənərək, Azərbaycan Dövlət Neft Fondunun yaradılmasına başçılıq etmiş, daha sonra isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sədri olaraq gənc Respublikamızın sosial-iqtisadi və təsərrüfatçılıq fəaliyyətini uğurla həyata keçirməklə Heydər Əliyev məktəbində böyük təcrübə əldə etmişdir. Odur ki, 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra məhz H.Əliyev məktəbində əldə elədiyi təcrübə nəticəsində olduqca qısa bir zaman kəsiyində regionun və dünyanın tanınmış nüfuzlu siyasi liderlərindən birinə çevrilmişdir. Ölkə prezidenti

seçildikdən sonra İlham Əliyev cənabları Ulu Öndərin miras qoyduğu dövlətçilik quruculuğu, sosial-iqtisadi inkişaf, ordu quruculuğu və milli təhlükəsizlik siyasəti ilə birlikdə milli kadr siyasətini də müvəffəqiyyətlə davam etdirmişdir.

Hələ prezidentlik dövrünün ilk mərhələsində özünün də dəfələrlə qeyd etdiyi kimi "neft kapitalını insan kapitalına çevirmək" devizi altında onun tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" əsasında ölkəmizin 3500-dən artıq gəncləri dövlət hesabına dünyanın 32 ölkəsinin 350-dən çox olduqca yüksək nüfuzlu aparıcı ali təhsil müəssisələrində təhsil almaları üçün xaricə göndərilmişlər. Bu Proqram çərçivəsində 213 milyon manat vəsait xərclənmişdir. Dövlət Neft Fondunun vəsaiti hesabına ölkəmizin istedadlı gənclərinin müxtəlif dövlət proqramları və digər məqsədli layihələr çərçivəsində ABŞ-ın, Avropanın və digər inkişaf etmiş dünya ölkələrinin aparıcı universitetlərinə göndərilməsi nəticəsində minlərlə yüksək ixtisaslı kadrlar hazırlanmış, ölkəmizə qayıdaraq müxtəlif dövlət idarəçiliyi, elm, təhsil, səhiyyə, biznes sahələrində uğurla çalışmaqdadırlar.

Bu tendensiya möhtərəm cənab Prezident tərəfindən hazırda da uğurla davam etdirilməkdədir. Ölkə Presidentinin növbəti, 28 fevral 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş yeni, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası müddətində hər il 400 nəfər, ümumilikdə isə 2000 nəfər gəncin xarici nüfuzlu universitetlərdə bakalavriat və magistratura səviyyəsində təhsil almaları nəzərdə tutulmuşdur.

İlham Əliyev cənabları tərəfindən ölkəmizdə orta ixtisas və ali təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən yüksək standartlara cavab verən Milli Aviasiya Akademiyası, Diplomatiya Akademiyası, Neft Akademiyası kimi yeni ali təhsil müəssisələrinin yaradılması, o cümlədən regional təhsil sisteminin təkmilləşdirilməsi layihəsi çərçivəsində Mingəçevir Dövlət Universitetinin yaradılması, tanınmış bir çox xarici universitetlərinin filiallarının ölkəmizdə açılması xüsusilə diqqəti cəlb edir. Xüsusilə, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyası çərçivəsində qəbul olunmuş Milli Prioritetlərdən biri kimi "Rəqabətli insan kapitali və müasir innovasiyalar məkani" məsələsinin prioritetliyi milli kadr siyasətinin davamlığını labüd etmişdir [2].

Möhtərəm Prezidentimizin ali təhsilin inkişafı və müasir dünya standartları səviyyəsinə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən biri də və bizim üçün ən xoş olanı Mingəçevir Dövlət Universitetinin ölkəmizdə anoloqu olmayan yeni kampusunun tikintisinə qərar verməsidir. Gələcəkdə 10 min və daha çox tələbənin müxtəlif səviyyələr və ixtisaslar üzrə təhsil almaq imkanına hesablanan kampusda tələbələrin yüksək səviyyədə təhsil alması, dərsdən kənar vaxtlarının səmərəli keçirilməsi üçün hər bir şərait olacaq, regional universitetin rəqabətqabiliyyətliyi yüksələcəkdir. Odur ki, ali təhsil müəssisəsi kimi fəaliyyətimizin əsas istiqamətlərindən biri Ulu Öndərin milli kadr siyasətinə sadiq qalmaqla hazırladığımız mütəxəssislərin daim inkişafda olan əmək bazarının tələblərinə, ilk növbədə keyfiyyət tələblərinə uyğunluğunun təmin olunmasıdır. Bu olduqca vacib məsələlərdən biridir, çünki ali təhsil müəssisələrinin fəaliyyətinin müasir qiymətləndirmə sistemində əsas göstəricilərdən biri, məhz, universitet məzunlarının əmək bazarının tələblərinə uyğunluğu və rəqabətqabiliyyətliyidir.

## İstifadə edilmləş ədəbiyyat

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: / Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar / -Bakı, -Azərrnəşr, -2001

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər / Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı

3. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı", Bakı, 2 may 2023-cü il

4. "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. [elektron resurs] URL: https://lib.aliyev-heritage.org/az

## HEYDAR ALIYEV'S MODEL OF FORMATION OF A MODERN NATIONAL PERSONNEL POLICY OF AZERBAIJAN

**[1,2]V.Ayyubov, [2]A.Taghiyev**
[1,]doctor of economic sciences, professor
[3]Mingachevir State University

***Abstract:*** *The article reflects the main points of the national personnel policy successfully implemented by Heydar Aliyev, the national leader of the Azerbaijani people, in both periods of his power. Although the personnel policy he formulated during the periods when he led Azerbaijan during the Soviet period and during the periods when he was in power as the head of the independent Republic differed from each other in terms of implementation, they essentially served the same purpose - for Azerbaijan, for the future of Azerbaijan, it will ensure its independence and sustainable development. in this sense, this policy was treated as a national model in the article, the national personnel policy model formed by the great leader during his lifetime and the further improvement and successful continuation of this policy by Mr. Ilham Aliyev, the follower of his ideas, constituted the main main line of the article.*

***Keywords:*** *national personnel potential, science, education, human capital, personnel policy, innovative development*

## МОДЕЛЬ ГЕЙДАРА АЛИЕВА ФОРМИРОВАНИЯ СОВРЕМЕННОЙ НАЦИОНАЛЬНОЙ КАДРОВОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

**[1,2]В.С.Эюбов, [2]А.М.Тагиев**
[1]доктор экономических наук, профессор
[2]Мингячевирский государственный университет

***Резюме:*** *В статье отражены основные положения национальной кадровой политики, успешно реализуемой общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым в оба периода его правления. Хотя сформулированная им кадровая политика в периоды, когда он руководил Азербайджаном в советский период, и в периоды, когда он находился у власти в качестве главы независимой республики, отличалась друг от друга с точки зрения реализации, по сути они служили одной и той же цели - для Азербайджан, ради будущего Азербайджана, обеспечит его независимость и устойчивое развитие. В этом смысле данная политика трактовалась в статье как национальная модель, модель национальной кадровой политики, сформированная великим лидером при его жизни и дальнейшее совершенствование и успешное продолжение этой политики господином Ильхамом Алиевым, последователем его идей, составили основную линию статьи.*

***Ключевые слова:*** *национальный кадровый потенциал, наука, образование, человеческий капитал, кадровая политика, инновационное развитие*

**Elmi redaktor: i.e.d., prof. E.Sadıqov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 25.06.2023**
**Çapa qəbul edilib: 02.07.2023**

UOT 336.71; 316.37

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN BANK SİSTEMİNİN İNKİŞAF YOLLARI

**Elnur Məhəmməd oğlu Sadıqov**
iqtisad elmləri doktoru, professor
Mingəçevir Dövlət Universiteti
elnur.sadiqov@mdu.edu.az

***Xülasə:*** *Hər bir cəmiyyətdə bank ixtisaslaşmış təşkilat kimi maddi nemətlər istehsal edən digər müəssisələrdən fərqlənir. Əgər müəssisələr istehsal etdiyi əmtəə və xidmətlərin müxtəlifliyinə görə fərqlənirsə, bank spesifik məhsulun – pulun, ödəniş əməliyyatlarının istehsalı ilə fərqlənir. Xidmət sahəsində bankların əsas məhsulu əmtəə istehsalı və istehlakı deyil, kredit əməliyyatları və pul istehsalıdır. Bankda pul əməliyyatlarını həyata keçirən, məlumatları təhlil edən, hesablaşmaları həyata keçirən və müəssisələrlə müştərilər arasında qarşılıqlı əlaqəni təmin edən ixtisaslaşmış kadrlar çalışır.*

***Açar sözlər:*** *bank, pul, kredit, ödəmə dövriyyəsi, dövlət siyasəti, hesablaşmalar, milli valyuta*

*"Hər bir müstəqil dövlət, dünya iqtisadiyyatı ilə sıx inteqrasiyada olan müstəqil dövlət, sərbəst iqtisadiyyat yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət mütləq tələblərə uyğun, dünya standartlarına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir."*

*(Heydər Əliyev)*

## Giriş

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi, "Bank sektoru hər bir ölkənin iqtisadiyyatının inkişafında çox mühüm rol oynayır. Düzdür, bizim dövlət investisiya layihələrimiz, investisiya proqramımız çox böyükdür və milyardlarla vəsaitlə ölçülür, ancaq bununla bərabər, bank sektorundan verilən kreditlərin, xüsusilə iqtisadiyyatın real sektoruna verilən kredit resurslarının da çox böyük əhəmiyyəti var" .

Hələ XX əsrin əvvəllərində, yəni 1919-cu il sentyabrın 30-da təsis edilən Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankının əsas məqsədi pul dövriyyəsini asanlaşdırmağı, ticarət, sənaye və kənd təsərrüfatına yardım etməyi, habelə pul sistemini möhkəmləndirməyi özündə ehtiva etmişdir. Nizamnamə kapitalı 50 milyon rubl olan Azərbaycan Dövlət Bankı o dövrün kredit təşkilatlarının fəaliyyətinə də nəzarət edirdi. Həmin dövrdə isə ölkədə bu cür kredit təşkilatlarının sayı heç də az deyildi.

1919-cu ilin dekabrından Azərbaycanda əmanət kassaları fəaliyyət göstərməyə başlamışdır. Bundan əlavə, poçt-teleqraf təşkilatlarının bazasındakı poçt-teleqraf, eləcə də xüsusi ssuda-kredit kassaları, kənd təsərrüfatının kreditləşdirilməsi ilə məşğul olan ipoteka bankları, ssuda-əmanət ittifaqları da fəaliyyətlərini genişləndirmişdilər.

Beləliklə, maliyyə sisteminin ən mühüm elementlərindən sayılan bankların ölkələrin iqtisadi inkişafında rolu kifayət qədər böyükdür və onlar iqtisadi tərəqqinin əsas təkanverici qüvvələrindən hesab olunur. Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdən sonra onun bank sistemi heç də asan olmayan üç mərhələdən ibarət özünəməxsus inkişaf yolundan keçmişdir:

1) 1990-1992-ci illər – milli bank sisteminin formalaşması dövrü;

2) 1992-1994-cü illər – hiperinflyasiya şəraitində kommersiya banklarının sayının sürətli artım dövrü;

3) makroiqtisadi sabitləşmə şəraitində bank sisteminin optimallaşdırılması və restrukturiza-siyası. Bu mərhələ özünü Azərbaycan Respublikasının bank sisteminin inkişafının keyfiyyətcə yeni mərhələsi kimi göstərmişdir.

Yalnız Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və innovativ fəaliyyət strategiyası sayəsində görülən həlledici tədbirlər, atılan qətiyyətli addımlar mövcud inkişaf səviyyəsinin əldə olunmasına zəmin yaratmışdır. Belə ki, Azərbaycanın bank sistemində və milli valyutanın tədavül prosesində köklü dəyişikliklər isə 1994-cü ilin əvvəllərindən etibarən özünü göstərməyə başlamışdır. Xüsusən də, 1994-cü il yanvarın 1-dən başlayaraq manatın ölkənin yeganə ödəniş vasitəsi elan olunması artıq maliyyə sferasında tamamilə yeni bir mərhələnin başlanmasından xəbər verirdi. Bunun ardınca ən önəmli məqamlardan biri də 1995-ci il 12 noyabr tarixdə keçirilən referendumda qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının 19-cu maddəsinin II bəndində pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Milli Banka mənsub olmasının bir daha təsdiq edilməsi olmuşdur. Eyni zamanda, həmin bənddə Milli Bankın dövlətin müstəsna mülkiyyətində olması da təsbit edilmişdir. Yeni Konstitusiyanın qəbulu Azərbaycanda bütün sahələrdə olduğu kimi, bank qanunvericiliyi sahəsində də yenilikləri zəruri etmişdir.

21 oktyabr 1994-cü ildə "Valyuta tənzimi haqqında", 1996-cı il 10 iyun tarixdə yeni redaksiyada "Azərbaycan Respublikasının Milli Bankı haqqında", 14 iyun tarixdə isə "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" kimi Azərbaycan Respublikasının yeni qanunları respublikanın bank sisteminin qabaqcıl dünya bank təcrübəsinə yaxınlaşmasına, kredit təşkilatlarının yaradılmasına imkan yaratmışdır. Bütün bunlar ölkədə bazar prinsiplərinə əsaslanan ikipilləli bank sisteminin (I pillədə Azərbaycan Respublikası Milli Bankı, II pillədə kommersiya bankları və digər bank olmayan kredit təşkilatları) inkişafında da mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərinin ilk yarısında SSRİ-nin süqutundan sonra yaranmış Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü olan ölkələrdə dövlət banklarının özəlləşdirilməsi bank islahatlarının ən çətin komponentlərindən biri olmuşdur. Lakin Özbəkistan, Belarus, Türkmənistan kimi dövlətlər dövlətin iştirakı ilə ən böyük bankları özəlləşdirməkdən çəkinirdilər.

Beynəlxalq təcrübə göstərir ki, dövlət bankları geniş maliyyə xidmətlərinin göstərilməsi baxımından çətinlik çəkirlər. Dünyada hökumətlər banklarda paya malik olsalar da, zaman keçdikcə belə dövlət mülkiyyətinin payı azalır.

Heydər Əliyev 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra onun xüsusi diqqət və qayğısı ilə aparılan bazar islahatları bütün milli bank sisteminin strukturunu dəyişdirmiş, eyni zamanda, dövlət tədiyə balansının və Azərbaycanın büdcəsinin dinamikasını yaxşılaşdırmış, dövlət banklarının kredit siyasətinə təzyiqi müəyyən dərəcədə aradan qaldırmışdır. Dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması tədbirlərinin həyata keçirilməsi, özəl bank sisteminin institusional formalaşmasının təmin edilməsi bu maliyyə qurumlarının inkişafını daha da sürətləndirmişdir.

İstənilən inkişaf etmiş ölkədə maliyyə sisteminin əsas elementi olan pul-kredit siyasətini rəsmi həyata keçirən mərkəzi bankdır. Pul-kredit siyasəti büdcə ilə birlikdə iqtisadiyyatın dövlət tənzimlənməsinin əsası hesab olunur. Bu səbəbdən Mərkəzi Bankın səmərəli fəaliyyəti elə bazar iqtisadiyyatının səmərəli işləməsi deməkdir.

Heç kəsə sirr deyil ki, Ulu Öndərin apardığı pul siyasətinin başlıca hədəfi ölkədə makroiqtisadi sabitliyin təmin edilməsi olmuşdur. Bu məqsədlə, Azərbaycan Mərkəzi Bankına ümumilikdə bank sektorunda maliyyə sabitliyinin hökm sürməsi üçün ardıcıl və zəruri tədbirlər həyata keçirməyi tapşırmışdır. Eyni zamanda, Milli Bank pul siyasətinin, bank nəzarətinin strateji çərçivəsinin davamlı təkmilləşməsini reallaşdırmalı, makroiqtisadi koordinasiyanın güclənməsinə və bank sektorunun maliyyə dərinliyinin artırılmasına mühüm dəstək verməsi ilə öz fəaliyyətini davam etdirir.

Mərkəzi Bank dövlətin konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətləri həyata keçirən müstəqil qurumdur və onun fəaliyyətinə qanunsuz müdaxilə yolverilməzdir. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız mərkəzi banka məxsusdur. .

Qeyd etmək lazımdır ki, mütəxəssislər 1994-cü ildən başlayaraq, respublikada həyata keçirilən pul-kredit siyasətinin dörd mərhələsini göstərirlər.

1994-1996-cı illəri əhatə edən birinci mərhələ makroiqtisadi sabitliyin təmin edilməsi və sərt pul-kredit siyasətinin həyata keçirilməsi tələbi ilə səciyyələnmişdir ki, bunun zərurəti 1992-1994-cü illərdə ölkədə hökm sürən obyektiv reallıqlarla müəyyən edilirdi. Dünya təcrübəsi göstərir ki, mərkəzləşdirilmiş planlı sistemdən bazar münasibətlərinə keçid istehsal göstəricilərinin pisləşməsi, inflyasiyanın kəskin artması, milli valyutanın sürətlə ucuzlaşması və əhalinin sosial vəziyyətinin pisləşməsi ilə müşayiət olunur.

1992-1994-cü illərdə respublikada orta illik inflyasiyanın səviyyəsi 1600-1800 % təşkil etmiş, milli valyuta ABŞ dollarina nisbətən dəfələrlə ucuzlaşmışdır. Eyni zamanda, yüksək inflyasiya həm monetar, həm də qeyri-monetar amillərlə əlaqələndirilirdi. Onun əsas monetar amili ondan ibarət idi ki, dövlət büdcəsi kəsiri tam olaraq mərkəzi bank kreditləri hesabına ödənilirdi, üstəlik, kommersiya bankları öz kredit resurslarını iqtisadiyyatın tarazlı inkişafı üçün lazım olandan daha böyük həcmdə cəlb edə bilmişdilər. Nəticədə valyuta və pul bazarlarında spekulyativ əməliyyatların əhatə dairəsi genişlənmişdir.

1994-cü ilin ikinci yarısından etibarən Azərbaycan Hökuməti və Mərkəzi Bankı makroiqtisadi sabitliyi təmin etmək üçün köklü tədbirlər həyata keçirməyə başlamışdır. Bu məqsədlə, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının yardımı ilə ən qısa müddətdə fövqəladə hallar üzrə proqram tədbirləri hazırlanmışdır.

Tədiyyə balansının cari əməliyyatlarında kəsirin fasiləsiz maliyyələşdirilməsini təmin etmək və milli valyutanın sabitliyini təmin etmək məqsədilə ölkənin rəsmi valyuta ehtiyatlarının həcmi tələb olunan səviyyəyə çatdırılmışdır. Bütün bu tədbirlər son nəticədə sabit makroiqtisadi vəziyyətin yaradılmasına gətirib çıxardı və sabit iqtisadi artımın başlanması üçün ilkin zəmin yaratmışdır. Belə ki, Mərkəzi Bankın həyata keçirdiyi sərt pul siyasəti pul və valyuta bazarında gərginliyin tamamilə aradan qaldırılmasına, hiperinflyasiyanın dayandırılmasına və makroiqtisadi sabitliyə nail olunması üçün ilkin şərtlərin yaradılmasına imkan vermişdir.

1997-1998-ci illəri əhatə edən ikinci mərhələ iqtisadiyyatın institusional inkişafının yeni dövrünə uyğun olaraq sərt pul-kredit və məzənnə siyasətinin müəyyən qədər yumşaldılması ilə səciyyələnir.

1997-ci ildən Azərbaycan Milli Bankı səhmlərinin nəzarət paketi dövlətə məxsus olan bankların restrukturizasiyası üzərində fəal iş aparmışdır. Restrukturizasiya beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq çərçivəsində hazırlanmış xüsusi proqrama əsasən həyata keçirilmişdir.

1998-ci ildə Azərbaycan Respublikası Milli Bankının yeni inzibati binası tikilib istifadəyə verilmişdir. Həmin il oktyabr ayının 6-da keçirilən açılış mərasimi Prezident Heydər Əliyevin iştirakı və dərinməzmunlu çıxışı ilə daha da yaddaqalan olmuşdur.

**Milli Bankın yeni inzibati binasının açılış mərasimi (6 oktyabr 1998-ci il)**

Ümumilli lider öz nitqində hər zaman olduğu kimi, mühüm, ölkəmiz üçün taleyüklü məsələlərə toxunmuşdur:

"... Hər bir müstəqil dövlət, dünya iqtisadiyyatı ilə sıx inteqrasiyada olan müstəqil dövlət, sərbəst iqtisadiyyat yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət mütləq tələblərə uyğun, dünya standartlarına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir. Biz bunu təsis etmişik və bu gün də inkişaf etdiririk. Ona görə də Azərbaycanda Milli Bankın həm funksiyası, həm də fəaliyyət dairəsi xeyli artır. Milli Bank Azərbaycanda sərbəst, özəl bank sisteminin inkişaf etməsinə imkanlar yaratmalı, bu sahədə fəaliyyət göstərməlidir. Ona görə də Azərbaycan Milli Bankı, şübhəsiz, keçmişdəki kimi işləyə bilməz və keçmişdə olan binada da fəaliyyət göstərə bilməz. Bu zərurətlərdən irəli gələn qərar da Milli Bankın yeni binasının inşa edilməsi, yaranmasıdır. Artıq belə bir bina Bakının mərkəzində yaranıbdır və biz də sizinlə birlikdə bu hadisəni çox mühüm hadisə hesab edərək buraya toplaşmışıq, bunu bizim həyatımızda və xüsusən iqtisadi həyatımızda böyük hadisə hesab edərək onun açılışını belə təntənəli şəraitdə keçiririk. Mən bu münasibətlə Azərbaycan vətəndaşlarını, Azərbaycandakı müstəqil bankları və bank işçilərini, maliyyə işçilərinin hamısını təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Milli Bankı yeni, müasir binada Azərbaycanın gələcək iqtisadi inkişafı üçün uğurlu işlər görəcəkdir.

Azərbaycanda iqtisadiyyat, maliyyə, bank sahəsində görülən işlər, aparılan islahatlar, əvvəla, ardıcıl xarakter daşıyır, mütəmadi xarakter daşıyır və dünya təcrübəsinə əsaslanır, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin maliyyə sistemlərinin, banklarının təcrübəsinə əsaslanır. Bu gün mən bəyan edirəm ki, Azərbaycan bu yolla bundan sonra da gedəcək, Azərbaycanda maliyyə-bank sistemi ilbəil inkişaf edəcək və bunların hamısı Azərbaycanın iqtisadiyyatı ilə ahəngdar surətdə inkişaf edəcəkdir. Bunu deməyə mənim əsasım var. Çünki son illərdə aparılan islahatlar – iqtisadi islahatlar, bank-maliyyə sistemində aparılan islahatlar artıq öz nəticələrini verir və Azərbaycanda həm iqtisadiyyatın inkişafını, həm sabit valyuta bazarını təmin edir, həm də insanların rifah halını yaxşılaşdırır. İslahatlar nəticəsində Azərbaycanda artıq özəl bank sektoru yaranıbdır. Bu da bir neçə mərhələdən keçibdir. Məsələn, burada deyildi, – bir neçə il bundan öncə Azərbaycanda 210 özəl bank vardı. Ancaq indi 79 özəl bank var. Lakin bu 79 özəl bankın maliyyə kapitalı o 210 bankın olduğu dövrə nisbətən 4 dəfə artıbdır. Bu, çox yaxşı göstəricidir və tamamilə təbii prosesdir, amma eyni zamanda, özbaşına gedən proses deyildir. Bu proses Azərbaycanda makroiqtisadiyyatın təmin olunmasının, maliyyə-bank sistemində islahatların və ümumiyyətlə iqtisadi islahatların həyata keçirilməsinin nəticəsidir. Güman edirəm ki, bu proses davam edəcək, Azərbaycanda özəl bank strukturları kapital nöqteyi-nəzərindən, eləcə də bank fəaliyyəti, bank mədəniyyəti nöqteyi-nəzərindən daha da inkişaf edəcəkdir. Ola bilər, bu bankların sayı yenə də azalsın, çünki rəqabət gedir – güclü, bacarıqlı banklar şübhəsiz ki, o kiçik, yaxşı fəaliyyət göstərməyən bankları sıradan çıxaracaq və beləliklə, Azərbaycan get-gedə dünyanın inkişaf etmiş ölkələrinin bank sisteminin standartlarına gəlib çatacaqdır"

**Milli Bankın yeni inzibati binasının açılış mərasimi (6 oktyabr 1998-ci il)**

Ölkə rəhbərliyinin həyata keçirdiyi pul və məzənnə siyasətinin üçüncü mərhələsi 1999-cu ilin iyulunda başlamışdır. Mərkəzi Bank pul tələbinin əhəmiyyətli dərəcədə artması və struktur islahatlarının sürətləndirilməsi ilə müşayiət olunan iqtisadi artım tempini nəzərə alaraq, "yumşaq" pul siyasətinin aparılması prosesini gücləndirmişdir. Nəticədə, mərkəzləşdirilmiş kreditlər və məcburi ehtiyatlar üzrə faiz dərəcələri azalıb, idarə olunan üzən məzənnə rejimində manatın məzənnəsi daha çevik olmuşdur. Bu tədbirlər deflyasiya meyllərinin qarşısının alınması və iqtisadiyyatın maliyyə təminatı səviyyəsinin yüksəldilməsi ilə yanaşı, valyuta ehtiyatlarının artmasına, ixracın stimullaşdırılmasına, makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə əlverişli şərait yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin ölkənin bank sektoru üçün həyati əhəmiyyət kəsb edən qətiyyətli addımlar atması nəticəsində əldə edilmiş makroiqtisadi sabitlyin sayəsində 1998-ci ildə dünya bazarında neftin qiymətinin aşağı düşməsi, eləcə də qonşu Rusiya Federasiyasında baş verən maliyyə böhranının təsiri kimi amillərin milli iqtisadiyyata ciddi mənfi təsirinin qarşısını almaq mümkün olmuşdur. Milli valyutanın və bütövlükdə bank sisteminin sabitliyi qorunub saxlanılmışdır: 1998-ci ildə və ondan sonrakı dövrdə iqtisadi artım daha da yüksək templərlə davam etmişdir.

Azərbaycan Respublikasında Heydər Əliyevin birbaşa rəhbərliyi ilə aparılan bank islahatlarının növbəti mərhələsində, yəni 2000-ci ildən başlayaraq həyata keçirilən özəl bankların intensiv sağlamlaşdırılması tədbirləri bank sisteminin davamlılığının möhkəmlənməsinə və maliyyə vasitəçilik funksiyasının yaxşılaşmasına mühüm şərait yaratmışdır. Bank sisteminin və onu tənzimləyən normativ bazanın inkişafının yeni dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə Prezident Heydər Əliyevin 2002-ci il 26 dekabr tarixli fərmanı ilə verilən tapşırıq əsasında 2002-2004-cü illər ərzində hazırlanan "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunları 2004-cü ildə qəbul edilərək, qüvvəyə minmişdir. Bu qanunların hazırlanması prosesində keçmiş nəsil qanunların üstün cəhətlərinin saxlanılması ilə yanaşı, müasir dövrün tələbləri də nəzərə alınmışdır.

2003-cü ildən prinsipcə yeni makroiqtisadi vəziyyətlə səciyyələnən pul siyasətinin dördüncü mərhələsi başlamışdır. İqtisadi artımın sabit tempi, adambaşına düşən ÜDM-in əhəmiyyətli dərəcədə artması və ev təsərrüfatlarının gəlirlərinin sürətlə artması şəraitində ölkənin regionlarında iqtisadi fəallığın genişlənməsi, nəhayət, yeni neft erasının başlaması, neft dollarlarının axınının

artması bu siyasət respublikanın bank sistemi qarşısında keyfiyyətcə daha mürəkkəb məqsəd və vəzifələr qoymuşdur.

2007-ci ildən monetar idarəetmənin təşkilinin səmərəliliyinin artırılması çərçivəsində Azərbaycan Mərkəzi Bankı "faiz dəhlizi" konsepsiyasını həyata keçirməyə başlamışdır. Bu, artıq kəmiyyət monetar göstəricilərini hədəfləmədən imtina edən və məzənnə çevikliyi kontekstində qısamüddətli faiz dərəcəsinin hədəflənməsinə keçən inkişaf etmiş ölkələrin mərkəzi banklarının ən yaxşı təcrübələrinə uyğundur.

Bu mexanizmin tətbiqi zamanı strateji məqsəd Mərkəzi Bank tərəfindən müəyyən edilmiş faiz diapazonu daxilində banklararası bazarda faiz dərəcələrinin dəyişməsini məhdudlaşdırmaqdan, beləliklə, gələcəkdə pul siyasətinin impulslarının (pulun qiyməti vasitəsilə) məcmu tələbə və inflyasiyaya ötürülməsi potensialını institusional cəhətdən təmin etməkdən ibarət olmuşdur.

2007-ci ildə Milli Bank kapitalın hərəkətinin mərhələli liberallaşdırılması haqqında qərar qəbul etmişdir. Bunun əsasında kapitalın ölkədən çıxarılması üzrə bütün əməliyyatlar (birbaşa investisiya, portfel investisiyası, xaricdə depozitlərin yerləşdirilməsi və daşınmaz əmlakın alınması) lisenziyaya tabe deyil və pulsuz rejimdə həyata keçirilir (bildiriş rejimi).

Əlbəttə ki, bank sisteminin inkişafı özəl kommersiya banklarının inkişafına da təsirsiz ötüşməyə bilməzdi. Artıq belə bankların inkişafı 1990-cı illərin əvvəlləri ilə müqayisədə xeyli fərqlənirdi. Xüsusən də, uğurlu neft strategiyası nəticəsində ölkənin əldə etdiyi böyük maliyyə gəlirlərinin və bu əsasda bankların maliyyə resurslarının strateji məqsədlərə effektiv ötürülməsinə hazır olmalarını nəzərə alaraq yeni, 2002-2005-ci illərə inkişaf strategiyası hazırlanmışdır.

Muasir dövrdə həyata keçiriləcək tədbirlər Azərbaycanda maliyyə xidmətləri bazarının əsas seqmentlərinin (bank sektoru, qeyri-bank kredit təşkilatları, sığorta bazarı, lizinq bazarı, qiymətli kağızlar bazarı və faktorinq bazarı) tarazlı inkişafını təmin edəcəkdir. Bank nəzarəti alətləri təkmilləşdiriləcək, bank sisteminin sabit və təhlükəsiz inkişafının təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir. Bank sektorunda konsolidasiya tədbirləri və struktur islahatları davam etdiriləcək, rəqabətin stimullaşdırılması, bank-maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, o cümlədən elektron ödəniş sistemləri infrastrukturunun təkmilləşdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Bank sisteminin kapitallaşması davam etdiriləcək, regionlar üzrə bank şəbəkəsinin genişlənməsi təşviq olunacaq, tikinti-əmanət banklarının yaradılması dəstəklənəcək, ipoteka kreditləşdirilməsi mexanizmi təkmilləşdiriləcəkdir.

**Elektron ödəniş,** poçt əmanət sistemləri inkişaf etdiriləcək, bank xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi gücləndiriləcəkdir.

Sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin və sığorta məhsullarının çeşidinin artırılması, təkrar sığortanın, həmçinin həyat sığortasının və tibbi sığortanın tətbiqinin genişləndirilməsi ölkədə sığorta bazarının inkişafına yol açacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalının sığortalanmasını stimullaşdırmaq məqsədilə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi planlaşdırılır. Habelə, lizinq xidmətlərinin göstərilməsi üçün qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi lizinq təşkilatlarının inkişafına və onların bazara daha asan daxil olmasına imkan yaradacaqdır ki, bu da lizinq təşkilatlarının infrastruktur və investisiya layihələrinin icrasında, kənd təsərrüfatının texnika təminatının daha münasib şərtlərlə yaxşılaşdırılmasında mühüm maliyyə mənbəyi kimi lizinqin payını artıracaqdır.

Müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılması istiqamətində mühüm addımlar atılacaq, qiymətli kağızlar üzrə qeyri-mütəşəkkil bazarın məhdudlaşdırılması, bazarın investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə sistemli tədbirlər həyata keçiriləcək, bazarın peşəkar iştirakçılarının fəaliyyətini və onlara nəzarət mexanizmlərini tənzimləyən qanunvericilik təkmilləşdiriləcəkdir.

Qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi və onun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması və iqtisadi layihələrin maliyyələşdirilməsində fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin

genişləndirilməsi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün və ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına inteqrasiya olunması məqsədilə müvafiq şəraitin formalaşdırılması daim diqqət mərkəzində olacaqdır.

**Azərbaycanın maliyyə-bank sisteminin beynəlxalq iqtisadi munasibətlərə inteqrasiyası**

Ümummilli lider Heydər Əliyevin apardığı ciddi və taleyüklü iqtisadi islahatlar çərçivəsində diqqətdə saxladığı mühüm məsələlərdən biri də ölkənin maliyyə-bank sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, xarici ölkələrlə bu sahədə əməkdaşlığının aparılması, xarici kapitalın Azərbaycana cəlb edilməsi olmuşdur. Bu məqsədlə Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və bir sıra xarici ölkə bankları, maliyyə təşkilatları ilə yaradılan əməkdaşlıq münasibətləri, əldə edilmiş razılaşmalar Heydər Əliyevin Azərbaycan Respublikasının maliyyə-bank sisteminin çiçəklənməsinə, onun beynəlxalq sahələrə inteqrasiyasına bəxş etdiyi mühüm töhfələrdir.

Ulu Öndər xarici ölkələrə olan rəsmi işgüzar səfərlərində də bank sisteminin inkişaf etdirilməsi, yeni əlaqələrin qurulması, beynəlxalq təcrübənin üstünlüklərindən yararlanmaq və s. kimi məsələləri diqqət mərkəzində saxlamışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin fevral ayında Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankında görüşlər keçirmişdir. Söhbət zamanı tərəflər arasında konkret maliyyə proqramı haqqında fikir mübadiləsi olmuş, həmin proqramın reallaşdırılması istiqamətində məsləhətləşmələr aparılmışdır.

Qeyd etmək lazımdır ki, respublikamızla Böyük Britaniya arasında imzalanmış bir sıra müqavilələrin maliyyə vəsaiti ilə təmin edilməsi həmin bankın üzərinə düşürdü.

Elə həmin ilin yayında Səudiyyə Ərəbistanına səfər edən Heydər Əliyev İslam İnkişaf Bankının prezidenti Osama Cəfər Faquli ilə görüşmuşdur. Görüşdə bankın Azərbaycana maliyyə yardımı göstərməsi, ölkəmizin vəziyyəti ilə bağlı bir sıra başqa məsələlər barədə söhbət aparılmışdır.

1994-cü ilin sentyabrında Azərbaycan Prezidenti Heydər Əliyevin dünyanın ən qüdrətli banklarından olan – ABŞ-ın "Çeyz Manhetten Bank"ın rəhbərləri ilə görüşləri olmuşdur. Azərbaycan Prezidenti, həmçinin Federal Ehtiyat Bankında da olmuş, bankın rəhbərləri tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi olmuşdur.

Azərbaycanda bank sektorunun inkişaf etdirilməsi, qlobal səviyyəyə çatdırılması üçün mühüm əhəmiyyət kəsb edən görüşlərdən biri də 1995-ci ilin yanvar ayının 28-29-da Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jak Larüzye və Ümumdünya Bankının baş direktoru Sven Sandstrom ilə olmuşdur.

Həmin ilin payızında Prezident Heydər Əliyev Nyu-Yorkda BMT-nin İnkişaf Proqramının rəhbəri Ceyms Qustav Spet ilə görüşmüşdür. Cənab Spet vurğulamışdır ki, BMT-nin İnkişaf Proqramı onun bir çox digər strukturları, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İttifaqı və b. beynəlxalq təşkilatlarla birgə işləyərək, ölkəmizin zəngin potensialına əsaslanmaqla, çevik islahatlar aparılması, özəlləşdirmə proqramının tamamilə həyata keçirilməsi, müasir maliyyə və kredit təsisatlarının yaradılması, Azərbaycanda bank sisteminin inkişaf etdirilməsi və s. sahələrdə islahatların reallaşdırılmasına maraq göstərir.

1996-cı ildə Azərbaycanın Milli Bankı Pakistan İslam Respublikasının Mərkəzi Bankı və Dövlət Bankı ilə qarşılıqlı anlaşma haqqında saziş imzalamışdır.

Həmin ilin iyulunda Almaniyaya rəsmi səfər edən Heydər Əliyev Düsseldorfda "Doyçe Bank"ın İdarə Heyətinin rəhbərləri ilə görüşmüşdür. Bankın idarə heyətinin üzvü Georq Krupp 1995-ci ilin payızında Bakıda Azərbaycanın dövlət başçısı ilə ilk görüşünü xatırlayaraq qeyd etmişdir ki, biz o zaman başa düşdük ki, bu respublikada sabitliyin və iqtisadi yüksəlişin təminatçısı məhz Prezident Heydər Əliyevdir.

Sonra Azərbaycan Milli Bankı ilə "Doyçe Bank" arasında maliyyə əməkdaşlığı sahəsində qarşılıqlı anlaşma haqqında memorandum və Azərbaycan Beynəlxalq Bankı ilə AQ Banklar Konsorsiumu arasında bu saziş çərçivəsində kredit xətti açılması haqqında muqavilə imzalanmışdır.

Elə həmin gün "Doyçe Bank"ın İdarə Heyəti Heydər Əliyevlə ayrica görüş keçirmişdir. Tədbirdə çıxış edən Ümummilli Lider "Dünyanın ən böyük banklarından biri olan "Döyçe Bank" ilə Azərbaycan banklarının saziş imzalaması Azərbaycan banklarının dünya miqyasında artıq müəyyən hörmətə malik olduğunu göstərir. Əminəm ki, bu sazişlər həyata keçiriləcək, bizim banklarla "Döyçe Bank" arasında əlaqələr bundan sonra da inkişaf edəcək, bunların hamısı Azərbaycan iqtisadiyyatının inkişafına təkan verəcəkdir," – deyə vurğulamışdır.

Azərbaycan Prezidenti Heydər Əliyev Almaniyaya səfəri çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankının vitse-prezidenti Manfred Abelyayn ilə görüşmüşdür. Görkəmli dövlət xadimi Prezident Heydər Əliyev ilə yenidən görüşməkdən şərəf duyduğunu bildirən cənab Abelyayn Avropa Bankının Azərbaycanla əlaqələrə xüsusi maraq göstərdiyini nəzərə çatdırmışdır. 2002-ci ilin yanvar ayında Rusiya Feredasiyasına rəsmi səfər etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu ölkənin paytaxtı Moskva şəhərində Azərbaycan Beynəlxalq Bankının törəmə bankının açılış mərasimində iştirak etmişdir.

2002 ci il iyulun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında Beynəlxalq Valyuta Fondunun (BVF) II Avropa departamentinin direktoru Con Odlinq-Sminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Cənab Odlinq-Smi "təxminən iki il əvvəlki səfərimdən bəri ölkədə makroiqtisadi göstəricilər çox əlverişli olmuşdur. İqtisadi artımın sürətinə görə, Azərbaycan MDB ölkələri arasında, əslində, liderdir və burada inflyasiya çox aşağıdır. Bu, çox yaxşı göstəricidir. Əlbəttə, bu, qismən neftlə izah edilir, lakin təkcə bununla deyil, həm də onunla izah edilir ki, Maliyyə Nazirliyi və Milli Bank çox yaxşı makroiqtisadi siyasət aparırlar. Struktur islahatları da yaxşı gedir. O ki qaldı Azərbaycan ilə BVF arasındakı münasibətlərə, biz bundan, xüsusən Maliyyə Nazirliyi, Milli Bank, Prezidentin İcra Aparatı ilə əlaqələrimizdən çox məmnunuq," – deyə qonaq vurğulamışdır.

2002-ci ilin sentyabrın 11-də Prezident Heydər Əliyev Prezident sarayında Dünya Bankının Cənubi Qafqaz ölkələri üzrə departamentinin direktoru xanım Donna-M. Dousett-Koirolonu qəbul etmişdir.

Xarici ölkələrlə həm dövlət, həm də ayrı-ayrı bankların səviyyəsində aparılan əməkdaşlıq əlaqələrinin nəticələrindən biri də xarici ölkələrin bəzi kommersiya banklarının Azərbaycan bazarında da fəaliyyət göstərməsi olmuşdur. Belə ki, 1995-ci ildə 25 may 1995-ci ildə təsis edilmiş Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyətinin səhmdarları arasında Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi (75.00 %) ilə yanaşı Türkiyə Respublikasının Ziraat Bankı (12,37 %) və Ziraat Bank İnternational (1.08 %) da vardır. Hazirda Azərbaycanda fəaliyyət göstərən xarici ölkə bankları vardir:

1) Türkiyənin Yapı Kredi Bankı (ölkəmizdə 2000-ci ildə fəaliyyətə başlamışdır);
2) Türkiyə Respublikasının Ziraat Bankı 2014-cü ildə "Ziraat Bank Azərbaycan" Açıq Səhmdar Cəmiyyəti adı altında törəmə bankını açmışdır.
3) Rusiya Federasiyasının VTB Bankının Azərbaycan nümayəndəliyi.

Bunlardan başqa, ölkəmizdə bu gün xarici kapitalın iştirak etdiyi UniBank, Nikoil Bank, AccesBank, Bank Respublika kimi banklar Azərbaycanda müvəffəqiyyətlə fəaliyyət göstərir. Bu bankların hamısı "böhran sınağı"ndan uğurla keçərək qazandıqları müştəri etibarını qorumağa çalışırlar.

Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycanda bütün sahələrdə olduğu kimi bank sektorunda da etibar və sabitlik amilləri bərqərar olmuşdur. Bu sektor iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyərək etibarlı mövqeyini gündən-günə möhkəmləndirmişdir. Aşağıda verilən cədvəl 1-ə diqqət etsək, iqtisadiyyata kredit qoyuluşları özündə əks etdirən rəqəmlər bu fikirlərimizi təsdiq edir (* – *min manatla*):

**Cədvəl 1**

**Azərbaycan Respublikasında iqtisadiyyata kredit qoyuluşları (milyon manatla)**

| **İqtisadiyyata kredit qoyuluşları:** | **1993*** | **1994** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **2001** | **2002** | **2003** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 14811,8 | 135,7 | 289,8 | 364 | 408,4 | 426,7 | 443,1 | 466,4 | 486,2 | 520,2 | 670,3 |
| qısa müddətli | 14116 | 119,2 | 253 | 335,2 | 380,2 | 417,5 | 432,1 | 336,4 | 353,9 | 374,8 | 487 |
| yekuna görə, faizlə | 95,3 | 87,8 | 87,3 | 92,1 | 93,1 | 97,8 | 97,5 | 72,1 | 72,8 | 72 | 72,7 |
| uzun müddətli | 695,8 | 16,5 | 36,8 | 28,8 | 28,2 | 9,2 | 11,0 | 130 | 132,3 | 145,4 | 183,3 |
| yekuna görə, faizlə | 4,7 | 12,2 | 12,7 | 7,9 | 6,9 | 2,2 | 2,5 | 27,9 | 27,2 | 28 | 27,3 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankının hesabatlarına əasən tərtib edilmişdir*

Bank rəqabətinin güclənməsi, xidmətlərinin çeşidinin artırılması, investisiyaların genişlənməsi və bu kimi digər meyllərin artması bankları müxtəlif mənbələrdən vəsait cəlb etməkdə maraqlı edir. Belə bir şəraitdə əmanətçilərdən cəlb edilmiş vəsaitlərinin etibarlı qorunması xüsusi aktuallıq kəsb edir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və dayanıqlı innovativ iqtisadi islahatlar əhalinin də banklara olan etimadını günbəgün artırmışdır. Nəticədə vətəndaşlar tərəfindən banklara qoyulan əmanətlərin həcmi ilbəil artmışdır (şək. 1).




| | 1993* | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| əhalinin banklardakı əmanətləri (ümumi) | 834,4 | 8,4 | 12,1 | 21,9 | 31,6 | 37,5 | 51,8 | 79,3 | 117,0 | 153,4 | 251,9 |
| milli valyuta ilə | 834,4 | 8,4 | 12,1 | 21,9 | 31,6 | 12,6 | 11 | 11,8 | 12,0 | 13,5 | 18,9 |
| xarici valyuta ilə | 0 | 0 | 0 | 0 | 0 | 24,9 | 40,8 | 67,5 | 105,0 | 139,9 | 233,0 |
| əmanətlərin artımı, faizlə | 2,6 | 1 | 144 | 181 | 144,3 | 118,7 | 138,1 | 153,1 | 147,5 | 131,1 | 164,2 |

**Şək.1.** 1993-2003 cu illərdə vətəndaşların banklarda olan əmanətlərinin həcmi (milyon manatla)
***Mənbə:*** *Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankının hesabatlarına əasən tərtib edilmişdir*

2002-ci ilin oktyabr 25-də Gülüstan sarayında keçirilən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nın təqdimatına həsr edilmiş ümummilli konfransda iştirak edən Prezident Heydər Əliyev dərinməzmunlu və çoxşaxəli çıxışında bank sektorunda əldə edilmiş uğurlara da toxunmuşdur:"İndi Azərbaycanın 1 milyard 300 milyon dollar valyuta ehtiyatı var. Ancaq biz iqtisadiyyatda işlərimizə başlayanda, demək olar ki, bir dollar da valyutamız yox idi, heç nəyimiz yox idi. Hər şey dağılmışdı. İqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar biz əvvəldən, hələ 1993-1994-cü illərdən xarici investisiyaların Azərbaycana cəlb olunması məsələsini qarşıya qoyduq və bu barədə ardıcıl surətdə lazımi tədbirlər həyata keçirərək böyük uğurlara nail olduq.Xarici investisiyalar da cəlb olunmalıdır. İndi bizdə xarici investisiyalar ilbəil artır. Qarşıdakı illərdə də Azərbaycanın iqtisadiyyatına milyardlarla xarici investisiya qoyulması gözlənilir. Dünya təcrübəsindən səmərəli istifadə olunmaqla və beynəlxalq maliyyə qurumlarının – Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, İslam İnkişaf Bankının, Asiya Bankının, digər bankların yardımı, kreditləri ilə ölkəmizdə müxtəlif layihələr həyata keçiriləcəkdir. İndi biz iqtisadiyyatın mümkün potensialını hərəkətə gətirmişik".

Makroiqtisadi siyasətin koordinasiyası gücləndiriləcək, maliyyə dayanıqlılığı baxımından optimal makro-fiskal çərçivə formalaşdırılacaq və adekvat pul siyasətiaparılacaqdır. Bu siyasətin birinci pilləsində inflyasiya hədəfi, digər makroiqtisadi hədəflər və bunlara uyğun tənzimləmə alətləri, ikinci pilləsində isə maliyyə sektorunda sabitlik hədəfləri, sektorda aktivliyi və riskləri idarə edəcək alətlər yer alacaqdır. İnflyasiya hədəfinə uyğun olaraq, iqtisadiyyatın pula tələbatının ödənilməsinə xüsusi diqqət yetiriləcək, monetar idarəetmənin institusional bazası təkmilləşdiriləcəkdir. Büdcə resurslarının formalaşması və istifadəsi sahəsində fiskal intizamın təmin edilməsi, vəsaitlərin düzgün bölüşdürülməsi və xərclərin səmərəliliyinin artırılmasına xüsusi diqqət yetiriləcəkdir. Müxtəlif büdcə riskləri (xarici, maliyyə, kənarlaşma, əməliyyat riskləri və s.) üzrə çevik qiymətləndirmə aparılacaqdır. İqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid təmin ediləcək, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılmasına kömək edəcəkdir.

Müasir inkişaf mərhələsində Azərbaycanın bank sistemi (2005-ci ildən) həm nəzərəçarpacaq kəmiyyət nailiyyətləri, həm də əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə səciyyələnir. Ölkədə aparılan islahatlar bank sektoruna da öz müsbət təsirini göstərmişdir. Minimum kapital tələblərinin restrukturizasiyası və sərtləşdirilməsi, kapitalın adekvatlıq əmsalının artırılması ilə bağlı tədbirlər bu sektorun gücləndirilməsi prosesinin səmərəliliyinin təmin edilməsi üçün əsas şərtlər hesab edilir.

Xarici investorların ölkə banklarının mülkiyyət strukturu səviyyəsində iştirakı onların rəqabətqabiliyyətliliyinin artmasına, eləcə də bank sisteminin xidmətləri bazarının liberallaşdırılması kimi bir şəraitdə kapitallaşma imkanlarına birbaşa təsir göstərən ən mühüm amil kimi qəbul edilməlidir. Bu gün bank sektoru, əsasən, adekvat kapitalın həcmi ilə qiymətləndirilir. 2020-ci il yanvarın 1-nə Azərbaycanın bank sektorunda kapitalın adekvatlıq əmsalı 18 % təşkil etmişdir. Beləliklə, bu sektor öz kapitalı ilə bankların aktivlərinin etibarlı təminatına malikdir.

Ölkəmizin bank sektoru qlobal rəqəmsal transformasiyalar konsepsiyalarına uyğunlaşmağa çalışır. Rəqəmsal bank dedikdə, məhsul və xidmətlərinin əksəriyyəti rəqəmsal formada təqdim olunan bank başa düşülur. Eyni zamanda, müştəriləri bankla gündəlik ünsiyyətlərində əsasən rəqəmsal kanallardan istifadə edirlər. Bu cür bank infrastrukturu real vaxt rejimində rəqəmsal qarşılıqlı əlaqə üçün optimallaşdırılır.

Azərbaycan bu gün dayanıqlı bank sisteminə malikdir. Bu gün böyük fəxr və qürur hissi ilə deyirik ki, Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqillyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edilmişdir. Bu strateji konsepsiya ölkəmizin potensial

imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlanmışdır.

Məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bank sistemində həyata keçirilən islahatlar cənab prezident İlham Əliyev tərəfindən ugurla davam etdirilir.

Azərbaycanda rəqəmsal bankçılığın ölkədə genişləndirilməsi istiqamətində hərtərəfli işlər aparılır. Bu məqsədlə 2018-2020-ci illərdə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı qəbul edilmişdir.

Beləliklə, iqtisadi əməliyyatların şəffaflığını təmin edən rəqəmsal ödənişlərin tətbiqi və istifadəsinin genişləndirilməsi nağd pulla bağlı xərclərin, bank və qurumların əməliyyat xərclərinin azaldılmasına, bu da öz növbəsində vergitutma bazasının, eləcə də maliyyə xidmətlərindən istifadə imkanlarının genişlənməsinə, nəticədə iqtisadi artıma təkan verəcək.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Respublika Milli Bankının yeni inzibati binasının açılış mərasimində nitqi (6 oktyabr 1998-ci il) [elektron resurs] URL: https://lib.aliyev-heritage.org/az/4079236.html (son müraciət: 28.01.2023)

2. Azərbaycan Prezidenti Heydər Əliyev Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətini qəbul etmişdir [elektron resurs] URL: https://azertag.az/xeber/-964663 (son müraciət: 28.01.2023)

3. "Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqamı"nın təqdimatına həsr olunmuş ümummilli konfransda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi (25 oktyabr 2002-ci il)

4. "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Bakı, 2019

5. Maliyyə sağlamlığına baxış. Bakı: Azərbaycan Respublikası Mərkəzi Bankı, 2018

6. Гаджиев Д.Ф. (2018), "Денежно-кредитная система и Международный банк Азербайджана". Москва: Финансы и статистика, 240 с.

7. Исмаилов Э.М. (2019), "Валюты стран Центральной Евразии в условиях финансовой глобализации". Стокгольм: CA&CC Press, 132 с.

8. Рустамов Э.С. (2017), "Экономическая модернизация Азербайджана: вызовы и решения". Москва: Эконом-Информ, 367 с.

## HEYDAR ALIYEV AND WAYS OF DEVELOPMENT OF THE BANKING SYSTEM OF AZERBAIJAN

**E.Sadıgov**
doctor of economic sciences, professor
Mingachevir State University

***Abstract:*** *In every society, a bank, as a specialized organization, differs from other enterprises producing material goods. If enterprises differ in the variety of goods and services they produce, then the bank differs in the production of a specific product – money, payment transactions. The main product of banks in the service sector is not the production and consumption of goods, but credit operations and the production of money. The bank employs specialized personnel who carry out monetary transactions, analyze information, carry out settlements and ensure interaction between enterprises and clients.*

***Keywords****: bank, money, credit, payment cycle, government policy, calculations, national currency*

# ГЕЙДАР АЛИЕВ И ПУТИ РАЗВИТИЯ БАНКОВСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

**Э.М.Садыгов**
доктор экономических наук, профессор
Мингячевирский государственный университет

***Резюме:*** *В каждом обществе банк, как специализированная организация, отличается от других предприятий по производству материальных товаров. Если предприятия различаются по разнообразию производимых товаров и услуг, то банк отличается производством специфического товара – денег, операций по оплате. Основным продуктом банков в сфере услуг является не производство и потребление товаров, а кредитные операции и производство денег. В банке работает специализированный персонал, осуществляющий денежные операции, анализирующий информацию, проводящий расчеты и обеспечивающий взаимодействие между предприятиями и клиентами.*

***Ключевые слова****: банк, деньги, кредит, платежный цикл, государственная политика, расчеты, национальная валюта*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 26.06.2023**
**Çapa qəbul edilib: 03.07.2023**

UOT 338.45; 316.37

# AZƏRBAYCANDA SƏNAYENİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV İRSİ

**Rövşən Rizvan oğlu Əliyev**
texnika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
rovshan.aliyev@mdu.edu.az

***Xülasə:*** *Görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin Azərbaycan Respublikasına ilk dəfə hakimiyyətə gəldiyi dövrdə Sovetlər Birliyində ölkəmiz iqtisadi göstəricilərə görə ən sonuncu yeri tuturdu. Onun siyasi nüfuzu, gərgin əməyi sayəsində qısa müddət ərzində onlarla zavodlar, fabriklər tikilib istifadəyə verilmişdir.*

*Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəldiyi dövrdə (1993-2003-cü illər) neft-qaz sənayesi sahəsindəki 1994-cü ildə "Əsrin müqaviləsi" kontraktı imzalanmışdır. Artıq 1995-1996-cı illərdə ölkədə siyasi sabitlik təmin olunandan sonra Ulu Öndərin rəhbərliyilə iqtisadiyyatın sabitləşməsini özündə əks etdirən ən mühüm iqtisadi göstəricilər – ümumi daxili məhsul, sənaye və kənd təsərrüfatı məhsulu, kapital qoyuluşu özündən əvvəlki ilə nisbətən artmağa başlamışdır. Ulu öndər Heydər Əliyev ölkədə istehsal və xidmət sahələrinin fəaliyyət göstərməsinə xüsusilə diqqət yetirmişdi.*

*Bu gün Ulu Öndərin sənaye siyasəti Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkədə sənayeləşmənin milli dövlət standartı işləniş hazırlanmışdır. Ölkə başçısının müvafiq fərmanları ilə regionlarda istifadəyə verilən sənaye parkları və məhəllələri Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında mühüm rol oynayır.*

*Bu gün Heydər Əliyev Fondu Ulu Öndərin irsi ilə ləyaqətlə yaşayır. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu Öndərin siyasətini uğurla həyata keçirir və bu irsi layiqincə qoruyub saxlayır. Bu fond dünyanın ən nüfuzlu xeyriyyə təşkilatına çevrilmişdir.*

***Açar sözlər:*** *Ulu Öndər, Sovetlər Birliyi, sənaye, istehsal, məişət xidməti, zavod, fabrik, müəssisə, məhsul, istehsal gücü, texniki qurğular, sosial-iqtisadi, qeyri-neft sektoru, texnopark, sənaye məhəlləsi, innovasiya, informasiya texnologiyaları*

## Azərbaycanın inkişafında tarixi missiya

Tale, çətin və ağır günlərdə xalqın xilaskarı kimi göndərdiyi şəxsiyyəti əvəzolunmaz lider, görkəmli ictimai-siyasi xadim, professional siyasətçi kimi qəbul edir. Başqa sözlə desək, xalqımız ağır sınaqlarla üzləşdiyi ən mərəkkəb vaxtlarda ona bu böyük şəxsiyyəti – Heydər Əliyevi xilaskar kimi yetirdi.

Bütün azərbaycanlıların ümummilli lideri vətən, xalq və dövlətlə ən yüksək hisslərlə bağlı olan, həyatını əriyən şam kimi bu xalqın, ölkənin inkişafı, çiçəklənməsi və tərəqqisi yolunda yaşamış Heydər Əliyev hesab olunur.

Keçən əsrin ikinci yarısından etibarən Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əvəzsiz xidmətləri Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəldiyi 14 iyul 1969-cu ildən uğurla başlamışdır.

Sovet rejiminin sərt qanunlarının qüvvədə olduğu illərdə Heydər Əliyevin milli fanatizmi və qətiyyətli addımları sayəsində Azərbaycan öz milli dövlətçilik və müstəqillik ənənələrini bərpa etməyə başladı. Görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi respublikamızın demək olar ki, bütün sahələrində böyük inkişafa, sözün əsil mənasında iqtisadi, elmi, ədəbi və mədəni inkişafda sıçrayışa səbəb oldu. Ulu Öndərin əvəzsiz səyləri nəticəsində Azərbaycanda müstəqil təfəkkürə yol açıldı və bu, uzun illər sovet təsiri altında işləyən xalqımızın müstəqilliyi yolunda vacib addım oldu.

Azərbaycan zəngin təbii ehtiyatlara və yüksək istehsal potensialına malik ölkə olmasına baxmayaraq, milli gəlirin inkişaf tempi, sənaye və kənd təsərrüfatı istehsalının həcmi, elmi-texniki tərəqqinin istehsalatda tətbiqi və əmək məhsuldarlığı baxımından, yuxarıda deyildiyi kimi, ümumittifaq göstəricilərindən xeyli geri qalmışdı. Eyni zamanda, respublikada iqtisadi və siyasi böhran hökm sürürdü və dərinləşirdi.

Ulu öndər Heydər Əliyev Azərbaycanda iqtisadiyyatın inkişaf etdirilməsi üçün öz nüfuzundan və şəxsi keyfiyyətlərindən istifadə edərək o zamankı Sovetlər Birliyinin Nazirlər Soveti qarşısında ölkənin iqtisadiyyatının dirçəldilməsi üçün vəsatət qaldırmış, nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsinə nail olmuşdur. Qısa müddət ərzində Azərbaycanda sənaye məhsulları istehsalındakı gerilik aradan qaldırıldı. 1982-ci ildə tək sənayedə 1969-cu ildə istehsal edilmiş milli gəlirin həcmindən 36,6 faiz çox xalis məhsul istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, bu illərdə milli gəlirin 43-47 faizi sənayedə istehsal edilirdi.

1969-1982-ci illərdə ölkə iqtisadiyyatının mühüm aparıcı və böyük potensiala malik olan sənaye sahəsində digər sahələrdə olduğu kimi yüksək nailiyyətlər əldə edilmişdir. Bu zaman kəsiyində sənaye məhsulları istehsalının real həcmi 2,7 dəfə atmışdır. Respublikanın sənayesi keçmiş İttifaqın bütün respublikaları arasında daha yüksək sürətlə (orta illik artım 7,9 faiz) inkişaf edirdi. Sənaye istehsalının 13 il ərzində ümumi həcmi müharibədən sonrakı bütün dövrün (1970-ci ilə qədər) istehsalını 2 dəfə üstələmişdir. Bu dövrdə Respublikanın ərazisi üzrə məhsuldar qüvvələrin inkişafında və yerləşdirilməsində böyük irəliləyişlər baş vermişdi. Əgər 1969-cu ildə bütün sənaye məhsulunun 57 faizi Bakı şəhərində yerləşən müəssisələr tərəfindən istehsal olunurdusa, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naxçıvan, Xankəndi, Yevlax, Şəki, Lənkəran şəhərlərinin sənayesinin inkişaf etdirilməsi nəticəsində onların payı ilbəil artaraq, 1982-ci ildə 51 faizə çatmışdir. Bakı şəhərinin sənaye məhsulunun xüsusi çəkisinin azalmasına baxmayaraq, 1970-ci illə müqayisədə istehsalının həcmi 2 dəfə artmışdır. [1, s. 15]. O illərdən bəri, demək olar ki, Azərbaycanda istehsal və xidmət sahələrinin inkişafının əsası qoyuldu. Görülən əməli tədbirlər nəticəsində neft-qaz, neft-kimya, energetika, maşınqayırma, metallurgiya, yüngül, yeyinti və digər sənaye sahələrinin inkişafına nail olunmuşdur.

**1969-1982-ci illərdə Ulu Öndərin rəhbərliyi dövründə ölkədə sənaye və xidmət sahələrinin formalaşmasında rolu**

1969-1982-ci illər ərzində Azərbaycanda 213 yeni sənaye müəssisələri istismara verilmişdir. Bu sənaye müəssisələrinə Bakı Məişət Kondisionerləri zavodu, Tikiş, Ayaqqabı hissələri fabrikləri, Şampan Şərab zavodu; Salyan Plastmass Emalı zavodu; Sumqayıtda Sintetik Kauçuk zavodu, Yuyucu Vasitələr zavodu, Kompresor zavodu, Üst Trikotaj fabriki; Gəncədə Çini Qablar zavodu, Mingəçevir Texniki-Rezin Məmulatı zavodu; Lənkəranda Konserv zavodu, Çay fabriki; Naxçıvanda Şüşə Qablar zavodu; Kəlbəcərdə "İstisu" mineral zavodu; Yevlaxda Yunun İlkin emalı fabriki və s. kimi böyük iqtisadi potensiala malik müəssisələr bu illərdə tikilib istifadəyə verilmişdir. Göstərilən 13 il ərzində istehsal olunan sənaye məhsulları öz həcminə görə 50 ilə bərabər idi. Bu illərdə bütün maneələrə baxmayaraq, Azərbaycanda hər bir istehsal müəssisəsinin inşa edilib istismara verilməsinin arxasında Ulu Öndərin şəxsi iradəsi, nüfuzu və böyük əzmkarlığı dayanırdı.

1973-1982-ci illərdə fəaliyyət göstərən bir neçə sənaye müəssisələrinin fəaliyyətinin təhlili aparılmışdır. O dövrdə respublikanın qarşısında duran ən vacib məsələlərdən biri kimya sənayesinin inkişaf etdirilməsi dururdu. Yeni kimya müəssislərinin inşa etdirilməsi, fəaliyyətdə olanların istehsal proseslərinin təkmilləşdirilməsi həyata keçirildi. Kimya sənayesi üzrə Sumqayıt Sintetik Kauçuk zavodunda yüksək təzyiqli polietilen, butil-kauçuk, butil-stirol lateks istehsalı üçün yeni avadanlıqlar alınaraq istifadəyə verilmişdir. Yüksək markaya malik kauçuk sexinin yenidən qurulması Bakı şin zavodunun yerli xammala təchiz olunmasına şərait yaratmışdır.

1973-cü ildə Gəncə Çini qablar zavodu inşa edilərək istifadəyə verilmişdir. Zavod istehsal etdiyi Şərq dəstləri, çay, kasa, şərbət, gülab dəsti, piyalə, çaydan və s. məhsullarla keçmiş Sovetlər Birliyi ölkələrini təmin etməklə bərabər xarici ölkələrə də (Çexoslovakiya, Rumıniya, Macarıstan, Yaponiya və s.) ixrac edilirdi. Zavodda 2500 nəfərədək işçi çalışırdı.

1975-ci ildə SSRİ-də ilk məişət kondisionerləri zavodu (SSRİ Nazirlər Sovetinin qərarına əsasən əvvəlcə Daşkənd, daha sonra Zaporojye şəhərlərində tikilməsinin nəzərdə tutulmasına baxmayaraq) Bakı şəhərində fəaliyyətə başlamışdır. Birinci il zavod 25 min kondisioner istehsal etmişdir. Sonrakı illərdə bu rəqəm il ərzində 430 mini ötmüşdür. Bakı Məişət Kondisionerləri Zavodunun məhsullarına həmişə böyük tələbat olub. Hər il Kubaya, Misirə, Avstraliyaya, İrana, Çinə və s. xarici ölkələrə 120-150 min kondisioner satılmışdır. Sovet vətəndaşları üçün isə bu kondisionerlər isti yay günlərində rahatlıq simvolu sayılırdı. Zavodda 7.5 min işçi çalışırdı [2].

Əhalinin gündəlik tələbatını ödəmək üçün Sumqayıt yuyucu vasitələr zavodu tikilərək istifadəyə verilmişdir. 1975-ci ildə Sumqayıt superfosfat zavodunda texnoloji proseslər sahəsində aparılmış təkmilləşdirmələr, xarici ölkədən alınan yeni avadanlıqların hesabına sulfat turşusunun istehsal gücü ildə 450000 tona çatdırılmasına nail olunmuşdur. Superfosfat zavodunun 2 saylı sulfat turşusu sexində yüksək texniki xidmətin nəticəsi olaraq göstərici həmişə yüksək olmuşdur. Təkcə 1981-ci ilin birinci kvartalında öhdəlik hesabına 432 ton məhsul təhvil verilmişdir. Bu 15 min 552 manatlıq əlavə məhsul deməkdir. Aprel ayında planın 3,3 faizi qədər, yəni 305 ton əlavə sulfat turşusu istehsal edilmişdir [3].

Neft sənayesinin ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayacağını düşünən Ulu öndər Heydər Əliyev bu sahədə fəaliyyət göstərən alimləri, elmi-tədqiqat institutlarının aparıcı mütəxəssislərini Bakıya dəvət edərək, bu sahədə yeni texnologiyaların tətbiq edilməsinin müzakirə olunmasına nail olmuşdur.

Beləliklə, Ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə Sovetlər Birliyində ölkəyə birinci rəhbərliyi dövründə bütün maneələrə, çətinliklərə baxmayaraq, ölkədə sənayenin inkişafı sahəsində qarşısına qoyduğu məqsədlərə çatması üçün bütün zəruri addımlardan istifadə edərək onların reallaşdırılmasına nail oldu.

Heydər Əliyevin Azərbaycanın sənaye sahəsinin formalaşması və iqtisadi inkişafına böyük təsiri olmuşdur. Onun iqtisadi siyasətləri və liderliyi, ölkəni energetik inkişafın, sənaye sahəsinin inkişafının və xarici investisiyaların cəlb edilməsinin təminatçısı olmuşdur. Heydər Əliyev dövründə Azərbaycan sənaye sahəsinin diversifikasiyasına diqqət yetirilir. Bu, neft və qaz sahələrinin yanı sıra başqa sənaye sahələrinin inkişafına da yol açır. Bu, iqtisadi çeşidliliyi artırmağa və ölkənin uzunmüddətli iqtisadi inkişafına nail olmağa kömək edir [5].

Onu da etiraf etmək lazımdır ki, Heydər Əliyevin hakimiyyətdə olduğu ilk illərdə göstərdiyi şəxsi səylər nəticəsində Azərbaycanda yaradılan sənaye kompleksləri Ulu Öndərin yoxluğu dövründə – 1987-1993-cü illərdə sürətlə tənəzzülə uğradı və həyata keçirilən böyük nailiyyətlər itirildi. Yeni antimilli mərkəzlərin oyuncaqlarına çevrilmiş dövlət hakimiyyəti orqanlarının yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanda işlək vəziyyətdə olan zavodlar, fabriklər, kombinatlar fəaliyyətlərini dayandırdı, ölkə daxilində olan qara və qiymətli metalların xarici ölkələrə daşınması sayəsində əksər istehsal sahələri öz fəaliyyətlərini dayandırdı.

Qeyd olunan 6 il – “Heydər Əliyevin yoxluğu illəri” Azərbaycanın həyatında olum-ölüm sınağında mübarizə apardığı illər idi. 1988-ci ildən bəri kəskinləşən vəziyyət tezliklə Qarabağ müharibəsinə gətirib çıxardı. Sonra respublikamızın qarşısında müstəqilliyini itirmək təhlükəsi yarandı: vətəndaş müharibəsi, siyasi böhran, sosial fəlakətlər ölkəni sarsıtmağa başladı. Dövlət hakimiyyətinin idarəedilməsini bacara bilməyən antimilli qüvvələrin xəyanəti sayəsində torpaqlarımız bir-birinin ardınca işğal edildi, bir milyondan artıq soydaşımız öz evlərini tərk edərək, başqa şəhər və rayonlarımıza köç etmək məcburiyyətində qaldı. Onsuz da uçurumun kənarında olan Azərbaycanın çıxılmaz vəziyyəti daha da ağırlaşdı.

Baxmayaraq ki, Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bəyan etdi, ancaq əslində real müstəqilliyə 1993-cü ildə nail olunmuşdur. Həmin il xalqın israrlı tələb və xahişindən sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanda iqtisadi inkişaf dövrünün ikinci mərhələsi (1993-2003-cü illər) başlandı.

**1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi dövründə ölkədə sənaye və xidmət sahələrinin formalaşmasında rolu**

Azərbaycana ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər çox qısa zamanda aparılmış uzaqgörən siyasət və həyata keçirilən əməli tədbirlər nəticəsində ölkənin hərtərəfli inkişafına nail oldu. Hər şeydən əvvəl, ölkədəki vətəndaş müharibəsinin qarşısı alınmış, respublikanı dağılma təhlükəsindən azad etmişdir. Yüksək dövlət idarəçilyi qabiliyyəti sayəsində ictimai-siyasi sabitliyi bərpa edən rəhbər vətəndaş cəmiyyətinin əsasını qoydu.

Ulu öndər Heydər Əliyevin neft-qaz sənayesi sahəsindəki həyata keçirdiyi titanik fəaliyyətini Azərbaycanı gələcəkdə sosial-iqtisadi inkişafa aparan yol xəritəsi kimi də qiymətləndirmək olar. Belə ki, 1994-cü ildə "Əsrin müqaviləsi" və sonralar bağlanmış 20 neft müqavilələrinin imzalanması ilə dünyanın aparıcı dövlətlərinin neft şirkətlərinin Xəzər hövzəsində külli miqdarda investisiya yatırması, Azərbaycana həm də ən müasir innovasiya və informasiya texnologiyalarını gətirmişdir.

Ulu öndər Heydər Əliyev eyni zamanda, Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoydu.

1995-1996-cı illərdə böhrandan çıxan iqtisadiyyat əsasən sabit inkişaf yoluna düşmüş, ölkədə siyasi sabitlik təmin olunmuş, islahatların keçirilməsi geniş vüsət almış, bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafı üçün normativ-hüquqi baza yaradılmışdır.

1995-1997-ci illərdə özündən əvvəlki ilə nisbətən mühüm iqtisadi göstəricilərin dəyişməsi meylləri aşağıdakı cədvəldə verilmişdir [6, s. 111].

**Cədvəl 1**

**1995-1997-ci illərdə Azərbaycanda sosial-iqtisadi göstəricilər**

| **Əsas göstəricilər** | **Əvvəlki ilə nisbətən** | | |
|---|---|---|---|
| | **1995** | **1996** | **1997** |
| ÜDM | 88,2 | 101,3 | 105,8 |
| Sənaye məhsulu | 78,6 | 93,3 | 100,3 |
| Kənd təsərrüfatı məhsulu | 93,0 | 103 | 93,1 |
| Kapital qoyuluşu | 82,0 | 2,1 d. | 167 |
| Əmtəə dövriyyəsi | 102 | 114,1 | 114.9 |
| Əhaliyə pullu xidmət | 75,6 | 115,7 | 111,1 |
| Əhalinin pul gəlirləri | 5,5 dəfə | 140 [1] | 150 |
| Əmək haqqı | 407,6 | 143,1 | 158,5 |
| İxrac | 100,1 | 99,1 | 123,8 |
| İdxal | 85,8 | 143,9 | 82,7 |

Ulu öndər Heydər Əliyev ölkədə istehsal və xidmət sahələrinin fəaliyyət göstərməsinə xüsusilə diqqət yetirmişdi. Buna misal olaraq, Şəki şəhərində ipək kombinatının öz fəaliyyətinin bərpası üçün 300 min AZN faizsiz kredit və 100 min AZN maliyyə yardımı ayrılmasını göstərmək olar. Sumqayıt, Şirvan, Neftçala, Mingəçevir, Salyan, Lənkəran şəhərlərində müxtəlif mənbələrdən istehsal və xidmət sahələrinə investisiya qoyulması da təmin edilmişdir.

Belə tədbirlər nəticəsində 2001-2002-ci illərdə istehsal və xidmət sahələrində bazar münasibətləri hökmran mövqe tutmuşdur. İqtisadiyyatın digər sahələrinə investisiya qoyuluşu imkanları genişlənmiş, ÜDM, sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artımı sürətlənmişdir. Özəl sektor ÜDM istehsalında həlledici mövqe tutmuşdur. Onun xüsusi çəkisi 1995-ci ildəki 32-33 %-dən 72 %-ə çatmışdır [6, s. 110-132].

Son olaraq qeyd etmək olar ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın sənaye sektorunda mühüm irəliləyişlər baş verdi.

Neft və Energetika Sənayesi: Azərbaycanın enerji sektoru Heydər Əliyev dövründə böyük transformasiya yaşadı. Ölkənin Xəzər dənizindəki zəngin neft və təbii qaz ehtiyatları beynəlxalq investisiyaları cəlb etməyə başladı. Bu dövrdə Azərbaycanın enerji infrastrukturu inkişaf etdirilmiş,

Xəzər dənizində neft və təbii qaz yataqlarının işlənilməsi üçün beynəlxalq enerji şirkətləri ilə müqavilələr bağlanmışdır.

Kimya və Neft-Kimya Sənayesi: Azərbaycan neft-kimya məhsullarının istehsalı sahəsində mühüm addımlar atmışdır. Heydər Əliyevin dövründə neft-kimya müəssisələri tikilmiş, ölkənin neft və təbii qaz ehtiyatları neft-kimya məhsullarının istehsalına imkan vermişdir.

Metallurgiya Sənayesi: Metallurgiya sənayesi xüsusilə dəmir və polad istehsalı sahəsində inkişaf etmişdir. Ölkənin təbii sərvətləri metallurgiya sektorunun inkişafına kömək etdi.

Müdafiə Sənayesi: Azərbaycan müdafiə sənayesinin inkişafına böyük əhəmiyyət verirdi. Müdafiə sənayesi silah və hərbi texnika istehsalında böyük irəliləyiş əldə edib.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan energetika, neft-kimya, metallurgiya və müdafiə sənayesindəki inkişaflar hesabına iqtisadiyyatını şaxələndirməyə və inkişaf etdirməyə çalışırdı. Bu hadisələr ölkənin iqtisadi müstəqilliyini artırdı və Azərbaycanı regional gücə çevirdi.

Bununla belə, Azərbaycanın sənaye sektorunun davamlılığına onun enerji mənbələrindən həddindən artıq asılılığını azaltmaqla və digər sektorlara şaxələndirmək yolu ilə nail olmaq olar. Bundan əlavə, davamlılıq və ətraf mühitə təsirlər nəzərə alınmaqla sənaye artımı planlaşdırılmalıdır.

Bunun nəticəsidir ki, Heydər Əliyev dövrü Azərbaycanın sənaye sektorunda böyük irəliləyişlər əldə etdiyi, ölkənin iqtisadi potensialının yüksəldiyi dövr kimi yadda qalıb. Bununla belə, Azərbaycanın gələcək uğurunu sənaye sektorundan enerji mənbələrindən asılılığını azaltmaqla və şaxələndirməyə yönəltməklə əldə etmək olar.

**Heydər Əliyev fəaliyyətinin zirvəsi**

Bu gün Heydər Əliyevin titanik fəaliyyəti və ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır. Bunun bariz nümunəsi 11 fevral 2004-cü il tarixdə qəbul edilmiş 2004-2008-ci illər üçün "Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nın qəbul olunması oldu. Bu proqramın əsas məqsədi regionların təbii şəraitindən və sərvətlərindən səmərəli istifadə etməklə qeyri-neft sənaye sektorunun, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin səviyyəsini artırmaq, kənd təsərrüfatı məhsulları istehsalını yüksəltmək və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırmaqdan ibarət olmuşdur.

Sənayenin modernləşdirilməsi – istehsalın avtomatlaşdırılması, əl əməyinin mexanikləşdirilməsi və onun strukturunun təkmilləşdirilməsi prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlət başçısı ölkəmizdə sənayeləşmənin müasir dövlət standartları səviyyəsinə çatdırılması, dünya bazarında rəqabətqabiliyyətli sənaye məhsulu istehsalının çeşidlərinin artırılması məqsədi ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-cı illər üçün Dövlət Proqramı"nı təsdiq etmiş, 2014-cü ili "Sənaye İli" elan etmişdir [7].

Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayenin modernləşdirilməsi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu tipli təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Kimya sənayesinin inkişaf etdirilməsi məqsədi ilə 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına qərar verilmişdir. "Glassica" QSC-nin Şüşə tara məhsullarının istehsalı müəssisəsində müxtəlif çeşidli rəngli şüşə tara məhsulları (butulka) təşkil edir. Müəssisədə istehsal olunan məhsullar daxili tələbatı tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcək

2016-cı ildə istifadəyə verilmiş Qaradağ Sənaye Parkının ilk rezidenti statusu almış "Bakı Gəmiqayırma Zavodu" MMC-nin fəaliyyət göstərməsinə dövlət tərəfindən hərtərəfli şərait yaradılmışdır. Müəssisə ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. Bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan dörd və ya 70 min ton yükgötürmə qabiliyyəti olan iki tanker və dörd özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək mümkündür. Zavodun Bakı Beynəlxalq Dəniz Ticarət Limanına yaxın olması gələcəkdə sinerji effekti yaradacaqdır. Bakı Gəmiqayırma Zavodu Azərbaycanın gəmiçilik

sahəsində idxaldan asılılığını aradan qaldıracaq və Xəzər donanmasını müasirləşdirməyə imkan verəcəkdir ki, bununla da Azərbaycanın dəniz dövləti kimi qüdrəti artacaqdır.

2018-ci ildə Prezident İlham Əliyev Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışında iştirak etmişdir. Burada yaxın gələcəkdə yüngül sənaye məhsulları, o cümlədən toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə yeni 9 fabrikin yaradılması da nəzərdə tutulmuşdur. Pambıqçılığın sürətlə inkişafı qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilini tələb edir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə yaradılan bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına, ölkəyə əlavə valyuta axınına imkan verəcəkdir.

2019-cu ildə Pirallahı Sənaye Parkında Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşmış "Diamed Co" şpris zavodu istifadəyə verilmişdir.

15 avqust 2023-cü ildə Bakının Pirallahı rayonunda “Diamed” dərman istehsalı zavodunun açılmışdır. Zavodda müxtəlif adlarda, geniş çeşiddə (NaCl 0,9 faiz; Ringer; Ringer laktat; Qlükoza və s.) və müxtəlif həcmlərdə (100 ml, 200 ml, 250 ml, 400 ml, 500 ml) həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Ölkəmizin bu dərmanlara olan illik tələbatı isə təxminən 15 milyon litrdir. Beləliklə, müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur [8].

Prezident İlham Əliyev, eyni zamanda, Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Ölkənin sosial-iqtisadi inkişaf strategiyasını uğurla həyata keçirdiyi kimi, ordu quruculuğunda da, ölkənin milli təhlükəsizliyinin təmin edilməsində də, işğal altında olan torpaqlarımızın azad edilməsində də göstərdiyi cəsarəti, qətiyyəti, iradəni də uğurlu addım hesab edilir. Onun rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə başlayan və cəmi 44 gün davam edən müharibənin, Ermənistanın noyabrın 8-də Şuşa yaxınlığında qələbə ilə başa çatan müharibədə kapitulyasiya və məğlubiyyət aktını imzaladığının şahidi olduq. Cəsur Azərbaycan Ordusunun adını çəkəndə titrəyən düşmən Ağdam, Kəlbəcər və Laçını döyüşsüz təslim etmək məcburiyyətində qaldı, çünki əvvəlcədən məhkum olduğunu bilirdi.

Bu böyük qələbə Ulu öndər Heydər Əliyevin yürütdüyü uğurlu siyasətin və bu siyasəti uğurla davam etdirən cənab Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsi idi. Ona görə də müharibənin bitdiyi gün cənab prezident Fəxri xiyabana gəldi, Ulu Öndərin məzarını ziyarət etdi və ata vəsiyyətini yerinə yetirdiyinə görə özünü xoşbəxt hiss etdiyini bildirdi.

Heydər Əliyev – “Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm”, - deyə öz fikrini inamla ifadə etmişdir [9].

**Heydər Əliyev irsi ləyaqətlə yaşayır**

Xüsusi vurğulamaq lazımdır ki, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu Öndərin siyasətini uğurla həyata keçirir və bu irsi layiqincə qoruyub saxlayır. Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu dünyanın ən nüfuzlu xeyriyyə təşkilatına çevrilib. Dünyanın müxtəlif ölkələrində həyata keçirilən xoşməramlı missiyalar və müxtəlif layihələr Ulu Öndərin təbliğatının təbliğinə yönəlmişdir.

Bu gün biz Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurda fəaliyyətinin ən parlaq təzahürünü müşahidə edirik. Fond işğaldan azad edilmiş rayonlarımızda birinci xanım Mehriban Əliyevanın bilavasitə şəxsi nəzarəti və diqqəti altında həyata keçirilən bərpa və yenidənqurma prosesinin ön sıralarında yer alır. Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda düşmən vandallar tərəfindən dağıdılmış tarixi-mədəni və dini irsimizin bərpası istiqamətində mühüm işlər görür.

Qarabağ münaqişəsini “Dəmir yumruq” qüvvəsi ilə “tarixin arxivi”nə göndərən qalib Baş Komandan İlham Əliyev Azərbaycanın həyatında yeni səhifə açdı və yeni reallıqların yaranması üçün zəmin yaratdı. Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün yeni

əməkdaşlıq platformalarının yaradılmasını təklif edən Azərbaycan Prezidenti Azərbaycanı Avrasiyada da mühüm nəqliyyat-logistika ünvanına çevirmişdir.

Bütün bunlar Heydər Əliyev dahisinin xalqımızın rifahı və xoşbəxtliyi üçün tərtib etdiyi, prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl yol xəritəsinin uğurlu davamıdır və gələcək nəsillərimiz bu iki şəxsiyyətin yaratdığı mükəmməl dövlətçilik zəminində inamlı addımlarla irəliləyəcəklər.

**İstifadə edilmiş ədəbiyyat**

1. [elektron resurs] URL: https://www.stat.gov.az/source/others/H.Aliyev/Pdf/14-21.pdf
2. [elektron resurs] URL: https://e-derslik.edu.az/books/272/units/unit-1/page146.html
3. Quliyev S. Mayaklar. Sosialist Sumqayıtı. 21 may 1981-ci il
4. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
5. URL: http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_may2009/78373.htm
6. [elektron resurs] URL: https://www.stat.gov.az/source/others/H.Aliyev/Pdf/110-132.pdf
7. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 26 dekabr 2014-cü il, № 964
8. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı [elektron resurs] URL: https://president.az
9. [elektron resurs] URL: https://www.qanunla.az/heyder-eliyev-gun-o-gun-olacaq-ki-novruz-bayramini-bir-defe-susada-o-biri-il-lacinda-o-biri-il-kelbecerde-agdamda-fuzulide-cebrayilda-zengilanda-qubadlida-kecireceyik-2/

## HEYDAR ALIYEV'S LEGACY IN THE FORMATION OF INDUSTRY IN AZERBAIJAN

**R.Aliyev**
doctor of philosophy in technics, associate professor
Mingachevir State University

***Abstract:*** *At the time when Heydar Aliyev, a prominent social and political figure, first came to power in the Republic of Azerbaijan, our country ranked last in the Soviet Union in terms of economic indicators. Thanks to his political influence and hard work, dozens of plants and factories were built and put into use in a short period of time.*

*During the period when the great leader came to power for the second time (1993-2003), the "Contract of the Century" contract in the field of oil and gas industry was signed in 1994. Already in 1995-1996, after political stability was ensured in the country under the leadership of the great leader, the most important economic indicators reflecting the stabilization of the economy - gross domestic product, industrial and agricultural output, capital investment began to increase compared to the previous year. The great leader Heydar Aliyev paid special attention to the functioning of production and service sectors in the country.*

*Today, the industrial policy of the great leader is successfully continued and developed by the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev. A national state standard of industrialization has been developed in the country. The industrial parks and districts put into use in the regions by the relevant decrees of the head of the country play an important role in the sustainable development of the non-oil industry in Azerbaijan.*

*Today, the Heydar Aliyev Foundation lives with dignity with the legacy of the great leader. The Heydar Aliyev Foundation, under the leadership of First Vice-President Mrs. Mehriban Aliyeva, successfully implements the policy of the great leader and properly preserves this legacy. This foundation has become the most influential charity organization in the world.*

***Keywords:*** *great leader, Soviet Union, industry, production, consumer services, plant, factory, enterprise, products, production facilities, technical facilities, socio-economic, non-oil sector, techno park, industrial quarter, innovation, information technology*

## НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА В СТАНОВЛЕНИИ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Р.Р.Алиев**
доктор философии по технике, доцент
Мингяевирский государственный университет

***Резюме:*** *Выдающийся общественно-политический деятель Гейдар Алиев в период первого прихода к власти, республика в Советском Союзе по экономическим показателям занимал последнее место. Благодаря его политическому авторитету, упорному труду за короткий срок были построены и введены в эксплуатацию десятки заводов и фабрик.*

*В период второго прихода к власти великого лидера (1993-2003 годы) в нефтегазовой промышленности в 1994 году был подписан контракт "Контракт века". Уже после обеспечения политической стабильности в стране в 1995-1996 гг. под руководством великого лидера начали расти важнейшие экономические показатели, отражающие стабилизацию экономики – валовой внутренний продукт, промышленная и сельскохозяйственная продукция, капиталовложения по сравнению с предыдущим годом. Великий лидер Гейдар Алиев уделил особое внимание функционированию производственных и сервисных сфер в стране.*

*Сегодня промышленная политика великого лидера успешно продолжается и развивается Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым. В стране разработан национальный государственный стандарт индустриализации. Соответствующими указами Главы государства, введены в эксплуатацию в регионах промышленные парки и кварталы, играют важную роль в устойчивом развитии не нефтяной промышленности в Азербайджане.*

*Сегодня Фонд Гейдара Алиева достойно живет наследием великого лидера. Под руководством первого вице-президента Мехрибана Алиева, Фонд Гейдара Алиева успешно реализует политику великого лидера и достойно сохраняет это наследие. Этот фонд стал самым влиятельным благотворительной организацией в мире.*

***Ключевые слова:*** *великий лидер, Советский Союз, промышленность, производство, бытовое обслуживание, завод, фабрика, предприятие, продукция, производственные мощности, технические сооружения, социально-экономический, ненефтяной сектор, технопарк, промышленный квартал, инновации, информационные технологии*

**Elmi redaktor: i.f.d., dos. E.Hüseynova**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 26.06.2023**
**Çapa qəbul edilib: 03.07.2023**

UOT 336.1; 336.22; 316.37

# AZƏRBAYCANIN DAYANIQLI MALİYYƏ SİSTEMİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Nüşabə Astan qızı Qədimli**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
nushaba.qedimli@mdu.edu.az

***Xülasə:*** *Ölkəmizin sürətli inkişafı, regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.*
***Açar sözlər:*** *Azərbaycan iqtisadiyyatı, açıq iqtisadiyyat, sosial-iqtisadi dirçəliş*

## Giriş

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli lider, dünyada nüfuzlu siyasətçi və dövlət xadimi Heydər Əliyev doğma xalqı tərəfindən sonsuz məhəbbətlə sevilir, müqəddəs ruhu hər bir azərbaycanlı tərəfindən böyük ehtiramla yad edilir, uşaqdan böyüyə hər bir ölkə vətəndaşı onu özünə örnək sayır. Tarixi səhifələdikdə liderə bəslənən belə sonsuz sevdi, heç bir dövlət başçısına qismət olmadığının şahidi oluruq. Dahi Şəxsiyyəti insanların qəlbində bu qədər ucaldan, müqəddəsləşdirən isə onun xalqına olan bağlılığı, saf, təmiz duyğuları, vətəninə bəslədiyi əsil ana sevgisi idi. Xalqımızın müdrik oğlu bütün sağlam fəaliyyətini vətəninin tərəqqisinə, xalqının firavan yaşamasına həsr etmiş, bunun üçün bütün şüurlu həyatında gərgin mübarizə apararaq, xəyalında canlandırdığı Azad Azərbaycan ideyasına böyük çətinliklər bahasına nail olmuşdur.

Məlimdur ki, bu gün qloballaşan dünyada ən görkəmli siyasətçilər, şəxsiyyətin üstünlüyünün əsasını müasir dövrün ən aparıcı inkişaf amili hesab edirlər. Hər bir müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu, cəmiyyətin inkişafı, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları çərçivəsində, iqtisadi əməkdaşlıq prinsipləri ilə həyata keçirilir. Bu məqsədlə ölkədə iqtisadi inkişaf, investisiya mühitinin yaxşılaşması sahəsində geniş miqyaslı və davamlı tədbirlər yerinı yetirlməyə başlanıldı.

## Heydər Əliyev və Azərbaycanın iqtisadiyyatı

Hər birimiz qürur və məğrurluq hissi ilə vurğulayırıq ki, müstəqil və güclü Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması məhz Ulu öndərimiz Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir. Dərin özüllər üzərində yardaılmış bu iqtisadi sistem, ölkəmizin uzun vədəli inkişafı, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və bu imkanları gerçəkliyə çevirmək üçün güclü zəmin yaratmağa qadirdir. Onu da deyə bilərik ki, xüsusi təşkilatçılıq qabiliyyətinə, çevik idarəçilik təcrübəsinə, dərin təfəkkürə və güclü analitik duyuma malik olan Heydər Əliyevin müstəqil Azərbaycan Dövlətinin inkişaf strategiyası haqqında baxışları fundamental, konseptual xarakter daşıyır. Bu isə Azərbaycanın real durumunu və sahib olduğu imkanları analiz etməyə, sürətlə inkişaf edən dünyada baş verən dəyişiklikləri milli maraqlar zəmnində qiymətləndirməyə əsas verir. Eyni zamanda qeyd etmək lazımdır ki, Heydər Əliyev ölkənin xarici iqtisadi siyasəti ilə əlaqədar formalaşdırdığı strategiya da o qədər də asan başa gəlməmişdir.

Müstəqilliyimizin əldə edilməsinin ilk dövrləri ölkədə çətin şərait yaranmış, ictimai-siyasi hadisələr gərginləşmişdir. Bu isə, öz növbəsində, müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu aşağı salınmasına səbəb olmuşdur. Dövlətlər Azərbaycana investisiya yatırmağı düşünmür, onu əlverişli region hesab etmirdilər. Ölkəmizdə isə xariclə iqtisadi əməkdaşlığa böyük ehtiyac var idi. Bütün bunları hiss edən dövlət başçısı Heydər Əliyev beynəlxalq əməkdaşlığın yeni prinsiplər əsasında qurulması və inkişafı etməsi planlarını ortaya qoyaraq, bəzi qanunlarda dəyişiklik etdi. Böyük cəsarətlə xarici ticarət liberallaşdırıldı. Əsas diqqəti çəkən məqam ondan

ibarətdir ki, hər bir halda milli maraqlar ön plana çəkildi. Heydər Əliyev dərin araşdırmalar apardı, müqayisəli təhlillər etdi. Müstəqil ekspertlərin fikirlərini dinlədi. O, xarici iqtisadi əməkdaşlıq çərçivəsində milli maraqları nəzərə almağı, inkişaf strategiyasının ən vacib amili hesab etdi. Onu narahat edən əsas məsələ idxal və ixracın nisbətində yaranmış mənfi saldo idi. Bu gün artıq ürəkaçan haldır ki, bu nisbət ixracın xeyrinə dəyişib və nisbət-saldo neft faktoru ilə yanaşı qeyri-neft faktoru hesabına da artmaqda davam edir. Yaxın gələcəkdə qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi ilə bağlı müəyyən edilən strateji inkişaf xətti ixracın strukturunun daha da təkmilləşməsini təmin edəcəkdir. [1]

**Heydər Əliyevin maliyyə və valyuta siyasəti**

Açıq iqtisadiyyatın, bazar iqtisadiyyatının güclü tərəfdarı olan Heydər Əliyev, eyni zamanda bu iqtisadiyyatı fəal təbliğ edirdi. Zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı, dövlət və iqtisadiyyatın münasibətlərində daima optimallığı müəyyənləşdirməyi məsləhət bilir və tövsiyyə edirdi. O, sosial problemlərin vaxtında və səmərəli həll edilməsinə böyük önəm verir, elmin, təhsilin, ekologiya, qlobal struktur və inkişaf problemlərinin həllində dövlətin imkanlarından, köməyindən səmərəli istifadə etməyi, iqtisadi orqanların məsuliyyətinin artmasını hər zaman diqqətdə saxlayırdı. Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa üstünlük verir və yenə də milli maraqları əsas tutaraq ölkənin maliyyə imkanlarının ildən-ilə artmasına, borca olan ehtiyacın azalmasına, büdcə sisteminin göstəricilərində müsbət meyillərin güclənməsinə ürəkdən sevinir və bank-maliyyə qurumlarının daha səmərəli fəaliyyət göstərməsini, ölkənin milli maraqlarının daha güclü surətdə qorunmasını arzu edirdi.

Heydər Əliyev liderliyinin gücü ondadır ki, o, həyata keçirdiyi bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsil səfərbərlik simvoluna çevrilmişdi.

Heydər Əliyev hər zaman müqayisəli təhlil aparır, araşdırmalar edir, yeni islahatlar zamanı yaranan zəruri problemlərin icra edilməsini hökumətdən tələb edirdi. [2]

Ölkəmiz nisbətən kiçik ölkələr qrupuna mənsubdur və bu da onun iqtisadiyyatında xarici iqtisadi əlaqələrin çox böyük önəm daşımasına əsas verir, xarici valyuta bazarının formalaşmasını və inkişafını şərtləndirən əsas amil hesab edilir, ölkəni xarici təsirlərdən qorunmasını təmin edir. Dövlət tənzimlənməsi orqanlarının qarşısında duran ən vacib məsələlərdən biri, iqtisadi təhlükəsizlik, xüsusilə də maliyyə təhlükəsizliyinin təmin olunması və idxal-ixrac əməliyyatları üzərində valyuta nəzarətinin həyata keçirilməsidir. Ölkənin maliyyə təhlükəsizliyi və valyuta əməliyyatları üzərində nəzarətin təmin olunması ümumi iqtisadi strategiyanın tərkib hissəsi olan dövlətin valyuta siyasətinin ən aktual məsələlərdən sayılır. Eyni zamanda milli təsərrüfat subyektləri daxili və xarici iqtisadi fəaliyyətin aparıcı istiqaməti olan valyuta siyasətini tənzimləyir. Məcmu tələb və məcmu təklif vasitəsilə ölkənin valyuta siyasəti iqtisadi artımın sürətinə müsbət təsir göstərir, büdcə sisteminin vəziyyəti və əhalinin rifahını durmadan artırır. Ölkənin maliyyə təhlükəsizliyi və makromaliyyə sabitliyini təmin etmək üçün strateji və cari dövrlərin tələbatına uyğun gələn iqtisadi məqsədlər seçilir və müqaisə edilir. Həm bazar iqtisadiyyatının, həm də müasir qlobal iqtisadiyyatın tənzimlənməsi sistemində valyuta siyasəti mühüm yer tutaraq, ümumdünya təsərrüfat əlaqələri sistemində iqtisadiyyatın daxili və xarici dinamik vəziyyətini təmin edir. Eyni zamanda beynəlxalq ödəmələri müəyyən bir sistem daxilində yerinə yetirərək, xarici ödəniş balansını tənzimləmək məqsədilə ölkənin cari və strateji məqsədlərinə uyğun hökumətin həyata keçirdiyi tədbirlərin məcmusu sayılır.

90-cı illərin əvvəllərində xarici ticarət əlaqələri liberallaşdırıldı və bu da cari ödəmələrin nəzarətsizliyinə, kapitalın hərəkətinə və kapital axınının həcminə mənfi təsir göstərdi. Nəticə olaraq tədiyyə balansı qeyri - bərabər oldu, xarici valyuta təklifi azaldı, milli valyuta məzənnəsi qeyri-sabit hərəkət etdi, müəssisələrdə dövriyyə vəsaitləri çatışmadı və vəsaitlərin hərəkəti açıq-aşkar kölgə iqtisadiyyatı xüsusiyyətlərini hiss elətdirdi. Valyuta tənzimlənməsi və valyuta nəzarəti sisteminin qərarlaşması və inkişafı ümumilikdə bazar iqtisadiyyatının formalaşmasına müsbət təsir göstərsə də, bu prosesin ilkin mərhələlərində ölkədə valyuta tənzimlənməsi və valyuta nəzarəti sisteminin fəaliyyətinin təhlili bir sıra çatışmazlıqların olduğunu üzə çıxarmışdır. Bu çatışmazlıqlar əsasən bazar iqtisadiyyatının ilkin mərhələlərində valyuta münasibətlərinin liberallaşdırılması ilə sıx bağlı

idi. Bu liberallaşdırma həm rezident kapitalının ölkədən nəzarətsiz formada çıxarılmasına, həm də ölkəyə xarici möhtəkir kapitalın axınına səbəb oldu. Bu isə daxili valyuta bazarını idarə etmək və proqnozlaşdırmaqda böyük çətinliklər yaradaraq, milli valyuta məzənnəsinin formalaşmasına mənfi təsir göstərdi. Eyni zamanda, müstəqilliyimizin ilk illərində ölkənin valyuta tənzimlənməsi və valyuta nəzarəti sahəsində elmi əsaslandırılmış uyğun bazanın və valyuta münasibətləri subyektlərinə güclü təsir vasitələri formalaşmamışdı. Bu isə öz növbəsində səriştəsiz dövlət idarəetməsi şəraitində valyuta nəzarəti sistemini valyuta əməliyyatlarının passiv monitorinqinin aparılmasına gətirib çıxarmışdır. Belə nəzarət əksəriyyət hallarda açıq-aşkar ölkədən kapitalın axınına şərait yaradan tədbirlərlə, yaxud da şübhəli xarakterli əməliyyatların aparılmasına şərait yaradan tədbirlərlə xarakterizə olunurdu. Nəticədə ölkənin iqtisadi təhlükəsizliyinə və onun tərkib hissəsi olan maliyyə təhlükəsizliyinə qarşı gizli təhdidlər meydana çıxmışdı. Xalqın bu günki taleyi, uzaq və yaxın gələcəyi ciddi təhlükə altında idi. Heç şübhəsiz, valyuta nəzarəti sahəsində bir sıra mühüm addımlar alınmalı idi:

- kapitalın xaricə axınının qarşısı alınmalı;
- milli valyuta məzənnəsi sabitləşdirilməli;
- gömrük nəzarəti gücləndirilməli;
- idxal üzrə əsası olmayan ödəmələrin qarşısı alınmalı;
- ixrac-idxal üzrə valyuta əməliyyatlarının yerinə yetirilməsi müddətləri məhdudlaşdırılmalı;
- çirkli pulların yuyulmasının qarşısı alınmalı;
- ixrac və idxal edənlərin cari valyuta əməliyyatlarının yerinə yetirilməsi müddətlərinin əsaslandırılmamış artırılması aradan qaldırılmalı;
- gəlirlər formasında xarici ticarət əməliyyatlarından əldə edilən valyuta vəsaitlərinin ölkəyə qaytarılması təmin olunmalı. [2]

Xalqının xilaskarı, Ümummilli lider Heydər Əliyevin ölkə əhalisinin iradəsi ilə Azərbaycan Respublikasında siyasi rəhbərliyə qayıtması valyuta nəzarəti sahəsində həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq, köklü keyfiyyət dəyişikliklərinin yerinə yetirilməsinə keçilməsinə səbəb oldu.

Respublikanın müasir dünya təsərrüfatına sürətlə yaxınlaşması siyasəti nəticəsində iqtisadiyyatın dövlət tənzimlənmə mexanizmi güclü özül üzərində quruldu. Bu tənzimləmə sistemi beynəlxalq norma, qaydalar və qloballaşma tendensiyalarına əməl olunması çərçivəsində xarici iqtisadi fəaliyyətin xarakter və istiqamətlərində milli iqtisadi mənafelərin qorunub saxlanılması fonunda baş verdi. Yeni mərhələni yaratmaqda əsas məqsəd, valyuta münasibətlərinin tənzimlənmə sisteminin və eləcə də emaledici sənayenin inkişafına şərait yaradan investisiyaların bu sahələrə cəlb olunması, təsərrüfat subyektlərinin innovativ aktivliyinin stimullaşdırılması və yeni texnologiyaları tətbiq etmək idi. Qeyd edək ki, valyuta tənzimlənməsi və valyuta nəzarətinin işlənib hazırlanmış metodikası daim təkmilləşdirilməli, dövlətin maliyyə vəziyyətinin dəyişkən şəraitinə uyğun olaraq çevik olmalı, daxili bazarın bütün xüsusiyyətlərini, dövlətin dünya ticarətində mövqeyini, eləcə də valyuta bazarı iştirakçılarının maraqlarını nəzərə almalıdır. Təkmilləşdirilmiş yeni sistem sayəsində valyuta nəzarətinin reallaşdırılması üzrə xərclərin azaldılması, nəzarətin operativliyinin yüksəldilməsi, valyuta tənzimlənməsi və valyuta nəzarəti orqanları və agentlərinə hesabat formasında təqdim olunan məlumatların dəqiqliyi və etibarlılığı artırıldı. Ulu Öndərin göstərişi ilə ölkədən kapital axınının qarşısı alındı, milli valyutanın məzənnəsi sabitləşdirildi, xarici ticarətdən əldə olunan gəlirlər formasında valyuta vəsaitlərinin ölkəyə qaytarılması sahəsində güclü siyasət həyata keçirildi. Həyata keçirilən belə məqsədyönlü siyasət nəticəsində qeyd edilən istiqamətlərdə böyük nailiyyətlər əldə olundu, respublikanın maliyyə və iqtisadi təhlükəsizliyinin təmin olunması istiqamətində ciddi uğurlar əldə edildi. Nəticədə əvvəllər baş vermiş qlobal maliyyə böhranı ölkə iqtisadiyyatına, daxili valyuta bazarına, milli valyutanın məzənnəsinə müsbət təsir edərək, onun ölkə xarici rəqabətə dayanıqlığını artırmış oldu.

**Heydər Əliyev və Azərbaycanın vergi siyasəti**

Ölkədə müstəqilliyin – iqtisadi sabitliyin ilk illərində dövlət qurumları ilə vətəndaşlar arasında müəyyən bir boşluq yaranmışdı. Bu boşluğun aradan qaldırılmasının vacib olduğunu hesab edən

dövlət rəhbəri Heydər Əliyev dövlət orqanları ilə vətəndaşlar arasındakı münasibətlərin yeni müstəvidə qurulmasını təmin etmək məqsədilə yeni göstərişlər verdi. Bu istiqamətdə yeni fərmanlar imzalandı. Heydər Əliyev eyni zamanda, sahibkarlıq fəaliyyətinə süni əngəllər törədilməsinin qarşısının alınması məqsədilə, sahibkarlarla onları yoxlayan qurumlar arasındakı münasibətlərin əməkdaşlıq müstəvisinə keçirilməsini də zəruri hesab etdiyini bildirdi. Buna nail olmaq üçün yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında əməkdaşlıq müqavilələrinin bağlanması təcrübəsinə keçidin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi barədə Nazirlər Kabinetinə tapşırıq verdi. Bu gün cəsarətlə deyə bilərik ki, ölkədə dövlətlə vətəndaş arasındakı münasibətlər istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin əsas məqsədi, şəffaflığı artıraraq dövlət orqanları ilə əhali arasında birbaşa əlaqələrin minimuma endirilməsidir. Buna nail olmaq üçün atılan ən mühüm addımlardan biri də elektron hökumətin yaradılması istiqamətində aparılan işlər oldu. Hazırda Heydər Əliyevin tövsiyələrini rəhbər tutaraq İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti həm daxili inzibatçılıq işlərində, həm də vergi orqanları və vergi ödəyiciləri əlaqələrinin təşkilində elektron xidmətlərə ən sürətlə keçən orqandır.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın milli maraqlarını nəzərə alaraq uzunmüddətli inkişaf strategiyasının prioritetlərini müəyyən etdi. Onun birbaşa təşəbbüsü ilə Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları yaradıldı, kompleks və sistemli islahatların istiqamətləri müəyyənləşdirildi. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırdı. Heydər Əliyevin rəhbərliyi altında 1999-2000-ci illərdə Vergi Məcəlləsinin ilk layihəsi hazırlandı geniş ictimai müzakirəyə verildi. 11 fevral 2000-ci il tarixdə Ulu Öndərin müvafiq fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyi yaradıldı. Bu yeni dövrün inkişaf meyarlarından biri olaraq, sürətli inkişaf yolu tutan ölkə iqtisadiyyatının iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan vergi siyasətinin məqsədyönlü həyata keçirilməsinə səbəb oldu.

Vergi xidmətində son dövrlər əsaslı modernləşmə prosesi aparılması nəticəsində vergi inzibatçılığı təkmilləşdirildi. Dövlət başçısının sərəncamı ilə 2005-ci ilin oktyabr ayında "Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı (2005-2007-ci illər)" və "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" təsdiq edildi. Bununla da vergi xidmətində aparılmış ciddi texnoloji dəyişikliklərin əsası qoyuldu. 2006-cı ildə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS), 2007-2010-cu illərdə vergi ödəyiciləri üçün elektron bəyannamə, elektron vergi hesab-fakturalarının göndərilməsi, "onlayn kargüzarlıq" sistemləri tətbiq edilməyə başlanıldı. [1] Nəticədə vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına şərait yaradıldı.

Ulu Öndərimizin layiqli davamçısı İlham Əliyevin 2007-ci ildə verdiyi göstərişlə sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatı Vergilər Nazirliyinə həvalə olunmuş və bu tapşırıq uğurla icra edilmişdir. Dövlət qeydiyyatının bu prinsiplə və uğurla həyata keçirilməsi beynəlxalq maliyyə təşkilatları tərəfindən yüksək qiymətləndirilərək, qeydiyyat sahəsində dünyada aparılmış ən uğurlu islahatlar kimi "Celebrating Reform - 2008" hesabatına daxil edilmişdir.

Azərbaycan Respublikasının vergi sistemi müasir informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə xidmət, insan resurslarının inkişafı və vergi inzibatçılığında yeni idarəetmə standartlarının tətbiqi baxımından böyük uğurlar qazanmışdır.

Respublikamızda hazırda Avropanın ən qabaqcıl vergi modelləri və elektron audit sistemi tətbiq edilir.

Ölkəmizdə Niderland Krallığının Vergi Administrasiyasının dəstəyilə Avropa Komissiyası ilə birgə "Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi" adlı Tvinninq layihəsi həyata keçirilir. Layihənin məqsədi MDB ölkələri arasında ən müasir elektron audit sistemini tətbiq etməklə, respublikada vergi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə xidmət etməkdir.

Heydər Əliyevin böyük inam və cəsarətlə irəli sürdüyü siyasət əsasən, ölkədə sosial-iqtisadi inkişaf və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısı, şəffaf biznes mütitinin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və s. bu kimi mühüm həlqələri əhatə edirdi. Bu isə ölkənin iqtisadi strategiyanın uğurla reallaşdırılmasına təkan vermişdir. Uzaqgörən siyasətin reallaşdırılması Respublika iqtisadiyyatında müsbət və keyfiyyətli dəyişikliklərə səbəb oldu. Yalnız bazar münasibətlərinin dərinləşməsində deyil, eyni zamanda işgüzar mühitin aktivləşməsində də, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında da müsbət dönüş yarandı. Kənd təsərrüfatı mülkiyyətçiləri torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad olundu ki, bu da aqrar sahədə uğurlu inkişafa səbəb oldu.

Məhz vergi siyasətinin düzgün həyata keçirilməsinin nəticəsidir ki, 2022-ci ildə dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergi ödəyicilərinə xidmətlər çeşidinin və biznesin fəaliyyətinə effektiv vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərindən oldu. Dövlət Vergi Xidməti öz üzərinə düşən fiskal öhdəliklərin icrasını layiqincə təmin edir. İlk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolmaları təmin edilib və bu göstərici 2021-ci illə müqayisədə 82,2 faiz çox deməkdir.

**Heydər Əliyev və Azərbaycanın maliyyə nəzarəti siyasəti**

Bir həqiqətdır ki, respublikamızda məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra sürətli inkişaf edən, iqtisadi sistemin tələblərini tam ödəyə bilən çevik maliyyə nəzarəti sisteminin yaradılması istiqamətində uğurlu fəaliyyət müəyyən edildi. Burda yeganə məqsəd büdcə vəsaitlərindən istifadədə maksimum şəffaflıq, maliyyə intizamının qorunması və maliyyə resurslarının daha səmərəli idarə edilməsi idi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan Respublikası Hesablama Palatası yaradıldı ki, qurumun əsas vəzifəsi dövlət büdcəsinin gəlir və xərclərinin icrasına nəzarəti həyata keçirmək idi. Azərbaycanda müstəqillik və audit mandatına qanunla zəmanət verilən, konstitusiyaya əsasən kənar dövlət maliyyə nəzarətini həyata keçirən Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) tövsiyələri əsasında yerinə yetirilən kənar ali dövlət maliyyə nəzarəti orqanının yaradılması və öz fəaliyyətində beynəlxalq standartların tələblərinə uyğun qanunlara riayət edilməsi, sərbəstlik, obyektivlik, kollegiallıq, aşkarlıq və ədalətlilik prinsiplərinə əsaslanması, fəaliyyət dairəsinin bütövlükdə dövlət büdcəsi səviyyəsində icraya nəzarətin həyata keçirilməsi kimi müəyyənləşdirilməsi, inkişaf etmiş ölkələrdə olduğu kimi eyni səlahiyyətlərin Hesablama Palatasına verildiyini bir daha təsdiqləyir.

Hazırda bir çox ölkələrin şirkətləri maliyyə hesabatlığı sahəsində müstəqillik, obyektivlik və peşəkarlıq kimi audit prinsiplərini kifayət qədər tətbiq etməmələri nəticəsində maliyyə böhranı və neqativ halların yaranması baş verir. Eyni zamanda təsərrüfat subyektlərində iqtisadi səmərəliliyin yüksəldilməsində daxili auditin böyük əhəmiyyəti vardır. Cənab Prezident İlham Əliyev Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarına ünvanladığı təbrik məktubunda belə demışdır: "Xarici investisiyanın ölkəmizə axını auditor xidmətinin iqtisadi proseslərdə rolunu və əhəmiyyətini daha da artırmışdır". İlham Əliyev bu müraciətlə həm ölkəmiz üçün xarici investisiyanın böyük əhəmiyyətinin olmasını və xarici investorların da ölkəmizə böyük marağının olmasını, eyni zamanda beynəlxalq miqyasda maliyyə şəffaflığının təminatçısı olan audit qarşısında ciddi öhdəliklərin yaranmış olduğunu vurğuladı. Hazırda ölkəmiz investisiya cəlbediciliyi baxımından dünyada qabacıl yerlərdən birini tutur.

İqtisadi islahatların həyata keçirilməsində şəffaflığın təmin olunması ən vacib amildir və şəffaflıq ölkədə demokratiyanın bərqərar olunmasının, dövlət qərarlarının qəbul olunmasının əsas şərti hesab edilir. Ona görə də dövlət idarəetməsində şəffaflığa və aşkarlığa meyil həm inkişaf etmiş və dayanıqlı demokratiyaya malik olan ölkələr, həm də demokratik islahatların həyata keçirilməsinə yeni başlayan ölkələr üçün xarakterikdir. Bu özünü büdcə sahəsində daha qabarıq göstərir, çünki bütün ölkələrdə büdcə dövlət siyasətinin əsas siyasi və maliyyə aləti hesab edilir. Lakin əksər ölkələrdə büdcə sahəsi şəffaflıq prinsipinin tələblərinə tam cavab verə bilmir. Əksər hallarda icra strukturları büdcə prosesində inhisarçı mövqeyə malik olduqları üçün qanunverici hakimiyyətin səlahiyyətləri məhdudlaşır, büdcənin səmərəli icra səviyyəsini qiymətləndirmək mümkün olmur və

ictimai qurumlar büdcə prosesində iştirak edə bilmirlər. Bu səbəbdən bir çox ölkələrdə, eləcə də respublikamızda büdcə islahatlarının həyata keçirilməsində şəffaflığın və aşkarlığın təmin olunmasına xüsusi diqqət yetirilir. Büdcə prosesində şəffaflığın və aşkarlığın qorunması, ilk öncə, bu istiqamətdə şəffaflığın artırılması, maraq və məqsədləri tam fərqli olsa da (makroiqtisadi sabitlik, investisiya və sahibkarlıq mühitinin yaxşılaşdırılması, korrupsiyanın azaldılması, büdcə vəsaitlərinin xərclənməsinə nəzarətin artırılması, büdcədən daha çox vəsaitin əldə edilməsi, vergi dərəcələrinin aşağı salınması, kredit resurslarına çıxış imkanlarının sadələşdirilməsi və s.) əhalinin bütün təbəqələrinin mənafeyinə xidmət edir. Nəticədə şəffaflığın artırılması bir çox məsələlərin həll edilməsinə şərait yaratmış oldu:

- əhalinin hər nəfərinə büdcə və büdcə məbləğlərinin, vergi ödəyicilərinin vəsaitlərinin səmərəli xərclənməsini müəyyənləşdirməyə imkan verdi, bu da nəticədə vergilərin yığım səviyyəsinin və büdcə daxil olmalarının artırılmasına imkan yaratdı;
- ictimai müzakirələrin aparılmasına şərait yaratdı və cəmiyyətə büdcə məlumatlarını əldə etməyə, onların mövqeyini son qərarlarda nəzərə almağa imkan verdi;
- büdcənin tərtib olunması və icrasına nəzarət sahəsində icra orqanlarının məsuliyyəti, qanunverici orqanların və ictimaiyyətin bu sahədə imkanlarını artırdı;
- büdcədən məqsədyönlü istifadəyə güclü zəmin yaratdı;
- əhalidə dövlətə qarşı, ictimai birliyi daha da möhkəmləndirəcək inam yaratdı;
- ölkədə çevik halda gözlənilən böhran hallarının qarşısı alınaraq makroiqtisadi və maliyyə sabitliyi qorunub saxlandı;
- ölkədə açıq iqtisadiyyata önəm verilərək, dünya ölkələrinin investisiya cəlbediciliyi artmış oldu;
- ölkədə korrupsiya qarşı sərt tədbirlər həyata keçirildi və şəffaflığın tam təmin edilməsinə geniş zəmin yarandı. [3]

Büdcə sahəsində şəffaflığın əhəmiyyəti təkcə cəmiyyətin zəruri məlumatlara əlçatanlığı ilə ölçülmür, şəffaflıq demokratiyanın inkişaf səviyyəsindən asılı olaraq, inkişaf alətidir və ictimai iştirakın zəruri şərtidir.

Dünya iqtisadiyyatına səmərəli və məqsədyönlü inteqrasiyanı həyata keçirmək və ölkənin nüfuzunu daha da gücləndirmək məqsədilə möhtərəm prezidentimiz cənab İlham Əliyev iqtisadi fəaliyyətin bütün sahələrində kompleks tədbirlərin həyata keçirilməsinə sərəncam verdi, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" hazırlandı. Bu strategiya ölkəmiz üçün geniş əhatəli, təkmil və əhəmiyyətli olmaqla, cəmiyyətdə hər tərəfli vacib tədbirləri əhatə edir. Şəffaflığın artırılmasında vacib sahələrdən biri də dövlət orqanları tərəfindən maliyyə nəzarətinin təkmilləşdirilməsidir. Strategiya dövlət orqanlarının fəaliyyətində hesabatlılığın təmin olunması, məsuliyyətin artırılması, dövlət əmlakının qorunması, korrupsiya əleyhinə mədəniyyətin formalaşması, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə əsas prinsiplər müəyyən edilmiş, iqtisadi və sosial sahədə maliyyə nəzarətinin təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. Eyni zamanda bu fəaliyyət istiqaməti üzrə mühüm əhəmiyyətli tədbirlər, maliyyə nəzarətini icra edən orqanların fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması məqsədilə bu orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi, maliyyə nəzarəti mexanizminin təkmilləşdirilməsi, aidiyyatı icra orqanlarının büdcə xərclərinin hər tərəfli əsaslandırılmış normativlərinin müəyyən edilməsi, büdcə sistemini tənzimləyən qanunvericiliyin, büdcə təsnifatının və yerli büdcələrin tərtib edilməsi və icra edilməsi sahəsində şəffaflığın təmin edilməsi üçün büdcə vəsaitinin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna nəzarət mexanizmlərinin təkmilləşdirilməsi tapşırıqları müəyyən edilmiş, şəffaflığın artırılması istiqamətində beynəlxalq audit standartları tətbiq olunmuş, bu istiqamətdə nəzarət sistemlərinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. "Milli Strategiya"da maliyyə nəzarəti və şəffaflığın artırılması məqsədilə müəyyən edilmiş tədbirlərin vaxtaşırı və düzgün yerinə yetirilməsi, respublikada dayanıqlı sosial-iqtisadi münasibətlərin formalaşmasına, maliyyə-büdcə sahəsində şəffaflığın və aşkarlığın daha da artırılmasına müsbət təsir göstərmişdir. Bütün bunların nəticəsində Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatının hesabatına əsasən Azərbaycan Büdcə Açıqlığı İndeksinə

görə 94 ölkə arasında 52-ci yerdə qərarlaşmışdır. Hansı ki, bu hesabat dövlətlərin büdcə fəaliyyətinin yeganə müstəqil və müqayisəli qiymətləndirmə sənədi hesab olunur.

Ölkəmizin bu sahədə öz mövqeyini inkişaf etdirməsinin əsas amili kimi, "İcmal"da ali nəzarət orqanının yeni rəhbəri tərəfindən illik audit hesabatlarının və büdcənin icrası üzrə cari hesabatların nəşr edilməsi göstərilir. Azərbaycan Respublikası Hesablama Palatasına əhalinin inamını daha da artırmaq və büdcə vəsaitlərindən istifadə olunması üzərində Palata vasitəsilə ictimai nəzarəti təmin etmək məqsədilə, bu nəzarət orqanının fəaliyyəti barədə bütövlükdə cəmiyyətə və onun ayrı-ayrı təbəqələrinə daha geniş və müfəssəl məlumatlar ötürülməsi zəruri hesab edilməkdədir. Şəffaflığı təmin etmək məqsədilə, Palatanın əsas fəaliyyət prinsiplərindən biri kimi, maliyyə nəzarəti və cari fəaliyyət üzrə müvafiq məlumatlar veb-saytda müntəzəm olaraq yerləşdirilir. Hesablama Palatası bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübəni çox diqqətlə öyrənməyə önəm verirərək, Ali Audit Qurumlarının (AAQ) beynəlxalq təşkilatları (INTOSAI, EUROSAI və s.) ilə ciddi əməkdaşlıq edir. Çünki həmin təşkilatlar AAQ-ların fəaliyyətində şəffaflığın, aşkarlığın və hesabatlılığın artırılmasına daha çox diqqət ayırırlar. [4]

Bu gün qürurla deyə bilərik ki, Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən iqtisadi inkişaf və tərəqqi konsepsiyası həyata keçirilərkən, imkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmaqla şəffaflıq təmin edilir, iqtisadi inkişafa əngəllər, qanunun aliliyi və sosial ədalət prinsipləri əleyhinə, korrupsiyaya qarşı mübarizə mühüm vəzifə hesab edilir. Ölkə başçısının fərman və sərəncamlarına əsasən maliyyə vəsaitlərindən səmərəli istifadə, təkmilləşdirilmiş nəzarət mexanizmi və maliyyə intizamının gücləndirilməsi, Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm istiqaməti hesab edirilir. Cənab İlham Əliyevin 24 noyabr 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ayrılan vəsaitin şəffaflığının qorunması, müəssisələrdə maliyyə intizamının möhkəmləndirilməsi və mövcud nöqsanların aradan qaldırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu. Ümumiyyətlə, digər istiqamətlərdə olduğu kimi, şəffaflığın təminatı istiqamətində də möhtərəm prezidentin siyasəti öz xüsusi əhəmiyyəti ilə fərqlənir. İlham Əliyev bu barədə belə vurğulamışdır: "Bütövlükdə şəffaflığın artırılması, maliyyə resurslarından səmərəli istifadənin təmin olunması xüsusi diqqət tələb edən bir məsələ olub, iqtisadiyyatın və idarəetmənin müxtəlif sahələrində və səviyyələrində nəzarət işinin düzgün qurulmasını zəruri edir. Bir sözlə, iqtisadiyyatın birinci həll etməli olduğu problemlər arasında şəffaflıq xüsusi diqqət mərkəzində durmalıdır. Çünki bu, demokratiyanın mühüm ünsürlərindən biridir".

Dahi şəxsiyyət Heydər Əliyevin iqtisadi siyasətində vacib yer alan, onun layiqli davamçısı İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, söylədiyi proqram xarakterli nitqlərdə həlli vacib sayılan nəzarət və şəffaflıq məsələlərinə düzgün riayət olunması ölkəmizdə sosial-iqtisadi münasibətlərin daha sağlam özüllər üzərində dayanmasına, iqtisadi və maliyyə fəaliyyəti istiqamətində şəffaflığın tam təmin edilməsinə şərait yaradan ciddi amilə çevrilməkdədir.

2023-cü ilin 5 yanvar tarixində ölkə başçısı İlham Əliyev tərəfindən son 5 ildə sayca dördüncü sosial paketin icrasına dair sərəncam imzalandı. İmzalanan sərəncama əsasən minimum əməkhaqqı ilə pensiya məbləği və bütün növ sosial müavinətlər, təqaüdlər artırıldı. 2023-cü il üçün Azərbaycanda minimum istehlak büdcəsi (yaşayış minimumu) ümumi 246, əmək qabliyyətli əhali üçün 261, uşaqlar üçün 220, təqaüdçülər üçün 199 manat təsdiq edilib. Hazırda, Azərbaycanda minimum əmək haqqı 345 manat təsdiq olunuş, sosial müavinətlər, təqaüdlər və digər sosial səciyyəli ödənişlərin maliyyə təminatı üçün 2 milyard 598 milyon manat, o cümlədən, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 367 milyon manat, əlavə məşğulluq tədbirləri üçün 266 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Fərəhləndirici haldır ki, artıq ölkəmizdə iqtisadiyyatın inkişaf sürəti dünya iqtisadiyyatı göstəricilərni xeyli ötüb keçir. Bu, ölkənin həm siyasi, həm də iqtisadi qələbəsinin nəticəsidir. İqtisadi inkişafımız uzun vədəli dövrü proqnozlaşdırıraraq, dövlətimizin iqtisadi qüdrətinin daha da möhkəmlənəcəyinə, daha keyfiyyətli həyat səviyyəsinin təmin ediləcəyinə, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atıldığına vəd verir.

**Nəticə**

Heydər Əliyevin gücü və böyüklüyü yalnız yaşadığı dövrlə kifayətlənmir. Dahi şəxsiyyətin əməlləri, bir tərəfdən, yaşadığı dövrdə yerinə yetirdiyi işlər, qurub yaratdıqlarının əhəmiyyəti ilə səciyyələnirsə, digər tərəfdən, çəkdiyi zəhmətin gələcək bəhrələri, uzun vədəli hadisələrin axarına təsiri ilə müəyyənləşir. Bu baxımdan, Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Dövləti və onun inkişaf konsepsiyası müasir və dinamik inkişaf edən respublikamızın əsasını təşkil edir. Heydər Əliyev ölkəyə rəhbərliyi dövründə milli iqtisadiyyatın inkişafı istiqamətində islahatlar apardı, büdcə-vergi qanunvericiliyini formalaşdırdı və təkmilləşdirdi, məqsədyönlü vergi siyasəti apararaq vətəndaşın dövlətə olan inamını artırdı, vergi yığımlarının artmasına səbəb oldu. İqtisadiyyatın rəqəmsallaşdırılmasının vergi bazasının müəyyən edilməsi yolunda müsbət nəticələri, ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin və vergi inzibatçılığının yeni çağırışlara uyğun təkmilləşdirilməsinə səbəb oldu. Məqsədyönlü islahatlar nəticəsində dövlətin mükəmməl valyuta, kredit və bank sistemini formalaşdırdı. Şəffaflığı ciddi təmin edən Audit nəzarəti sisteminin yaradılmasına təminat verdi.

Bütün bunların nəticəsidir ki, ölkəmizin iqtisadi potensialı sürətlə inkişaf edir. Ölkədə dinamik inkişaf, maliyyə resurslarından maksimum dərəcədə səmərəli istifadə mexanizmi, qlobal rəqabətliliyə doğru keçid bugünkü Azərbaycan iqtisadiyyatının əsas prioritetləri hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bayramov Ə., Bayramov V., Yaqubzadə M. Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişaf modeli / “Xalq qəzeti”, 2010, 16 may

2. Sadıqov E. Heydər Əliyev və Azərbaycan iqtisadiyyat... - UNEC professoru yazır. [elektron resurs] URL: https://news.unec.edu.az/ekspert-reyi/7375-heyder-eliyev-ve-azerbaycan-igtisadiyyat-unec-professoru-yazir

3. Novruzov V. Sosial iqtisadi inkişafın müasir mərhələsində auditor xidməti / “Azərbaycan” qəz., 2010, 3 aprel

4. Novruzov V. 25 il dövlətin, mülkiyyətçilərin və auditorların keşiyində / “Azərbaycan” qəz., 2019, 8 sentyabr

## THE ROLE OF HEYDAR ALIYEV IN THE FORMATION OF A STABLE FINANCIAL SYSTEM OF AZERBAIJAN

**N.Gadimli**
doctor of philosophy in economics, associate professor
Mingachevir State University

***Abstract:*** *The rapid development of our country and becoming the main economic powerhouse in the region was possible as a result of the strategic steps taken by Heydar Aliyev, the founder of modern Azerbaijan, the national leader, in the field of state building and implementation of economic reforms.*

***Keywords:*** *economy of Azerbaijan, open economy, socio-economic revival*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ СТАБИЛЬНОЙ ФИНАНСОВОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

**Н.А.Гадимли**
доктор философии по эономике, доцент
Мингячевирский государственный университет

***Резюме:*** *Стремительное развитие нашей страны и превращение ее в главный экономический локомотив региона стало возможным благодаря стратегическим шагам,*

*предпринятым основоположником современного Азербайджана, национальным лидером Гейдаром Алиевым в области государственного строительства и осуществления экономических реформ.*

***Ключевые слова**: экономика Азербайджана, открытая экономика, социально-экономическое возрождение*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 28.06.2023**
**Çapa qəbul edilib: 05.07.2023**

UOT 332.122(1-21); 338.45; 316.37

# MİNGƏÇEVİRİN SƏNAYE ŞƏHƏRİ KİMİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN MİSİLSİZ XİDMƏTLƏRİ

**[1,3]Almaz Əli qızı Əliyeva, [2,3]Asudə Məmmədəli qızı Abdurrahmanova**
[1]texnika üzrə fəlsəfə doktoru, dosent
almaz.aliyeva@mdu.edu.az
[2]asuda.abdurrahmanova@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Respublikası Prezidenti 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Məqalədə müstəqil Azərbaycan Dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci və ikinci dövründə Mingəçevirin 4-cü sənaye şəhəri kimi formalaşmasında verdiyi töhfələrdən bəhs edilir. Mingəçevirin bu günkü inkişaf və tərəqqisində ölkə prezidenti cənab İlham Əliyev Ulu Öndərin başladığı fəaliyyət istiqamətinin davamçısıdır.*

***Açar sözlər****: Mingəçevir şəhəri, Mingəçevirin sənaye müəssisələri, Ulu Öndərin əhəmiyyətli işləri*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev" ili elan olunması, Ulu Öndərin 100 illik yubileyinin keçirilməsi Ümummilli Liderin şərəfli həyat yolunun təbliği və öyrənilməsi baxımından çox önəmlidir. Həyatı boyu öz mənalı ömrünü Azərbaycanın inkişafına həsr edən Ulu Öndər sözün əsl mənasında böyük Azərbaycanlı idi. Ölkəmizin, xalqımızın, Azərbaycan tarixinin, dövlətçilik siyasətinin böyük qayğıkeşi və təəssübkeşi olan Heydər Əliyev XX əsrin sonunda müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı və qurucusu oldu, ölkəmizi parçalanmaq, məhv olmaq təhlükəsindən xilas etdi.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən Plenumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildi. Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etmiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanların olduğunu bildirmişdir. Heydər Əliyev bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşdırılmasına yönəltdi. Məhz Heydər Əliyevin səyi ilə SSRİ hökuməti Azərbaycanla əlaqədar respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan bir neçə xüsusi qərar qəbul etmişdi. Respublikamız üçün həqiqətən tarixi əhəmiyyət daşıyan həmin qərarlar 1970-1980-ci illər arasında və o cümlədən sonrakı perspektivdə ölkənin sosial, iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə Moskva tərəfindən qəbul edilmiş bu qərarlarda elmi-texniki tərəqqi əsasında respublikanın əsasən sənaye bazasının inkişaf etdirilməsi, onun strukturunun təkmilləşdirilməsi, iri cihazqayırma, radiotexnika, elektrotexnika, dəzgah-qayırma və avtomobil sənayesi müəssisələrinin yaradılması, fəaliyyətdə olan zavodların yenidən qurulması və genişləndirilməsi nəzərdə tutulmuşdu. Sovet İttifaqında əsas orta iqtisadi göstəricilərin artım sürətinin aşağı düşdüyü bir vaxtda Azərbaycan SSR-də həyata keçirilən irimiqyaslı tədbirlər nəticəsində əsas iqtisadi göstəricilər durmadan artırdı. Məhz bu gün Azərbaycan iqtisadiyyatının inkişafını təmin edən bir çox istehsal obyektləri həmin dövrün məhsuludur.

Heydər Əliyev hakimiyyətinin birinci dövründə keçmiş sovetlər dönəmində geridə qalmış aqrar respublika olan Azərbaycanı ən yüksək pilləyə qaldırdı. Ulu Öndər Azərbaycanın inkişafında o qədər əhəmiyyətli işlər görmüşdür ki, bunları sadalamaqla qurtarmaz. Təhsilin, səhiyyənin,

mədəniyyətin, ədəbiyyatın, hüquq siyasətinin inkişafına töhfəsini verməklə insanların həyat tərzinin yaxşılaşmasına kömək edirdi.

Tarixən Azərbaycanın sənaye potensialı Bakı və ona yaxın ərazilərdə formalaşmışdı. 1970-1980-ci illərdə başlanan quruculuq işləri bütün respublikanı əhatə etmiş, Mingəçevir də baş verən iqtisadi, sosial, mədəni, ictimai inkişafdan kənarda qalmamışdı.

1970-1980-ci illərdə respublikamızın inkişaf nailiyyətlərində Mingəçevir şəhərinin də özünəməxsus yeri olmuşdu. Mingəçevir şəhəri II Dünya müharibəsindən sonra, xalq təsərrüfatının bərpa və inkişaf etdirildiyi bir dövrdə, yüksək ixtisaslı kadrların, güclü texnikanın çatışmadığı çətin şəraitdə Kür çayı üstündə hidroqovşağın tikintisi ilə bağlı yaranmışdı.Yarandığı gündən şəhərin inkişafı istiqamətində çox işlər görülmüşdü. 1955-1960-cı illər şəhərdə intensiv şəkildə sənaye obyektlərinin tikilməsi ilə xarakterizə edilir. Bu illərdə şəhərdə respublikada ilk olaraq kabel istehsal edən “Azərkabel” zavodu, şəhərin ən böyük müəssisələrindən olan pambıq-parça fabriki, iri panellərdən evtikmə kombinatı, “Azərelektroizolyasiya”, qum-çınqıl, şüşə-mahlıc zavodları istifadəyə verilmişdi.

Ötən əsrin 70-80-ci illərində respublikanı əhatə edən quruculuq işləri Mingəçevir şəhərindən də yan keçməmişdi. Ulu Öndərin Mingəçevir şəhərinə göstərdiyi diqqətin nəticəsi olaraq fəaliyyət göstərən zavod və fabriklərin istehsal gücləri daha da artırılmış, bəzi müəssisələrin istehsal sexləri yenidən qurulmuş və əsaslı təmir işləri aparılmışdı. Bu dövrdə şəhərdə tikinti abadlıq işləri geniş vüsət almış, yeni sosial infrastrukturlar, mədəni-məişət obyektləri tikilib istifadəyə verilmişdi.eyni zamanda bu illərdə şəhərdə bir neçə yeni müəssisə də istismara verilmişdi. Səmərələşdirici təkliflərin verilməsi, yeni növ məhsulların istehsalı, keyfiyyətin yaxşılaşdırılması və dövlət keyfiyyət nişanı ilə buraxılan məhsulların çeşidlərinin artırılması şəhərdəki müxtəlif profilli istehsal müəssisələrinin əsas iş prinsipinə çevrilmişdi.

Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə iyirminci əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu.

Əsası Su Elekttrik Stansiyasının tikintisi ilə qoyulan Mingəçevir 1948-ci ildə şəhər statusu alsa da gənc şəhərin inkişaf dövrü Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra başlamışdır. Azərbaycanın gələcək müstəqilliyini görən Heydər Əliyevin təşəbbüsü və gərgin səyi nəticəsində 1974-cü ildə Cənubi Qafqazın ən iri elektrik enerjisi istehsalı müəssisəsi olan Azərbaycan İES-in tikintisinə başlanmış və 1981-ci il oktyabr ayının 20-də Ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Sovetlər İttifaqında həcminə və görülən işlərin miqyasına görə nəhəng tikililər sırasında duran Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası Cənubi Qafqazın ən böyük enerji müəssisəsidir. Bu müəssisənin Azərbaycanda tikilməsi keçmiş Sovet rəhbərliyində heç də birmənalı qarşılanmayıb. Stansiyanın Gürcüstanda və ya Özbəkstan SSR-də tikilməsinin tərəfdarları daha çox olub [1]. Lakin Heydər Əliyevin bu məsələlərlə bağlı qətiyyətli mövqeyi respublikada bir deyil iki güclü elektrik stansiyasının tikintisinə imkan yaratdı. Azərbaycan DRES-lə bərabər Şəmkir SES-in də tikintisinə razılıq verildi. Azərbaycan KP MK-nin 1-ci katibi Heydər Əliyevin yeni Azərbaycan DRES-nə diqqət və qayğısı böyük olmuşdu. H.Əliyev dəfələrlə respublika partiya təşkilatlarının ali məclislərində, fəallar yığıncağında DRES-in iqtisadiyyatımız üçün çox mühüm rol oynayacağını qeyd etmişdi. DRES-in tikintisi eyni zamanda respublikada bu sahə üzrə yerli energetik, mühəndis, inşaatçı heyət üçün böyük təcrübə məktəbi oldu.

“Mingəçevir təkcə energetiklərin şəhəri deyil, kimyaçıların, toxucuların deyil, bütün Azərbaycanın gözəl şəhəridir” deyən Ümummilli Liderin mingəçevirlilərə göstərdiyi bu diqqət hər birimizin qəlbində əbədi və silinməz izlər buraxıb.

Respublikada bu dövrdə kimya sənayesinin inkişafına xüsusi diqqət yetirilirdi. Bakı və Sumqayıtla yanaşı regionlarda da kimya müəssisələri tikilib istifadəyə verilirdi. Mingəçevirdə bu sahədə istifadəyə verilən yeni müəssisələrdən biri də Texniki-Rezin Məmulatları zavodu idi. Zavod 1971-ci ildə tam gücü ilə istifadəyə verilmişdi. Zavodda sənaye, kənd təsərrüfatı, dəmir yol nəqliyyatı, neft sənayesi və xalq təsərrüfatının başqa sahələri üçün 300-dən artıq müxtəlif növ texniki-rezin məmulatları hazırlanırdı. Zavod fəaliyyətə başladığı ildə zavodda 3 milyon 410 min manatlıq məhsul istehsal edildiyi halda, 1975-ci ildə istehsal olunan məhsulun dəyəri 25 milyon manatdan çox olmuşdu. 1971-1975-ci illərdə zavodda məhsul istehsalı 8 dəfədən çox artmış, əmək məhsuldarlığı 7,6 % yüksəlmişdir [2]. Zavod SSRİ-dəki bu yönümlü 58 zavod arasında məhsul istehsalına görə 5-ci yerə çıxmışdı.

Mingəçevirdə fəaliyyət göstərən kimya profilli digər müəssisələrdən biri də şüşə mahlıc zavodu idi. Bu müəssisədə əsasən elektroizolyasiya, istilik izolyasiyası və hidroizolyasiya təyinatı üzrə parçalar və elektrik mühərriklərinin daxili sarğılarının izolyasiyası üçün şüşə lentlər istehsal edilirdi.

Mingəçevirdə fəaliyyət göstərən "Azərelektroizolyasiya" zavodu respublikanın xalq təsərrüfatında mühüm əhəmiyyət kəsb edən müəssisələrdən sayılırdı. Zavodun tarixində 1970-1980-cı illər ən məhsuldar dövr olmuşdu. Bu illər ərzində zavodda yeni texnologiya və texnikanın, mütərəqqi iş üsullarının tətbiqi sahəsində əmək məhsuldarlığı xeyli artmışdı [3]. Hər cür iş şəraitinə davam gətirən şüşə borular da respublikada ilk olaraq bu zavodda istehsal olunmuşdu. Zavodda 1971-1975-ci illər arasında məhsul istehsalı 76 milyon təşkil etmişdi. Bu göstərici əvvəlki beşilliyə nisbətən 44 milyon manat cox olmuşdu. 1970-ci ildə zavodda əmək məhsuldarlığı 112,5 % olduğu halda, bu göstərici 1975-ci ildə 206,4 % olmuşdu. Əsas sexlərin yenidən qurulması, qabaqcıl iş metodlarının istehsala tətbiqi, texnoloji proseslərin ardıcıl surətdə təkmilləşdirilməsi zavodun məhsul istehsalında yüksək göstəricilərə nail olmasına səbəb olmuşdu. 1975-ci ildə zavodda istehsal olunan məhsulun 49,3 %-i keyfiyyət nişani ilə buraxıldı [4]. Müəssisədə müxtəlif profilli izolyasiya materiallarının istehsalını genişləndirmək üçün SSRİ Elektrotexnika Sənayesi Nazirliyi 1975-ci ildə bu zavodun nəzdində elmi şöbə yaradılmasını məqsədəuyğun hesab etmişdi. Müəssisənin əməkdaşları keçmiş ittifaqın Dnepropetrovsk Kimya-Texnologiya və Leninqrad (indiki Sankt-Peterburq) Politexnik İnstitunun əməkdaşları ilə qarşılıqlı təcrübə mübadiləsi aparırdı. Elmi şöbənin fəaliyyəti müddətində 27 mühüm ixtira barədə Moskvaya məlumat verilmiş, bunun 9-u müəlliflik şəhadətnaməsi almışdır [5]. 80-cı illərin ortalarına qədər zavodun ümumi istehsalının 70 %-ə qədərini fəxri beşguşəli emblem vurulmuş elektrik izolyasiya məmulatları təşkil edirdi. Bu sahədə zavod Ümumittifaq Elektroizolyasiya Birliyinin tabeliyindəki müəssisələr içərisində fərqlənirdi .

Mingəçevirin sənaye şöhrətini artıran digər müəssisələrdən biri də "Azərkabel" zavodu olmuşdu. Şəhərin ən boyük sənaye obyektlərindən biri olmaqla, bu zavod respublikada yeganə kabel istehsal edən zavod olmuşdu. Heydər Əliyev bu zavodun fəaliyyətini yüksək qiymətlədirərək qeyd etmişdi ki, bu müəssisə ölkəmizi neft lampalarından xilas edib [6]. Zavod keşmiş ittifaqın xalq təsərrüfatına 10 milyondan manatdan çox müxtəlif markalı məhsul verdi. Dünyanın 16 ölkəsinə bu zavod öz məhsullarını ixrac edirdi. Bunlar arasında Türkiyə, Vyetnam, İran, Əfqanıstan, Almaniya Demokratik RespublikasI, Əlcəzair və s. ölkələr də var idi. Zavodda iş prosesi zamanı əmələ gələn tullantılardan məişətdə istifadə məqsədilə təkrar emal sexi yaradılmışdı. 1970-1975-ci illərdə kabel məhsullarının istehsalında böyük uğurlar əldə edilmiş, məhsul istehsalı 148 %-ə çatmış, əmək məhsuldarlığı müəssisədə 158,2 % olmuşdu [7]. Zavodda yeni texnika və texnologiyanın tətbiqi məhsulun keyfiyyətinin yaxşılaşmasına da öz təsirini göstərmişdi. 1975-ci ildə zavodda istehsal edilən 5 məhsul dövlət keyfiyyət nişanı ilə buraxılırdı. Zavodun geofiziki məqsədlər üçün istehsal etdiyi kabellər xarici ölkələrdə uğurla satılırdı. Həmin kabellər üçün zavod bir sıra ölkələrdən böyük həcmda sifarişlər alırdı. "Azərkabel" zavodu ümumittifaq əhəmiyyətli müəssisələr səviyyəsinə yüksələrək, "Zaqafqaziyakabel" birliyinə daxil edilmişdi. 1979-cu ildə zavodda 381 adda yüksək keyfiyyətli məhsul hazırlanmış və 8 adda məhsul dövlət keyfiyyət nişanı ilə istehsal edilmişdi [8].

1970-1980-cı illərdə respublikada kənd təsərrüfatının sənaye təməli üzərində qurulmasına, əl əməyinin yüngülləşdirilməsinə kömək edən ən müasir texniki vasitələrin işə tətbiq olunmasına

xüsusi diqqət yetirilirdi. Kənd təsərrüfütı təyinatı ilə maşınqayırma sənayesində daha əhəmiyyətli müəssisələrin yaradılması sahəsində ciddi işlər görülürdü. Bu baxımdan Mingəçevir yol maşınları zavodu mühüm əhəmiyyət kəsb edirdi. Bu zavodda istehsal olunan müxtəlif markalı maşınlar keçmiş ittifaqın onlarla kənd təsərrüfatı rayonlarına göndərilirdi. Respublikada ilk dəfə olaraq bu zavodda "USP" (rəqəmlə idarə olunan avadanlıq) markalı universal yığma qurğusu işə salınmışdı. Bu qurğu texnoloji quruluşundan asılı olmayaraq hər cür ehtiyyat hissələri hazırlamağa imkan verirdi [9]. Bu zavodda hazırlanan çalaqazan maşınlar, avtoyükləyicilər, su nasosları, buldozerlər lazımi təsərrüfat sahələrində çox uğurla istifadə edilirdi. Hətta bu zavodda istehsal edilən "KYAU-100" markalı xəndəkqazan maşınlar təkcə respublika daxilində deyil, onun hüdudlarından kənarda da tanınmışdı. Bu maşın 1972-ci ilin oktyabrında Moskvada keçirilən "Kənd Təsərrüfatı Texnikası-73" sərgisində 1-ci dərəcəli diploma layiq görülmüş və bir sıra ölkələrin diqqətini cəlb etmişdi. Elə həmin ildə Macarıstan və Qvineyaya sifariş əsasında 30 ədəd xəndəkqazan maşın göndərilmişdi. Yeni texnika və texnologiyanın tətbiqi, istehsal proseslərinin mexanikləşdirilməsi nəticəsində zavodda əmək məhsuldarlığı artmış, müəssisə min manatlarla əlavə iqtisadi səmərə əldə etmişdi. Respublikada bu dövürdə kənd təsərrüfatının inkişafına olan diqqəti 1972-ci ildə Mingəçevirdə açılmış daha bir müəssisənin fəaliyyətində görmək olardı. Mingəçevir Tikinti Yol maşınları təmiri zavodu 1972-ci ildə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin dəstəyi ilə yaradılmışdır. 1973-cü ildə tam gücü ilə fəaliyyətə başlayan zavod xüsusilə kənd təsərrüfatında istifadə olunan maşın və mexanizimlərin təmiri üzrə ixtisaslaşdırılmışdır. Zavodda kənd təsərrüfatı üçün müxtəlif maşınlar, mexanikləşdirilmiş yedəklər, eləcə də heyvandarlıq və quşçuluq fermaları üçün metal konstruktorlar istehsal olunurdu. Zavodda istehsal olunan yüksək məhsuldarlığa malik kiçik qabaritli susoyuducu qurğuların böyük təsərrüfat əhəmiyyəti vardı. Qurğunun layihəsi Kiyev Ümumittifaq Tikinti və Yol Maşınqayırma Layihə Konstruktor Texnologiya İnstitunun əməkdaşları tərəfindən hazırlanmışdı [10]. Təbii ki, Mingəçevirdəki bu zavodların inkişafında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qəbul etdikləri "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirmək tədbirləri haqqında" 9 iyul 1975-ci il, "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" 22 fevral 1979-cu il qərarları xüsusi rol oynayıb. Təkcə 1984-cü ildə Mingəçevir Yol Maşınları zavodunda 3360 ədəd "KYAU – 100A" markalı çalaqazan maşın istehsal edilib, respublikanın kənd təsərrüfatı müəssisələrinə göndərilmişdir.

Mingəçevirdə istehsal olunan məhsulların əksəriyyəti kənd təsərrüfatı obyektlərində geniş şəkildə tətbiq olunurdu. Mingəçevirdə kənd təsərrüfatı sahəsində ixtisaslaşan və yenidən qurulan müəssisələrdən biri də Təcrübi Eksprimental Sınaq zavodudur. Bu müəssisə şəhərdə respublika rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsi ilə açılmışdır. Zavod müxtəlif kənd təsərrüfatı və digər maşınların əsaslı təmiri ilə məşğul idi.

Mingəçevir 5 nömrəli Kənd tikinti tresti, 5 nömrəli avtonəqliyyat kontoru, 5 nömrəli mexanizasiya idarəsi, 5 nömrəli dəmir-beton məmulatı və ağac emalı zavodları bilavasitə kənd təsərrüfatına xidmət edən idarə və müəssisələrdən idi.

1970-1980-cı illər Azərbaycanda tikinti kompleksinin daha çevik işlədiyi bir dövr, sosial-iqtisadi inkişafın təmin olunmasından ötrü tikinti-quruculuq işlərinin geniş miqyas aldığı bir mərhələdir. Respublikada bu illərdə tikinti materialları istehsalının artırılmasına və bu sahədə yeni sahələrin tikilib istifadəyə verilməsinə xüsusi diqqət yetirilirdi. Azərbaycan KP MK-nin 1971-ci ilın iyulunda keçirilmiş plenumunda əsaslı tikintinin vəziyyəti xüsusi müzakirə edilmişdi. Mingəçevirdə fəaliyyət göstərən qum-çınqıl zavodu, iri panellərdən evtikmə kombinatı, dəmir-beton konstruksiyaları zavodu və digər oxşar profelli müəssisələr həm şəhərin özündə, həm də digər rayon və kəndlərdə sürətli tikinti işləri aparmaq üçün imkanlar yaradırdı. Mingəçevir mənzil tikintisinin həcminə görə respublikada fərqlənən şəhərlərdən olmuşdu. Sosial həyatın ən mühüm göstəricilərindən olan mənzil tikintisinin həcmi 1970-1980-çı illərdə şəhərdə xeyli artmışdı. Hər il Mingəçevirdə təqribən 35-40 min kv.m-dən çox mənzil tikilib istifadəyə verilirdi [11].

Bu dövrdə Ulu Öndər Mingəçevirdə təhsilə, yeni tədris binalarının tikintisinə, təhsil müəssisələrinin müəllim kadrları ilə təmin edilməsinə də ciddi diqqət yetirirdi. "Gənclərin ümumi

orta təhsilə keçməsinin başa çatdırılması və ümumitəhsil məktəblərinin işinin daha da inkişaf etdirilməsi haqqında" 10 avqust 1972-ci il tarixli Azərbaycan KP və Nazirlər Sovetinin qəbul etdiyi qərar Mingəçevir Xalq Maarif Şöbəsində də müzakirə edilmiş və bundan irəli gələn məsələlər müəyyənləşdirilmişdi. 1972-ci ildə şəhərdə 1000 yerlik məktəb binası tikilib istifadəyə verilmiş, 13 məktəb binasından 6-da əsaslı təmir işləri aparılmış, şəhər tabeli Tərəvəzçilik sovxozunda 5 nömrəli səkkiz illik illik məktəb üçün 120 şagirdyeri olan 3 sinif otağı və 2 yardımçı otaq hazırlanıb istifadəyə verilmişdi. Şəhər zəhmətkeş Deputatlar Soveti İcraiyyə Komitəsi tərəfindən Gənc Texniklər Stansiyası üçün 17 otaqdan ibarət yeni bina ayrılmış, şəhər müəllimlər evi və Səhər Maarif Şöbəsi üçün də yeni bina istifadəyə verilmişdi [12]. 1973-cü ildə Mingəçevirdə 21 ümumtəhsil məktəb var idi ki, omların 6-sı gündüz, 6-sı axşam, 8-i səkkizillik, 1-i qiyabi məktəb kimi fəaliyyət göstərirdi. Şəhərin ümumtəhsil məktəblərində 14 mindən çox şagird təhsil alırdı ki, onlara da 751 müəllim dərs deyirdi. Şəhərdəki 13 uşaq bağçası və körpələr evində 2 mindən çox uşaq tərbiyə olunurdu. Mingəçevirdə Politexnik texnikumu, Tibb məktəbi, texniki peşə məktəbləri, musiqi və mühasib məktəbi də fəaliyyət göstərirdi. Mingəçevir gəncləri arasında idmanın avarçəkmə, baydarka, sərbəst güləş, yüngül atiletka kimi növləri geniş yayılmışdır. Şəhər idmançılarının ən çox uğur qazandığı idman növü avarçəkmə idi.

Ötən əsrin 70-80-cı illərində respublikada sosial və mədəni quruculuğun bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdi. Artıq 1972-ci ildə şəhərdə 9 kitabxana, 4 klub, Dövlət Dram Teatrı və Tarix Diyarşünaslıq Muzeyi fəaliyyət göstərirdi. Həmçinin 5 kinoteatr, 4 kinoqurğu, 3 səyyar kinoqurğu da əhaliyə xidmət edirdi. 1978-ci ildə şəhərdə mərkəzləşdirilmiş kitabxana sistemi yaradılmışdı.

Mingəçevir şəhərində üzun müddət fəaliyyət göstərən xalq teatrının bazası əsasında Azərbaycan SSR Nazirlər Sovetinin 13 yanvar 1969-cu il tarixli qərarı ilə Dövlət Dram Teatrı yaradılmışdı. Teatrın binası 1974-cü ildə Mədəniyyət Nazirliyinin xətti ilə əsaslı təmir olunmuşdu. Teatr kolletivi Mingəçevirə yaxın rayon və kəndlərdə qastrol səfərlərində olurdu. Mingəçevirdə fəaliyyət göstərən tarix-diyarşünasləq muzeyində şəhərin qədim və müasir dövrlərini əks etdirən çoxlu maddi-mədəniyyət nümunələri, ev əşyaları, təsərrüfat alətləri, şəhər sənaye müəssisələrinin istehsal etdiyi məhsullardan nümunələr toplanıb nümayiş etdirilirdi.

Mingəçevirdə səhiyyə sistemi də həmişə Heydər Əliyevin diqqət mərkəzində olan sahələrdən olub.Mingəçevirdəki tibb müəssisələri təkcə şəhər sakinlərinə deyil, ətraf rayon və kəndlərin əhalisinə xidmət göstərirdi. Bu dövrdə xəstəxana xidmətinin yaxşılaşdırılmasında bir sıra tədbirlər görülmüş, stasionarlar yumşaq və bərk invertarlarla təchiz edilmiş, biokimyəvi və endokrin analizlər üçün laborotoriya təşkil edilmişdi. 1977-ci ildə şəhərdə yeni xəstəxana tikilib istifadəyə verilmişdi. Yeni xəstəxanada travmaloji, qulaq-burun, əsəb xəstəlikləri şöbəsi, seroloji laboratoriya fəaliyyətə başladı. 1980-cı ildə Mingəçevirdə 199 həkim, 655 tibb işçi, beş xəstəxana, iki poliklinika, iki stasionar-səhiyyə hissəsi, tibbi-bədən tərbiyəsi dispanseri, zavod və fabriklərin nəzdində yaradılmış həkim məntəqələri, xüsusi stomoloji profilaktika əhalinin xidmətində idi [13]. 1970-1980-ci illərdə şəhərdə xidmət şəbəkələrinin sayı xeyli artırılmış, xidmət növləri çoxaldılmışdı.

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində baş vermiş hadisələr, Sovet İttifaqının süqutu Mingəçevirə də təsirsiz ötüşmədi. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində vaxtilə tikilib istifadəyə verilmiş "Azərbaycan" İES olmasaydı, respublikanın, o cümlədən paytaxt Bakının enerji təchizatında ciddi problemlər yaşana bilərdi. Beləliklə, Azərbaycanı o illərdə qurub yaradan, respublikanı bütün sahələr üzrə kənar asılılıqlardan çıxararaq dövlət müstəqilliyi üçün zəruri əsasları formalaşdıran Ulu Öndərin enerji sektoruna diqqət və qayğısının əsl səbəbləri Azərbaycan müstəqilliyə qovuşduqdan sonra daha aydın, dolğun şəkildə duyuldu.

1998-ci ilin oktyabrında Heydər Əliyevin Mingəçevir şəhərinə növbəti gəlişi, vətəndaşlarla görüşü, Məscid Kompleksinin açılış mərasimindəki çıxışları mingəçevirlilər üçün bir proqram olmuşdur. Mingəçevirlilərlə görüşdən məmnun olduğunu dilə gətirən Ulu Öndər xüsusilə vurğulayıb ki, "Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində mən vaxtilə çox zəhmət

çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycana rəhbərliyə başlayarkən biz Azərbaycanın hər yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə buraya xüsusi fikir verirdik. Mən çox şadam ki, bizim gördüyümüz işlər yaşayır, inlkişaf edir və insanlar burada yaranmış bütün imkanlardan istifadə edirlər, yaşayırlar".

Mingəçevir inkişaf yoluna yenidən qədəm qoydu. Bu günkü inkişaf və tərəqqi, həyata keçirilən regoionların sosial iqtasadi inkişafı Dövlət Proqramı da məhz Ulu Öndərin başladığı fəaliyyət istiqamətinin davamıdır.

2018-ci il iyulun 3-də "Azərbaycan İES" MMC-də baş vermiş məlum qəza hadisəsindən sonra ölkə prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq maliyyə vəsaiti ayrılmış, stansiyanın reablitasiya, təmir və bərpa proqramı hazırlanmış, dərhal icrasına başlanmışdır. 2020-ci il iyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevirə səfəri çərçivəsində reablitasya proqramı çərçıvəsində yenidən qurulmuş "Azərbaycan" İstilik Elektrik Stansiyasında Ulu Öndərin abidəsi önündə qeyd etmişdir: "Ulu Öndərin ruhu qarşısında vicdanımız təmizdir, onun yolunu davam etdiririk, onun əsərini bərpa etmişik".

13 fevral 2023-cü il tarixində Bakıda "Gülüstan" sarayında Azərbaycanın energetiklər şəhəri olan Mingəçevirdə tikiləcək 1300 MVt gücündə istilik elektrik stansiyasının təməlqoyulma mərasimi keçirilib. Cənab Prezident İlham Əliyev: "İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır". Yaxın gələcəkdə Azərbaycanın elektrik enerjisi də neft və qaz kimi Avropa məkanına çatdırılacaq.

Azərbaycanın əldə etdiyi bütün uğurlar, torpaqlarımızın işğaldan azad olunmasında igidlik və mərdlik nümunələrinin göstərilməsi, ordumuzun zəfər tarixi Ulu Öndərin adı ilə bağlıdır. Ümummilli Liderin əsasını qoyduğu dövlət quruculuğu prosesi Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını və yeni mərhələdə tarixin siyasi səhnəsində özünəməxsus yer tutmasını təmin edir. Ulu Öndərin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsasını müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi və möhkəmləndirilməsi təşkil edir. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası ölkəmizi sürətli tərəqqi yoluna aparmışdır.

Biz mingəçevirlilər fəxr edirik ki, müasir Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin başladığı uğurlu siyasəti ləyaqətlə davam etdirən, ölkəmizin yeni inkişaf tarixini yaradan, dünya miqyasında nüfuzunu artıran möhtərəm Prezidenimiz cənab İlham Əliyevin rəhbəriyi altında bütün respublikamız, o cümlədən Mingəçevir şəhəri sabaha doğru inamla addımlayır.

## İstifadə edilmiş ədəbiyyat

1. "Səda" qəz., 2004, oktyabr-noyabr, № 47-52 (767-772)
2. "Mingəçevir işıqları" qəz., 1975, № 7 (3392)
3. ARDA MF f,72, s2, iş I
4. Ağayev Ç. Zəfər beşilliyimiz / "Mingəçevir işıqları" qəz., 1975, 16 avqust, № 100(3329)
5. "Mingəçevir işıqları" qəz., 1981, 9 iyul, № 80(4239)
6. Quliyev L. Məhəbbətdən doğulan şəhər / "Azərbaycan" qəz., 2004, 8 iyun, № 132 (3747)
7. ARPİİSA f. 8039, s. 4, 1ş 286
8. Mahmudov A. İnkişaf yollarında / "Mingəçevir işıqları" qəz., 1980, 11 mart, № 31 (4036)

9. Çerqanov V. Proseslər təkmilləşdirilir / "Mingəçevir işıqları" qəz., 1972, 1 iyul, № 78(2845)
10. "Mingəçevir işıqları" qəz., 1979, 8 sentyabr, № 107 (3957)
11. Əliyev-90. Müasir Azərbaycan dövlətinin banisi və qurucusu. [Elektron resurs] URL: www.mingechevir-ih.qov.az/news/34.hml
12. ARDA MF f.72, s. 1, iş 308
13. Cəbiyev R. Mingəçevir günəşi / "Azərbaycan gəncləri" qəz., 1980, 16 mart, № 246 (17880)

## THE PRICELESS MERITS OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF MINGYACHEVIR AS AN INDUSTRIAL CITY

[1,2]**A.Aliyeva,** [2]**A.Abdurrahmanova**
[1]doctor of philosophy in technics, associate professor
[2]Mingachevir State University

***Abstract:*** *On May 10, 2023, the 100th anniversary of the birth of Heydar Aliyev, the National Leader of the Azerbaijani people, the founder of the independent state of Azerbaijan, an prominent politician and statesman, was completed. The President of the Republic of Azerbaijan has signed a Decree on declaring 2023 as the "Year of Heydar Aliyev". The article mentioned about the contributions of the national leader Heydar Aliyev, the founder of the independent Azerbaijan State, in the formation of Mingachevir as the 4th industrial city during the first and second periods of his governance. In today's development and progress of Mingachevir, the country's president, Mr. Ilham Aliyev, is a follower of the direction of action started by the great leader.*
***Keywords:*** *The city of Mingachevir, the industrial enterprises of Mingachevir, the important works of the Great Leader*

## БЕСЦЕННЫЕ ЗАСЛУГИ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ МИНГЯЧЕВИРА КАК ПРОМЫШЛЕННОГО ГОРОДА

[1,2]**А.А.Алиева,** [2]**А.М.Абдуррахманова**
[1]доктор философии по технике, доцент
[2]Мингячевирский государственный университет

***Резюме:*** *10 мая 2023 года исполнилось 100-летие со дня рождения Гейдара Алиева – Общенационального лидера азербайджанского народа, основателя независимого государства Азербайджан, выдающегося политического и государственного деятеля. Президент Азербайджанской Республики подписал Указ об объявлении 2023 года «Годом Гейдара Алиева». В статье говорится о вкладе общенационального лидера Гейдара Алиева, основателя независимого Азербайджанского государства, в становление Мингячевира как четвертого промышленного города в первый и второй периоды его правления. В сегодняшнем развитии и прогрессе Мингячевира президент страны господин Ильхам Алиев является продолжателем направления действий, начатого великим лидером.*
***Ключевые слова:*** *город Мингячевир, промышленные предприятия Мингячевира, важные дела Великого Вождя*

**Elmi redaktor: i.f.d., dos. E.Hüseynova**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 27.06.2023**
**Çapa qəbul edilib: 03.07.2023**

UOT 330.341.4:339.13; 330.341.44; 338.33; 334.012; 337.7; 316.37

# AZƏRBAYCANDA SAHİBKARLIQ MÜHİTİNİN YARANMASII VƏ İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

[1,3]**Emiliya Yəhya qızı Hüseynova,** [1,2,3]**Tural Tapdıq oğlu Xəlilov**
[1]iqtisad üzrə fəlsəfə doktoru, dosent
emiliya.huseynova@mdu.edu.az
[2]tural.khalilov@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Müstəqil Azərbaycanın memarı olan Ulu Öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Bu da onu deməyə əsas verir ki, həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət gaygısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.*

***Açar sözlər:*** *dövlət, inkişaf, biznes, investisiyalar, neft, ölkənin iqtisadi modeli*

## Giriş

Bazar iqtisadiyyatının inkişafı ilə bağlı olaraq, ölkə daxilində gerçəkləşdirilən iqtisadi baxımdan islahatlar nəticəsində xalqın ticari fəaliyyəti ilə bağlı əlverişli şəraitin yaradılması son nəticədə sahibkarlığın yaranmasına və formalaşmasına səbəb olmuşdur. Bazar iqtisadiyyatı şəraitində insana xas olan müstəqil, iqtisadi və kommersiya işləri sahibkarlıq işlərində özünü göstərir. Sosial və iqtisadi inkişafın vacib şərti fərqli şəkillərdə var olan sahibkarlıq işləridir. Sahibkar insanlar isə toplumun fəal şəkildə elmi yenilikləri qəbul edən sosial təbəqələrini təşkil edirlər. Azərbaycan Respublikasında sahibkarlıq işlərinin inkişaf etdirilməsinin iqtisadi inkişaf formalarına görə önəmli mövqe tutmaqda və istehsal, istehlak və bölgü əlaqələrinin təminində iqtisadi və təşkilati vasitə rolunu oynayır. Belə ki, sahibkarlıq işinin Azərbaycan modeli ilə bağlı inkişafı dövlətin iqtisadiyyatının müasir vəziyyətini, bununla bağlı olaraq gələcək inkişafını və məhsuldar güclərin təkmilləşdirilməsinin həyata keçirilməsini göstərməkdədir.

Müstəqil Azərbaycan Respublikası qlobal bazar münasibətləri vəziyyətində sahibkarlıq işlərinin inkişafı ilə bağlı özünüməşğulluq vasitələrinin yaradılmasına müəyyən diqqət yetirir. Hökümət milli iqtisadiyyatın inkişaf etdirilməsinə, xalqın ehtiyacına və ölkə daxilində rəqabət bazarına uyğun hala gətirilməsinə, cəmiyyəttə sahibkarlıq həvəsinin yetişdirilməsinə və sahibkarlıq işlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə lazımi köməklik göstərir. Müstəqil sahibkarlıq işlərinin formalaşması ölkə daxilində məhsul istehsalını artırır, istehlak bazarının inkişafına şərait yaradır, işsizliyin aradan qaldırılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və dövlət gəlirlərinin artmasına kömək edir.

Heydər Əliyev fəaliyyəti illərində Azərbaycanda sahibkarlığın inkişafı xüsusiyyətlərinin, sahibkarlıq işlərinin nəticələrinin və gələcək aspektlərinin araşdırılması məqalənin əsas məqsədidir. Sahibkarlıq sahəsində yazılmış xarici ədəbiyyat, bu sahənin mövcud vəziyyəti və inkişafı haqqında klassik və Azərbaycan alimlərinin elmi araşdırmaları və fikirləri araşdırılmışdır. Azərbaycanda sahibkarlığın inkişafı və formalaşması ilə bağlı hüquqi tənzimləmələrin, xüsusilə Konstitusiya qanunlarının qəbulu və bu istiqamətdə tədbirlərin həyata keçirilməsi tədqiqatın əsas nəzəri və metodoloji aspektlərini əhatə edir. Bundan əlavə, sahibkarlığın inkişafını müəyyən etmək ilə bağlı statistik göstəricilərdən istifadə edilmişdir.

**Azərbaycanda sahibkarlığın formalaşmasında Heydər Əliyevin rolu**

Postsovet fəaliyyəti illərində Azərbaycanın onilliyi (1994-2003) Heydər Əliyev və onun siyasəti ilə güc əldə etmiş, daha sonrakı illərdə də vacib rolunu davam etdirmişdir. Müstəqilliyin ilk illərində ermənilərin işğal etdiyi Qarabağ torpaqlarında yaranmış problemlər ucbatından çətin dövr yaşayan Azərbaycanda Heydər Əliyevin prezident seçilməsi ilə Azərbaycanda siyasi qeyri-sabitlik azalmış kimi görünür. Eyni zamanda, ölkənin beynəlxalq iqtisadi sistemə inteqrasiyası baxımından bəzi mənfi göstəricilərə baxmayaraq, ciddi inkişafın baş verdiyi dövrdür. Qarabağ probleminin həllində ciddi irəliləyiş əldə olunmasa da, Əliyevlər dövrü xarici iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi, Azərbaycanın beynəlxalq aləmdə "mühüm aktor" olmağa başladığı bir dövr idi (Qurbanov, 2023, s. 158).

Azərbaycanda müstəqillik qazanıldıqdan sonra sahibkarlığın inkişafını aşağıdakı dövrlərə bölmək olar: (Bülbülzadə, 2021, s. 12)

- 1993-cü ilə qədər olan dövr;
- 1993-2003-cü illər;
- 2003-2015-ci illər;
- 2015-ci ildən sonrakı dövr.

1992-ci il oktyabrın 12-də Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Statusunun təsdiq edilməsi ilə sahibkarlara prioritet kreditlər verən ilk maliyyə institutu yaradılmışdır. 1992-ci il dekabrın 15-də ölkə daxilində sahibkarlıq işlərinin hüquqi və iqtisadi tənzimlənməsini nəzərdə tutan "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir (Rüstəmov, 2013, s. 41).

Azərbaycan Qarabağ müharibəsi zamanında neft sənayesində bəzi addımlar atsa da, inkişafı və iqtisadi transformasiyanı sürətləndirəcək strukturlaşmaya gedə bilmədi. Həm münaqişə mühitinin xarici investorlar ilə bağlı təhlükəsiz olmaması, həm də Azərbaycan iqtisadiyyatında resursların olmaması iqtisadi transformasiya və inkişafın mühərriki ola biləcək enerji sektorunun inkişafına mane oldu. Əslində atəşkəsdən sonra yaranan sabitlik və etimad mühiti dərhal öz təsirini göstərdi və xüsusilə enerji sektoruna qarşı beynəlxalq tələbatda artım yaşandı. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) rəhbərliyi ilə yaradılmış beynəlxalq neft konsorsiumları və hasilatın pay bölgüsü sazişləri ilə uzunmüddətli neft hasilatı və ixracı əhəmiyyətli dərəcədə artmışdır. Enerji resurslarından istifadəyə dair 1993-cü il oktyabrın 3-də Azərbaycan ilə bağlı yeni, uzun bir dövrün başlanğıcı oldu. Bu tarixdə Heydər Əliyev Azərbaycan Prezidenti seçildi və ölümünə qədər on ilə yaxın müddətdə dövlət başçısı kimi fəaliyyət göstərdi. Bu müddətdə postsovet çağı Azərbaycanın onilliyi Heydər Əliyevin siyasəti ilə formalaşmış və daha sonrakı illərdə də bu amil vacib rolunu davam etdirmişdir (Zeynalabdinov, 2021, s. 651).

Qeyd etmək olar ki, 1994-cü ildə elan edilmiş atəşkəs 2 mühüm nəticə verdi: Birincisi - Azərbaycan müharibənin iqtisadi yükündən qurtulmaqla sabitlik imkanı əldə etdi. İkincisi, xarici aktorlarla, ilk növbədə çoxmillətli neft şirkətləri və BVF ilə sıx qarşılıqlı əlaqələr qurulmuşdur. Düşünmək olar ki, bu qarşılıqlı əlaqə müstəqilliyin siyasi sütununu təşkil edir. Bu müddətdə BVF; Azərbaycan siyasətində müdafiə xərclərinin azaldılmasında, dövlətin liberallaşdırılmasında və onun kiçilməsini nəzərdə tutan strukturun yaradılmasında önə çıxıb. Təbii ki, bu strukturlaşma regionun enerji resurslarından faydalanmağı hədəfləyən transmilli şirkətlər tərəfindən dəstəklənib (Vəliyeva, Əliyev, 2022, s. 14). Bu kontekstdə neft gəlirlərinin qısa müddətdə iqtisadi rifaha müsbət təsir göstərəcəyinə dair gözləntilər artıb. Neft gəlirləri hesabına da struktur islahatları aparıldı və Azərbaycan iqtisadiyyatı yüksəliş trendinə keçdi.

Müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatının zəif çıxışından sonra xüsusilə 1994-cü ilin ortalarından etibarən bərpa mərhələsinə qədəm qoyub. Qarabağ müharibəsində atəşkəs elan edilməsi ilə Azərbaycan iqtisadi transformasiya ilə bağlı lazımi şəraiti təmin etmək ilə bağlı yeni addımlar atmaq imkanı əldə etdi. Bu müddətdə ölkə iqtisadiyyatı üç mühüm məqsəd istiqamətində irəliləməyə çalışıb. Bunlar (Əliyeva, 2021, s. 220):

- ölkənin əsas təbii sərvət ehtiyatlarının emalının təmin edilməsi;

- liberal-demokratik düşüncəyə əsaslanan bazar iqtisadiyyatı prinsiplərinə uyğun iqtisadi strukturun qurulması;
- dünya iqtisadiyyatı ilə qlobal və regional inteqrasiyaya nail olmağa çalışmaq.

Ölkənin milli simvoluna çevrilən Heydər Əliyev siyasəti ilə Azərbaycan Asiya İnkişaf Bankı, Avropa İnkişaf Bankı, İslam İnkişaf Bankı, BVF, Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatı və onun kimi digər mühüm regional maliyyə qurumlarının fəal üzvünə çevrilmişdir. Bu çərçivədə iqtisadiyyatın yenidən qurulması ilə bağlı tələb olunan beynəlxalq fondlara asanlıqla çata bilən ölkə xarici ticarət rejimində apardığı islahatlara paralel olaraq yüzdən çox ölkə ilə xarici ticarət şəbəkələri qurmağa müvəffəq olmuşdur. Bu tənzimləmələrin ən böyüyü – 1995-ci ildə daha çox Heydər Əliyevin təsiri ilə hazırlanan və sözün əsl mənasında lider konstitusiyası adlandırılan Azərbaycan Konstitusiyasıdır. Heydər Əliyev bu gün də siyasi sabitliyə mühüm töhfələr verib (Gülməmmədli, 2021, s. 223). Bundan başqa, bu sabitliyin bərqərar olmasında Azərbaycan Konstitusiyasının töhfəsini də nəzərdən qaçırmaq olmaz.

**Heydər Əliyevdən sonrakı illərdə sahibkarlığın inkişafı**

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəlişindən sonra regionlarda sahibkarlıq işlərinin inkişafı dövlət prioritetinə çevrilmiş, 2004-cü ildən başlayaraq ardıcıl dövlət proqramları həyata keçirilmişdir. Bu proqramlar regionlarda sahibkarlığın inkişafına böyük təkan verdi. Nəticədə 2019-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı Kredit və İnkişaf Agentliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən aşağı faizli sahibkarlıq subyektlərinə verilən 100 milyon manatdan çox kreditin böyük hissəsi regionların payına düşüb. Bu vəsaitlərin regionlar üzrə bölgüsü aşağıdakı diaqramda göstərilmişdir (Əliyev, 2018, s. 14):




**Diaqram 1**. Regionlarda sahibkarlığın inkişafı göstəriciləri

2015-ci ildən sonra sahibkarlıq sahəsində Strateji Yol Xəritələri və Dövlət Proqramları qəbul edilib. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə ölkə iqtisadiyyatı üzrə 12, o cümlədən iqtisadiyyatın 11 sektoru üzrə Strateji Yol Xəritələri təsdiq edilib. Bu sənədlərdən biri olan "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə xüsusilə ölkə daxilində kiçik və orta sahibkarlığın (KOB) vəziyyəti təhlil edilərək, ətraflı məlumat verilir (Qurbanov, 2023, s. 159).

Strateji yol xəritəsinə 2020-ci ilə qədər strateji baxış, 2025-ci ilə qədər uzunmüddətli baxış və 2025-ci ildən sonrakı hədəf baxışı yer alır. Yol xəritəsində yuxarıda ümumiləşdirilmiş fikirlərdə qeyd olunan məqsədlərə nail olmaq ilə bağlı 5 strateji məqsəd müəyyən edilmişdir. Bu strateji məqsədlərə kiçik və orta sahibkarlığın fəaliyyəti ilə bağlı biznes mühitinin və normativ hüquqi bazanın təkmilləşdirilməsi, onların maliyyə resurslarına səmərəli çıxışının təmin edilməsi, onların

beynəlmiləlləşməsinin və xarici bazarlara çıxışının artırılması və s. daxildir. O, hər bir məqsəd ilə bağlı prioritetləri, əsaslandırmaları və onların həyata keçirilməsini təmin edən tədbirləri ehtiva edir. Strateji məqsədlərə nail olunmasını təmin etmək ilə bağlı tədbirlər planı da təsdiq edilib (Bülbülzadə, 2021, s. 14).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurlu şəkildə gerçəkləştirilən iqtisadi inkişaf siyasətinin əsas istiqamətlərindən biri də özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi ilə bağlı əlverişli mühit yaratmaqdır. Prezidentin 31 iyul 2018-ci il tarixli Sərəncamı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs yaradılıb. Belə ki, Qaydalara əsasən Fonddan müəssisələrə veriləcək kiçik kreditlərin limiti 50 min manat, orta həcmli kreditlər üzrə limit 1 milyon manat, iri həcmli kreditlər üzrə isə 10 milyon manat müəyyən edilib. Bildirilib ki, kiçik, orta və iri həcmli kreditlərin ödəmə müddətləri müvafiq olaraq, 3 (üç), 5 (beş) və 10 (on) il, kreditlərdən istifadə üzrə güzəşt müddəti və birinci 1/2 müddəti əhatə edəcəkdir (Zeynalabdinov, 2021, s. 652).

Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması, kredit müraciətlərinə qısa müddətdə baxılması, kredit təşkilatları və Sahibkarlığın İnkişafı Fondu tərəfindən lazımi təhlillərin aparılması və qərarların İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlara çatdırılması kimi müddətlər "Elektron Kredit Platforması" vasitəsilə həyata keçirilir. Kommersiya müəssisəsinin müraciətinə təcili kredit (200 000 manatadək) üzrə 7 iş günü, şərti kredit (200 000 manatdan yuxarı) üzrə isə 10 iş günü müddətində baxılır. Fəaliyyət sahəsi pandemiyaya məruz qalmış müəssisənin müraciəti rədd edildikdə, sahibkar səbəb kimi göstərilən çatışmazlıqları aradan qaldırdıqdan sonra bu və ya digər müvəkkil bank vasitəsilə yenidən müraciət etmək hüququna malikdir (Əliyev, 2018, s. 7).

Bu elektron sistem ilə biznes kreditlərinin verilməsi sahibkarlar ilə bağlı bir sıra üstünlüklər yaradır. Sahibkarlar biznes kreditləri ilə bağlı onlayn müraciət edir, onların müraciətləri müvəkkil kredit təşkilatları və İqtisadiyyat Nazirliyi tərəfindən eyni vaxtda qiymətləndirilir və müraciətlərin vəziyyəti anında izlənilir.

Elektron Kredit Platformasının tətbiqi həm də kreditlərin alınmasında çeviklik və şəffaflığın təmin edilməsinə, sahibkarlara bərabər şəraitin yaradılmasına, sağlam rəqabət mühitinin yaradılmasına, sahibkarların kreditə çıxış imkanlarının genişləndirilməsinə, vaxta və vəsaitə qənaət etməyə imkan verəcək. Azərbaycan Respublikası Prezidenti "Koronavirus (COVID-19) epidemiyasının və bununla bağlı olaraq, Azərbaycan Respublikasının iqtisadiyyatında dünya enerji və fond bazarlarında baş verən kəskin tərəddüdlərin azaldılması haqqında" 2020-ci il martın 19-da Fərman imzalayıb. Bu fərmanla həyata keçiriləcək işlərin üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulub.Birinci mərhələdə zərər çəkmiş ərazilərdə çalışan işçilərin əmək haqlarının bir hissəsinin ödənilməsi, fərdi (mikro) işçilərə maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. sahibkarlar və iqtisadi fəaliyyəti qorumaq ilə bağlı vergi güzəştləri təmin edir (Gülməmmədli, 2021, s. 224).

Sahibkarlığın inkişafına sistemli və ardıcıl dövlət dəstəyinin daha bir nümunəsi "Elektron ticarət" portalıdır. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda "Elektron ticarət" sahəsində işlərin intensivləşdirilməsi ilə bağlı İqtisadi İnkişaf Nazirliyinə tapşırıqlar verilmişdir. Tapşırığın icrasını təmin etmək ilə bağlı İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən sahibkarların, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçılarının Müstəqil bazara çıxışına dəstək məqsədilə "Elektron ticarət" üzrə internet portalı yaradılıb. Portal Azərbaycanda B2B (biznesdən biznesə) modelinə əsaslanan ilk elektron ticarət portalıdır. Məqsəd yerli alıcılara yerli müəssisələr, onların məhsulları və xidmətləri haqqında məlumat verməklə işgüzar əlaqələrin qurulmasına dəstək vermək və bazarlara sərbəst çıxışı təmin etməkdir.

**Nəticə**

Dünya təcrübəsinə görə bildirmək olar ki, ölkə daxilində sahibkarlığın inkişafı ilə bağlı ilk olaraq, makroiqtisadi səviyyədə təmin edilmiş sabit şərait həyata keçirilməli, sahibkarlıq ilə bağlı əlverişli mühit yaradılmalıdır. Ona görə də əlverişli mühitin yaradılması sahibkarlıq sahəsində dövlət səviyyəsindən tutmuş hamıya qədər hər bir problemdən asılıdır. Azərbaycan Respublikasında

siyasi, sosial və iqtisadi sahələrdə ilk tənəzzülün sahibkarlıq işlərinin formalaşmasına mənfi təsir göstərməsinə baxmayaraq, demək olar ki, sonrakı dövrlərdə bu sahələrdəki sabitlik sahibkarlığın inkişafına mühüm töhfə verdi və ətraf mühitin daha da yaxşılaşdırılmasına kömək etdi.

Sovet hakimiyyəti altında olan bir çox bölgələrdə İttifaq dağıldıqdan sonra iqtisadi, siyasi və sosial baxımdan köklü dəyişikliklər baş verdi. Müstəqilliyini elan edən ölkələr yeni dünya düzəninə ayaq uydurmaq ilə bağlı iqtisadi və siyasi sahədə transformasiya müddətinə daxil olublar. Lakin bu dəyişikliklər həm struktur, həm də mentalitet amilləri baxımından asan olmadı. Bu vəziyyət Azərbaycan baxımından dəyərləndirildikdə, ilkin şərtlərin çətinliyi və Qarabağ müharibəsi ön plana çıxır. Bazar iqtisadiyyatına keçmək istəyən Azərbaycanda sovet sisteminə inteqrasiya olunmuş iqtisadi strukturun korlanması transformasiya müddətinə mənfi təsir göstərdi. Demək olar ki, bütün iqtisadi kanallar dağılıb, iqtisadi nizam alt-üst olub. Bu vəziyyət sovetlərdən asılı olan və müstəqillik əldə etmiş bir çox ölkələr ilə bağlı keçərli olsa da, Qarabağ müharibəsinin təsiri ilə Azərbaycan da siyasi qeyri-sabitlik dövrü yaşadı.

Belə bir şəraitdə Heydər Əliyev Azərbaycan ilə bağlı mühüm liderlərdən biri kimi meydana çıxdı. Sovet fəaliyyəti illərində Siyasi Büro üzvlüyü və onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləməsi Əliyevin Azərbaycanda nüfuzunu artırdı. SSRİ fəaliyyəti illərində Əliyevin üzərinə götürdüyü vəzifələr Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilmiş və Əliyevi azərbaycanlıların gözündə lider mövqeyinə yüksəltmişdir. Azərbaycan ilə bağlı xidmət illəri adlandırıla bilən bu illərdə mühüm siyasi qərarların qəbulunda da Heydər Əliyev öz təsirini göstərdi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qurbanov, A.A. (2023). Heydər Əliyev Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişafının banisidir, Xülasə // Аудит, 1(39), s. 158-164
2. Bülbülzadə, A.M. (2021). Heydər Əliyevin sayəsində Azərbaycanın müstəqilliyi və demokratikləşdirilməsi təmin edildi
3. Rüstəmov, İ. (2013). Müstəqıllıyın ilk illərındə Azərbaycanda bazar infrastrukturlarının formalaşmasında Heydər Əlıyevın rolu. Asia Minor Studies
4. Zeynalabdinov, A. (2021). ABŞ və Azərbaycan arasında iqtisadi və enerji təhlükəsizlik sahələrində əlaqələr (1992-2000-ci illər). Akademik Tarih ve Düşünce Dergisi, 8(2), s. 651-663
5. Vəliyeva, S., Əliyev, İ. (2022). Müasir Azərbaycan dövlətçiliyinin banisi
6. Əliyeva, L.H. (2021). Azərbaycan iqtisadiyyatının bank və investisiya sahələrində finans aktivlərinin istifadəsi xüsusiyyətləri / Magistantların XXI Respublika elmi konfransının materialları, Sumqayıt, 17-18 may, (s. 220-221)
7. Gülməmmədli, A.R. (2021). Azərbaycanda neft sənayesinin rəqabət qabiliyyətliliyinin artırılması / Magistantların XXI Respublika elmi konfransının materialları, Sumqayıt, 17-18 may, (s. 223-224)
8. Əliyev, Ş.T. (2018). Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik

## THE ROLE OF THE GREAT LEADER HEYDAR ALIYEV IN THE CREATION AND DEVELOPMENT OF THE ENTREPRENEURSHIP ENVIRONMENT IN AZERBAIJAN

[1,2]**E.Huseynova,** [1,2]**T.Khalilov**
[1]doctor of philosophy in economics, assosiate professor
[2]Mingachevir State University

***Abstract:*** *the great leader, the architect of independent Azerbaijan, always paid attention to the development of free entrepreneurship and directly connected the socio-economic development of our republic with entrepreneurship and its progress. This suggests that the implemented economic policy is aimed at accelerating the development of entrepreneurship, strengthening the role of entrepreneurship in solving the social and economic problems of the country, increasing the*

*state's attention in this direction and, most importantly, realizing the existing potential. For this purpose, significant steps have been taken in the formation of the legislative framework, removal of bureaucratic obstacles, provision of financial support and other areas.*

***Keywords***: *government, development, business, investments, oil, economic model of the country*

## РОЛЬ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ И РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ СРЕДЫ В АЗЕРБАЙДЖАНЕ

**[1,2]Э.Я.Гусейнова, [1,2]Т.Т.Халилов**
[1]доктор философии по экономике, доцент
[2]Мингячевирский государственный университет

***Резюме:*** *великий лидер, архитектор независимого Азербайджана всегда уделял внимание развитию свободного предпринимательства и напрямую связывал социально-экономическое развитие нашей республики с предпринимательством и его прогрессом. Это говорит о том, что проводимая экономическая политика направлена на ускорение развития предпринимательства, усиление роли предпринимательства в решении социально-экономических проблем страны, усиление внимания государства в этом направлении и, самое главное, на реализацию имеющегося потенциала. С этой целью предприняты значительные шаги по формированию законодательной базы, устранению бюрократических преград, оказанию финансовой поддержки и другим направлениям.*

***Ключевые слова:*** *государство, развитие, бизнес, инвестиции, нефть, экономическая модель страны*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 18.09.2023**
**Çapa qəbul edilib: 25.09.2023**

UOT 332.36:336.226.212.1 (479.24); 316.37

# AZƏRBAYCANIN MÜASİR VERGİ SİSTEMİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**Vüqar Əhməd oğlu Məmmədli**
iqtisad üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
vuqar.mammadli@mdu.edu.az

***Xülasə:*** *Azərbaycan Heydər Əliyev dühasının ən böyük əsəridir. Müstəqil Azərbaycanın təməli Heydər Əliyevin fədakarlığı və mərdliyi sayəsində möhkəmlənmişdir. Bu gün Azərbaycan azad bazar iqtisadiyyatı ölkəsi kimi dünya ölkələri arasında seçilir.*

*Ulu Öndərin birbaşa tapşırıq və tövsiyyələri əsasında iqtisadi sahənin ana yasası olan Vergi Məcəlləsi hazırlanmışdır. Daim təkmilləşən Vergi Məcəlləsi bazarın reallıqlarını əks etdirməklə Azərbaycanın vergi sisteminin formalaşmasında əsas sənəd olmaqla ölkədə sahibkarlığın inkişafına, investisiyanın təşviqinə xidmət edir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi bazar iqtisadiyyatının bütün prinsipləri ilə bərabər sosial və iqtisadi güzəştlərə əsaslanır.*

***Açar sözlər:*** *vergi islahatları, vergi siyasəti, investisiyanın təşviqi, vergitutma obyekti, vergi uçotu, vergi güzəştləri*

## Giriş

Zaman Ulu Öndərin müstəsna insan olmasını öz möhürü ilə təsdiqləyir. Dahi şəxsiyyət olan Heydər Əliyev nəinki Azərbaycan məkanında, hətta bütün dünyada gedən proses və hadisələrin səmtini dəyişmək gücündə olub. Ən azı milyonlarla insanlardan fərqlənən belə nadir insanların həyat yolu ən müxtəlif istiqamətili araşdırmalara layiqdir və hər bir azərbaycanlı üçün çox böyük maraq kəsb edir. Heydər Əliyev hər bir azərbaycanlı üçün istinadkahdır. Ulu Öndər uzaqgörənliklə qeyd edirdi ki, "Ölkəmiz müstəqil siyasət apardığına, strateji-çoğrafi vəziyyətinə görə müxtəlif yerlərdən təxribatla üzləşə bilər. Buna görə Azərbaycanda sağlam mühit, xalqın birliyi və ictimai-siyasi mühit olmalıdır".

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin taktikası təsərrüfatın paralel olaraq, hər bir sahəsini əhatə etməklə tez bir zamanda sosial iqtisadi islahatları ilə seçilən ölkəyə çevrilməsinə hesablanmışdır. Ona görə qeyd etməliyik ki, qısa müddətdə bütün sahələrin dinamik inkişafına hail olunması, sosial iqtisadi və siyasi sahədə sabitliyin əldə edilməsi Ulu Öndərin həyata keçirdiyi məqsədyönlü idarəetmənin nəticəsidir. Müasir vergi xidmətinin formalaşması Ulu Öndərin adı ilə bağlıdır. Ölkədə aparılan iqtisadi islahatarın tərkib hissəsi olaraq, vergi sistemində islahat aparılmaqla müasir standartlara uyğun inzibatçılığın təmin edilməsində mühüm tədbirlər görülmüşdür.

## Tarixin Heydər Əliyev dövrü

Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi dövr elə bir uzun dövr olmuşdur ki, xalqımız bu dövrü tarixin Heydər Əliyev dövrü kimi ürəklərdə yaşadır. Bu dövrün ürəklərdə yaşamasının səbəbi müddət deyil həmin dövrdə xalqımız üçün görülən işlərin irihəcmli olmasıdır. Həmin dövrdə bütün sahələrdə olduğu kimi iqtisadi idarəetmənin əsas rıcaqlarından olan vergi sistemində də ciddi nailiyyətlər əldə edilmişdir.

Tarixin qüdrətli dövlət və siyasət xadimləri, müdrik və dahi şəxsiyyətləri sırasında layiqli yer tutan Ulu Öndərin ölkəmizin iqtisadi və siyasi həyatında gördüyü işlər hər bir azərbaycanlı üçün böyük iftixar və qürur mənbəyidir. Heydər Əliyev dövrü xalqımız üçün özünüdərk, dövlətçiliyin möhkəmləndirilməsi və milli yüksəliş dövrüdür.

XX əsrin 60-cı illərinin sonlarında respublikaya rəhbər seçilən Heydər Əliyev xalqını sevən, onun tarixini bilən və gələcəyinə ümidlə baxan bir lider kimi özünü sübut etmişdir. Belə bir müdrik insan respublikaya rəhbərlik etməyə başladıqdan sonra qısa müddət ərzində rəhbərlik etdiyi kadrları

öz yaradıcılığı və quruculuğu ilə təşəbbüskarığa istiqamətləndirmişdir ki, nəticədə Azərbaycan sürətlə inkişaf mərhələsinə qədəm qoymuşdur. Onun əvəzedilməz siyasətinin nəticəsi olaraq Azərbaycan İttifaq çərçivəsində dövlət strukturlarında ana dilindən istifadəyə, təhsilə və mədəniyyətə, iqtisadiyyatın aparıcı sahələrə çevrilməsinə görə seçilirdi. Bunun nəticəsi olaraq 1969-1982-ci illərdə Azərbaycanda gedən irimiqyaslı tikinti-quraşdırma işləri nəticəsində ölkəmiz İttifaqın nüfuzlu respublikasına, Bakı şəhəri isə hətta dünyanın ən tanınmış şəhərlərindən birinə çevrilmişdir. Həmin dövrdə xalqımız çox böyük maddi sərvətlər əldə etmişdir. Bu dövrün davamı olaraq Ulu Öndər İttifaqda rəhbər vəzifədə olduğu zaman döğma xalqına böyük hörmətlə fədakarlıq etmişdir. Azərbaycanın iqtisadi inkişafında çox böyük kōməkliyini göstərmişdir. O xalqını və məmləkətini daim uça tutmuşdur.

XX əsrin 90-cı illərində Heydər Əliyev yenidən ağır bir yükü öz ciyinlərinə alaraq parçalanmaq təhlükəsi olan müstəqil Azərbaycanı xilas etmişdir. Belə missiya dahi və təcrübəli şəxsiyyət olan Heydər Əliyevin üzərinə düşmüşdür. Bu missiyanı həyata keçirən Ulu Öndər xarici və daxili qüvvələrin qatı müqaviməti ilə üzləşmiş və öz fərdi rəhbərlik bacarığı əsasında ölkəmizin iqtisadi və siyasi sabitliyini təmin etmişdir. Bir neçə dəfə hazırlanmış dövlət çevrilişi onun qətiyyəti ilə öz müsbət həllini tapmışdır. Xalqın öz liderini dəstəkləməsi və Ulu Öndərin gərgin əməyi nəticəsində zor gücünə hakimiyyəti ələ keçirtmək ənənəsinə birdəfəlik son qoyulmuşdur.

Ulu Öndər ölkəmizə başçılıq etdiyi 1993-1995-ci illərdə müasir Azərbaycanın qanunvericiliyinin hazırlanmasına, islahatların aparılmasına əlverişli zəmin yaratmışdır. 1995-2003-cü illər Azərbaycanın liberal və demokratik prinsiplərə söykənən bir dövlət kimi formalaşdığı dövrdür. Həmin dövrdə ölkəmiz dünya birliyinə daha çox inteqrasiya olunmuşdur ki, bu dahi şəxsiyyətin beynəlxalq nüfuzu sahəsində baş vermişdir.

Ulu Öndərin Azərbaycana yenidən qayıdışı millətimiz və dövlətimiz üçün bir qurtuluş olmuşdur. Onun fədakar əməyi nəticəsində bu gün ölkəmiz dünya ölkələri arasında öz iqtisadi qüdrətinə görə seçilir. İlk növbədə həmin dövrdən siyasi sabitliyin yaranması əsasında bu günkü Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutmuşdur.

Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən neft strategiyasına 1994-cü ildə start verilmişdir. 1994-cü ilin sentyabrın 20-də bağlanmış "Əsrin müqaviləsi" Azərbaycanın bu günkü iqtisadi inkişafında bir təməl olmuşdur. Xəzərdəki karbohidrogen yataqlarının xarici sərmayə əsasında işlənməsi bu günkü qüdrətli Azərbaycanın formalaşmasında ilk amillərdəndir. Ulu Öndərin rəhbərliyi dövründə təməli qoyulan iqtisadi islahatlar, xüsusilə təsərrüfat sistemində xarici təcrübənin öyrənilməsi və tətbiq edilməsi ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiya olmasına sağlam zəmin yaratmışdır. Qısa vaxt ərzində ölkəmizin bütün sahələrində yaranan sabitlik Ulu Öndərin məqsədyönlü idarəetməsi əsasında baş vermişdir. Həmin dövrdə bazar iqtisadiyyatına uyğun təsərrüfat qanunları qüvvəyə mindikdən sonra ölkəmizdə vergi sisteminin təkmilləşməsi, sahibkarlığın inkişafı sahəsində islahatların aparılması məhz Ulu Öndərin strateji düşüncə və baxışları əsasında həyata keçirilmişdir. Başda vergi sahəsi olmaqla bütün iqtisadi islahatların fəlsəfəsi, strategiyası Ulu Öndərin rəhbərliyi ilə hazırlanmışdır. Heydər Əliyevin 2000-ci il 11 fevral tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradılmışdır. Bu fərmanla vergi sahəsində aparılan təkmilləşdirmə digər iqtisadi islahatların aparılmasına bir təkan olmaqla yanaşı ölkədə vergi siyasətinin aparılmasında ciddi nailiyyət idi. Bu islahat hər bir sahibkar, və vergi orqanı tərəfindən müsbət qarşılanmışdır. Bu fərman iqtisadi sahələrdə təsərrüfatçılıq ideyalarının formalaşmasına, vergi orqanlarının səlahiyyətlərinin artırılmasına bir təkan olmuşdur. Keçid iqtisadiyyatına uyğun bir strukturun bazar şəraitinə cavab verən, xüsusilə sahibkarlığa qanun çərçivəsində dəstək olan bir mərkəzi icra hakimiyyəti orqanı ilə əvəzlənməsi hər iki tərəfin hüquq və vəzifələri baxımından öz müsbət töhvəsini vermişdir. Həmin dövrdə vergi orqanında çalışan əməkdaş olaraq mənim də sevincim hədsiz və hüdudsuz idi. Belə ki, dövlətin vergi siyasətini həyata keçirən, vergi daxilolmalarına nəzarət edən bir strukturunun formalaşması hər bir əməkdaş kimi məni sahibkarlığın inkişafı, sahibkarlara yaradılan sağlam mühitin olması baxımından çox sevindirirdi. Hər bir maliyyəçi təsdiq edər ki, ölkəmizdə Vergilər Nazirliyinin yaranması, xüsusilə ilk olaraq vergi ödəyicilərinin

məlumatlandırırılması xidmətinin formalaşdırılması təsərrüfat münasibətlərində tamamilə fərqli bir yenilik olmuşdur. Məhz həmin illin 11 İyulunda Azərbaycan Respublikasının Vergi Məcəlləsinin qəbul edilməsi bu islahatın təkmil davamı olmuşdur [1].

**"Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" ifadəsinin müəllifi Heydər Əliyevdir**

2001-ci ilin yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi tamamilə bazar şərtlərinə uyğun qəbul edilmiş bir sənəd olmaqla məhz Ulu Öndərin qəti tapşırıqları əsasında hazırlanmışdır. Bu sənəd ölkəmizdə bazar iqtisadiyyatının tamamilə qərarlaşmasına səbəb olmuş və ölkəmizdə sahibkarlığın, investisiyanın təşviqinə bir təkan olmuşdur. Həm vergi ödəyicilərinin həm də vergi orqanlarının hüquq və vəzifələrinin bir sənəddə əks olunması, vergi ödəyicilərinin hüquqlarının onlara çatdırılması öhdəliyinin vergi aparatına vəzifə kimi müəyən edilməsi ölkəmizin vergi həyatı üçün bir yenilik olmuşdur.

Bu gün ölkəmizdə aparılan islahatlar Vergi Məcəlləsinə söykənir. Vergi Məcəlləsinin qəbul edilməsi digər iqtisadi islahatlara təkan olmuşdur. Bu sənəd vergi orqanının fiskal funksiyası ilə bərabər tənzimləyici funksiyasını da önə çəkdi. Yəni vergi siyasəti təkcə büdcə daxilolmalarının artmasına deyil, həm də ölkədə iqtisadi inkişafa xidmət etməlidir. Tətbiq edilən vergilərin dərəcələrinin müəyyən məqsədlər üçün dövlət tərəfindən dəyişdirilməsi tənzimləyici funksiyanı əks etdirir [2]. Bu sənədin qəbulu vergi orqanları qarşısında sahibkarlığın və invstisiyanın təşviqi ilə bağlı öhdəliklər yaratmışdır. Ölkədə optimal vergitutma mexanizminin, əlverişli investisiya mühitinin yaranmasına bir zəmin olmuşdur. Vergi islahatlarının davamı olaraq Ulu Öndərin birbaşa tövsiyə, tapşırıq və fərmanları əsasında vergi inzibatçılığı təkmilləşdirilmişdir. Yəni vergi orqanı üçün yeni olan bu vəzifələri icra etmək vergi orqanının strukturunda bir təkmilləşmə aparılması zərurəti yaratmışdır. Vergi qanunvericiliyinə uyğun olaraq ödəyici ilə vergi orqanı arasında kontaktsız münasibətlərin qurulması ölkə iqtisadiyyatının şəffaflığının təmin edilməsinə bir töhvə olmuşdur.

Həmin dövr üçün bir yenilik olan bəyannamələrin poçtla göndərilməsi tədiyyəcilər tərəfindən sevinclə qarşılanmışdır. Mən də vergi orqanı əməkdaşı olaraq (Vergi Ödəyicilərinə Xidmət idarəsinin əməkdaşı kimi), rayon və şəhər vergi şöbələrinin şəffaf qutularla təmin edilməsini və vergi ödəyicilərinin bəyannamələrinin həmin qutulara yerləşdirilməsinin iştirakcısıyam. Belə halı biz bu günkü vergi sistemində olan şəffaflığın ilk cücərtiləri olaraq qəbul edirik ki, bu iş Ulu Öndərin müdrik siyasətinin xırda bir parcasıdır. Həmin dövrdə bütün ödəmələrin banklar vasitəsilə təmin olunmasına keçid vergi inzibatçılığının şəffaflaşmasına və kölgə iqtisadiyyatının minimallaşmasına şərait yaratmışdır. Ulu Öndərin müəyyən etdiyi strategiyaya müvafiq olaraq vergi xidməti bu gün də təkmilləşdirilir. Ölkəmizdə vergi xidmətinin müasir Avropa standartları həddində müəyyən edilməsinə dair "Vergi inzibatçılığının təkmilləşdirilməsi" Dövlət Proqramı qəbul edilmişdir. Bu Proqram Möhtərəm Prezident İlham Əliyev tərəfindən təsdiqlənməklə 2005-2007-ci illəri əhatə etmişdir. Proqramla vergi sistemi modernləşmiş, asan və sadə vergi inzibatçılığı formalaşmışdır. Dövlət proqramına uyğun olaraq, vergi sisteminə müvafiq kadrların hazırlanması prosesi həyata keçirilmişdir. Xüsusilə vergi orqanı əməkdaşlarının peşəkarlığının artırılması, savadlı xidmət mütəxəssislərinin hazırlanması ön plana çəkilmişdir. Bu məqsədlə Tədris Mərkəzi fəaliyyətə başlamışdır. Artıq neçə illərdir ki, vergi orqanına işçilər müsabiqə yolu ilə qəbul olunur və yüksək konkurs əsasında ən savadlı, yüksək intellekt sahibləri kadr bazasına qəbul edilirlər. Təməli Ulu Öndər tərəfindən qoyulmuş vergi sisteminin bu illər boyu topladığı təcrübə bir çox ölkələr tərəfindən öyrənilir və ölkəmizin qabaqcıl təcrübəsindən faydalanmaq üçün ikitərəfli əlaqələr yaradılır.

Ulu Öndərin uzaqgörən müdrik siyasəti nəticəsində vergi sahəsində qazanılan nailiyyət və uğurlar bu gün davamlı iqtisadi inkişafa nail olmuş ölkəmizin əsas şərtlərindəndir. Deyə bilərik ki, Möhtərəm Prezident İlham Əliyevin təşəbbüskarlığı sayəsində, diqqət və qayğısı ilə fəaliyyət göstərən vergi orqanı Ulu Öndərin tövsiyələrinə uyğun hazırlanmış vergi strategiyasına müvafiq işləməklə öz işlərinin öhdəsindən layiqincə gəlirlər. Müasir müstəqil Azərbaycanın qurucusu və memarı olan Heydər Əliyevin fəaliyyəti tarixi şəxsiyyətlərin rolu danılmazdır kəlamına nümunədir.

O, həmişə doğma xalqına xidmət etmişdir. Ulu Öndərin ilk rəhbərlik etdiyi dövrdə Azərbaycan İttifaq respublikaları içərisində inkişaf baxımından ən irəlidə gedən respublikaya çevrilmişdir. Ikinci rəhbərliyi dövründə isə Azərbaycan transmilli, nəhəng layihələrə ev sahibliyi etməklə çox uğurla inkişaf edən ölkəyə çevrilmişdir.

Ulu Öndər vergini iqtisadi siyasətin aparıcı, mühüm tərkib hissəsi kimi göstərmək üçün "Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" ifadəsini işlətməklə ölkədə insanların vergiyə baxışını dəyişdirmişdir. Eyni zamanda vergi orqanları qarşısında çox böyük öhdəlik yaratmışdır.

Heydər Əliyev xalqını sevən, tarixini və mentalitetini dərindən bilən şəxsiyyət olmaqla həm də dünya siyasətindən dərindən xəbərdar olaraq, Azərbaycanın müstəqilliyinin xilaskarı olmuşdur. Ümummilli Lider müasir Azərbaycanın müstəqilliyi ilə bağlı bildirmişdir ki, mən öz həyatımı təhlil etdikdə görürəm ki, bir hadisə baş vermişdir – o odur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Əslində sovet dönəmində də Heydər Əliyev hər nəsilin – istər gənclərin, istərsə də yaşlı nəsilin qayğıları içərisində olmuş, hər bir vətəndaşa öz qayğısı və diqqətini əsirgəməmişdir. O öz mənalı həyatını xalqına həsr etmişdir.

**Vergi siyasətinin konseptual əsasları**

Ölkəmizin inkişaf strategiyası milli mənafelər baxımından dünya iqtisadiyyatının inkişaf meyilləri nəzərə alınmaqla elə işlənmişdir ki, neçə on illiklər boyu Azərbaycan xalqına öz töhvəsini versin. Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində 1995-ci ildən başlayaraq, ölkəmiz dünya iqtisadi sisteminə inteqrasiya etməklə sosial iqtisadi cəhətdən inkişaf etməyə başlamışdır. Həmin dövrdə ölkədə aparılan müstəqil dövlət quruculuğunda iqtisadi siyasətin yeni istiqaməti müəyyən edilmişdir. Ölkənin sosial iqtisadi inkişaf xəttini müəyyən edən irimiqyaslı layihələr həyata keçirilmiş, kiçik və orta sahibkarlığa dövlət yardımı göstərilmiş, aqrar bölmənin, maşınqayırma sənayesinin, turizm sahəsinin inkişafına zəmin yaranmışdır. Bu dövrdə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiya edilməsi prosesinə rəvac verilmiş, sosial istiqamətli iqtisadi sistemin formalaşdırılması prosesi sürətlənmişdir.

Heydər Əliyevin qayğı və təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən vergi siyasətinin konseptual əsasları müəyyən edilmiş, həyata keçirilən islahatların fəlsəfəsi və strategiyası müəyyən edilmişdir ki, həmin siyasət bu gün də uğurla həyata keçirilir. Həmin dövrdə müəyyən edilən vergi siyasətinin əsas istiqamətləri aşağıdakılar olmuşdur:

1. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması.
2. Vergi inzibatçılığının (adminstrasiyanın) modernləşdirilməsi.
3. Müasir texnoloji dəstəyə söykənən modern bir xidmətin təşkili.
4. Adekvat kadr siyasətinin həyata keçirilməsi.

Yuxarıda göstərdiyimiz istiqamətlərin zəruriliyi onunla bağlı olmuşdur ki, bazar iqtisadiyyatına uyğun ilk növbədə qanunvericilik formalaşmalı və sahibkarların, iş adamlarının hüquq və vəzifələri hər kəs üçün aydın olmalı idi. Qanunvericilikdə olan hər bir boşluq vergi ödəyisinin xeyrinə həll edilməli idi. Bununla bərabər 90-cı illərin ortalarına qədər ölkəmizdə mövcud olan vergi xidməti ancaq vergi toplayan bir dövlət təşkilatı kimi fəaliyyət göstərirdi. Həmçinin sahibkarlığa edilən qayğının nəticəsi olaraq təsərrüfatlara dövlət nəzarəti bir səhman halına gətirilməli idi ki, bu proses dünya təcrübəsinə əsaslanmaqla vergi orqanında mərkəzləşdirilmişdir. Həmin dövrdə artıq vergi orqanı sahibkarlıq subyektlərini müdafiə edən bir struktura çevrilmişdi. Burada vergilərin bir prinsipinə diqqət yetirmək istərdim ki, vergi ödəməklə sahibkar digər qanunsuz ödənişlərdən azad olur [3].

1999-2005-ci illəri Azərbacanın vergi tarixində böyük islahat illəri kimi qəbul etməliyik. Bu dövrü də bir neçə mərhələyə ayırmaq olar. 1999-2001-ci illərdə vergi sistemi xüsusilə adminstrasiya yenidən təşkil edildi, vergi strukturuna daha çox səlahiyyətlər verildi. Eyni zamanda yeni yaranmış Vergilər Nazirliyi artıq ölkənin vergi siyasətini həyata keçirməyə başladı. Həyata keçirilən vergi siyasəti nəticəsində vergi orqanı sahibkarlıq subyektlərinə nəzarət funksiyalı himayədara çevrildi. Paralel olaraq təkmil qanunvericilik formalaşdı. Şübhəsiz ki, bu birinci mərhələ Heydər Əliyevin tamamilə nəzarəti şəraitində olmuşdur. Ancaq qeyd etmək lazımdır ki, belə dəyişikliyin aparılmasında təkcə nəzarət kifayət etmədiyi üçün Ulu Öndər bu işlərə xüsusi qayğı və diqqət

göstərərək ölkəmizdə sahibkarlığın inkişafında çox ciddi dəyişiklərin əldə olunmasına nail olmuşdur.

1999-cu ilin yayında artıq vergi sistemində həyata keçiriləcək islahatın strateji planı hazırlanmışdır. Bu plana uyğun optimal müddətlər müəyyən edilmişdir. Tezliklə dünya standartlarına uyğun qanunvericilik bazası yaradılmışdır. Onlarla mütəxəssisin cəlb edilməsi ilə aparılan böyük və gərgin əməyin nəticəsi olaraq Vergi Məcəlləsi ərsəyə gəldi. Hesab edilir ki, bu mərhələdə Vergi Məcəlləsinin qəbul edilməsi və tətbiqinə başlanması iqtisadi sahədə əldə edilən ən böyük uğurlardan biridir. Vergi Məcəlləsinin hazırlanması prosesi birbaşa Heydər Əliyevin rəhbərliyi ilə aparılmışdır. Vergi Məcəlləsinin ayrı-ayrı hissələrinin müzakirəsi ölkə başçısının keçirdiyi müşavirələrdə həyata keçirilmişdir [4]. Xüsusilə vergi yükünün azaldılması, inzibatçılığın sadələşdirilməsi, vergitutma bazasının genişləndirilməsi sahəsində Heydər Əliyevin xüsusi tapşırıqları olmuşdur. Vergi Məcəlləsinin qəbulu vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması sahəsində atılan ilk addım idi. Bu sənədin qəbulu ilə artıq vergi siyasətinin yeni istiqamətləri müəyyən edilmişdir ki, bunlar aşağıdakılardır:

1. Ölkədə iqtisadi inkişafı sürətləndirmək.
2. Optimal vergitutma metodunu yaratmaq.
3. Əlverişli investisiya mühiti yaratmaq.
4. Sahibkarlığın inkişafını stimullaşdırmaq.

Heydər Əliyev Vergilər Nazirliyini yaratmaqla vergi xidməti rəhbərlərinin üzərinə böyük məsuliyyət qoymuşdur. Bu məsuliyyət təkcə vergi orqanlarının vəzifə səlahiyyətlərində deyil, eyni zamanda vergi siyasətini həyata keçirən bir strukturun ölkə iqtisadiyyatının tənzimlənməsində nə qədər mühüm struktur olmasını önə çəkməklə izah olunur.

2002-2004-cü illəri əhatə edən növbəti ikinci mərhələ artıq sistemləşdirilmiş bir strukturun müasirləşdirilməsi prosesi kimi yadda qalmışdır. Bu dövrdə aparılan struktur islahatları çərçivəsində Azərbaycanın vergi strukturu MDB məkanında analoqu olmayan bir idarəetmə sisteminə çevrilmişdir. Bu dövrdə vergi xidmətinin kadr heyəti yenidən komplektləşdirilmiş, qanunvericiliyin təkmilləşdirilməsi prosesi davam etmiş, kiçik və orta sahibkarlığı dəstəkləyən optimal vergi mexanizmi formalaşmışdır. Bu dövr xüsusilə sadələşdirilmiş vergi sisteminin tətbiqi ilə yadda qalır. Həmin dövrdə vergilərin könüllülük əsasında ödənməsi prosesinə bir start verilmişdir. Bu proses davamlı olaraq həyata keçirilən təbliğat təşviqat işlərinin nəticəsi idi. Eyni zamanda həmin dövrdə vergi ödəyiciləri ilə partnyorluq sazişlərinin bağlanması vergi inzibatçılığında bir yenilik idi. Ulu Öndərin 2002-ci il 28 Sentyabr tarixli sərəncamı ilə vergi strukturunda regional idarəetməyə keçilmişdir. Bu fərmanla vergi orqanlarının strukturu nəinki yenidən qurulmiş, həmçinin yeni iş prosesinin tətbiqinə başlanmışdır. Artıq Vergilər Nazirliyinin əsas strukturunu Vergi Ödəyicilərinə Xidmət İdarəsi və bu idarənin kurasiyasında olan Vergi Ödəyicilərinə Xidmət Mərkəzləri təşkil edirdi.

Neçə ildir ki, vergi orqanında AVİS proqramı tətbiq edilir ki, bu proqram elastik və sürətli vergi siyasəti həyata keçirmək üçün çox fəal texnologiya dəstəyidir. Bu proqram vergi orqanlarının işlərini avtomatlaşdırır, digər dövlət orqanları ilə inteqrasiyanı təmin edir və müxtəlif iqtisadi təhlil aparmaqla vergi orqanının həm nəzarət, həm də xidmət işini asanlaşdırır. Artıq neçə illərdir ki, bu proqramla işləyən hər bir əməkdaş öz işini düzgün qurur və təhlil etmək bacarığını elektron baza vasitəsilə artırır. Xüsusilə kameral sahədə işləyən əməkdaşlar elektron bazanın müəyyən etdiyi uyğunsuzluqları araşdırmaqla kifayət qədər təcrübə toplayırlar. Dünya təcrübəsi göstərir ki, öz işinə məsuliyyətlə yanaşan savadlı mütəxəssisləri müsabiqə yolu ilə müəyyən etmək daha məqsədəuyğundur. Ölkə başçısı İlham Əliyevin 2003-cü ilin 15 aprel tarixli fərmanı ilə "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında" Əsasnamə təsdiq edilmişdir ki, bu gün də bu əsasnaməyə uyğun olaraq, ali məktəbi bitirən yeni diplom almış maliyyəçilər test imtahanlarını müvəffəqiyyətlə verərək vergi orqanına işə qəbul edilirlər. Xüsusilə, gənclərin işlə təmin olunmasında vergi orqanlarının müstəsna yeri vardır. Çünki özəl sektorda gənclərdən, əsasən, təcrübə tələb edildiyi halda, vergi orqanları intellektual zəkaya, düşüncə tərzinə diqqət yetirirlər.

Vergi sahəsində beynəlxalq münasibətlərin ilbəil inkişafı, dünya dövlətləri və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişlənməsi vergi sistemi qarşısında yeni öhdəliklər yaratmışdır. Artıq vergi orqanları vergi siyasətinin yeni istiqamətlərini müəyyən etməli idi ki, bunlar aşağıdakılardır:

1. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi.
2. Vergi sahəsində vahid hüquqi bazanın yaradılması.
3. Vergi inzibatçılığının səmərəliliyinin artırılması.
4. Vergi ödəyicilərinə xidmətin təşkili.
5. Vergi nəzatinin gücləndirilməsi.
6. Kadr potensialının bilik və bacarıqlarının artırılması.

Qeyd etməliyik ki, müasir xidmətin qurulması prosesi heç də asan olmamışdır. Müxtəlif mərhələlərdə ayrı-ayrı istiqamətlər üzrə məqsədlər qəbul edilmiş və müxtəlif üsullarla bu məqsədlərə çatılmışdır. Postsovet ölkələrinin vergi nümayənləri Azərbaycana gələrək təcrübəmizə yiyələnirlər. MDB məkanında Azərbaycan ilk olaraq vergi sistemində regional idarəetmə tətbiq etmişdir. Bu modelin tətbiqi ilə Azərbaycanın müasir vergi xidməti modern bir struktura çevrilmişdir. Ölkəmizdə sürətli informasya ilə təminat vergi xidmətinin də iş prinsiplərində yeni yanaşmalar tələb edir. Regional idarəetmə tamamilə kontaktsız mübadilə sisteminə əsaslanır.

Vergi strukturunu Avropa standartlarına uyğunlaşdırmaq, vergitutma bazasını genişləndirmək, vergi sistemini təkmilləşdirmək haqqında Ulu Öndərin tövsiyələri bu gün də Azərbaycanın vergi siyasətinin ana xəttini təşkil edir. Belə ki, hər il Vergi Məcəlləsinə edilən çoxlu sayda dəyişikliklərin şahidi oluruq. Bu dəyişikliklər islahat xarakterli olaraq iqtisadiyyatın ayrı-ayrı sahələrini tənzimləmək üçün edilir. Bəzi maliyyəçilər bu dəyişikliklərin qavranılmasını əsas gətirərək qanunvericiliyin mürəkkəbləşməsi kimi izah etsələr də, qeyd etməliyik ki, bu dəyişikliklər iqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edir. Nəzərə almalıylq ki, ölkəmizin davamlı inkişaf yoluna keçməsinin təmin edilməsində vergi islahatlarının rolu çox böyükdür. Hər bir sahibkar qanunda müəyyən edilmiş şərtlər daxilində vergi güzəştlərindən istifadə edə bilər. Məsələn, vergi və ya mühasibat uçotu aparmadan, gəlir və xərclərin qeydiyyatını aparmadan şəxs vergi güzəştindən istifadə edə bilməz. Hər bir sahibkar təsərrüfat subyektində gəlirlərinin uçotunu aparmaq üçün real vaxt rejimində internetə qoşulan NKA və nağdsız ödənişlərini təmin etmək üçün posterminal quraşdırmalıdır. NKA-ın quraşdırılması nəzərdə tutulmayan yerlərdə ciddi uçot blanklarından istifadə edilməlidir. Təsərrüfat əməliyyatlarını müvafiq ciddi uçot blankları ilə, əməliyyatlarını elektron qaimə fakturalarla rəsmiləşdirməlidir. Bu işləri yerinə yetirməyən vergi ödəyicisi nəinki vergi güzəştindən istifadə edir, həmçinin ciddi məsuliyyət tədbirlərinə məruz qalır. Nəzərə almalıyıq ki, dünya ölkələrində dəyişiklik olduqca, ölkəmiz də dünya ölkələri ilə inteqrasiya olunduqca vergi münasibətlərinin tənzimlənməsinə zərurət yaranır. Qanunvericiliyin təkmilləşdirilməsi isə dəyişikliyə söykənir. Son illərdə ölkəmizdə həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

1. Vergi güzəştlərinin tətbiq dairəsini artırmaqla davamlı inkişafı təmin etmək.
2. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müəyyən sahələrin muzdlu işçilərinin gəlir vergisindən azad edilməsi.
3. Satış dövriyyələrinin şəffaflaşırılması istiqamətində nağdsız dövriyyənin stimullaşdırılması.
4. ƏDV-i geri al kampaniyasının tətbiq dairəsinin genişləndirilməsi.
5. Mikro sahibkarlıq subyektlərinin gəlirlərinin böyük bir hissəsinin, yəni 75 %-nin vergidən azad edilməsi.
6. İşqaldan azad edilmiş rayonların inkişafını təmin etmək. Həmin regionların iqtisadi cazibədarlığının təmin edilməsi.

Vergi müəyyən edildikdə qanunla nəzərdə tutulan əsaslarla vergi güzəştləri müəyyənləşdirilə bilər. Vergi güzəştləri dedikdə bir qrup şəxslərin, bəzi vergitutma obyektlərinin tamamilə və ya qismən vergidən azad edilməsi başa düşülür [5].

2019-cu ilin yanvarın 1-dən yeddi il müddətinə qeyri-dövlət və qeyri-neft sektorunda çalışan muzdlu işçilərin aylıq əmək haqlarının səkkiz min manatadək olan hissəsinin "0" faiz dərəcə ilə

vergiyə cəlb edilməsi islahat xarakterli dəyişiklikdir. Satış dövriyyəsini şəffaflaşdırmaq istiqamətində nağdsız dövriyyənin "ƏDV-ni geri al" kampaniyasının tətbiqi ilə artırılması dünya təcrübəsinə əsaslanmaqla həyata keçirilir. Mikrosahibkarlıq subyektlərinə tətbiq edilən vergi güzəştləri hesabına ölkəmizdə mənfəət və gəlir vergisinin ödəyicilərinin sayı artmışdır. Son illərin köklü dəyişikliklərindən biri də Vergi Məcəlləsinə işğaldan azad edilən ərazilərdə vergi tənzimlənməsi adlı yeni fəsilin əlavə edilməsidir.

**Nəticə**

Heydər Əliyev kimi bir şəxsiyyətin Azərbaycan xalqının oğlu olması hər bir azərbaycanlı üçün xoşbəxtlikdir. Heydər Əliyev azad rəqabətə, milli istehsalın təşkilinə, investisiya mühitinin yaranmasına xüsusi önəm vermişdir. Azərbaycanın vergi siyasətinin nəzəri konseptual əsasları Vergi Məcəlləsinin müvafiq maddələri əsasında formalaşır. Yəni Vergi Məcəlləsinin nə qədər praktik əhəmiyyəti olsa da vergi siyasətinin taktikası və strategiyası bu sənədlə müəyyən edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Ulu Öndərin xüsusi qayğı və tapşırıqları əsasında hazırlanmışdır. Bu gün Vergi Məcəlləsinə əsasən aparılan vergi siyasətinin ana xəttini vergi güzəştləri təşkil etdiyini nəzərə alsaq, ölkəmizdə ilk olaraq kənd təsərrüfatı məhsulu istehsalçılarının vergidən azad edilməsi, özəlləşdirilən dövlət müəssisələrinin vergi borclarının silinməsi, əhalinin əmanətlərindən gəlirlərinin vergidən azad edilməsi, qiymətli kağızlar üzrə dividendləri üzrə verginin azad edilməsi kimi güzəştlər məhz Ulu Öndərin müvafiq fərmanları ilə tətbiq edilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. "Azərbaycanın vergi xəbərləri" jurnalı. 2008, № 4, s. 16-17
2. Məmmədli V.Ə. Vergilərin tənzimləyici funksiyası vergitutmanın elastikliyi prinsipinə əsaslanır // ADAU-nun Elmi Əsərləri, 2021, № 4, s. 109-113
3. Musayev A.F. Vergilər və vergitutma. Dərslik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010, 111 s.
4. Məmmədli V.Ə. Heydər Əliyev milli vergi sisteminin banisidir / "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika elmi konfransının materialları, Mingəçevir Dövlət Universiteti, 5-6 may 2023-cü il
5. Məmmədli V.Ə. Torpaq vergisi: nəzəriyyə və təcrübə // Azərbaycanın vergi xəbərləri, 2018, iyul-avqust, s. 37-48

**MERITS OF HEYDAR ALIYEV IN THE FORMATION OF THE MODERN TAX SYSTEM OF AZERBAIJAN**

**V.Mammdli**
doctor of philosophy in economics
Mingachevir State University

***Abstract:*** *Azerbaijan is the greatest work of Heydar Aliyev's genius. The foundation of independent Azerbaijan was strengthened thanks to the dedication and courage of Heydar Aliyev. Today, Azerbaijan stands out among the countries of the world as a free market economy country.*

*Based on the direct instructions and recommendations of the great leader, the Tax Code, which is the main law of the economic field, was prepared. The Tax Code, which is constantly being improved, reflects the realities of the market and is the main document in the formation of the tax system of Azerbaijan, and serves the development of entrepreneurship and investment promotion in the country. The Tax Code of the Republic of Azerbaijan is based on social and economic concessions along with all the principles of the market economy.*

***Keywords:*** *tax reforms, tax policy, investment promotion, object of taxation, tax accounting, tax benefits*

# ЗАСЛУГИ ГАЙДЕРА АЛИЕВА В ФОРМИРОВАНИИ СОВРЕМЕННОЙ НАЛОГОВОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

**В.А.Мамедли**
доктор философии по экономике
Мингячевирский государственный университет

***Резюме:*** *Азербайджан – величайшее произведение гения Гейдара Алиева. Основы независимого Азербайджана были укреплены благодаря самоотверженности и мужеству Гейдара Алиева. Сегодня Азербайджан выделяется среди стран мира как страна со свободной рыночной экономикой.*

*На основе прямых указаний и рекомендаций великого лидера был подготовлен Налоговый кодекс – главный закон экономической сферы. Налоговый кодекс, который постоянно совершенствуется, отражает реалии рынка и является основным документом в формировании налоговой системы Азербайджана, служит развитию предпринимательства и поощрению инвестиций в стране. Налоговый кодекс Азербайджанской Республики основан на социальных и экономических льготах наряду со всеми принципами рыночной экономики.*

***Ключевые слова:*** *налоговые реформы, налоговая политика, стимулирование инвестиций, объект налогообложения, налоговый учет, налоговые льготы*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 21.09.2023**
**Çapa qəbul edilib: 28.09.2023**

## TƏBİƏT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

UOT 338; 32:93/94; 316.37

# DÜNYANIN ENERJİ XƏRİTƏSİNƏ AZƏRBAYCANIN ADINI YAZDIRAN LİDER

[1,3]**Liliya Çingiz qızı Süleymanova,** [2,3]**Aybəniz Baxış qızı Şəfiyeva**
[1]texnika üzrə fəlsəfə doktoru
liliya.suleymanova@mdu.edu.az
[2]aybaniz.shafiyeva@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Heydər Əliyevin şəxsiyyəti və dövlətçilik bacarığı, müdriklik, təşkilatçılıq bacarığı, yüksək intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, qətiyyətlilik, prinsipiallıq təhlil edilmişdir. Energetika sahəsində XIX əsrin sonlarından başlayaraq müasir dövrə qədər olan inkişaf təhlil edilmişdir. Heydər Əliyevin şah əsərlərindən olan "Əsrin müqaviləsi" müstəqil Azərbaycanı dünyaya tanıtdı, adını dünyanın enerji xəritəsinə yazdı.*

***Açar sözlər****: dünyanin enerji xəritəsi, bərpaolunan enerji, Əsrin müqaviləsi, energetika, elektrik enerjisi*

## Giriş

Əgər bir binanın uzunömürlük olmağını istəyirsənsə, heç bir təbii hadisələrin ona ziyan vurub uçurtmağını istəmirsənsə, onun bünövrəsinə fikir verməlisən, təməlini möhkəm qurmalısan. Ümummilli lider Heydər Əliyev zamanında dövlətin qurulmasını binaya bənzədib və bütün diqqəti dövlətin təməlinə yönəltmişdir. 30 il böyük müddət olmasa da müstəqil dövlət quruculuğu üçün çox şey dedi. Bu müddət ərzində Heydər Əliyevin parlaq ideyaları və inkişaf fəlsəfəsinə əsaslanaraq Azərbaycan böyük inkişaf yolu keçdi.

Ümummilli lider Heydər Əliyev dünyanın ən böyük siyasi şəxsiyyətlərindən və ən nüfuzlu dövlət xadimlərindən biri olub. O, müstəqil dövlətçiliyimizin qurucusu və memarıdır. Yüksək nüfuz, müdriklik, təşkilatçılıq bacarığı, yüksək intellektuallıq, prinsipiallıq – bu xüsusiyyətlərin hamısı Heydər Əliyevdə birləşmişdir. Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışı Azərbaycan dövlətinə və xalqına işıqlı yol açdı.

Birinci hakimiyyəti dövründə Heydər Əliyev Azərbaycanda bütün sahələr üzrə kadrlar yetişməsinə xüsusi diqqət göstərirdi və ikinci hakimiyyət dövründə də belə oldu. İstər iqtisadiyyat olsun, istər hərbi olsun, istər energetika, hər bir sahənin uğurunun başlanğıcında kadrların yetişdirilməsi durur və bu da, təbii ki, təhsilə söykənir. Bir sözlə, dövlətin möhkəm təməlinin olması üçün bütün sahələrdə inkişaf gərəkdir. Bu inkişafda Energetika sahəsinin öz payı var.

Bəşəriyyətin varlığının əsas amillərindən biri enerjidir. Bəşəriyyətin formalaşma tarixinə nəzər salsaq görərik ki, ocaqdan generatora qədər inkişaf gedib. Enerji inkişaf etdikcə sosial-iqtisadiyyat da inkişaf edib. Statistikaya nəzər salsaq, görə bilərik ki, dünyada əhalinin sayı artır və təbii ki, enerjiyə tələbat çoxalır və bununla bərabər yanacaq ehtiyatları azalır.

Müasir dövrü elektrik enerjisiz təsəvvür etmək mümkün deyil. İqtisadiyyatın əsas sahəsindən biri elektrik enerjisi sənayesi sayılır. Məhz elektrik enerjisi sənayesi əhalini elektrik və istilik enerjisi ilə təmin edir [6]. Xarici ölkələrə elektrik enerjisi ixrac edərək, iqtisadiyyata müsbət təsir göstərir.

**Energetikanın inkişafında Heydər Əliyevin tarixi xidmətləri**

Bütün sahələrdə olduğu kimi energetikanın da inkişafında Heydər Əliyevin xidmətləri böyükdür**.** Müstəqil Azərbaycanın iqtisadi və sosial həyatının inkişafı istər XX əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə elektrik enerjisi sistemi ilə də bağlıdır.

Azərbaycanda elektrik enerjisi istehsalı XIX əsrin sonundan başlamışdır. Energetikanın inkişafını bir neçə dövrə bölmək olar. Birinci dövrə neft mədənlərini elektriklə təmin etmək üçün 5-

50 kVt-lıq elektrik stansiyalarının quraşdırılmasını aid etmək olar. 1898-ci ildə “Elektrik gücü” aksioner (səhmdar) cəmiyyəti yaradılır. 1900-cu ildə daha iki – “Belqorod” və Bibi-Heybət elektrik stansiyaları tikildi, hansılar ki, sonralar “Krasnaya zvezda” İES və Krasin adına İES adlandırıldılar. 1912-ci ildə Bibi-Heybət və Belqorod elektrik stansiyaları genişləndirilərək, yeni turbogeneratorlar daxil edilərək elektrik stansiyasının gücü 10800 kVt-a çatdırıldı. Daha sonra respublikanın Gəncə, Şəki, Quba və Lənkəran şəhərində ümumi gücü 635 kVt olan bir sıra kiçik elektrik stansiyaları tikildi. Sumqayıtda İstilik Elektrik Mərkəzi yaradıldı.

Ölkəmizin bütün imkanlarına baxmayaraq, illər boyu energetika sahəsində inkişaf ləng getmişdir. 1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ölkəmizin həyatını tamamilə dəyişdi. Elektrik enerjisi sistemi sürətli inkişaf etməyə başladı, irimiqyaslı layihələr reallaşdı.

Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES stansiyasının istifadəyə verilməsi məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir [1].

1981-ci ildə “Azərbaycan İES”-in birinci enerji bloku istifadəyə verildi. Bu möhtəşəm hadisə Heydər Əliyevin adı ilə bağlıdır. Beləliklə, Azərbaycan energetikasının inkişafında yeni mərhələ başlandı. 1981-ci ilin 20 oktyabrında Mingəçevir şəhərində stansiyanın birinci enerji blokunun işə salınması və bu münasibətlə Ulu Öndərimizin Mingəçevir şəhərinə gəlişi Azərbaycan energetiklərinin peşə bayramı günü kimi müəyyənləşdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli sərəncamına əsasən, 20 oktyabr "Energetiklər günü" kimi qeyd edilir.

Əli Bayramlı, Əli Bayramlı-Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 1-ci və 2-ci Abşeron və başqa yarımstansiyaları istifadəyə verildi. Beləliklə, energetika sahəsində yeni dövr – inkişaf dövrü başlandı.

Umummilli lider Heydər Əliyev: “Biz o illər bütün bu imkanlardan istifadə edərək eyni zamanda düşünürdük ki, hər respublikanın özünü təmin edə bilən iqtisadi potensialı olmalıdır. Bu iqtisadi potensialın tərkibində ən mühüm yer tutan elektrik enerjisi istehsal edən müəssisələr yaradılmalıdır. Ona görə də o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq” [3].

Ölkəmizdə baş vermiş hadisələr, Sovet İttifaqının süqutu ölkəmizin bütün sahələrinə təsir etdi. Bu təsir elektrik energetikası sistemindən də yan keçmədi. Qeyd etmək lazımdır ki, “Azərbaycan İES” olmasaydı, respublikamızda enerji təchizatında problemlər yaşanacaqdı.

İkinci hakimiyyəti dövründə də Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinə diqqət göstərdi. Həmin dövrdə bütün sahələr böhran vəziyyəti yaşayırdı. Ulu Öndərin həyata keçirdiyi siyasət hesabına qonşu ölkələr ilə sıx əlaqələr bərpa edilmişdir. Bu nəinki iqtisadi cəhətdən, həm də siyasi cəhətdən önəmli idi. Ölkələr arasıda qarşılıqlı münasibətlər inkişaf etdi, regionda sabitliyin və təhlükəsizliyin qorunub saxlanması qarantiyası oldu.

“Energetika haqqında”, “Enerji resurslarından istifadə haqqında”, “Elektroenergetika haqqında”, “Elektrik və istilik stansiyaları haqqında” qanunlar qəbul edildi [2].

Ölkə prezidenti İlham Əliyev “Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) Dövlət Proqramı”nı təsdiq etmişdir. Bu proqram uğurla həyata keçirildi və respublikanın elektrik enerjisi sistemində generasiya gücü artırıldı.

Qafqazda Azərbaycan Respublikasının enerji sənayesi əsas sənayelərdən biridir. SSRİ dağıldıqdan sonra hər bir respublikanın hökuməti öz ölkəsini dirçəltməyə çalışdı. Bu çətin dövr Azərbaycanda da oldu. Azərbaycanın Ümummillil lideri Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bu çətinlikdən çıxdı. Energetika sahəsində, eləcə də digər sahələrdə dağıdıcı proseslər dayandırıldı. Azərbaycanda elektrik stansiyaları – “Azərbaycan” İES, Mingəçevir SES hələ sovet dövründə Cənubi Qafqazda tikilib. [2].

İkinci Qarabağ müharibəsi zamanında Mingəçevirdəki İstilik Elektrik Stansiyasının necə önəmli olduğu bəlli oldu. Döyüş meydanında uduzan düşmən müharibə zamanı Azərbaycanın strateji əhəmiyyətli obyektlərini atəşə tutmağa başladı. O zaman Mingəçevir də əhəmiyyətli bir şəhər kimi gözdən qaçmamışdır, terrorçuluqla Azərbaycanın elektrik mərkəzini sıradan çıxarmaq istəyirdi [6].

Mənfur düşmən tərəfindən dağıdılmış elektrik stansiyalarının 2021-ci ildən bərpasına başlandı.

Bütün dünyada dayanmadan inkişaf gedir, əsasən də texnologiya sahəsində. Bu sahə də enerji tələb edən sahələrdən biridir: binaların sadə işıqlandırılmasından, böyük sənaye və müəssisələrdə güclü avadanlıqlardan istifadə olunmasından məişət avadanlıqların işlənməsinə qədər.

Hər bir şey elektrikləşdirilmişdir və buna müvafiq olaraq, enerji istehlakı və yanacaq ehtiyatları tələb olunur. İsitfadə olunan yanacaqların havaya buraxdığı kimyəvi tullantıların nəticəsində ətraf mühüt çiklənir [4].

**Bərpa olunan enerji mənbələrindən istifadə**

Son dövrlərdə bir çox ölkələr bərpa olunan enerji mənbələrindən daha çox istifadə edirlər. Bərpa olunan enerji – enerji mənbəyindən alınan enerjidir. Bu enerji mənbələrinə günəşi və küləyi aid etmək olar. Kömür, neft və qaz kimi mənbələrdən enerji alınan zaman havaya karbon dioksid kimi zərərli maddələr buraxılır. Bu problemlə, demək olar ki, bütün ölkələr məşğul olur və enerjinin alınmasının daha alternativ yolları araşdırılır.

Günəş və külək ekoloji cəhətdən təmizdir və istifadə zamanı istehlak edilmir. 2035-ci ilə qədər bərpa olunan enerjinin qlobal elektrik enerjisi istehsalında payı əhəmiyyətli dərəcədə artacaq [4].

Ölkəmizdə gedən inkişafdan danışarkən "Əsrin müqaviləsi"ni qeyd etməmək mümkün deyil.

SSRİ-nin süqutundan sonra iqtisadi əlaqələr dağıldı. Artıq öz iqtisadiyyatımızı qurmalı idik. İqtisadiyyatın dirçəldilməsi üçün ölkəmizdə mövcud olan təbii resurslardan istifadə etmək lazım idi. Azərbaycanda zəngin neft ehtiyatları mövcuddur. Təbii ki, bu da Ümummilli lider Heydər Əliyevin nəzərindən qaçmır, milli sərvətimizdən istifadə edərək, iqtisadiyyatımızı qurmaq və möhkəmləndirmək məqsədi ilə yeni neft strategiyasının hazırlanmasını və həyata keçirilməsini ARDNŞ-nin vitse-prezidenti, deputat İlham Əliyevə həvalə etdi. İlham Əliyev bu layihənin ən fəal iştirakçılarından oldu və bu lahiyəni uğurla həyata keçirdi.

İlham Əliyev: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir" [3].

**"Əsrin müqaviləsi"**

"Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycan Respublikası mövcudluğunu dünyaya göstərdi. Ümummilli Lider Heydər Əliyev: "Biz bu müqaviləni imzalamaqla Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik" [4].

Bu müqavilə Azərbaycanın simasında dünyanın enerji xəritəsini dəyişdi, yeni bir tarix yazdı. Bu tarix 1994-cü ildə başlandı. Heydər Əliyev tərəfindən qoyulan strategiyaya əsaslanaraq Prezident İlham Əliyev "Yeni əsrin müqaviləsi"nə imza atdı.

"Əsrin müqaviləsi" Azərbaycan neftinin dünya bazarına ixracının əsasını qoydu. Müasir Azərbaycan yaşıl enerji ixracatçısına çevrilmişdir. Azərbaycanın dünyanın enerji xəritəsində yeri var və bu xəritəni dəyişən ölkədir. Azərbaycan neftini dünya bazarına ixracı ilə başladı, təbii qazın dünya bazarına çıxarılması ilə strategiyanı möhkəmləndirdi.

**Nəticə**

İstənilən uğur yolunda saysız-hesabsız maneələr olur. Əsl uğur da bu maneələri aşaraq qələbə qazanmaqdır. Azərbaycanımız da öz müstəqillik yolunda bu maneələri aşmağı bacardı. Azərbaycan bu maneələri keçmək üçün Heydər Əliyev ilə birgə yola çıxdı, onun müdrik siyasəti və qətiyyəti sayəsində bu maneələri aşaraq inkişaf, sabitlik və müstəqil yoluna çıxdı. İndi də Azərbaycan öz uğurlu yolunu Heydər Əliyevin davamçısı olan İlham Əliyevlə davam edir.

13 fevral 2023-cü il tarixində Bakıda Azərbaycanın energetiklər şəhəri olan Mingəçevirdə tikiləcək istilik elektrik stansiyasının təməlqoyulma mərasimi keçirilib. Bu mərasimdə Cənab prezident İlham Əliyev demişdir: “Mingəçeviri nəinki Azərbaycanın, ümumiyyətlə, Qafqazın enerji mərkəzinə çevirən Ulu öndər Heydər Əliyev olmuşdur. Onun rəhbərliyi və təşəbbüsü ilə ötən əsrin 70-ci illərində – daha doğrusu, 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulmuşdur. Böyük stansiyanın birinci blokunun 1981-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə açılışı olmuşdur” [5].

**İstifadə edilmiş ədəbiyyat**

1. Elektroenergetikanın inkişafının ikinci mərhələsi (1969-1991-ci illər) [Elektron resurs] URL: https://minenergy.gov.az/az/elektroenergetika/elektroenergetikanin-inkisafinin-ikinci-merhelesi
2. Pirverdiyev E. Heydər Əliyev və Azərbaycanın elektrik enerjisi sistemi “Azərenerji” ASC-nin prezidenti / “Azərbaycan” qəz., 2010, 7 may, s. 4
3. Əsrin müqaviləsi. [Elektron resurs] URL: https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
4. Alıyev İ., Əsədov A. “Əsrin müqaviləsi” – davamlı iqtisadi inkişafa aparan yol / “Xalq qəzeti”, 2009, 13 sentyabr, s. 1; 3
5. Müstəqillik dövrünün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində İlham Əliyevin nitqi, 13 fevral 2023-cü il.
6. Xəlilova Ş.Q. Mingəçevir şəhərinin yeni dövrü. [Elektron resurs] URL: https://sia.az/az/news/politics/1034802.html 2023.

## THE LEADER WHO WRITTEN THE NAME OF AZERBAIJAN ON THE ENERGY MAP OF THE WORLD

**[1,2]L.Suleymanova, [2]A.Shafiyeva**
[1]Doctor of Philosophy in Technique
[2]Mingachevir State University

***Abstract:*** *The personal and government qualities, wisdom, managerial abilities, high intelligence, constant upholding of national and moral values, purposefulness, adherence to principles of Heydar Aliyev are analyzed. The development in the field of energy from the end of the 19th century to the current is analyzed. One of Heydar Aliyev's masterpieces, "The Contract of the Century", introduced independent Azerbaijan to the world and put the name of Azerbaijan on the energy map of the world.*

***Keywords****: energy map of the world, renewable energy, Contract of The Century, energy, electricity*

## ЛИДЕР, НАПИСАВШИЙ ИМЯ АЗЕРБАЙДЖАНА НА ЭНЕРГЕТИЧЕСКОЙ КАРТЕ МИРА

**[1,2]Л.Ч.Сулейманова, [2]А.Б.Шафиева**
[1]доктор философии по технике
[2]Мингячевирский государственный университет

***Резюме:*** *Проанализированы личностные и правительственные качества, мудрость, управленчественные способности, высокий интеллект, постоянное отстаивание национальных и нравственных ценностей, целеустремленность, принципиальность Гейдара Алиева. Проанализировано развитие в области энергетики начиная с конца XIX века до*

*современности. Один из шедевров Гейдара Алиева «Контракт века» представил миру независимый Азербайджан и внес имя Азербайджана на энергетическую карту мира.*

***Ключевые слова****: энергетическая карта мира, возобновляемая энергия, Контракт века, энергетика, электричество*

**Elmi redaktor: tex.f.d., dos. T.Hüseynov**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 18.06.2023**
**Çapa qəbul edilib: 26.06.2023**

UOT 621; 338; 658; 316.37

# AZƏRBAYCANDA MAŞINQAYIRMANIN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ

**[1,4]Vüqar Sabir oğlu Mustafayev, [2,4]Səbuhi Əbdül oğlu Qəhrəmanov,**
**[3,4]Rövşən Paşa oğlu Mustafayev**
[1]texnika üzrə fəlsəfə doktoru, dosent
vuqar.mustafayev@mdu.edu.az
[2]texnika üzrə fəlsəfə doktoru
sabuhi.qahramanov@mdu.edu.az
[3]rovshan.mustafayev@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Maşınqayırma sahəsi sənayenin lokomotivlərindən biri hesab olunur. Maşınqayırması güclü olmayan dövlətin iqtisadiyyatının güclü olması müşküldür. Buna görə də Ulu öndər Heydər Əliyev maşınqayırmaya sənayenin ən vacib sahələrindən biri kimi yanaşmış və onun da inkişafına xüsusi diqqət ayırmışdır.*

*Məqalədə maşınqayırma sənayesinin rolu izah edilir, Azərbaycanda b u sahənin tarixi haqqında məlumat verilir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin həm birinci, həm də ikinci dövründə respublikada maşınqayırma sənayesinin inkişafı üçün göstərdiyi fəaliyyəti araşdırılır, tarixi xidmətləri təhlil edilir. Bu inkişafı əks etdirən faktlar və statistik məlumatlar təqdim olunur. Həmçinin Azərbaycanda maşınqayırma sənayesinin bu günkü vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilir. Bununla bağlı Ulu öndər Heydər Əliyevin zəngin irsinin əhəmiyyəti qeyd olunur, bu irsin öyrənilməsinin zəruriliyi əsaslandırılır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, iqtisadiyyat, neft, sənaye, maşınqayırma, inkişaf*

*“Mühəndislik sahəsi daim inkişaf edir. Bu sahədə öyrənilən yeni biliklər insanın həyat keyfiyyətinivə ekonomik səviyyəsini yaxşılaşdırır.”*

*(Heydər Əliyev)*

## Giriş

Böyük düha sahibi, parlaq tarixi şəxsiyyət, görkəmli dövlət və ictimai-siyasi xadim olan Heydər Əliyevin həyat və fəaliyyəti o qədər geniş əhatəli, o qədər dərin mənalıdır ki, neçə-neçə qalın kitab, monoqrafiya və dissertasiya yazılsa da, elmi-tədqiqat mövzuları üçün bitib-tükənməz xəzinə olaraq qalır.

Hər hansı insanı xarakterizə edərkən, əsasən, iki aspektdən yanaşılır: onun bacarıqları və şəxsi keyfiyyətləri. Heydər Əliyevdə bu cəhətlərin hamısı ən yüksək kamillik səviyyəsindədir, onların hansının daha üstünlük təşkil etdiyini müəyyənləşdirmək mümkün deyil.

Heydər Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə əbədi olaraq həkk olunmuşdur. Ölkəmizin tarixinin son yarım əsrlik dövrü bilavasitə bu şəxsin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycanın keçmiş SSRİ tərkibində olarkən müttəfiq respublikalardan biri kimi, SSRİ-nin süqutundan sonra – postsovet məkanında isə müstəqil bir dövlət kimi bütün sahələrdə inkişafının konseptual əsaslarını yaratmış, bu inkişafın təməlini qoymuşdur. Bu konsepsiyada iqtisadiyyatın bütün qollarının, o cümlədən sənayenin inkişafı mərkəzi yerdə dayanır. Heydər Əliyev maşınqayırmaya sənayenin əsas sahələrindən biri kimi yanaşmış və onun da inkişafına xüsusi diqqət ayırmışdır.

## Maşınqayırma sənayesinin ölkə üçün əhəmiyyəti

Bütün dünyada maşınqayırma sahəsi sənayenin lokomotivlərindən biri hesab olunur. İqtisadiyyat sahələrinin hamısını əmək alətləri ilə məhz maşınqayırma təmin edir. Bu səbəbdən iqtisadçılar onu “sənayenin ürəyi” adlandırırlar.

Maşınqayırma yüksək elm və əmək tutumuna malik olan sahələrdəndir. O, elmi-texniki və texnoloji inkişafa, bir növ, "bələdçilik" edir. Elmin və istehsalatın vəhdətini təzahür etdirən bu sənaye sahəsi elmi-texniki yeniliklərin effektivliyini yoxlamaq üçün "sınaq meydanı" rolunu oynayır. İqtisadiyyatın inkişafına yönəlmiş elmi-texniki ixtiralar, texnoloji təkliflər, təşkilati ideyalar məhz naşınqayırmada meydana gəlir, burada sınaqdan keçirilib, təsdiqini tapır. Tədqiqatlar göstərir ki, sənayesi müəyyən qədər inkişaf etmiş ölkələrdə işləyən əhalinin daha savadlı nümayəndələri maşınqayırma sənayesində çalışır.

Maşınqayırma kompleksi bir çox sahələri əhatə edir. Dəzgahqayırma, cihazqayırma, avtomobilqayırma, traktorqayırma, gəmiqayırma, təyyarəqayırma, energetika, elektrotexnika, radioelektronika, avtomatika, kənd təsərrüfatı və s. bu kompleksin bir-biri ilə bu və ya digər şəkildə qarşılıqlı əlaqədə olan tərkib hissələridir. Maşınqayırma, ilk növbədə, ağır sənaye kompleksidir. O, hər bir ölkənin iqtisadiyyatı üçün əmək vasitələrinin, istehsal alətlərinin, istehlak mallarının, hərbi-müdafiə təyinatlı məhsulların, o cümlədən silahların istehsalını təmin edir. Ümumi halda, maşınqayırma ölkə iqtisadiyyatının maddi-texniki təminatı üçün baza rolunu oynayır. Maddi nemətlərin istehsalında əmək məhsuldarlığının artmasına birbaşa təsir göstərməklə, bu mühüm sahə əhalinin maddi rifah halının yüksəlməsi, ölkənin müdafiə qabiliyyətinin güclənməsi işində ən böyük pay sahiblərindən biridir. [1]

Maşınqayırma ölkənin iqtisadi qüdrətinin güzgüsüdür. Bu sahənin inkişaf səviyyəsini bilməklə, ölkənin sənayesinin, ümumilikdə, iqtisadiyyatının inkişaf səviyyəsi haqqında, ümumi şəkildə olsa da, ilkin rəy formalaşdırmaq mümkündür. Maşınqayırması güclü olmayan dövlətin iqtisadiyyatının güclü olması müşküldür. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" deyən Ulu öndər Heydər Əliyev bunları çox yaxşı bilirdi...

**Azərbaycanda maşınqayırmanın tarixindən**

Ölkəmizdə maşınqayırmanın tarixi, ilk növbədə, neft maşınqayırmasının tarixi ilə bağlıdır. Belə ki, bütün dünya Azərbaycanı qədim neft diyarı kimi tanıyır (əbəs yerə Azərbaycana "Odlar yurdu" demirlər!). Bu səbəbdən ölkəmizdə hələ keçmişdən məhz neft maşınqayırması tarixi-iqtisadi zərurətdən irəli gələrək, qanunauyğun hal olaraq təşəkkül tapmışdır.

Azərbaycanda neft-qaz maşınqayırma sənayesinin bir əsr yarıma yaxın yaşı var.

Dünyada neftin sənaye üsulu ilə hasilatına ilk dəfə 1848-ci ildə Bakıda başlanılmışdır. Bakıda ilk metal emalı müəssisəsi 1858-ci ildə inşa edilmişdir. Dünyada ilk neftayırma zavodu da 1859-cu ildə məhz Bakıda işə salınmışdır. Növbəti illərdə neft sənayesinin, bir qədər sonra isə kimya sənayesinin, eləcə də gəmiçiliyin inkişaf etməsi bu sahələrə xidmət edən bir çox sənaye müəssisələrinin, ilk növbədə maşınqayırma və metal emalı üzrə ixtisaslaşan müəssisələrin yaradılmasına səbəb olmuşdur.

Ötən əsrin ikinci onilliyinin əvvəllərində Bakıda və onun ətrafında 12 maşınqayırma müəssisəsi fəaliyyət göstərirdi. Birinci dünya müharibəsi başlayanda isə bu regionda mexaniki və metal emal edən irili-xırdalı artıq 127 müəssisə vardı. Bu müəssisələrdə işləyən fəhlələrin sayı 8000 nəfərdən çox idi.

XIX əsrin axırlarında və XX əsrin əvvəllərində, əsasən, neftçıxarma sənayesinin tələbatına uyğun olaraq, xarici ölkələrdən idxal olunan texniki qurğu və avadanlıqların istismar dövründəki təmir işləri Rotşild, Nobel qardaşları, Aleksandr Benkendorf, Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov kimi sənaye maqnatlarının Bakıdakı emalatxanalarında həyata keçirilirdi. Məhz həmin emalatxanalar gələcək maşınqayırma müəssisələrinin "sələfləri" idi.

Azərbaycanda sovet-bolşevik hakimiyyəti dövründə də bu sahə öz əhəmiyyətini saxladı. 1935-ci ildə neft-mədən sənayesində istifadə edilən alət və avadanlıqların istehsalını və təmirini həyata keçirən bütün müəssisələr birləşdirildi. Bunun nəticəsində Ümumittifaq Neftmaşınqayırma Tresti – "Azneftmaş" birliyi təsis edildi. Bu birlik bir qədər sonra Ümumittifaq Sənaye Birliyinə ("Soyuzneftmaş"a) cevrildi. Müəyyən müddətdən sonra isə birlik daha da böyüdüldü və "Azneftkimyamaş" Dövlət Şirkəti yaradıldı. 2001-ci ildə şirkətin bazasında elə həmin adda Açıq Səhmdar Cəmiyyət yaradıldı.

İkinci dünya müharibəsi zamanı keçmiş Sovet İttifaqının bir sıra səhərlərindəki sənaye müəssisələrinin, o cümlədən maşınqayırma zavodlarının böyük bir hissəsi Bakıya köçürülmüşdü. Bu müəssisələrdə, əsas etibarilə, müdafiə təyinatlı məhsullar – döyüş sursatı, müxtəlif silahlar və hərbi texnika üçün ehtiyat hissələri hazırlanırdı. Həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən maşınqayırma sənayesi müəssisələrinin istehsal güclərinin 95 faizini bilavasitə cəbhə üçün lazım olan məhsulların istehsalı təşkil edirdi. Bunlarla yanaşı, respublikada neft hasilatı da çoxaldılmışdı və bununla əlaqədar olaraq, neft maşınqayırma sənayesi avadanlıqlarının istehsalı da artırılmışdı.

Sovetlər dönəmində respublikamız neftçıxarma mərkəzi kimi inkişaf etmişdir. Azərbaycanın neft maşınqayırma sənayesi yüksək səviyyədə ixtisaslaşdırılmış bir kompleks olaraq, SSRİ-nin nəhəng neft maşınqayırma sənayesininin özəyi kimi qəbul olunurdu. SSRİ-də neft maşınqayırma sənayesində fəaliyyət göstərən müəssisələrin ən çox konsentrasiya olunduğu sahə məhz Azərbaycanın neft maşınqayırma sənayesi idi. O dönəmdə Sovet İttifaqı məkanında istehsal olunan ümumi neft-mədən qurğularının və avadanlıqlarının 30 faizdən artıq hissəsi, neftçıxarma texnikasının 2/3 hissəsindən çoxu məhz Azərbaycanda fəaliyyət göstərən neft maşınqayırması müəssisələrində hazırlanırdı. Bu müəssisələrdə istehsal olunan məhsullar dünyanın 35 ölkəsinə ixrac edilirdi. O dövrdə dünyanın quru hissəsinin 1/6-ni tutan SSRİ-nin bütün ərazisində yeni neft və qaz yataqlarının kəşf edilməsində, quyuların qazılmasında və işlənməsində, cari və əsaslı təmiri işlərində tətbiq edilən innovativ texnologiyalar və avanqard metodlar, ümumiyyətlə, bu strateji istehsal və emal sahəsində yeni ideya və təkliflər məhz respublikamızda "doğulurdu", ixtiralar burada edilirdi.

**Azərbaycanda maşınqayırma Heydər Əliyevin birinci siyasi hakimiyyəti dövründə**

1969-cu ildə Azərbaycan SSR-in siyasi rəhbərliyinə Heydər Əliyev gəldi (iyul ayının 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi). O zaman Azərbaycan, əsasən, kənd təsərrüfatı məhsulları və neft istehsal edən respublika sayılırdı. Azərbaycan SSR 15 müttəfiq respublika arasında sonuncu yerlərdən birini tuturdu. Belə vəziyyət xalqını, vətənini əsl övlad və qeyrətli oğul məhəbbətilə sevən Heydər Əliyevi narahat etməyə bilməzdi.

Ulu Öndər Azərbaycanın iqtisadiyyatına dərindən bələd idi, respublikanın xalq təsərrüfatını yaxşı bilirdi. O, hər şeydən öncə, respublikanın iqtisadiyyatında hökm sürən ağır vəziyyəti dərindən öyrəndi, belə vəziyyətin yaranmasının səbəblərini elmi şəkildə hərtərəfli təhlil etdi. Reallıqları və Azərbaycanın potensialını düzgün qiymətləndirən Heydər Əliyev respublikanın milli gəlirində, eləcə də sənaye və kənd təsərrüfatındakı geriliyi qısa müddət ərzində aradan qaldırmağı, bu sektorlarda məhsul istehsalını artırmağı, "Azərbaycan qatarı"nı tezliklə "inkişaf relsləri" üzərinə qoymağı qarşısına başlıca məqsəd qoydu. O, Azərbaycan iqtisadiyyatının sənayeləşmə istiqamətinə yönəldilməsini əsas vəzifə kimi müəyyənləşdirdi və bu istiqamətdə məqsədyönlü fəaliyyət göstəməyə, ardıcıl və sistemli tədbirlər həyata keçirməyə başladı. Bu yolda dəfələrlə çətin maneələrlə, böyük risklərlə qarşılaşsa da, möhkəm iradə nümayiş etdirdi, qətiyyətli addımlar atdı. Heç nədən çəkinməyərək, SSRİ-nin mərkəzi hökuməti və nazirlikləri qarşısında Azərbaycanın gələcəyinə hesablanmış, respublikanın iqtisadiyyatı üçün taleyüklü vacib məsələlər qaldırdı. Tezliklə Ulu Öndərin gərgin mücadiləsi öz bəhrəsini verdi – Azərbaycan SSR-in inkişafı ilə bağlı İttifaq hökuməti tərəfindən xüsusi qərar qəbul olundu, böyük məbləğdə maliyyə vəsaiti ayrıldı. Bütün bunlar Azərbaycan iqtisadiyyatının sənayeləşməsi yolunda sürətli irəliləyişə güclü təkan oldu. Respublikamızın xalq təsərrüfatının yeni keyfiyyətlərə malik hərtərəfli, dinamik inkişafının təməlləri qoyuldu. Bu inkişafın mərkəzində isə sənayenin yüksəlişi dururdu.

Heydər Əliyevin gəlişi ilə ötən əsrin 70-80-ci illərində Azərbaycanda bir çox sənaye sahələrində olduğu kimi, neft maşınqayırma sənayesində də "canlanma" baş verdi. Bu sənaye sahəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu mühüm sahənin təşkilati-idarəetmə quruluşunda köklü islahatlar aparıldı, mühüm dəyişikliklər edildi, strateji əhəmiyyətə malik müəssisələrdə yenidənqurma işləri həyata keçirildi, yeni-yeni istehsalat sahələri yaradıldı.

Bunlar haqqında Ulu Öndər demişdir: "...Bilirsiniz ki, Azərbaycanın maşınqayırma sənayesi keçmiş Sovetlər İttifaqında bütün neft maşınqayırmasının mərkəzi idi. O dövrlərdə, o cümlədən 70-

80-ci illərdə Sovetlər İttifaqının neft sənayesinin neftçıxarma avadanlığına tələbatının 70-80 faizini Azərbaycanın maşınqayırma zavodları ödəyirdi. Ona görə də biz həm Azərbaycanın neft sənayesini inkişaf etdirmək üçün, həm də o dövrdə mənsub olduğumuz dövlətin – Sovetlər İttifaqının neft sənayesinin inkişafı ucun neft maşınqayırma zavodlarımızın yenidən qurulmasına çox böyük səylər göstərdik. Böyük işlər görüldü. Səttarxan adına zavod kimi, "Bakı fəhləsi" və digər zavodlar da demək olar ki, yenidən quruldu.

Bunların hamısı o dövrdə görülən işlərdir. Qeyd etdiyim kimi, bütün bunlar o dövrdə Sovetlər İttifaqının neft sənayesinin tələbatını ödəmək ucun lazım idi. Amma eyni zamanda o vaxt da biz irəliyə, Azərbaycanın gələcəyinə baxırdıq. O dövrdə Azərbaycan xalqının gələcəyi ucun Sovetlər İttifaqının, Sovet dövlətinin imkanlarından, mərkəzləşdirilmiş vəsaitindən, texnologiyasından istifadə edərək, respublikamızın zavodlarını yenidən qurmaq ucun lazımi avadanlıq, avtomat xətlər alıb gətirdik... O vaxt biz Sovet dövlətinin imkanlarından çox səmərəli istifadə etmişik. O zaman biz bu tədbirləri görərkən Azərbaycanın gələcəyi ucun böyük sənaye potensialı yaratmaq istəyirdik. Allaha şükürlər olsun ki, biz onu yarada bilmişik." [2]

Neft maşınqayırma müəssisələri arasında hazırda Ulu Öndərin adını daşıyan və bu adı layiqincə doğruldan Bakı Dərin Özüllər Zavodunu xüsusi qeyd etmək lazımdır. Zavodun məhz Bakıda inşa edilməsi (SSRİ rəhbərliyi zavodun Rusiyada – Həştərxanda inşa edilməsini planlaşdırırdı) Ümummilli Liderin bilavasitə təşəbbüsü, qətiyyəti və prinsipiallığı, gərgin səyləri nəticəsində baş tutmuşdu. Heydər Əliyev o dövr üçün dünyada analoqu olmayan bu müəssisənin tikintisi üçün ümumittifaq büdcəsindən böyük həcmdə maliyyə vəsaitinin ayrılmasına nail olmuşdu. Zavodun əsası 1978-ci ildə qoyuldu. 1984-cü ildə isə müəssisə artıq istismara verildi. Bu sənaye nəhənginin tikintisi Azərbaycanda sənayeləşmənin özəklərindən biri olmaqla, bu şəbəkənin genişləndirilməsinə güclü təkan rolunu oynadı. Zavod ağır sənayenin əsas dayaqlarından birinə çevrildi. Dəniz özülləri və xüsusi avadanlıqlar hazırlayan bu müəssisə hazırda ölkəmizin iqtisadiyyatında əhəmiyyətli rol oynayır, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına sədaqətlə xidmət edir. Bu gün Azərbaycanın Xəzər dənizində xarici kompaniyalar ilə ortaq işlədiyi neft-qaz yataqlarındakı platformaların və ya onların konstruktiv elementlərinin böyük əksəriyyəti məhz bu zavodda istehsal edilmişdir. Təhlillər göstərir ki, neft maşınqayırmasının lokomotivi sayılan bu müəssisə yaradılmasaydı, onun istehsal etdiyi məhsullar olmasaydı, respublikamız üçün strateji əhəmiyyət kəsb edən və uğurla icra olunan qlobal səviyyəli iri neft-qaz-enerji layihələrinin gerçəkləşməsi bir neçə il ləngimiş olardı.

Heydər Əliyevə qədər Azərbaycan maşınqayırmasından söhbət gedərkən yalnız neft maşınqayırması nəzərdə tutulurdu və o dövrün reallıqları bunu söyləməyə əsas verirdi. Ulu Öndər bu vəziyyəti dəyişməyə müvəffəq oldu. Onun səyləri nəticəsində respublikamızda köhnə qeyri-neft maşınqayırma müəssisələrinin yenidən qurulması və müasir avadanlıqlarla təchiz olunaraq modernləşdirilməsi ilə yanaşı olaraq, eyni zamanda qeyri-neft maşınqayırması sahəsində də bir sıra yeni müəssisələr – Bakıda qeyri-standart avadanlıqların istehsalı üzrə avtomatik xətlər zavodu (1970), Sumqayıt məişət kompressorları zavodu (1971), Bakıda inteqral mikrosxemlərin istehsalı üzrə ixtisaslaşan "Ozon" zavodu (1974), Bakı məişət kondisionerləri zavodu (1975), Şirvanda telemexanika zavodu (1977), Bakıda müdafiə sənayesi təyinatlı "Alov" zavodu (1978), Gəncədə elektronika məhsulları istehsal edən "Billur" zavodu (1978), Bakı Aviaaqreqat Zavodu (1980), Şirvanda uzaq rabitə avadanlıqları istehsal edən "Araz" zavodu (1980) və s. tikildi. [3]

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə maşınqayırma sənaye sahəsində 160-ya yaxın müəssisə və təşkilat fəaliyyət göstərirdi. Bu müəssisə və təşkilatlarda 120 min nəfərə yaxın fəhlə və mütəxəssis çalışırdı. Bu sənaye tərəfindən minlərlə növ məhsul istehsal edilirdi. 1982-ci ildə respublikada maşınqayırma və metal emalı sahəsində sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi 163,5 milyon manat olmuşdu. 1980-ci ildə Azərbaycanın ümumi sənaye istehsalının təxminən 17 faizi maşınqayırmanın payına düşürdü (cədvəllər 1, 2, 3, 4) [4].

**Cədvəl 1**

**Sahələr üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi (faktiki qiymətlərlə, mlyn. manat)**

| İllər | 1969 | 1982 |
|---|---|---|
| Bütün sənaye | 407,0 | 1207,7 |
| o cümlədən | | |
| maşınqayırma və metal emalı | 49,3 | 163,5 |

**Cədvəl 2**

**Sahələr üzrə sənaye istehsalının strukturu (ümumi yekuna görə, faizlə)**

| İllər | 1969 | 1982 |
|---|---|---|
| Bütün sənaye | 100 | 100 |
| o cümlədən | | |
| maşınqayırma və metal emalı | 12,1 | 13,5 |

**Cədvəl 3**

**Ən mühüm sənaye məhsullarının istehsalı**

| İllər | 1969 | 1982 |
|---|---|---|
| Mancanaq dəzgahları, min ədəd | 2,1 | 4,5 |
| Dəyişən cərəyanlı elektrik mühərrikləri, min ədəd | 252,7 | 318,7 |
| Güc transformatorları, min kVa | 740,0 | 2197,0 |
| Soyuducular və buzxanalar, min ədəd | 58,6 | 286,0 |
| Məişət kondisionerləri, min ədəd | - | 429,9 |

**Cədvəl 4**

**Sahələr üzrə sənayedə çalışan işçilərin sayı (min nəfər)**

| İllər | 1969 | 1982 |
|---|---|---|
| Bütün sənaye | 303,2 | 421,0 |
| o cümlədən | | |
| maşınqayırma və metal emalı | 67,9 | 118,8 |

**Azərbaycanda maşınqayırma Heydər Əliyevin ikinci siyasi hakimiyyəti dövründə**

1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının israrlı çağırışları ilə siyasi hakimiyyətə qayıtdı – yenidən respublikaya rəhbərliyə gəldi. (Başqa cür də ola bilməzdi – xalqının qeyrətli oğlu Heydər Əliyev doğma xalqının, canından əziz saydığı vətəninin taleyinə biganə qala bilməzdi, o, xalqının və vətəninin dar günündə əsil övlad, müdrik lider kimi böyük məsuliyyətli işin altına girdi.) Ulu Öndərə əvvəlki hakimiyyətdən torpaqlarımızın bir hissəsinin mənfur qonşular tərəfindən işğalı, qaçqın və məcburi köçkün həyatı yaşayan yüz minlərlə insan, ölkədə hökm sürən ictimai-siyasi xaos, vətəndaş müharibəsi təhlükəsi və dağılmış təsərrüfat, çökmüş iqtisadiyyat, bəzi hallarda xarabalıqları xatırladan mənzərəyə bənzəyən, tamamilə və ya qismən fəaliyyətsiz müəssisələr "miras" qalmışdı.

SSRİ-nin süqutu digər sahələr kimi, maşınqayırma sənayesinə də ağır zərbə vurmuşdu. Vaxtilə ittifaq əhəmiyyətli (və ittifaq tabeli) maşınqayırma müəssisələrinin maliyyə və kooperasiya əlaqələri qırılmış, iqtisadi münasibətlər pozulmuşdu. Buraxılan məhsulların istehlak bazarlarının itirilməsi nəticəsində bu qəbildən olan müəssisələrdə istehsal həcmləri və templəri ən aşağı səviyyəyə düşmüşdü. Respublikamızın müstəqillik tarixinin ilk dövrlərində bu tənəzzül prosesi daha da sürətlənmiş və böhranın dərinləşməsinə səbəb olmuşdu. Bütün bunlar maşınqayırma sənayesində mövcud istehsal güclərindən istifadəolunma səviyyəsinin enərək, 15-20 %-ə düşməsinə gətirib çıxarmışdı. Belə ağır vəziyyəti Ulu Öndər 1994-cü il iyun ayının 24-də Səttarxan adına maşınqayırma zavodunun işə salınmasının 100 illiyi münasibətilə zavodun kollektivi ilə görüşündə

bu müəssisənin timsalında belə xarakterizə etmişdi: "... zavodunuzun işində bəzi çətinliklər var. İstehsal etdiyiniz bəzi məhsulları istədiyiniz kimi sata, başqa yerlərə göndərə bilmirsiniz. Başqa çətinlikləriniz də var... İndi respublikanın iqtisadiyyatı dərin böhran keçirir. Son illərdə respublikada gedən dağıdıcı proseslər, müharibə iqtisadiyyata böyük zərbə vurmuşdur..." [2] Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 noyabr 2012-ci il tarixli müvafiq Sərəncamı ilə məhz həmin gün 24 iyun hər il Azərbaycanda maşınqayırma sənayesi işçilərinin peşə bayramı kimi qeyd olunur. [5]

Ulu Öndərin ölkəyə ikinci dəfə rəhbərliyə gəlişindən sonra dövlətin aydın iqtisadi inkişaf strategiyası, iqtisadi siyasət kursu müəyyənləşdirildi. Azərbaycanda liberal iqtisadiyyatının sürətli inkişafı, bütün sahələrdə bazar iqtisadiyyatnın təməl şərtlərinin yerinə yetirilməsi, onun prinsiplərinin bərqərar olması üçün zəruri olan addımlar atıldı, bu istiqamətdə ardıcıl və sistemli şəkildə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə start verildi.

Həyata keçirilmiş uğurlu tədbirlər nəticəsində, əsasən, **1995-ci** ildən etibarən, sənayedə, o cümlədən maşınqayırma sənayesində uzun illər hökm sürmüş durğunluq aradan qaldırılmağa başladı. Maşınqayırma kompleksinə daxil olan müəssisələrin fəaliyyətində dirçəlmə, irəliləmə tendensiyaları müşahidə edildi.

Respublikada radikal iqtisadi islahatların keçirilməsi, əsasən də, iqtisadiyyatın bütün sahələrinin liberallaşdırılması, geniş miqyaslı investisiya proqramlarının və layihələrinin icra olunması, özəlləşdirmənin aparılması ölkədaxili bazarın mühafizəsinin təmin olunması üçün gömrük rüsumlarının düzgün təyin edilməsi və tənzimlənməsi, enerji daşıyıcılarının tariflərinin stabilliyinin təmin edilməsi, xarici kapitalın cəlb olunması üçün əlverişli mühitin formalaşdırılması və bu kimi digər çoxsaylı ciddi tədbirlər sayəsində maşınqayırma sənayesində əsaslı dönüş yaranmasına stimul verildi, onun inkişafı üçün real imkanlar yaradıldı...

Heydər Əliyevin Azərbaycana rəhbərliynin ikinci dövründə maşınqayırma sənayesinin əsas sahələrində istehsal olunan sənaye məhsulunun (işlərin, xidmətlərin) həçmi 8 il ərzində (1995-1998) 2,3 dəfə, o cümlədən maşınqayırma ilə bağlı əsas sahələr üzrə 2,2 dəfə artmışdır. Bu illər ərzində maşınqayırma sənayesi məhsullarının ən mühüm növlərinin istehsalında 66 faiz artım baş vermişdir. 1999-2002-ci illər ərzində ümumilikdə sənayedə əsas kapitala yönəldilən investisiyaların həcmi 2,8 dəfədən çox, maşınqayırmada isə 6 dəfə artmışdır (cədvəllər 5, 6, 7). [6]

**Cədvəl 5**

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat [4]**

| İllər | 1995 | 2002 |
|---|---|---|
| Bütün sənaye | 1771,2 | 4019,5 |
| o cümlədən | | |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 2,5 | 2,9 |
| Elektrik avadanlıqlarının istehsalı | 6,3 | 4,7 |
| Maşın və avadanlıqların istehsalı | 38,9 | 42,7 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 1,6 | 0,1 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 0,2 | 8,2 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 4,1 | 60,4 |

**Cədvəl 6**

**Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (iqtisadi fəaliyyət növləri üzrə), vahid**

| İllər | 1995 | 2002 |
|---|---|---|
| Bütün sənaye | 2094 | 2357 |
| o cümlədən | | |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 9 | 24 |
| Elektrik avadanlıqlarının istehsalı | 17 | 58 |
| Maşın və avadanlıqların istehsalı | 92 | 65 |

| | | |
|---|---|---|
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 2 | 8 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 1 | 4 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 272 | 37 |

**Cədvəl 7**

**Sənaye məhsullarının ən mühüm növlərinin natura ifadəsində istehsalı**

| İllər | 1995 | 2002 |
|---|---|---|
| Metaldan konstruksiyalar, ton | - | 4245,7 |
| Ölçmə cihazları, ədəd | 11324 | 12170 |
| Güc transformatorları, ədəd | 71 | 335 |
| Mancanaq dəzgahları, min ədəd [4, s. 232] | 40 | 190 |
| Məişət soyuducuları və dondurucuları, ədəd | 25156 | 4000 |
| Nasoslar, ədəd | 24286 | 80171 |

2002-ci ilin oktyabr ayında "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin 2002-2005-ci illərdə İnkişaf Proqramı" qəbul edildi. Ölkə rəhbərliyi tərəfindən iqtisadiyyatın qeyri-neft bölmələrinin, o cümlədən maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi ilə bağlı verilmiş tapşırığa uyğun olaraq, bu İnkişaf Proqramı aşağıdakı məqsədləri daşıyırdı:

"- maşınqayırma sahəsinin inkişaf etdirilməsi;

- rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi;

- maşınqayırma sənayesi məhsullarına olan daxili tələbatın ödənilməsinə nail olunması;

- ölkənin ixrac potensialının artırılması;

- maşınqayırma sənayesinin inkişafı əsasında digər istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi:

- yeni iş yerlərinin açılması və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi üçün əlverişli şərait yaradılması." [7]

Proqramın əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilirdi:

"- neft-mədən və neft-kimya sənaye sahələri üçün: avadanlıqların, maşın və mexanizmlərin istehsalının genişləndirilməsi, keyfiyyətinin yaxşılaşdırılması, bu məhsullar üzrə ixrac potensialının artırılması, sahənin elmi-texniki bazasının möhkəmləndirilməsi, yeni neft-mədən avadanlıqlarının işlənilməsi və sınaq nümunələrinin hazırlanması, təcrübə-sınaq mərkəzlərinin yaradılması, beynəlxalq standartların geniş tətbiq edilməsi;

- böyük potensiala malik olan elektrotexnika sənayesi müəssisələrinin istehsal potensialından səmərəli istifadə edilməsi məqsədi ilə: kütləvi tələbat olan müasir məişət cihazlarının və aparatlarının istehsalının və çeşidinin genişləndirilməsi, keyfiyyətinin artırılması, energetika sahəsində kütləvi istifadə olunan texniki təyinatlı elektrotexniki məhsulların istehsalının genişləndirilməsi, keyfiyyətinin yaxşılaşdırılması;

- vaxtilə avtomobil və kənd təsərrüfatı yönümlü mexanizm və ehtiyat hissələrinin istehsalı üzrə ixtisaslaşmış müəssisələrin potensialından səmərəli istifadə edilməsi;

- maşınqayırma üzrə yeni istehsalatların yaradılması, xüsusən, Gəncə və Bakı avtomobil zavodlarının bazasında ilk növbədə daxili tələbatı ödəmək üçün müasir yük avtomobillərinin və kiçik avtobusların yığma istehsalatlarının yaradılması;

- fərdi layihələr əsasında maşınqayırma müəssisələrinin yenidənqurulması, istehsalatın strukturunun təkmilləşdirilməsi, qeyri-perspektiv istehsal güclərinin konversiyası;

- maşınqayırma sahəsində mütəxəssislərin hazırlanması." [7]

Proqramda neft və neft-kimya maşınqayırma sənayesinin ("Azneftkimyamaş"ASC) 14 iri müəssisəsi üçün ("Səttarxan adına maşınqayırma zavodu" TASC, "Suraxanı maşınqayırma zavodu" TASC, "Keşlə maşınqayırma zavodu" TASC, "Sabunçu Elm-İstehsalat Birliyi" TASC, "Bakı maşınqayırma zavodu" TASC, "Sərdarov adına maşınqayırma zavodu" TASC, "Bakı fəhləsi" maşınqayırma zavodu" TASC, "Bakı neft-mədən maşınqayırma zavodu" TASC, "Zabrat maşınqayırma zavodu" TASC, "Balaxanı maşınqayırma zavodu" TASC, "Səbail maşınqayırma

zavodu” TASC, “28 May adına maşınqayırma zavodu” TASC, “Bakı neft-qaz mədən maşınqayırma zavodu” TASC, “Təcrübə-sınaq zavodu” TASC), elektrotexnika sənayesinin, o cümlədən məişətdə istifadə olunan cihaz və avadanlıqları istehsal edən 7 iri müəssisə üçün (“Bakı kondisioneri” ASC, “Bakı məişət maşınları” ASC, “Bakmil” MM, “Çinar” ASC, “Sumqayıt kompressor zavodu” ASC, Azərelektroişıq” ASC, “Azərelektroterm”ASC) və texniki təyinatlı elektrotexniki avadanlıqlar istehsal edən 5 iri müəssisə üçün (“Yeni BEMZ” ASC, “Yüksəkgərginlikli elektrik avadanlıqları” ASC, “Bakı elektroavtomat” ASC, “Bakı mayesiz transformatorlar” ASC, “Azərkabel” ASC), habelə 8 digər iri maşınqayırma müəssisəsi üçün (Gəncə Avtomobil Zavodu, “Bakı avtomobilləri” ASC, “Bakı elektroştamp” ASC, “Bakı dəzgahsənaye” ASC, “7-ci DYZ” ASC, “Bakı elektriktökmə” ASC, “Azyolmaş” ASC, “Bakı universal maşınqayırma”ASC) həyata keçirilməsi nəzərdə tutulan konkret tədbirlər qeyd edilirdi.

Lakin bu İnkişaf Proqramının həyata keçirilməsini görmək üçün ömür Ulu Öndərə vəfa etmədi – Heydər Əliyev 2003-cü il dekabrın12-də dünyasını dəyişdi...

**Azərbaycan maşınqayırması bu gün**

Ulu Öndərin başladığı işlər yarımçıq qalmadı, onlar Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, o cümlədən sənayenin inkişafı daha böyük vüsət aldı.

Bu gün Azərbaycanın sənayesi, onun əsas manqalarından biri olan maşınqayırma sənayesi tərəfindən dünya standartlarına cavab verən, yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal olunur. Maşınqayırma sənayemizin buraxdığı məhsullar geniş spektrə malikdir – neft-qaz çıxarma sənayesi üçün istehsal olunan avadanlıqlardan tutmuş ta məişət əşyalarına qədər.

Bu gün tam əsasla deyə bilərik: əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi tərəqqi konsepsiyası bütün sahələrdə olduğu kimi, sənayedə, o cümlədən maşınqayırma sənayesində də zəfər çalmışdır!

Prezident İlham Əliev cənablarının ölkəyə başçılıq etdiyi illər ərzində sənayenin bütün sahələrində, o cümlədən maşınqayırmada bütün iqtisadi, maliyyə və texniki göstəricilər yalnız yaxşılaşmaq istiqamətində dəyişməkdədir. Özü də bu dəyişikliklər çox böyük sürət və kəmiyyətlər ilə baş verir (cədvəllər 8, 9, 10). [6]

**Cədvəl 8**

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat**

| **İllər** | **2003** | **2022** |
|---|---|---|
| Bütün sənaye | 4982,1 | 86383,4 |
| o cümlədən | | |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 3,0 | 50,8 |
| Elektrik avadanlıqlarının istehsalı | 6,0 | 186,9 |
| Maşın və avadanlıqların istehsalı | 38,6 | 383,8 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 2,2 | 130,0 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 4,6 | 12,2 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 72,3 | 581,1 |

**Cədvəl 9**

**Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (iqtisadi fəaliyyət növləri üzrə), vahid**

| **İllər** | **2003** | **2022** |
|---|---|---|
| Bütün sənaye | 2421 | 4095 |
| o cümlədən | | |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 23 | 35 |
| Elektrik avadanlıqlarının istehsalı | 54 | 80 |
| Maşın və avadanlıqların istehsalı | 60 | 92 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 10 | 14 |

| | | |
|---|---|---|
| Sair nəqliyyat vasitələrinin istehsalı | 4 | 16 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 33 | 309 |

**Cədvəl 10**

**Sənaye məhsuların ən mühüm növlərinin natura ifadəsində istehsalı**

| **İllər** | **2003** | **2022** |
|---|---|---|
| Metaldan konstruksiyalar, ton | 13314,8 | 39880,5 |
| Ölçmə cihazları, ədəd | 6227 | 187663 |
| Güc transformatorları, ədəd | 783 | 606 |
| Məişət souducuları və donduruculları, ədəd | 5400 | 1918 |
| Nasoslar, ədəd | 205732 | 5892 |
| Qaldırıcı qurğular, ədəd | 42 | 106 |
| Traktorlar, ədəd | - | 588 |
| Avtomobillər, ədəd | - | 2584 |
| Minik avtomobilləri, ədəd | - | 2049 |
| Yük avtomobilləri, ədəd | - | 424 |
| İctimai sərnişin nəqliyyat vasitələri, ədəd | - | 111 |
| Qoşqular və yarımqoşqular, ədəd | 15 | 234 |

**Nəticə**

Maşınqayırma sənayesi iqtisadi baxımdan həmişə səmərəli sahə sayılıb. Bu sahə yüksək gəlir gətirən olması ilə fərqlənir. Digər tərəfdən, maşınqayırma sənayesi işçi qüvvəsinin sayı baxımından da böyük həcmli sənaye bölməsi kimi qiymətləndirirlir. Bu amilə görə maşınqayırma sənayesinin inkişafı, maşınqayırma müəssisələrinin böyüməsi, çoxalması yüzlərlə, minlərlə yeni iş yerlərinin açılmasına stimul verilməsi deməkdir. Bu isə respublikamızda, xüsusilə də, bölgələrdə yaşayan vətəndaşların məşğulluq vəziyyətinə bilavasitə təsir göstərməklə ölkədə işsizlik səviyyəsinin əhəmiyyətli şəkildə aşağı düşməsində əsas amillərdən biri kimi çıxış edir. Bütün bunlar ölkə vətəndaşlarının sosial rifah halının yaxşılaşması nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir.

Bu gün bütün dünyada istehlak bazarları uğrunda açıq-aşkar amansız rəqabət gedir. Bu rəqabət meydanında respublikamız da öz layiqli yerini tutmaq uğrunda mübarizə aparır, milli brendlərini yaratmaq və onları dünya səviyyəsində tanıtmaq istiqamətində məqsədyönlü iş aparır. Bu isə bütün sənaye sahələrində, o cümlədən maşınqayırmada sərt bazar tələblərini operativ ödəməyə qadir olan, müasir dünya standarlarına uyğun məhsul buraxılışını təmin edən çevik istehsalat yaradılmasını zəruri edir.

Maşınqayırmada elmtutumlu texnologiyaların tətbiqi sürətlə artmaqdadır. Müasir maşın və avadanlıqların istehsalında funksional yüklənmədə intellektual komponentlərin (elektron, İT) xüsusi çəkisi durmadan artmaqdadır: 25-30 il öncə maşınqayırmada mexaniki hissələrin xüsusi çəkisi 70 fazi idi, bu gün isə bu göstərici 25-30 faizdən artıq deyil.

Qeyd olunanlar maşınqayırma sənayemiz üçün müasir baxışlara malik, zamanın nəbzini tutan, dünya maşınqayırma sənayesində müasir tendensiyaları bilən, analitik düşüncə qabiliyyətli, qeyri-standart vəziyyətdən operativ çıxış yolunu tapmağı bacaran, məsələlərə kreativ yanaşma tərzi olan savadlı mütəxəssislərin yetişdirilməsini günün aktual məsələsi kimi qarşıya qoyur. Yalnız sadaladığımız keyfiyyətlərə malik olan milli iqtisadçılarımız, mühəndislərimiz maşınqayırma sənayemizin müasir dövrün tələbləri səviyyəsində güclü inkişafını təmin edə bilərlər. Onların yetişdirilməsində Heydər Əliyevin zəngin irsi kimi böyük məktəbdən istifadə edilməsi zəruridir. Bu məktəb təşəbbüskarlıq, təşkilatçılıq, idarəetmə, mübarizlik, eyni zamanda azərbaycançılıq, vətənpərvərlik, xalqsevərlik, milli qeyrət, vətənpərvərlik və s. bütün müsbət keyfiyyətləri özündə birləşdirən, daim aktual olan məktəbdir.

Heydər Əliyev məktəbini yaxşı oxumaq, zəngin Heydər Əliyev irsini dərindən öyrənmək vətənini, xalqını sevən hər bir azərbaycanlının vətəndaşlıq borcudur! Bununla əlaqədar olaraq,

statusundan asılı olmayaraq, hər bir ali təhsil müəssisəsinin üzərində xüsusi missiya və vəzifələr düşür.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., Dadaşov İ.Ş. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. (Monoqrafiya). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2003.- 455 s.

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səttarxan adına zavodun işə salınmasının 100 illiyi münasibətilə zavod kollektivi ilə görüşdə çıxışı - 24 iyun 1994-cü il. "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. [Elektron resurs] URL: https://lib.aliyev-heritage.org/az/8145965.html

3. Azərbaycanın maşınqayırma sənayesi haqqında - Azərbaycanın Sənaye Portalı. [Elektron resurs] URL: https://web.archive.org/web/20200305065506/http://senaye.gov.az/az/senayeshme/maraqli_faktlar

4. Xalqa həsr olunan illər (II nəşr). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 9 №-li kiçik müəssisə, 2013, 527 s. [Elektron resurs] URL: https://www.stat.gov.az/source/others/H.Aliyev/Pdf/161-269.pdf

5. Azərbaycan Respublikasında "Maşınqayırma sənayesi işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [Elektron resurs] URL: https://e-qanun.az/framework/24694

6. ASIS – Azərbaycan statistik informasiya xidməti. [Elektron resurs] URL: https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do;JSESSIONID=E7A4EBA3DA752DABCB6CF81850C3C4AB#

7. Azərbaycan Respublikasında maşınqayırma sənayesinin 2002-2005-ci illərdə İnkişaf Proqramı / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 15 oktyabr tarixli, 218s nömrəli sərəncamı ilə təsdiq edilmişdir / [Elektron resurs] URL: https://e-qanun.az/framework/1230

## HISTORICAL MERITS OF THE GREAT LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF MACHINE BUILDING IN AZERBAIJAN

**[1,3]V.Mustafayev, [2,3]S.Gahramanov, [3]R.Mustafayev**
[1]doctor of philosophy in technics, associate professor
[2]doctor of philosophy in technics
[3]Mingachevir State University

***Abstract:*** *The machine building is counted one of the locomotives of the industry. It is difficult to have a powerful state economy without powerful machine building. Therefore, the great leader Heydar Aliyev treated machine building as one of the most important industries and paid special attention to its development.*

*The article explains the role of the machine building industry, provides information about the history of this industry in Azerbaijan. The activity of the great leader Heydar Aliyev on the development of the machine building industry of the republic is studied, his historical merits are analyzed both in the first and in the second periods of his leadership in Azerbaijan. Facts and statistics reflecting this development are presented.*

*The current state and prospects for the development of the machine building industry in Azerbaijan are also considered. In this regard, the importance of the rich heritage of the great leader Heydar Aliyev is noted, and the need to study this heritage is substantiated.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, economy, oil, industry, machine building, development*

# ИСТОРИЧЕСКИЕ ЗАСЛУГИ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ МАШИНОСТРОЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**[1,3]В.С.Мустафаев, [2,3]С.А.Гахраманов, [3]Р.П.Мустафаев**
[1]доктор философии по технике, доцент
[2]доктор философии по технике
[3]Мингячевирский государственный университет

***Резюме:*** *Машиностроельная отрасль считается одним из локомотивов промышленности. Трудно иметь мощную экономику государства без мощного машиностроения. Поэтому великий лидер Гейдар Алиев относился к машиностроению как к одной из важнейших отраслей промышленности и уделял особое внимание ее развитию.*

*В статье разъясняется роль машиностроительной отрасли, дается информация об истории этой отрасли в Азербайджане. Исследуется деятельность великого лидера Гейдара Алиева по развитию машиностроительной отрасли республики, анализируются его исторические заслуги как в первый, так и во второй периоды его руководства Азербайджаном. Представлены факты и статистика, отражающие это развитие.*

*Также рассмотрено настоящее состояние и перспективы развития машиностроительной отрасли Азербайджана. В связи с этим отмечается важность богатого наследия великого лидера Гейдара Алиева, обосновывается необходимость изучения этого наследия.*

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, экономика, нефть, промышленность, машиностроение, развитие*

**Elmi redaktor: tex.e.d., prof. Ə.Tağızadə**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Ə.Əliyeva**
**Daxil olub: 19.06.2023**
**Çapa qəbul edilib: 27.06.2023**

UOT 656; 316.37

# AZƏRBAYCANDA NƏQLİYYAT İNFRASTRUKTURUNUN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**[1,4]Əlləz Hacıəhməd oğlu Əliyev, [1,2,4]Mahir Balaca oğlu İsmayılov,**
**[3,4]Əsgər Həbib oğlu Tağızadə**
[1]texnika üzrə fəlsəfə doktoru, dosent
allaz.aliyev@mdu.edu.az
[2]mahir.ismayilov@mdu.edu.az
[3]texnika üzrə elmlər doktoru, professor
asger.tagizade@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Məqalədə Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda nəqliyyatın inkişafı üzrə həyata keçirdiyi fəaliyyətin müəyyən aspektləri araşdırılmışdır. Beynəlxalq nəqliyyat və enerji dəhlizlərinin Azərbaycan Respublikasının ərazisindən, o, cümlədən ölkəmizin strateji tərəfdaşı olan ölkələrdən sərfəli şərtlərlə və təhlükəsiz marşrutlarla keçirilməsi məsələlərində Ulu Öndərimizin xüsusi rolu vurğulanmışdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, nəqliyyat, nəqliyyat və enerji dəhlizləri*

## Giriş

Ulu öndərimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra Azərbaycan Respublikasının iqtsadiyyatının bütün sahələrində əhəmiyyətli dirçəlmə hiss olunmağa başladı. Bu dirçəlmə ölkəmizin nəqliyyat sahəsinə daha geniş sirayət etməyə başladı. Ulu Öndərimiz, hələ keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində olarkən, nəqliyyat sahəsini kurasiya edirdi və onun inkişafına böyük diqqət yetirirdi. Heç kimə sirr deyildir ki, Baykal-Amur Magistralının inşasında Heydər Əliyevin çox böyük xidməti olmuşdur. Həm nəqliyyatın kurasiyası sahəsində böyük təcrübəyə malik olması, həm də ölkəmizin mühüm geostrateji ərazidə yerləşməsi müstəqilliyimizin ilk illərindən başlayaraq, Ulu Öndərimizə nəqliyyatın inkişafı və onun dünya nəqliyyat sisteminə inteqrasiya etdirilməsi üçün geniş imkanlar verdi.

Müstəqillik qazandıqdan sonra keçmiş SSRİ-nin tərkibinə daxil olan respublikalarda Şərq-Qərb nəqliyyat əlaqələrinə maraq daha da artdı. Onlar Avropa İttifaqının dəstəyi ilə TRASEKA layihəsi çərçivəsində Avropanı Asiya ilə əlaqələndirən nəqliyyat-kommunikasiya sisteminin yaradılmasına, “Böyük İpək yolu” adı ilə sonralar dünyada geniş tanınan layihənin həyata keçirilməsinə böyük əhəmiyyət verdilər (şək. 1) [1].

TRASEKA layihəsinin həyata keçirilməsi hökumətlərarası inteqrasiyada mühüm əhəmiyyət kəsb edir. Bu da öz növbəsində tranzit ödənişlərin rəqabətli səviyyədə qalması razılığına və quru sərhəddindən keçmənin rəsmiləşdirilməsi prosedurlarının yüngülləşdirilməsinə yol açdı. TRASEKA dəhlizi boyu böyük həcmli yüklərin daşınması haqda əhəmiyyətli razılaşmalar əldə olunmuşdur. TRASEKA layihəsinə rəğmən Mərkəzi Asiyanın dəniz yollarının, dünyada mövcud olan mühüm bazarları birləşdirən ən yaxın, ən sərfəli istiqamət olduğu təsdiq edilmişdir.

TRASEKA proqramının həyata keçirilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər beynəlxalq maliyyə strukturları tərəfindən böyük məbləğdə sərmayə qoyuluşu təmin edilmişdir. Bu strukturlar TRASEKA dəhlizi boyu dəmir yollarının, limanların və avtomobil yollarının layihələndirilməsi üçün 1,7 milyard avrodan artıq vəsait ayırmışdı. Bundan başqa, Avropa İttifaqının sərmayəçiləri Qafqaz və Asiya nəqliyyat şirkətləri ilə müştərək müəssisələrdə iştirak edirdilər.



**Şək. 1.** “Böyük İpək yolu”nun fəaliyyətində Azərbaycan amili

Ulu öndərimiz Heydər Əliyev həmin dövrdə nəqliyyat-kommunikasiya sahəsində TRASEKA layihəsinin əhəmiyyətini ilk vaxtlardan görərək, ölkəmizin bu layihədə iştirak etməsinə böyük əhəmiyyət vermişdir.

TRASEKA proqramı üzrə mühüm tədbirlərdən biri, Heydər Əliyevin diplomatik uzaqgörənliyi və təşəbbüssü ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilmişdir. Bu konfransda 32 ölkədən və 13 beynəlxalq təşkilatdan olan nümayəndələr, TRASEKA layihəsinin reallaşdırılmasının texniki və iqtisadi üstünlüklərini özündə nümayiş etdirən “Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş” adlanan mühüm sənədi imzalamışdırlar. Onun ərsəyə gəlməsi üçün Heydər Əliyev böyük xidmətlər göstərmişdir. Məhz onun təşəbbüsü ilə TRASEKA üzrə hökumətlərarası komissiyasının katibliyinin baş ofisi olan mənzil-qərargah Azərbaycanın paytaxtı Bakı şəhərində yerləşir. 2001-ci ilin 21 fevralında TRASEKA hökumətlərarası komissiyasının katibliyinin Bakıda fəaliyyətə başlayan ofisi “Böyük İpək Yolu” dəhlizində hərəkət edən beynəlxalq yüklərin nəql olunması və onların təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi, Əsas Sazişə üzv olan digər ölkələrdə qanunvericilik və iqtisadi sahə ilə bağlı məsələlərin həll edilməsinə yardım məqsədilə yaradılmışdır [1].

Avropa-Qafqaz-Asiya dövlətləri hüdudunda yüklərin daşınmasını təhlükəsiz və fasiləsiz təmin edən TRASEKA layihəsi, Azərbaycan iqtisadiyyatının inkişafında, ölkəmizin nəqliyyat infrastrukturunun formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Şərqlə Qərbi əlaqələndirən Avropa-Qafqaz-Asiya nəqliyyat layihəsinin inkişaf etdirilməsində ölkəmizin aparıcı yer tutması, ölkəmizin dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrinin dərinləşməsinə böyük tövhə verir. Bu isə iqtisadi və siyasi sabitlik və təhlükəsizlik baxımından mühüm əhəmiyyətə malikdir.

Heydər Əliyevin birbaşa rəhbərliyi ilə qurulmuş nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsi və müasirlədirilməsi prosesi cənab Prezident İlham Əliyev tərəfindən aktiv formada aparılır və Azərbaycan Respublikası Bakı-Tbilisi-Qars və digər regional nəqliyyat dəhlizlərinin formalaşdırılması prosesində fəal iştirak edir (şək. 2).

Heydər Əliyevin verdiyi mühüm tövsiyələr nəticəsində ölkəmizin nəqliyyat sektorunun əhəmiyyətli tərkib hissəsindən biri olan “Azərbaycan Dəmir Yolları” QSC, əksər beynəlxalq təşkilatların üzvünə çevrilmişdir. Azərbaycan Respublikası 1993-cü ildə Dəmir Yolları Əməkdaşlığı Təşkilatının və 1995-ci ildə isə Beynəlxalq Dəmir Yolları İttifaqının üzvlüyünə qəbul olundu. Həmin dövrdən etibarən bu beynəlxalq təşkilatların tədbirlərində daha fəal iştirak etdi.

Heydər Əliyevin bilavasitə həyata keçirdiyi beynəlxalq nəqliyyat dəhlizləri siyasəti sahəsində əldə edilmiş ən böyük uğurlardan biri də Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi idi. Bu layihə mühüm əhəmiyyətə malik olmaqla bərabər, XXI əsrdə Asiya ilə Avropanı birləşdirən ən mühüm nəqliyyat dəhlizinə çevrilir və bölgədə təhlükəsizliyin və sabitliyin artırılmasına xidmət edir [2].




**Şək. 2.** Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyəti

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun inşası layihəsi, TRASEKA-nın rəqabət qabiliyyətliliyini artırmaqla yanaşı, nəqliyyat daşımalarına tətbiq olunan tariflərin rasional səviyyəsinin müəyyən edilməsinin təmin edilməsinə yönəlmişdir.

Ölkəmizin Prezidenti İlham Əliyevin səyləri nəticəsində, 2007-ci ilin fevral ayında Tbilisi şəhərində Bakı-Tbilisi-Qars dəmiryolunun tikintisinə dair çərçivə sazişi imzalandı.

Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Onun böyük həcmli maliyyə dəstəyi ilə Türkiyə Cümhuriyyətinin sərhədindən Gürcüstan Respublikasına və Gürcüstan Respublikasından Azərbaycan Respublikasının dövlət sərhədinə qədər tikilməsi və müasirləşdirilməsi həyata keçirilmişdir. Azərbaycan, Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan Respublikasından keçən hissəsinin inşasına, illiyi 1 faiz olmaqla, 25 il müddətinə 220 milyon ABŞ dolları miqdarında kredit ayırmış və nəhəng tikinti işlərinin yekunlaşmasına öz töhvəsini vermişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarından [3] götürülmüş statistik göstəricilər əsasında, müxtəlif dövrlərdə ölkə ərazisindən daşınan tranzit yüklərin həcmi şək. 3-də verilmişdir.




**Şək. 3.** Azərbaycan Respublikasının ərazisindən daşınan tranzit yüklərin həcminin (min ton ilə) paylanması

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizdən keçən və mühüm əhəmiyət daşıyan digər nəqliyyat dəhlizlərinin yaradılmasında da fəal iştirakı gələcəyə hesablanmış çox uğurlu fəaliyyət idi.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının blokadasının sona çatdırılması arzusu, Prezidentimiz İlham Əliyev tərəfindən, açılması israrla tələb olunan Zəngəzur dəhlizinin reallaşması nəticəsində yaxın zamanlarda mümkün olacaqdır (şək. 3).




**Şək. 4.** Zəngəzur dəhlizinin sxematik təsviri

Ulu öndərimiz Heydər Əliyev enerji dəhlizlərinə və daşımalarına da çox diqqət yetirirdi. Azərbaycan öz enerji resurslarını dünya bazarına rahat çıxarmaq üçün bir neçə müxtəlif enerji

dəhlizinin yaradılmasını mühüm hesab edirdi və öz yaxın tərəfdaşları ilə birgə fəaliyyətə başlayaraq, məqsədinə nail olurdu.

Azərbaycan Respublikasında mövcud olan bütün nəqliyyat növlərinin, yol-nəqliyyat kompleksinin inkişafında Ulu öndərimiz Heydər Əliyevin əməyi danılmazdır. Onun nəqliyyat sahəsində başladığı islahatlar və gördüyü işlər, hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. [Elektron resurs] URL: http://www.traceca-org.org/en/home/
2. [Elektron resurs] URL: https://ady.az/
3. [Elektron resurs] URL: https://stat.gov.az/

## THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF TRANSPORT INFRASTRUCTURE IN AZERBAIJAN

**[1,3]A.Aliyev, [1,3]M.Ismayilov, [2,3]A.Taghizadeh**
[1]doctor of philosophy in technics, associate professor
[2]doctor of sciences in technics, professor
[3]Mingachevir State University

***Abstract:*** *The article discusses some aspects of the activity of the national leader Azerbaijan Heydar Aliyev on the development of transport in Azerbaijan. The special role of the great leader in the issues of passing international transport and energy corridors through the territory of the Republic of Azerbaijan, including through countries that are strategic partners of our country, on favorable conditions and safe routes was emphasized.*

***Keywords:*** *Heydar Aliyev, Republic of Azerbaijan, transport, transport and energy corridors*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ТРАНСПОРТНОЙ ИНФРАСТРУКТУРЫ В АЗЕРБАЙДЖАНЕ

**[1,3]А.Г.Алиев, [1,3]М.Б.Исмаилов, [2,3]А.Г.Тагизаде**
[1]доктор философии по технике, доцент
[2]доктор наук по технике, профессор
[3]Мингячевирский государственный университет

***Резюме:*** *В статье исследованы отдельные аспекты деятельности общенационального лидера Азербайджана Гейдара Алиева по развитию транспорта в Азербайджане. Подчеркнута особая роль великого лидера в вопросах о прохождении международных транспортных и энергетических коридоров через территорию Азербайджанской Республики, в том числе через страны, являющиеся стратегическими партнерами нашей страны, на благоприятных условиях и безопасных маршрутах.*

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджанская Республика, транспорт, транспортно-энергетические коридоры*

**Elmi redaktor: tex.f.d., dos. V.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Ə.Əliyeva**
**Daxil olub: 22.06.2023**
**Çapa qəbul edilib: 01.07.2023**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 2, 2023 (Xüsusi buraxılış)*

UOT 66; 316.37

# HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ AZƏRBAYCANIN KİMYA SƏNAYESİNDƏ YENİLİK VƏ TƏRƏQQİ

**[1,4]Adil Davud oğlu Aslanov, [1,2,4]Məhiyəddin Sadıq oğlu Mehdiyev,**
**[1,3,4]Pərvanə Siyahpər qızı Səfərova**
[1]kimya üzrə fəlsəfə doktoru,dosent
adil.aslanov@mdu.edu.az
[2]mahyaddin.mehdiyev@mdu.edu.az
[3]pervana.safarova@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

***Xülasə***: *Məqalənin əsas məqsədi Heydər Əliyevin dövründə Azərbaycanın kimya sənayesində yaşanan tərəqqi, yeniliklər və inkişafın ətraflı şəkildə təsvir edilməsi və oxuculara dövrün iqtisadi və sənaye sahəsindəki başarılarını izləməyə kömək etməkdir. Məqalədə Heydər Əliyevin liderliyi altında neft və energetika sektoru ilə yanaşı kimya sənayesində atılan addımların əhəmiyyəti, dövrün iqtisadi inkişafında kimya sahəsinin indiki və sonrakı əhəmiyyəti, beynəlxalq əməkdaşlığın rolu və növbəti addımların atılmasıi ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.*

***Açar sözlər***: *Heydər Əliyev, neft strategiyası, kimya sənayesi, istehsal sahələri, iqtisadi siyasət, tərəqqi, innovativ texnologiyalara yatırım, beynəlxalq əməkdaşlıq*

"*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.*"

*(Heydər Əliyev)*

***Xülasə:*** *Məqalənin əsas məqsədi Heydər Əliyev dövründə Azərbaycan kimya sənayesinin tərəqqisini, innovasiyalarını və inkişafını ətraflı izah etmək və oxuculara o dövrün iqtisadi və sənaye nailiyyətlərini izləməyə kömək etməkdir. Məqalədə Heydər Əliyevin rəhbərliyi ilə kimya sənayesində, o cümlədən neft-qaz sektorunda atılan addımların əhəmiyyəti, dövrün iqtisadi inkişafında kimya sənayesinin bugünkü və gələcək əhəmiyyəti, Ümummilli Liderin rolu açıqlanır. beynəlxalq əməkdaşlıq və növbəti addımlar.*

***Açar sözlər:*** *Heydər Əliyev, neft strategiyası, kimya sənayesi, istehsal sektorları, iqtisadi siyasət, tərəqqi, innovativ texnologiyalara investisiya, beynəlxalq əməkdaşlıq*

## Giriş

Heydər Əliyevin Azərbaycan respublikasına rəhbərliyi 1969-1982-ci illəri və 1993-cü və ömrünün sonuna qədərki dövrü əhatə edir. Birinci dövdə Azərbaycan SSRİ-nin tərkibində müttəfiq respublika kimi mövcud idisə, ikinci dövr Azərbaycanın müstəqil bir dövlət kimi yaşadığı bir dövr idi. Hər iki dövr üçün respublikanın inkişaf dinamikasını nəzərdən keçirdikdə ikinci dövrün strateji baxımdan daha mühüm bir dövr olduğunu qeyd etmək lazımdır. Onun mühümlüyü ondan ibarətdir ki, bu dövrdə respublikanın inkişaf tarixinə qızıl hərflərlə yazılılmış bir müqaviləyə – "Əsrin Müqaviləsi"nə – neft kontraktlarına imza atılmışdır. Ən aparıcı dövlətlərin neft şirkətləri ilə bağlanmış bu müqavilələr Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və sənayesinin bütün sahələrində onun dinamik inkişafına səbəb olacaqdır.

Heydər Əliyevin liderliyi və neft strategiyası Azərbaycanın neft sənayesinin inkişafını və ölkənin iqtisadi diversifikasiyasını təmin etməkdə çox vacib rol oynamışdır. Bu strategiya sayəsində Azərbaycan neft sektorunda böyük nailiyyətlər əldə etmiş və iqtisadiyyatın digər sahələrinin də, o cümlədən kimya sənayesinin inkişafına imkan yaratmışdır.

Bu məqalədə Heydər Əliyev dövründə Azərbaycanın kimya sənayesində yaşanan yenilik və tərəqqi ilə bağlı bəzi məsələlər və perspektivlər müzakirə olunur.

Kimya sənayesi, Azərbaycanın iqtisadiyyatında sürətlə inkişaf edən əsas sahələrdən biridir. Heydər Əliyevin iqtisadi və sənaye siyasətinin əsas göstəriciləri arasında neft və energetika sektorundan sonra kimya sahəsindəki inkişaf da yüksək önəm daşıyır. Kimya sənayesi, inkişaf etməkdə olan sənaye sahələri arasında ən əhəmiyyətli sahələrdən biri olmuşdur.

Heydər Əliyevin liderliyi altında kimya sənayesi, milliləşmənin aparılması ilə güclənmiş və inkişaf etdirilmişdir. Kimya sənayesinə texniki tərəqqi, innovativ texnologiyalara yatırım və beynəlxalq əməkdaşlıq ilə dəstək verilmiş və inkişaf üçün uyğun şərait yaradılmışdır.

**Heydər Əliyevin dövründə Azərbaycanın sənaye inkişafı**

Neft, Heydər Əliyev dövründə Azərbaycanın iqtisadiyyatında ən əhəmiyyətli sektorlardan biri olmuşdur. Neft hasilatı, ölkənin ən çox gəlir əldə etdiyi sahələrdən biri olaraq öz əhəmiyyətini sübut etmişdir. Heydər Əliyevin rəhbərliyi altında, neft sektorunun sürətli inkişafı təmin edilmiş və bu sektorun stabil bir təməl kimi iqtisadiyyata təsiri artmışdır. Neft hasilatının artırılması və enerji tədarükündə təhlükəsizliyin təmin edilməsi, Heydər Əliyevin dövründə neftin iqtisadiyyatdakı payının artmasında əsaslı rol oynamışdır.

Heydər Əliyevin dövründə, kimya sənayesi milliləşmə prosesinə uyğun şəkildə inkişaf etdirilmiş və ölkənin strateji sənaye sahələrindən biri halına gətirilmişdir. Kimya sahəsi, özünü möhkəm bir sənaye sahəsi kimi müstəqil şəkildə inkişaf etdirməsi və milli mülkiyyət altında olması sayəsində, ölkənin iqtisadi inkişafına güclü bir dəstək təmin etmişdir.

Heydər Əliyev, ölkənin iqtisadi sahəsində dəyişikliklər apararaq və sürətlənən inkişafın önünü açacaq bir sıra təsirli addımlar atmışdır. Kimya sənayesinin də daxil olduğu çoxsaylı sənaye sahələrində texniki tərəqqi, innovativ texnologiyalara yatırım və beynəlxalq əməkdaşlıq kimi addımlar Heydər Əliyevin liderliyi altında atılmışdır. Heydər Əliyevin iqtisadi sahədəki təsirli addımları, Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi və ölkənin beynəlxalq arenadakı mövqeyini gücləndirməsi üçün, xüsusilə müstəqillik əldə etdikdən sonra əhəmiyyətli bir rol oynamışdır.

Hələ SSRİ dövründə 1969-1982-ci illərdə respublikada sənayenin orta illik yüksəlişi 6,9 % təşkil etmiş, onun artımı 1980-ci ildə 1970-ci illə müqayisədə 2.9 dəfə çox olmuşdur [1]. 1971-1975-ci illərdə 55 yeni sənaye müəssisəsi açılmış və işləyən müəssisə daxilində 32 çeşiddə yeni istehsal sahəsi, sexlər işə salınmışdı. 1970-1979-cu illərdə sənayedə istehsalın həcmi 2,2 dəfə, kənd təsərrüfatı məhsullarının miqdarı da 2,2 dəfə artmışdı.

Bu addımlar və dəyişikliklər Heydər Əliyevin iqtisadi liderliyi altında Azərbaycanın sənaye inkişafında böyük məsafələr qət etməsini təmin etmişdir. Neft və kimya sənayesində olan inkişaf və atılan strateji addımlar ölkənin sosial-iqtisadi inkişafına dəstək olmuş və onun beynəlxalq arenadakı mövqeyini gücləndirməkdə böyük rol oynamışdır.

**Heydər Əliyev dövrü və bu dövrün kimya sənayesinin inkişafına təsiri**

Heydər Əliyev dövründə, Azərbaycanın neft və enerji sektorundan alınan mənfəət, kimya sənayesinin inkişafında əsas rol oynamışdır. Belə ki, alınan gəlirin bir hissəsi, kimya sənayesinə yatırımlara və texnoloji inkişafa sərf edilmişdir. Bu məbləğlər, kimya sahəsində müasir təsərrüfatların və innovasiya texnologiyaların istifadəsinə xərclənmişdir.

Heydər Əliyevin liderliyi altında, kimya sənayesində diversifikasiyaya, yəni müxtəlif məhsulların istehsalına böyük önəm verilmişdir. Belə ki, 1969-1982-ci illərdə yalnız "Üzvi sintez" zavodunda 17 müxtəlif təyinatlı istehsal sahələri yaradılmışdır. Yeni yaradılmış istehsal obyektlərinə butil kauçuku, izobutilen və poliizobutilen, butadien, butadien-stirol, butadien-nitril lateks və kauçukları, polietilen və s. istehsallarını aid etmək olar [2-4]. Bu addımların ölkənin iqtisadiyyatını çeşitləndirmək və sənaye sahəsində tərəqqini təmin etmək üçün böyük faydası olmuşdur.

Kimya sənayesinə yatırım və innovativ texnologiyaların tətbiqi sayəsində, ölkənin kimya sahəsində beynəlxalq standartlara uyğunluq səviyyəsi artmış və beynəlxalq bazarlara daxil olmaq imkanları genişlənmişdir. İnnovasiya texnologiyaların istifadəsi, kimya sahəsində daha effektiv məhsul istehsalına imkan vermiş və texnoloji üsulların tətbiqi sayəsində istehsal effektivliyi artmışdır. 2001-ci ildə o dövrün ən müasir texnologiyalarından olan Buxar-generator kompleksi işə

salınaraq kimyəvi məhsulların istehsalının fasiləsizliyini təmin etmiş və bununla məhsulların maya dəyərini aşağı salmışdır [5]. Bu həm də kimya sənayesinin rekord effektivlik və keyfiyyət standartlarına nail olmasına gətirmişdir.

Heydər Əliyevin liderliyi dövründə ölkədəki təhsil sisteminin dəyişdirilməsi və inkişaf etdirilməsinə çox diqqət ayrılmışdır. Bu, kimya sahəsində müstəqil və peşəkar mütəxəssislərin yetişdirilməsi üçün də əsaslı bir zəmin yaratmışdır. Kimya sahəsindəki təhsil müəssisələrinin və universitetlərin inkişafı sayəsində, kimya mütəxəssisləri müasir bilik və texnologiyalarla təmin edilmiş və sənaye sahəsində tərəqqi üçün hazır imkanlar yaradılmışdır. Təhsil sistemindəki inkişaf kimya sahəsində beynəlxalq əməkdaşlığın artmasına və innovativ texnologiyaların ölkədə yerləşdirilməsinə də təkan vermişdir. Bu fikirləri həm də respublikanın elmi-tədqiqat mərkəzlərinə, xüsusilə AMEA-nın kimya yönümlü institutlarına da aid etmək olar. Elm mərkəzlərində aparılan praktik əhəmiyyət daşıyan elmi-tədqiqat işlərində əldə olunan nəticələr kimya sənaye müəssisələrində tətbiq edilmiş və bu iqtisadiyyatın inkişafına öz ciddi təsirini göstərmişdir.

Heydər Əliyevin dövründə həyata keçirilən siyasi, iqtisadi və təhsil siyasətləri, kimya sənayesinin inkişafına əsaslı bir təsiri olmuşdur. Dövrün siyasi stabilliyi, ölkənin sənaye sahəsində tərəqqi və yeni investisiyaların cəlb edilməsində əhəmiyyətli bir rola sahib olmuşdur. Heydər Əliyevin iqtisadi siyasətləri, kimya sahəsində müasir beynəlxalq standartlara uyğunluğu təmin edən və inkişaf üçün uyğun şərait yaradan strateji tərəqqiləri dəstəkləmişdir.

Heydər Əliyev dövründə alınan strateji qərarlar, kimya sahəsində diversifikasiya və alternativ enerji istiqamətləri üçün uyğun şəraitin yaradılmasına nail olmuşdur. Kimya sənayesində beynəlxalq standartlara uyğunluq, innovasiya texnologiyalara yatırım və energetik təhlükəsizlik üçün alınan strateji qərarlar bu sahənin tərəqqisini artırmış və sənaye sahəsində özünü müstəqil və effektiv bir şəkildə göstərməsini təmin etmişdir. Heydər Əliyevin liderliyi altında kimya sahəsində tərəqqi üçün inkişaf etdirilən sahələr, ölkənin sənaye sahəsində daha konkret və müstəqil bir iqtisadi mövqe qazanmasına kömək etmişdir.

Zaman Heydər Əliyevin dövründə kimya sənayesinin inkişaf etdirilməsi ilə bağlı qəbul edilən strateji qərarların doğruluğunu sübut etdi. Belə ki, yeni texnologiyaların tətbiqi ilə 2013-cü ildə qurulmuş metanol zavodunun istehsal etdiyi məhsulun 97 %-i, 2019-cu ildə istifadəyə verilmiş karbamid zavodunun məhsulunun 70 %-ə qədəri xarici bazarlara ixrac edilmişdir. Bu misalların sayını genişləndirmək də olar.

**Nəticələr**

Heydər Əliyevin dövründə Azərbaycanın kimya sənayesi ciddi inkişaf etdirilmiş və peşəkarlıq sahəsində mühüm addımlar atılmışdır. Bu dövrdə alınan əsas nəticələr aşağıdakılardır:

Kimya sənayesinin milli mülkiyyətləşdirilməsi – Heydər Əliyevin liderliyi altında, kimya sənayesində milli özəlləşdirmə üçün uyğun strateji addımlar atılmış və bu da peşəkar mütəxəssislərin yetişdirilməsinə öz müsbət təsirini göstərmişdir.

Diversifikasiya və alternativ enerji istiqamətləri – kimya sahəsində diversifikasiya strategiyasının tətbiq edilməsi və alternativ enerji istiqamətləri üzrə addımların atılması, ölkənin energetik təhlükəsizliyini artırmağa və iqtisadiyyatın çeşitlənməsinə nail olmağa kömək etmişdir.

Beynəlxalq standartlara uyğunluq və innovativ texnologiyalara yatırım: kimya sənayesində müasir beynəlxalq standartlara uyğunluq, innovativ texnologiyalara yatırım və inkişaf sayəsində ölkənin beynəlxalq arenada konkurentliyini artırmağa nail olunmuşdur.

İş yerlərinin yaradılması və əlavə fəaliyyətlərin inkişafı – kimya sənayesindəki tərəqqi, iş yerlərinin yaradılmasını və əlavə fəaliyyətlərin inkişafını təmin edərək ölkədəki iş imkanlarını artırmış və sosial-iqtisadi səviyyəni yüksəltmişdir.

Yerli resursların daha effektiv istifadəsi – kimya sənayesinin dəyərləndirilməsi, yerli resursların daha effektiv və keyfiyyətli istifadə edilməsinə nail olmağa kömək edir və bu da iqtisadiyyatın inkişafına pozitiv təsir edir.

Gələcək iqtisadi planlarda kimya sahəsində tərəqqinin davam etdirilməsi, ölkənin sənaye sahəsində daha müstəqil, diversifikasiyalı və beynəlxalq bazarlarda rəqabətli bir mövqe qazanmasına imkan verəcək və Azərbaycanın sosial-iqtisadi inkişafına daha da güclü bir dəstək

təmin edəcəkdir. Bu səbəbdən kimya sahəsində tərəqqi üçün inkişaf planlarının daimi olaraq davam etdirilməsi və peşəkar mütəxəssislərin yetişdirilməsinə dəstək verilməsi əhəmiyyətli hesab olunur.

**Şərhlər**

Heydər Əliyevin liderliyindəki dövrün Azərbaycanın kimya sənayesindəki inkişafına və tərəqqisinə təsiri haqqında qabaqcıl fikirlər:

Heydər Əliyevin liderliyindəki dövr Azərbaycanın kimya sənayesi üçün dərin dəyişikliklər və əhəmiyyətli tərəqqi dövrü oldu. Kimya sahəsində qazanılan nailiyyətlər və inkişaf üçün atılan addımlar, ölkənin iqtisadi inkişafına təsirli və qabaqcıl dəyişikliklər gətirdi.

Heydər Əliyevin liderliyi altında kimya sənayesinin modernləşdirilməsi üçün "Açıq qapı" siyasəti tətbiq edildi. Bu siyasət beynəlxalq şirkətləri ölkəyə dəvət edərək, ölkənin kimya sahəsində daha çox investisiya almasına və peşəkar mütəxəssislərin yetişdirilməsinə nail oldu. Bu addımlar kimya sahəsindəki texniki bacarıqların artmasına və beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə imkan verdi.

Neftin iqtisadiyyatdakı payı ilə yanaşı, kimya sənayesi də ölkənin iqtisadiyyatında önəmli bir yer tutdu. Kimya sənayesi neftdən təyinatlı məhsulların istehsalı, kənd təsərrüfatı, tikinti materialları və digər sənaye sahələrinin də inkişafına dəstək oldu. Bu, ölkənin iqtisadi diversifikasiyasına və energetik təhlükəsizliyin artırılmasına əhəmiyyətli bir təsir göstərdi.

Heydər Əliyevin liderliyi altında kimya sahəsində investisiya qoyuluşu və innovativ texnologiyaların tətbiqi dəstəkləndi. Bu addımlar kimya sənayesinin rəqabətliyini artırır və ölkənin beynəlxalq bazarlarda daha güclü və tanınan bir şəkildə təmsil olunmasına imkan yaradırdı.

**Növbəti addımlar və perspektivli iqtisadi planlar**

Kimya sənayesindəki tərəqqi və inkişafın davamı üçün birinci addım, peşəkar mütəxəssislərin yetişdirilməsinə olan təminatın gücləndirilməsidir. Texniki universitetlərin, təhsil mərkəzlərinin və sənaye sahəsindəki təhsil müəssisələrinin təchiz olunması və müasir texnologiyaların tədrisinə daha çox diqqət verilməlidir.

Kimya sahəsində müasir texnologiyalara yatırımın davam etdirilməsi üçün dövlət tərəfindən sənaye sahəsindəki maliyyə dəstəyi artırılmalıdır. İnvestisiya qoyuluşu və innovasiya üçün maliyyə resurslarının saxlanması innovativ texnologiyalara yatırımın güclənib tərəqqinin davam etdirilməsinə imkan yaradacaqdır.

Sənaye sahəsindəki təşkilatların və texniki universitetlərin iş birliyində tədqiqat və inkişafın prioritet istiqamətlərini müəyyənləşdirməli və bu sahələrə innovativ texnologiyaların tətbiqi üçün də maliyyə resursları ayrılmalıdır.

İnnovativ texnologiyalara yatırım üçün xüsusi təşkilatlar və fondlar təsis edilməlidir. Bu təşkilatlar, innovativ layihələrin inkişafını dəstəkləmək, onların patentləşdirilməsi və kommersiyalaşdırılması üçün lazım olan maliyyə dəstəyini təmin etməlidir.

Beynəlxalq təcrübə və əməkdaşlıqdan istifadə edilməlidir. Kimya sahəsində innovativ texnologiyalara yatırım üçün beynəlxalq şirkətlərlə, universitetlərlə və tədqiqat mərkəzləri ilə əməkdaşlıq edilməlidir. Bu, yeni ideyaların gələcək üçün yaradılması və inkişafın sürətləndirilməsi üçün böyük faydası olacaqdır.

Kimya sənayesində diversifikasiya üçün, inkişaf etdiriləcək perspektivli sahələr və məhsullar müəyyənləşdirilməlidir. Kimya sənayesində yeni tədqiqatlar və istehsal sahələri üçün peşəkarlara və tədqiqat mərkəzlərinə dəstək verilməlidir.

Alternativ enerji istiqamətləri üzrə addımların reallaşması üçün, energetika və alternativ enerjidən istifadə üzrə tərəfdaşlıq tədbirlərinin artırılması vacibdir. Bərpa olunan enerjidən istifadə ilə bağlı tədqiqatlar enerji tədarükündə asılılığı azaltmağa və ekoloji sahədə daha sürətli inkişafa nail olmağa kömək edəcəkdir.

Bu addımlar, kimya sənayesinin davam edən tərəqqisinə və inkişafının sürətlənməsinə və Azərbaycanın iqtisadi inkişafında daha da möhkəmlənməsinə imkan yaradacaq. Innovativ texnologiyalara yatırımın davam etdirilməsi və diversifikasiya ilə bağlı perspektivli iqtisadi planların tətbiqi, ölkənin iqtisadiyyatının çeşidlənməsinə, texnoloji tərəqqiyə və energetik təhlükəsizliyin artırılmasına kömək edəcək və sosial-iqtisadi inkişafına dəstək olacaq. Qeyd olunan

bu işlər, ölkənin sənaye sahəsində daha güclü, müstəqil və beynəlxalq arenada daha əlverişli bir mövqe qazanmasını təmin edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ. Hüseynoa. − Bakı: Təhsil, − 2004, −472 s.
2. Sadayoğlu P. Azərbaycanın kimya sənayesi öz yüksəliş dövrünü yaşayır, 23.01.2010. [Elektron resurs] URL: https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e5157_az.html
3. Sadıqov F. Heydər Əliyev və Azərbaycanın kimya sənayesi / F.Sadıqov. − Bakı: Təhsil, −2005, − 145 s. [Elektron resurs] URL: http://anl.az/el/s/228488.pdf
4. Babayev M. Ulu öndər Heydər Əliyevin Azərbaycanın neft-kimya sənayesinin inkişafında və yenidən qurulmasında rolu, 25.04.2012. [Elektron resurs] URL: https://www.yeniazerbaycan.com/Gundem_e9608_az.html
5. Tağıyev D. Heydər Əliyev və Azərbaycan kimya sənayesi, 16.01.2023. [Elektron resurs] URL: https://science.gov.az/az/news/open/23527

## INNOVATION AND PROGRESS IN THE CHEMICAL INDUSTRY OF AZERBAIJAN DURING HEYDAR ALIYEV

**[1,2]A.Aslanov, [1,2]M.Mehdiyev, [1,2]P.Safarova**
[1]doctor of philosophy in chemistry, associate professor
[2]Mingachevir State University

***Abstract:*** *The main purpose of the article is to describe in detail the progress, innovations and development experienced in the chemical industry of Azerbaijan during Heydar Aliyev's time and to help the readers to follow the economic and industrial achievements of the time. In the article, the importance of the steps taken in the chemical industry as well as the oil and energy sector under the leadership of Heydar Aliyev, the current and future importance of the chemical field in the economic development of the period, the role of international cooperation and the next steps were considered.*
***Keywords****: Heydar Aliyev, oil strategy, chemical industry, production sectors, economic policy, progress, investment in innovative technologies, international cooperation*

## ИННОВАЦИИ И ПРОГРЕСС В ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА ПРИ ГЕЙДАРЕ АЛИЕВЕ

**[1,2]А.Д.Асланов, [1,2]М.С.Мехтиев, [1,2]П.С.Сафарова**
[1]доктор философии по химии, доцент
[2]Мингячевирский государственный университет

***Резюме****: Основная цель статьи состоит в том, чтобы подробно описать прогресс, инновации и развитие химической промышленности Азербайджана во времена Гейдара Алиева и помочь читателям следить за экономическими и промышленными достижениями того времени. В статье раскрывается значение шагов, предпринятых в химической промышленности, а также в нефтегазовом секторе под руководством Гейдара Алиева, нынешнее и будущее значение химической отрасли в экономическом развитии периода, роль международного сотрудничество и последующие шаги.*

***Ключевые слова:*** *Гейдар Алиев, нефтяная стратегия, химическая промышленность, сферы производства, экономическая политика, прогресс, инвестиции в инновационные технологии, международное сотрудничество*

**Elmi redaktor: k.e.d., prof. E.Məmmədov**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 19.09.2023**
**Çapa qəbul edilib: 27.09.2023**

UOT [002:004]:316.774; 338; 658; 316.37

# AZƏRBAYCANDA İNFORMASİYA TEXNOLOGİYALARI SƏNAYESİ: HEYDƏR ƏLİYEV SİYASƏTİNİN İNNOVATİV İNKİŞAFA TƏSİRİ

[1,4]**Aidə Mübariz qızı Mustafayeva,** [2,4]**Elmira Nəriman qızı İsrafilova,**
[3,4]**Elnur Oktay oğlu Xəlilov**
[1]texnika üzrə fəlsəfə doktoru
aida.mustafayeva@mdu.edu.az
[2]texnika üzrə fəlsəfə doktoru, dosent
elmira.israfilova@mdu.edu.az
[3]elnur.khalilov@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Son onilliklərdə bir çox ölkələr informasiya texnologiyalarının (İT) inkişafına böyük əhəmiyyət verir, onu davamlı iqtisadi və sosial artıma nail olmaq üçün əsas amil hesab edirlər. Bu kontekstdə Azərbaycan İT sektoruna xüsusi sərmayə qoyan və bu sahədə mühüm uğurlar qazanan ölkə kimi seçilir. Azərbaycan İT sənayesinin innovativ inkişafına təsir edən əsas amillərdən biri Heydər Əliyevin həyata keçirdiyi uğurlu və aparıcı siyasəti olmuşdur. Məqalədə bu siyasətin informasiya texnologiyaları ilə bağlı aspektləri təhlil olunmuşdur.*

***Açar sözlər****: informasiya texnologiyaları, İT həlləri, rabitə və informasiya texnologiyaları sektoru*

## Giriş

Hazırda informasiya texnologiyaları (İT) sahəsində uğurlu fəaliyyət mütəxəssislərin, şirkətlərin və hətta dövlətlərin davamlı, dayanıqlı gələcəyinin təmin edilməsində əsas göstəricilərdən biri hesab olunur. Bu, sürətli elmi-texniki tərəqqi, rəqəmsal iqtisadiyyatın inkişafı, əmək bazarının genişlənməsi, qlobal kommunikasiya, innovasiya və tədqiqatlar kimi bir sıra amillərlə bağlıdır. Bu gün informasiya texnologiyaları sənayesi sürətlə inkişaf etməyə davam edir və bu, yeni ideyalar, innovasiyalar və texnoloji tərəqqi üçün böyük imkanlar yaradır. Getdikcə daha çox şirkət və təşkilatlar biznes proseslərinin optimallaşdırılması və səmərəliliyinin artırılması məqsədilə İT həllərinə müraciət edir. İT həllərindən istifadə edən şirkətlər rəqabət üstünlüyü əldə etməklə, bazar dəyişikliklərinə dinamik şəkildə uyğunlaşır. İnformasiya texnologiyaları qlobal əlaqəni və verilənlər mübadiləsini sürətləndirən 5G, Qlobal Peyk Rabitə Sistemləri, IoT və IIoT texnologiyaları, Cloud Computing, Süni intellekt, Blokçeyn, Virtual Reallıq və Artırılmış Reallıq texnologiyaları, sosial mediya resursları, bio və nano texnologiyaları, DATA analitika, kibertəhlükəsizlik və s. kimi müxtəlif sahələrdə elmi tədqiqatların və texnoloji innovasiyaların inkişafına fəal təsir edir. Bütün bu amillər informasiya texnologiyalarını şəxsi və peşəkar inkişaf üçün cəlbedici sahəyə çevirir. İT layihələrində uğurlu iştirak və bu sahədə səriştələrin artırılması perspektivli gələcəyi təmin edir [3-5].

Dünyanın sürətli şəkildə informasiya çağına qədəm qoyduğu bu dövrün reallıqları Azərbaycan üçün də keçərlidir. İnformasiya texnologiyaları sahəsinin Azərbaycanda inkişafı Ulu öndər, tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın inkişaf tarixinin son yarım əsrlik dövrünə nəzər salsaq, Heydər Əliyevin müdrik siyasəti və gələcəyə istiqamətləndirilmiş, davamlı və dayanıqlı inkişafını təmin edən, elm və texnologiyaların inkişafını sürətləndirən informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun inkişafının təməlinin qoyulması hələ ötən əsrin 70-ci illərinə təsadüf etdiyini görərik.

**Heydər Əliyev siyasəti və İKT**

Heydər Əliyev demişdir: "İnformasiya texnologiyaları sektorunun inkişafı təkcə texniki tərəqqi deyil, həm də sosial-iqtisadi inkişafın təşviqi və vətəndaşların rifahının yüksəldilməsi üçün əsas amildir". 1970-80-ci illərdə Heydər Əliyevin Azərbaycanın elm, texnika və təhsilinin yüksəlişinə verdiyi töhfələr aşağıdakı istiqamətlərdə öz əksini tapmışdır:

- Elm və texnologiya sahəsində dəstək.
- Elmi müəssisələrin yaradılması.
- Müasir texnologiyaların tətbiqi.
- Sənayenin inkişafı.
- Təhsilin inkişafı.

Heydər Əliyev Azərbaycanda elektronika, avtomatlaşdırma və hesablama texnikasının inkişafına dəstək üçün bu sahə üzrə istedadlı alim və mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirmişdir. Onun dəstəyi ilə müxtəlif elmi müəssisələr, məsələn, İdarəetmə Sistemləri İnstitutu (keçmiş Kibernetika İnstitutu), Kosmik Tədqiqatlar Mərkəzi, İnformatika və Rabitə Mərkəzi, o cümlədən neft-qaz avtomatlaşdırma kompleksləri və digər elmi-tədqiqat mərkəzləri yaradılmışdır. Bununla yanaşı, müxtəlif fəaliyyət sahələrində, o cümlədən istehsalatda, elmdə, təhsildə müasir kompüterlərin, kompüter şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqinə təkan verdi. Elektron avadanlıqları zavodlarının tikilməsi isə yeni iş yerlərinin açılmasına və sənayenin inkişafına öz töhfəsini vermişdir. Heydər Əliyev İKT sahəsində ali təhsilin inkişafına təkan vermək üçün müxtəlif təhsil müəssisələrində bu sahə üzrə mütəxəssislərin hazırlanması üçün maddi-texniki baza yaratdı. Beləliklə, indi bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən "universitet-sənaye-dövlət" üçqat spiral modelinin tətbiqini məhz həmin dövrdə Heydər Əliyev Azərbaycanda həyata keçirdi [1-2].

Müstəqilliyin ilk illərində ölkəmizin düçar olduğu gərgin vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev, hətta ağır şəraitdə belə, İKT-nin tətbiqinə xüsusi diqqət yetirməyə imkan tapır və bu sahədə inkişafa nail olmaq üçün daim səylər göstərirdi. Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin, "Bakcell" və "Azərcell" birgə müəssisələrinin yaradılması ilə ölkəmizdə mobil rabitənin inkişafının əsası qoyulmuşdu. İlk beynəlxalq telefon stansiyasının yaradılması Heydər Əliyevin bu istiqamətdə atdığı vacib addımlar idi. Azərbaycanda rabitə sektoruna ilk investisiyaların cəlb edilməsi də Ümummilli Liderin gərgin əməyinin nəticəsində mümkün olmuşdur. Ölkəmizin radio-televiziya yayımının müasir tələblərə uyğun təşkili, milli televiziya proqramının süni peyk vasitəsilə yayımlanmağa başlanılması, məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

2003-cü il fevral ayının 17-də Ümummilli lider Heydər Əliyev tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ölkədə İT sahəsinin inkişafında mühüm sıçrayış, başqa sözlə, inqilab oldu. Bu strategiya Azərbaycanda İT infrastrukturunun və texnologiyalarının sürətli inkişafına güclü təkan verdi. Belə bir qlobal strategiyanın qəbulu Azərbaycan hökumətinin İKT sahəsinə diqqətini və informasiya texnologiyaları sahəsində regionda aparıcı oyunçu olmaq istəyini vurğuladı. Bu, ölkənin İT potensialının gücləndirilməsi, investisiyaların cəlb edilməsi və sektorda innovasiyaların stimullaşdırılması istiqamətində mühüm addım idi. Bu səylərin nəticələri sonrakı illərdə özünü büruzə verdi. Belə ki, Azərbaycanda İT sektorunun dinamik inkişaf etdirilməsi, çoxsaylı sərmayələrin cəlb edilməsi, bu sahədə startaplar və şirkətlər üçün əlverişli şərait yaratdı. Texnologiya parkları, inkubatorlar və biznesə dəstək strukturları innovasiyalar və İT layihələrinin inkişafı üçün birbaşa katalizatora çevrildi.

Bu gün Azərbaycan, həqiqətən də, İKT sahəsində daha da genişlənmək üçün böyük potensiala malik olan regionun ən dinamik inkişaf edən ölkələrindən biridir. Bu, ölkənin ötən illər ərzində

həyata keçirdiyi uğurlu strategiyaları, eləcə də İT-nin inkişafı sahəsində qarşıya qoyulan məqsəd və vəzifələrin səriştəli idarə olunmasını və həyata keçirilməsini əks etdirir.

İnformasiya texnologiyaları sektoru innovasiyalara, biznesin inkişafına və ölkənin qlobal iqtisadiyyatda rəqabət qabiliyyətinin artırılmasına töhfə verən əsas sənaye olmaqda davam edir. Bu, Heydər Əliyevin və onun ideyalarının davamçılarının rəhbərliyi ilə həyata keçirilən səmərəli siyasətin və islahatların məziyyətidir.

Heydər Əliyevin və onun uğurlu və layiqli davamçısı olan prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və strategiyalar bu məqsədlərə çatmaqda, ölkənin və xalqın davamlı gələcəyinin yaradılmasında mühüm rol oynamaqda davam edir. İqtisadiyyatın hər bir sektorunun davamlı inkişafına yönəlmiş siyasət İT startaplarının inkişafı, investisiyaların cəlb edilməsi və rəqəmsal iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına öz töhfəsini verib. Bu cür səylər İT şirkətlərinin, informasiya texnologiyaları sahəsində təhsil proqramlarının sayının artmasına, həmçinin İT sahəsində xidmət və məhsulların keyfiyyətinin yaxşılaşmasına səbəb olub.

Azərbaycanın dünya birliyinə və Qərb iqtisadiyyatına geniş inteqrasiyası da informasiya texnologiyaları sektorunun inkişafına təsir göstərir. Bu, dünya bazarlarına çıxış açır, qabaqcıl texnologiyaları və bilikləri cəlb edir, beynəlxalq şirkət və təşkilatlarla əməkdaşlığı gücləndirir. Nəhəng enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi də İKT sektorunun inkişafına mühüm töhfə verir. İnfrastruktur layihələri kommunikasiya texnologiyalarına çıxışın yaxşılaşdırılmasına, eləcə də istehsal prosesləri və idarəetmənin optimallaşdırılması üçün yeni həllərin və texnologiyaların inkişafına ehtiyacın yaranmasına kömək edir. Mütərəqqi təcrübənin mənimsənilməsi və bilik mübadiləsi İT sektorunun inkişafının vacib məqamlarıdır. Azərbaycan digər ölkələrlə fəal əməkdaşlıq edir, beynəlxalq proqram və təşəbbüslərdə iştirak edir ki, bu da İKT sahəsində təcrübə və bilik mübadiləsini gücləndirir.

Son 25 ildə ölkəmizin İKT sahəsində beynəlxalq əlaqələrinin genişlənməsi nəticəsində dünyanın müxtəlif dövlətləri ilə (Amerika, Avropa, Asiya, MDB ölkələri) saziş, memorandum, protokol və digər sənədlər (razılıq, qrant, proqram müqaviləsi, barışıq sazişləri), əməkdaşlıq planları, konvensiyalar, niyyət məktubları imzalanmışdır. Həmçinin, ABŞ-Azərbaycan, Azərbaycan-Türkiyə, Sloveniya-Azərbaycan, Azərbaycan-İsrail və Latviya-Azərbaycan İKT biznes forumları təşkil olunmuş, müxtəlif beynəlxalq forum, konfrans və seminarlar keçirilmişdir. Bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən çoxsaylı iştirakçılar, o cümlədən müvafiq sahələr üzrə nazirlər, beynəlxalq təşkilatların və tanınmış şirkətlərin rəhbərləri, Nobel mükafatı laureatları bir araya gələrək ölkəmizin İKT sektorunda baş verən müsbət dəyişikliklərlə əyani olaraq tanış olmuş, bu sahənin respublikamızda perspektivləri barədə Prezident İlham Əliyevin fikirlərini bilavasitə onunla görüşlərdə öyrənmişlər.

Həqiqətən də, ölkə son illərdə nəzərəçarpacaq nailiyyətlər əldə edib və müxtəlif sahələrdə, o cümlədən İKT sahəsində irəliləməkdə davam edir. Beləliklə, Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü ideya və strategiyalar İKT sahəsinin inkişafında mühüm rol oynayıb və İT sektorunun inkişafı istiqamətində həyata keçirilən strateji islahatlar bu gün ölkəmizin bu istiqamət üzrə dinamik tendensiya ilə inkişafına imkan verir. Həyata keçirilən strateji islahatlar aşağıdakı istiqamətləri əhatə edir:

1. İT infrastrukturunun yaradılması – Heydər Əliyevin rəhbərliyi ilə informasiya texnologiyalarının inkişafı üçün zəruri olan müasir infrastruktur yaradılmışdır. Buraya bütün ölkə üzrə sabit və yüksəksürətli internet bağlantısını təmin edən telekommunikasiya şəbəkəsinin qurulması və təkmilləşdirilməsi daxildir.

2. Təhsil və kadr hazırlığı – Heydər Əliyev siyasətində informasiya texnologiyaları sahəsində təhsilə və kadr hazırlığına da xüsusi diqqət yetirilmişdir. Ölkədə ixtisaslaşmış ali təhsil

müəssisələrinin və mütəxəssis hazırlığı mərkəzlərinin yaradılması ölkə daxilində istedadlı İT mütəxəssislərinin yetişdirilməsinə öz töhfəsini verib.

3. İnvestisiyaların cəlb edilməsi – dövlət dəstəyi və əlverişli investisiya mühitinin yaradılması Azərbaycanın İT sektoruna xarici investisiyaların cəlb edilməsi üçün əsas vasitələrə çevrilib. Bu, startapların, tədqiqat layihələrinin və texnoloji innovasiyaların inkişafına kömək etdi.

4. Dövlət proqramları və stimullaşdırıcı tədbirlər – Heydər Əliyevin rəhbərliyi ilə informasiya texnologiyaları sektorunun dəstəklənməsinə yönəlmiş dövlət proqramları və stimullaşdırıcı tədbirlər hazırlanıb həyata keçirilib. Bu tədbirlərə İT şirkətləri üçün güzəştlər, vergi və gömrük imtiyazları, həmçinin startap və innovativ layihələrə dəstək daxildir.

5. Nailiyyətlər və perspektivlər – Heydər Əliyevin uzaqgörən siyasətinin təsiri ilə Azərbaycanın informasiya texnologiyaları sektoru mühüm nailiyyətlər əldə edib. Bu gün ölkəmiz proqram təminatı hazırlayan, tədqiqat aparan və qlobal bazara təqdim edən İT şirkətləri ilə tanınır. Ölkənin İT ixracı durmadan artır ki, bu da iqtisadiyyatın sabitliyinə öz töhfəsini verir.

6. İnnovasiya ekosisteminin yaradılması və İT sektoruna dəstək – Azərbaycan informasiya texnologiyaları sahəsində investisiya və əməkdaşlıq üçün cəlbedici yerə çevirib. Heydər Əliyevin informasiya texnologiyaları sahəsinin inkişafı ilə bağlı uzunmüddətli siyasəti ölkə iqtisadiyyatına və onun gələcəyinə müsbət təsir göstərmişdir.

Azərbaycanda İT sənayesinin davamlı inkişafının qurulmasında Heydər Əliyevin rolu danılmazdır. Onun infrastrukturun qurulması, kadr hazırlığı, investisiyaların cəlb edilməsi və dövlət proqramlarının hazırlanması sahəsində qətiyyətli fəaliyyəti İT sektorunun yüksəlişinin bünövrəsinə çevrilmiş və Azərbaycanın dünya miqyasında informasiya texnologiyaları sahəsindəki mövqelərinin möhkəmlənməsinə kömək etmişdir. Heydər Əliyev ideyalarının layiqli davamçısı və varisi Prezident İlham Əliyev tərəfindən bu sahənin gücləndirilməsi və genişləndirilməsinə yönəlmiş siyasəti və kompleks tədbirləri davam etdirilir. Azərbaycanın davamlı inkişafı üçün rabitə və informasiya texnologiyaları sektoru iqtisadiyyatın səmərəliliyinin artırılmasında, təhsilin, səhiyyənin, dövlət idarəçiliyinin və həyatın digər sahələrinin təkmilləşdirilməsində mühüm rol oynayır. Onlar həm də ölkəyə investisiyaların və qabaqcıl texnologiyaların cəlb edilməsinə təsir edir.

Müasir Azərbaycanın qorunub saxlanması və inkişafı bütün vətəndaşların ümumi vəzifəsidir və Prezident İlham Əliyevin bu məqsədə nail olmaq strategiyasına verdiyi dəstək ölkənin çiçəklənməsinin və davamlılığının təmin edilməsinə gətirəcək mühüm amildir. Ölkənin inkişafı üçün birgə səylər və fədakarlıq Azərbaycanı İKT sahəsində və bir çox digər sahələrdə dünyanın aparıcı dövlətlərindən birinə çevirəcək.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov Ə. Heydər Əliyev və müasir Azərbaycanın İKT siyasəti / “Azərbaycan” qəz., 2013, 3 may, № 94. s. 4

2. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (monoqrafiya) / ADPU-nun nəşriyyatı, 2009, 168 s.

3. Mustafayeva A.M., İslamova D.B., Səmədzadə M.E. Ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyası – İKT sektorunda / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Heydər Əliyev dühası və müasir Azərbaycan”, mövzusunda elmi-nəzəri konfransın materialları, Mingəçevir Dövlət Universiteti, 4-5 may 2022, s. 55-57

4. Mustafayeva A.M., Muradzadə E.A. Heydər Əliyev və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş

"Heydər Əliyev Azərbaycanın böyük uğurla reallaşdırılan iqtisadi strategiyanın banisidir" mövzusunda Respublika Elmi Konfransının materialları, Lənkəran Dövlət Universiteti, 5 may 2023

5. Mustafayeva A.M., İslamova D.B., Muradzadə E.A. Elmi əsaslara söykənən davamlı inkişaf strategiyasının müəllifi / "Heydər Əliyev – 100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda elmi-nəzəri konfransın materialları, Mingəçevir Dövlət Universiteti, 5-6 may 2023

## INFORMATION TECHNOLOGY INDUSTRY IN AZERBAIJAN: THE INFLUENCE OF HEYDAR ALIYEV'S POLICY ON INNOVATION DEVELOPMENT

**[1,3]A.Mustafayeva, [2,3]E.Israfilova, [3]E.Khalilov**
[1]doctor of philosophy in technics
[2]doctor of philosophy in technics, associate professor
[3]Mingachevir State University

***Abstract:*** *In recent decades, many countries have attached great importance to the development of information technology (IT), considering them as a key factor in achieving sustainable economic and social growth. In this context, Azerbaijan stands out as a country that makes special investments in the IT sector and achieves significant success in this area. One of the main factors that influenced the innovative development of the Azerbaijani IT industry was the successful and advanced policy pursued by Heydar Aliyev. The article analyzes aspects of this policy related to information technology.*

***Keywords:*** *information technology, IT solutions, communications and information technology sector*

## ИНДУСТРИЯ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В АЗЕРБАЙДЖАНЕ: ВЛИЯНИЕ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА НА ИННОВАЦИОННОЕ РАЗВИТИЕ

**[1,3]А.М.Мустафаева, [2,3]Э.Н.Исрафилова, [3]Э.О.Халилов**
[1]доктор философии по технике
[2]доктор философии по технике, доцент
[3]Мингячевирский государственный университет

***Резюме:*** *В последние десятилетия многие страны придают большое значение развитию информационных технологий (ИТ), рассматривая их как ключевой фактор достижения устойчивого экономического и социального роста. В этом контексте Азербайджан выделяется как страна, которая делает особые инвестиции в ИТ-сектор и достигает значительных успехов в этой области. Одним из основных факторов, повлиявших на инновационное развитие азербайджанской ИТ-отрасли, стала успешная и передовая политика, проводимая Гейдаром Алиевым. В статье анализируются аспекты этой политики, связанные с информационными технологиями.*

***Ключевые слова:*** *информационные технологии, ИТ-решения, сектор связи и информационных технологий*

**Elmi redaktor: tex.f.d., dos. V.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Ə.Əliyeva**
**Daxil olub: 25.09.2023**
**Çapa qəbul edilib: 03.10.2023**

UOT 316.37; 512.3/7; 316.37

# AZƏRBAYCANIN TƏBİİ SƏRVƏTLƏRİNİN QORUNMASI: HEYDƏR ƏLİYEV İRSİ

**Vüsalə Sahib qızı Mustafayeva**
biologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
vusala.mustafayeva@mdu.edu.az

***Xülasə:*** *Məqalədə Azərbaycanın dahi şəxsiyyəti Ulu öndər Heydər Əliyevin təbii sərvətlərimizə göstərdiyi əvəzsiz qayğı və diqqətə, atdığı siyasi və qətiyyətli addımlara, onların bu günki müstəqil ölkəmizdəki nəticələrinə toxunulmağa çalışılmışdır. Ömrünü Azərbaycanın inkişafı, tərəqqisi, xalqının rifahı və güzəranın yaxşılaşdırılması, milli dəyərlərimizin dünyada tanıldılmasına həsr edən Heydər Əliyev şəxsiyyətinin paytaxtımızda və bir çox regionlarımızda yaşıllaşdırılma, içməli su təminatı, ekologiyanın qorunması istiqamətində gördüyü işlərə yer verilmişdir.*

***Açar sözlər:*** *Talış dağları, maddi sərvətlər, ekoloji balans, Kür-Bakı su kəməri, II Kür su kəməri, Ağstafa dəryaçaları, Araz su qovşağı*

## Giriş

Dünyanın öz sahəsində böyük nüfuz qazanmış alimləri, tanınmış ekoloqları ölkəmizdə olarkən təbiətimizin nadir fauna və florasından, göz qamaşdıran füsunkarlığından vəcdə gəlmişlər. Lakin vaxtilə rus çarı II Aleksandr: “Siyasi dustaqlar üçün Bakıdan gözəl şəraiti olan yer yoxdur” – ifadəsini işlətdikdə demək istəyirdi ki, Bakıda yaşamaq elə cəza çəkməkdir. İnsanı yandırıb-yaxan isti və quraqlıq, bir yandan da o dövrdə kölgəsindən bəhrələnəcək ağac və bitki örtüyünün kasadlığı bu fikri o dövr üçün təəssüf ki, təsdiqləyirdi.

Azərbaycan xalqının böyük oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev isə rus çarının dediklərini alt-üst etdi. Abşeronu yaşıllıqlar diyarına çevirdi.

Dahi şəxsiyyət Heydər Əliyev təbiətimizin qorunmasına, daha da çiçəklənməsinə və inkişafına xüsusi əhəmiyyət vermiş, onun təbiiliyinin və toxunulmazlığının qorunmasının zəruriliyini vurğulamışdır. Heydər Əliyevin öndərliyi ilə qəbul edilmiş bütün qərarlar, qanun və sərəncamlar respublikamızın təbiətinin mühafizəsinə yönəlmişdir. Təbiətimizə zərər vuracaq hər bir addım onun tərəfindən qəzəblə qarşılanırdı: “Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız...” [1]

### Heydər Əliyevin təbiətə münasibəti – onun azərbaycançılıq ideyasının tərkib hissəsi

Ulu Öndərin zəngin təbiətimizə qarşı göstərdiyi münasibət onun azərbaycançılıq ideologiyasının tərkib hissəsi idi. Heydər Əliyev milli sərvətimiz olan təbiətimizə çox böyük dəyər vermiş və onun bütün dünyaya tanıdılması istiqamətində addımlar atmışdır. O, çıxışlarında yaşıl füsunkarlığın, inci kimi çayların gözəlliyinin, təmiz ekologiyanın insan həyatına əvəzsiz xidmət göstərdiyini və bu qiymətli dəyəri göz bəbəyi kimi qorunmağın əhəmiyyətini vurğulayırdı. O, təbiətin hər bir ünsürünün qorunub saxlanmasını, onun dirçəldilməsinin və zənginləşdirilməsinin vacibliyini qeyd edirdi.

Azərbaycanda hələ sovetlər dönəmində Lənkəran və Masallı regionlarında əhəmiyyətli “Xanbulançay” və “Viləşçay” dəryaçalarının qurulması həmin ərazilərin əkinə yararlı torpaqlarının suvarılmasında çox böyük rol oynamışdı. Belə ki, həmin dəryaçaların köməyi ilə qeyd edilən

ərazilərdə həm təbiət canlanmış, həm də yaşayış və istirahət yerlərində daha əlverişli və səmərəli su istifadəsinə imkan yaradılmışdır. Bununla yanaşı, "Şirvan", "Pirqulu", eləcə də "Talış dağları"nın yuxarı zonalarında, "İsmayıllı meşələri"ndə, "Laçın", "Qubadlı" kimi regionlarımızda qurulan dövlət qoruqları, "Tərtərçay", "Ağstafa dəryaçaları", "Araz su qovşağı", "Kür su kəməri", "Arpaçay su anbarı", "Xəzər dənizi"nin problemlərinin öyrənilməsi məhz Heydər Əliyevin öndəriliyi ilə aparılmışdır. Həmçinin paytaxtımızın və Abşeronun yaşıllaşdırılması da o dövrün görülən qabaqcıl addımları sırasındadır. [2]

Dahi şəxsiyyət hər bir respublika vətəndaşını Bakı şəhərinin yaşıllaşdırılması və təbiətin dirçəldilməsi istiqamətində fəal iştirak etməyə çağırırdı. 1971-ci ilin fevralın 5-də çıxışı zamanı o, Bakı şəhərində yaşayan 1 milyon 261 min şəxsi ağac əkmə işinə səsləmişdi. O çıxışında əgər hər bir şəxs bir ağac əkərsə, paytaxtımızıb yaşıllıqlar diyarına çevriləcəyini qeyd etmişdi. [6]

Qeyd edilməli məqamlarından bir digəri də Şıx çimərliyində "Xalqlar dostluğu" parkı qurulan zaman Ulu Öndərin birbaşa həmin işə göstərdiyi diqqət idi. O, işlərinin çoxluğuna baxmayaraq, görülən işlərin gedişati ilə birbaşa özü gələrək maraqlanırdı. [4]

Təbiətimizin hər bir sahəsində olduğu kimi meşəsalınmada da atılan addımlar və görülən tədbirlərin genişləndirilməsi bu sahənin inkişafına və dirçəldilməsinə böyük təkan olmuş, Ulu Öndərin qayğısı nəticəsində respublikada meşə bərpa tədbirləri intensiv surətdə həyata keçirilmişdi. Belə ki, 1969-1982-ci illərdə Azərbaycanda 51 min hektarlıq ərazidə meşəlik salınmışdır. Bununla yanaşı, 1989-1997-ci illər arasında ölkəmizdə 45 min hektarlıq meşə sahəsində bərpa işləri aparılmışdır. [7]

**Su ehtiyatlarının çirklənməsinin qarşısının alınmasında Heydər Əliyevin xidmətləri**

1969-cu ildən başlayaraq H.Əliyevin ekoloji siyasətinin başlıca istiqamətlərdən biri də respublikamıza mövcud olan su ehtiyatlarının çirklənməsinin qarşısının alınması istiqamətində tədbirlərin görülməsi idi. Qeyd edilənə görə, mühüm qərarlardan biri ölkənin su təchizatı məsələsi, onun inkişafı və dirçəlişi məsələsində ümummilli liderin göstərdiyi xüsusi diqqət idi. Heydər Əliyev respublikanın rəhbəri təyin olunandan sonra ilk növbədə, Abşeronun su çatışmazlığı və problemləri istiqamətində yeni addımlara və əsaslı tədbirlər planına başlanıldı. Adı çəkilən ərazidə su çatışmazlığı nəzərə alaraq, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Kür-Bakı su kəməri"nin tikintisinə başlanıldı. 1970-1971-ci illərdə su kəmərinin çəkilməsinin birinci hissəsi tamamlandı və I Kür su kəməri istifadəyə verildi. Daha sonra – 1975-1978-ci illərdə Ceyranbatan su qovşağı vasitəsilə də Abşeron yarımadasının su təchizatındakı çatışmazlıqlar tədricən aradan qaldırıldı. Bununla yanaşı, 1978-1988-ci illərdə II Kür su kəməri sistemi də ərsəyə gətirilərək, əhalinin istifadəsinə verilmişdir. Həmin illərdə Kür su kəmərlərinin tikilib başa çatdırılması yeni salınan Günəşli, Əhmədli və Hövsan yaşayış massivlərini su ilə təmin etməyə imkan verdi. [5]

Heydər Əliyevin "Bakını yaşıllıqlar diyarına çevirək" çağırışı və təşəbbüsü nəticəsində Bakı şəhərində parkların, nadir ağacların olduğu bağların, xiyabanların və digər yaşıl ərazilərin salınması su təchizatında böyük irəlləyişlərə səbəb oldu. Nümunə olaraq qeyd edə bilərik ki, 1970-ci ilə qədər Bakı şəhərində 3 min hektara yaxın yaşıllıq sahəsi mövcud idisə, Heydər Əliyevin hakimiyyətinin 1969-1982-ci illərində yaşıllıq əraziləri 3 mindən 17 min hektara kimi çatdırılmışdır. Eyni zamanda, 1969-1982-ci illərdə ölkə ərazisində eroziyaya məruz qalmış və istifadədən sonra yararsız hala düşmüş torpaqlarda və "Xəzərsahili" qumluqlarda 68,1 min hektar sahədə bərpaedici və qoruyucu meşə salınması həyata keçirilmişdir. [6]

**Nəticə**

Dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin həm Sovet Azərbaycanında, həm də müstəqil Azərbaycanda ekoloji istiqamətdə görülən tədbirlərə, əhəmiyyətli işlərə diqqət yetirdikdə aydın olur ki, onun həmin sahədə fəaliyyətinin əsas hədəfi gələcək nəsillərin mədəni səviyyəsini, ölkə həyatı və gələcəyin qorunub saxlanılmasının və inkişafının təbliğidir. Bu gün respublika prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin miras qoyduğu ekoloji sahədəki arzu və məqsədlərini qətiyyətli şəkildə davam etdirirlər. Bu xalqın təmiz və zəngin təbiətimizə daha inamlı baxmasına gətirib çıxarır. Azərbaycanımızın incisi Qarabağın təbiətinin qorunması istiqamətində son 3 ildə atılan addımlar və tədbirlərdə bu silsilədəndir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bağırov H. Müasir Azərbaycanın balanslaşdırılmış davamlı ekoloji inkişaf strategiyası / "Xalq qəzeti", 2015, 9 may, s. 6
2. Hüseynov B. Azərbaycan təbiəti: dünən, bu gün, sabah. Bakı: Vətənoğlu, 2015, 495 s.
3. Hüseynov B. Heydər Əliyev və Azərbaycan təbiəti. Bakı: Vətənoğlu, 2023, 468 s.
4. Cavadov X. Ulu Öndərin təbiət sevgisi və ona qayğısı / "Xalq qəzeti", 2023, 18 iyun, s. 5
5. Məmmədova S. Müstəqil Azərbaycan dövlətinin ekoloji siyasətinin məzmunu və reallaşması istiqamətləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, № 4, Bakı, 2016, s. 124-138
6. [Elektron resurs] URL: http:// www.eco.gov.az
7. [Elektron resurs] URL: https://www.baki-xeber.com/sosial/166506.html

## PROTECTION OF NATURAL RESOURCES OF AZERBAIJAN: HEYDAR ALIYEV'S LEGACY

**V.Mustafayeva**
doctor of philosophy in biology
Mingachevir State University

***Astract:*** *The article attempts to touch upon the invaluable care and attention paid to our natural resources by the great leader Heydar Aliyev, the great personality of Azerbaijan, the political and decisive steps he took and their results in today's independent country. The works of Heydar Aliyev, who devoted his life to development, progress, the well-being of the people and the improvement of their lives, the recognition of our national values in the world, in the direction of planting trees, providing drinking water, protecting the environment in our capital and in many regions.*

***Keywords:*** *Talysh mountains, material resources, ecological balance, Kura-Baku aqueduct, II Kura aqueduct, Aghstafa lakes, Araz junction*

## ОХРАНА ПРИРОДНЫХ РЕСУРСОВ АЗЕРБАЙДЖАНА: НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА

**В.С.Мустафаева**
доктор филофофии по биологии
Мингячевирский государственный университет

***Резюме:*** *В статье предпринята попытка затронуть неоценимую заботу и внимание, уделяемое нашим природным богатствам великим лидером Гейдаром Алиевым, великой личностью Азербайджана, предпринятые им политические и решительные шаги и их результаты в сегодняшней независимой стране. Труды Гейдара Алиева, посвятившего свою жизнь развитию, прогрессу, благосостоянию народа и улучшению его жизни, признанию наших национальных ценностей в мире, в направлении озеленения, обеспечения питьевой водой, защита экологии в нашей столице и во многих регионах.*

***Ключевые слова:*** *Талышские горы, материальные ресурсы, экологический баланс, акведук Кура-Баку, акведук II Кура, Агстафинские озера, Аракский узел*

**Elmi redaktor: k.f.d., dos. M.Mehdiyev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Ə.Əliyeva**
**Daxil olub: 26.09.2023**
**Çapa qəbul edilib: 03.10.2023**

**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UOT 327; 930.22; 316.37

# AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN DÜSTURU: "BİR MİLLƏT – İKİ DÖVLƏT"

**Esmira Hilal qızı Cəfərova**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
esmira.ceferova@mdu.edu.az

***Xülasə:*** *Məqalədə dahi şəxsiyyət Heydər Əliyevin heç vaxt aktuallığını itirməyən, bütün dövrlər üçün keçərli olan "Bir millət-iki dövlət" kəlamının ictimai ideyaların məzmununda və inqilabi təfəkkürün inkişafında köklü dəyişikliklərə səbəb olmasından bəhs edilir. Yazıda bildirilir ki, belə formul Azərbaycanla Türkiyə arasında minilliklər ərzində mövcud olan çox güclü bağlılıqların əhəmiyyətini və perspektivlərini müəyyən edir. Bu lakonik ifadənin arxasında tarixin çərxini Türkiyənin və Azərbaycanın xeyirinə dəyişmiş dərin bir fəlsəfə durur. Yəni bu yalnız milli istiqlalımızın rəmzi deyil, həm də xalqlarımızın həyat və yaşam tərzi kimi qəbul edilir. Heydər Əliyevin bu müdrik kəlamı bir ölkə sərhədlərini aşaraq qloballaşmış, dünya dövlətlərinin və xalqlarının diqqətini müştərək tarixi və siyasi taleyi olan qardaş xalqlara, türk və müsəlman birliyinə və həmrəyliyinə cəlb etmişdir.*

*Müəllifin fikrincə, bu ideya türklərin və müsəlmanların hansısa konkret və hipotetik düşmənə qarşı səfərbərliyini və başqa dünyalara müxalifət, yaxud cəbhə yaratmasını nəzərdə tutmur. Bir millət, iki dövlət ideyası dilindən, dinindən, milli və irqi mənsubiyyətindən asılı olmayaraq sülhə, qardaşlığa və qarşılıqlı yardıma bir çağırışdır. İdeyanın özəyini, onun sarsılmaz sütunlarını isə Türkiyə-Azərbaycan tandemi təşkil edir.*

***Açar sözlər:*** *dahi şəxsiyyət Heydər Əliyev, "Bir millət – iki dövlət" düsturu, türk-müsəlman birliyi, Türkiyə-Azərbaycan tandemi, türkçülük ideyalarının intibahı, Şuşa Bəyannaməsi*

## Giriş

Azərbaycanın müasir milli tarixində elə bir sahə, elə bir istiqamət və elə bir ideya yoxdur ki, o, millətimizin yenilməz və vüqarlı övladı Heydər Əliyevin adı və mütərəqqi əməlləri ilə bağlı olmasın. Heydər Əliyev zamanın ruhunu çox incəliklə duyan, hadisələrin gərdişini əvvəlcədən görməyi bacaran, dostları düşmənlərdən ustalıqla ayırmaq qabiliyyəti olan unukal şəxsiyyət idi. O, Azərbaycan insanının etnik-tarixi və ruhani-mədəni bağlılığının istiqamətlərini, onun gələcək taleyinin, həyat strategiyasının, milli doktrinasının və dünyaya açılan yollarının kiminlə bağlı olacağını qüsursuz şəkildə müəyyən etmişdi. Ulu Öndər taleyüklü bu məsələlərin hər biri haqda dərhal milli devizə, həyat kredosuna və fəlsəfi ideyaya çevrilən, bununla da bütün dövrlərə görə aktual olan müdrik fikirlər söyləmişdi. Bu fikirlərin arxasında isə tarixdən yenilməz güc alan, strateji gələcəyin konturlarını müəyyən edən və insanlığa örnək olan milli insan faktorunun ən yüksək məqama çatmış nümunəsi dururdu.

### "Bir millət-iki dövlət" düsturu və onun əhəmiyyəti

Heydər Əliyevin müdrik fikirləri zamanından və məkanından asılı olmayaraq heç vaxt aktuallığını itirmir. Bu fikirlər mövcud situasiyanı köklü şəkildə dəyişir, ictimai ideyaların məzmununda yeniliklər edərək, təfəkkürdə inqilaba səbəb olur və konseptual xarakter daşımağa başlayırdı. Dahiyanə şəkildə deyilmiş belə fikirlərdən biri də Azərbaycanla Türkiyə arasında minilliklər ərzində mövcud olan sarsılmaz bağların, möhkəm əlaqələrin əhəmiyyətini və perspektivlərini müəyyən edən "Bir millət – iki dövlət" sözləridir. Bu gün Azərbaycanla Türkiyənin

müştərək strategiyasına, özündə əbədi həmrəyliyi, qardaşlığı, qarşılıqlı yardımı və fədakarlığı nəzərdə tutan qətnaməyə, bütün maneələri və qapıları açmağa qadir olan düstura çevrilmiş bu lakonik ifadənin arxasında tarixin çərxini Türkiyənin və Azərbaycanın xeyirinə dəyişmiş dərin bir fəlsəfə durur. Bu düstur təkcə bütün cəbhələrdə çiyin-çiyinə vuruşan və inkişaf edən milli istiqlalımızın rəmzi deyil, həm də xalqlarımızın həyat və yaşam tərzidir. Qeyd etmək lazımdır ki, türk xalqlarının birliyindən ciddi narahatlıq keçirən qüvvələrin məqsədyönlü fəaliyyəti nəticəsində son iki əsr ərzində Azərbaycan türkləri maddi-fiziki və milli-mənəvi parçalanma nəticəsində natamamlıq kompleksinə sürüklənmiş və onların həyatında çözülməsi heç də asan olmayan ciddi ictimai-siyasi və elmi fəlsəfi problemlərə yol açmışdır [1, s. 5-6]. Bu problemlərdən biri də xalqımızın min bir fitnə-fəsadla qardaş Türkiyədən və türk xalqından iraq salınmasıdır. Xalqlarımız arasında çəkilmiş süni sərhədləri XX yüilliyin ikinci yarısında, ilk dəfə, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev sındırdı.

Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı olan, doğma xalqının və vətəninin rifahını və səadətini planetar tərəqqi kontekstində görməyi arzu edən böyük şəxsiyyət və dünya insanı idi. Belə şəxsiyyətlər təkcə təmsil etdiyi toplumun taleyi haqqında deyil, həm də qlobal sosiumun rifahı və gələcəyi haqqında düşünür. Heydər Əliyevin dühası və əməlləri bir ölkə sərhədlərini aşaraq qloballaşırdı. O, müştərək tarixi və siyasi taleyi olan qardaş xalqlara, türk və müsəlman dünyasının birliyinə və həmrəyliyinə xüsusi diqqət ayırırdı. Lakin Heydər Əliyevin tərənnüm etdiyi türk-müsəlman birliyi və həmrəyliyi ideyası türklərin və müsəlmanların hansısa konkret və hipotetik düşmənə qarşı səfərbərliyini və başqa dünyalara müxalifət, yaxud cəbhə yaratmasını nəzərdə tutmurdu. Bu ideya dilindən, dinindən, milli və irqi mənsubiyyətindən asılı olmayaraq sülhə, qardaşlığa və qarşılıqlı yardıma bir çağırış idi. Türkiyə-Azərbaycan tandemi isə bu ideyanın özəyini, onun sarsılmaz sütunlarını, motivasiyasını və həyat mənbəyini təşkil edirdi. Lakin dünyada çoxlu sayda etnik-siyasi subyektlər var ki, Azərbaycan-Türkiyə biriliyinə nəinki qısqanclıq və qibtə ilə yanaşır, hətta dünya nizamını türkün lider olacağı məqama çatdıracaq bu birliyi özləri üçün ciddi təhlükə hesab edirlər. Onlar yaxşı başa düşürlər ki, tezliklə bu birlik elə bir yenilməz güc kəsb edəcək ki, o, “Zəngəzur qapılarını” açacaq, soydaşlarımız Qərbi Azərbaycana, öz el-obasına qayıdacaq, Türk dünyasının suveren sərhədlərini Zəncana, Qəzvinə və Həmədana qədər genişləndirəcək, Şərqlə Qərbi birləşdirən tarixi “İpək yolunu” bərpa edəcək, Uzaq Şərqdən Aralıq dənizinə qədər türk ellərinin iqtisadi, siyasi və mədəni birliyini gerçəkləşdirəcək.

Tarix boyu Azərbaycan Türkiyə üçün türk və müsəlman dünyasının “Giriş qapısı”, Türkiyə isə Azərbaycan üçün “Avropa və Qərb qapılarının açarı” rolunu oynamışdır. Bu gün artıq türk dünyasında cərəyan edən və qarşısıalınmaz proses kimi ifadə olunan hadisələr – türk ellərinin bir-birinə qovuşması, türk-müsəlman arealının çox sürətlə genişlənməsi dünyada qurulan yeni etnik-siyasi nizamın tərkib hissəsi kimi ortaya çıxır. Qədim və orta əsrlər dövründə intensiv inkişaf edən bu proses XVIII yüzillikdə siyasi səhnəyə ardıcıl və məqsədyönlü şəkildə antitürk siyasəti yürüdən, türk xalqlarının inteqrasiyasını ləngitməyi və hər vəchlə bu prosesin qarşısını almağı özünün hərbi-siyasi doktrinası elan edən mürtəce qüvvələrin çıxması və türk birliyinə qarşı səlib yürüşünə başlaması ilə bir müddət səngimişdi. XX yüzilliyin əvvəllərində Rusiya imperiyasının ərazisində türkçülük, turançılıq və pantürkizm ideyalarının növbəti intibahı prosesi başlayanda isə az qala bütün dünya bu hadisəyə qarşı silaha sarıldı. Bədii və tarixi ədəbiyyatlarda türkçülük, turançılıq, xüsusilə də pantürkizm ideyaları mürtəce ideolgiya kimi qələmə verilir və bəşəriyyət üçün çox təhlükəli amil kimi qiymətləndirilirdi. Türk etnotipinə məxsus milli ideallların təbliği və yayılması ilə məşğul olan yazıçılar və alimlər repressiyalara məruz qalırdı. [2, s. 6]

XX əsrin 60-cı illərindən başlayaraq, Heydər Əliyev Azərbaycan-Türkiyə qardaşlığını yeni etnik-siyasi və mədəni müstəviyə çıxarmaq istiqamətində fəaliyyətə başladı. Bu dövrdə türk qardaşlığının intibahı məsələsi də gündəmə gəldi. “Bir millət – iki dövlət” doktrinası da məhz o

dövrün siyasi təfəkkürünün məhsulu idi. Ulu öndər Heydər Əliyevin Şərqin siyasi fəlsəfəsində ən məşhur kəlamlarından birinə çevrilmiş "Bir millət – iki dövlət" ideyası bütün humanitar elmlərin qanunauyğunluqlarını cəmi dörd sözdə birləşdirən siyasi şahidlik kəlməsi kimi özünü təsdiq etdi və dərhal prakrikada təcəssüm olunmağa başladı. Bu gün isə "Bir millət – iki dövlət" düsturu var gücü ilə işləyən qüdrətli və yenilməz bir mexanizmə çevrilmişdir.

Göründüyü kimi, Azərbaycan-Türkiyə qardaşlığı konsepsiyası öz mənbəyini Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə mövcud olan etnik-siyasi atmosferdən götürür və Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi zamanı onun siyasi-ideoloji fəaliyyəti əsla Azərbaycanın sərhədləri ilə məhdudlaşmırdı. Onun türk birliyini və həmrəyliyini reallaşdırılmaq istiqamətində atdığı addımlar türk dünyasının genişlənməsi, inkişafı və qlobal miqyasda nüfuz faktoruna çevrilməsi işində çox dərin izlər buraxıb.

XX yüzilliyin sonlarına doğru türkçülüyün və turançılığın intibahı və davamlı inkişafı sahəsində həyata keçirdiyi möhtəşəm tədbirlər sayəsində Heydər Əliyev türk dünyasının tanınmış liderlərindən birinə çevrilmişdir. O, yaxşı bilirdi ki, təlatümlərlə dolu müasir dövrdə dövlətçiliyimizin və milli istiqlalımızın qorunub saxlanmasında türk və müsəlman dünyasının həmrəyliyi, türk ellərinin bütün sahələrdə intensiv əməkdaşlığı çox vacibdir. Bununla əlaqədar Heydər Əliyev fəxarətlə qeyd edirdi ki, Azərbaycan və türk xalqları uzun illər ərzində dostluq etmişlər, çünki eyni kökə bağlı, bir dildə danışan xalqlardır. Adət-ənənələrimiz çox yaxındır. İllər, əsrlər, hətta sovet dövrünün sərt qanunları bizi ayıra bilməyib, biz daha da əlaqələrimizi gücləndirib müstəqillik əldə etdikdən sonra tarixi ənənələrimizi inkişaf etdirərək irəliləməyə çalışmalı və beləliklə, xalqlarımızın firavan və xoşbəxt həyatını təmin etməliyik. [4, s. 73]

Ulu Öndər respublikamıza ilk dəfə rəhbərlik etdiyi dövrdə Sovet İttifaqında mövcud olan bütün siyasi qadağaları və diplomatik tabuları pozaraq o dövrün sovet rəhbərliyinin qarşısında Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması və durmadan inkişaf etdirilməsi haqqında təkliflərlə çıxış etmişdi. Bu gün Türkiyə ilə ictimai həyatın bütün sahələrini əhatə edən, eyni zamanda onları inkişaf etdirmək uğrunda fəaliyyəti və aktiv şəkildə apardığı mübarizəsi gələcəkdə türk birliyinin yaradılması istiqamətində öncəgörülən fəaliyyyət kimi qiymətləndirilir. Bununla əlaqədar Heydər Əliyev o dövrdə Azərbaycan Respublikasının Beynəlxalq əlaqələr idarəsinin müdiri Ə.Cəbrayılova müvafiq göstərişlər vermiş, o da öz növbəsində Sovet İttifaqı KP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları (N.V.Slepov və V.V.Zaqladin) ilə lazımi danışıqlar aparmış və yüksək nəticələr əldə etmişdi. Tezliklə MK-ya Azərbaycan və Türkiyə arasında dostluq və birgə işbirliyi əlaqələrinin inkişaf etdirilməsinə təkan verəcək çərçivə sənədi göndərilmişdi. Heydər Əliyev bu layihəyə 20 sentyabr 1977-ci il tarixində dərkənar yazaraq Türkiyə ilə bağlı məsələlərdə təbliğatı genişləndirməyi, bu məqsədlə bütün vasitələrdən faydalanmağı və bu haqda yuxarı partiya orqanına təkliflər hazırlamağı tapşırmışdı. Tapşırığa əsasən hazırlanmış məktub Moskvaya, MK-ya göndərilmişdi. Məktubda siyasi, iqtisadi, texniki, mədəni və turizm sahələrində hər iki dövlət arasında ulularımızdan qalan irsi bağları daha da möhkəmləndirmək, sovet-Türkiyə dostluğunu yeni keyfiyyət müstəvisinə çıxarmaq, vaxtilə ölkədən mühacirət etmiş azərbaycanlıların və onların övladlarının vətənə dönməsini təmin etmək və digər məsələlərdən danışılmışdı. Məktubda, həmçinin Kicik Asiya (Anadolu) və Rumeli türklərinin və Türkiyədə yaşayan azərbaycanlıların Azərbaycana maraqlarının durmadan artması haqqında məlumat və qardaş ölkə ilə əlaqələrin genişləndirilməsi üçün konkret təkliflərdən də söz açılmışdı. Həmin məktubda, həmçinin latın qrafikalı əlifba ilə tərtib edilmiş türkdilli ədəbiyyatı rus və azərbaycan dillərinə, siyasi məzmun daşımayan rusdilli və azərbaycandilli ədəbiyyatı isə türk dilinə tərcümə etmək üçün Azərbaycanda kifayət qədər mütəxəssisin olması ilə əlaqədar Bakıda "Proqress" nəşriyyatının filialının açılması tövsiyə olunurdu. Bundan başqa, Heydər Əliyev Azərbaycan milli radiosunda və televiziyasında

hazırlanan bütün verilişlərin Türkiyə ərazisində yayımlanmasını vacib addım hesab edirdi. O dövrdə bu dahi şəxsiyyətin gördüyü işlərdən Ümumittifaq Şərq Ticarətinin Azərbaycan bölməsinə Türkiyə ilə birbaşa ticarət əlaqələrinin qurulmasına icazə verilməsi haqqında, SSRİ Dövlət Xarici İqtisadi Əlaqələr Komitəsinin (DXİƏK) xətti ilə Türkiyənin ayrı-ayrı şəhərlərində fəaliyyət göstərən layihə institutlarında Azərbaycandan olan mütəxəssislərin iştirak etməsi təklifləri xüsusilə əhəmiyyətli idi. Ulu Öndər həmin təklifləri irəli sürərkən, sanballı arqument kimi, Türkiyədəki idarə və müəssisələrdə çox sayda Azərbaycan kökənli Türkiyə vətəndaşlarının olmasını əsas götürmüşdü. İki dövlət daxilində Naxçıvan vasitəsi ilə kommunikasiyaların açılması ideyası isə təkcə iqtisadi-siyasi perspektivləri nəzərdə tutmurdu, eyni zamanda tarixən "Bir millət- iki dövlət" düsturu ilə yaşayan xalqların ideoloji və mənəvi baxımdan yaxınlaşmasına xidmət edirdi. Tarixən türk birliyindən ehtiyat edən Moskva iki doğma və qardaş xalq arasında iqtisadi və ticari münasibətlərin reallaşdırılmasına rəvac verməsə də, bu ideyanı Ulu Öndər 90-cı illərin lap başlanğıcında Naxçıvana rəhbərlik etdiyi dövrdə, daha sonra isə 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olduğu zaman reallaşdırdı. Xatırladım ki, Heydər Əliyev 20 iyul 1990-ci ildə Moskvadan Azərbaycana qayıtdıqdan sonra siyasi fəaliyyətini Naxçıvanda davam etdirirdi. Bu zaman Türkiyə ilə əlaqələrin yaradılması Naxçıvan üçün xilaskarlıq faktoruna çevrilmişdi. 1991-ci ilin 3 sentyabr tarixində Naxçıvanda rəhbərliyə seçilən Heydər Əliyevin şəxsi təşəbbüsü və siyasi iradəsi ilə 1992-ci il mayın 27-də blokada şəraitində yaşayan Naxçıvan üçün çox mühüm əhəmiyyət kəsb edən Sədərək-Dilucu "Ümid" körpüsünün tikilməsi ilə Naxçıvanda siyasi əmin-amanlıq, bütün sahələrdə dirçəliş dövrü və Azərbaycan-Türkiyə birliyinin reallaşdırılmasında isə yeni bir era başlandı.

XX əsrin 90-cı illərində Ulu Öndərin Türkiyəyə getməsi, orada ilk rəsmi görüşün keçirilməsi iki doğma xalq arasında olan münasibətlərin yeni müstəvidə davam etməsinə və daha da möhkəmlənməsinə səbəb oldu. Paytaxt Ankarada keçirilən səfər zamanı bir sıra mühüm sənədlər imzalandı. Bunlar Azərbaycan-Türkiyə münasibətlərinin tarixi sənədlərlə rəsmiləşdirilməsi idi. İmzalanan sənədlər sırasında təhsil, energetika, ətraf aləmin qorunması, terrora qarşı mübarizə, siyasi məsləhətləşmələr haqqında sazişlər, hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə və digər mühüm sənədlər yer alırdı. Bununla iki xalq və dövlət arasındakı münasibətlər dövlət başçılarının mütəmadi görüşləri ilə daha da sarsılmaz olurdu. 1995-ci il dekabr ayının 7-9-da Türkiyənin dövlət başçısı Süleyman Dəmirəlin ölkəmizə rəsmi səfəri müddətində imzalanmış Birgə Bəyanat və iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyən edən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin möhkəmliyini bir daha sübut etdi. Dövlətlərimiz arasında 1996-cı ildə imzalanmış hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair sənədlər isə öz mahiyyətinə görə xüsusi əhəmiyyət kəsb edir.

Dahi şəxsiyyət Heydər Əliyev tərəfindən hərəkətverici missiya daşıyan və artıq reallığa çevrilmiş Türk dünyasının birliyi ideyası tezliklə, bəşəriyyətə böyük nailiyyətlər qazandırmış digər türkdilli cümhuriyyətlərə nüfuz etməyə başladı. Yeni tarixi dövrdə yaranmış münbit şərait türkdilli cümhuriyyətlərin (TDC) sürətlə inkişaf etməsinə, qlobal miqyasda mühüm nüfuz sahibi olmalarına, öz aralarında istər elmi-texniki, istər ictimai-siyasi, istərsə də mədəni sahələrdə əlaqələri inanılmaz dərəcədə genişləndirmələrinə səbəb oldu: TDC-lərin İşbirliyi Şurası, Parlament Assambleyası, TÜRKSOY və digər nüfuzlu təşkilatlar yaradıldı.

İnsanın varlığı uca qayə və məqsədlərə yönələndə yüksəlir, mənəviyyatı bu vasitə ilə kamala yetişir. Hətta cismaniyyəti də onunla müqəddəsləşir. Tərəqqimiz onda barınır. Əqidəmizin qüvvətlənməsi, bütövlüyü bu yolun istiqamətində saxlanılır. Azərbaycanın böyük oğlu Heydər Əliyevin qan qardaşlarımıza sevgisi Türkiyə türkləri ilə olan mənəvi bağımızın nə qədər möhkəm olduğunu göstərir. Türkiyəni müqəddəs yer və sevimli ölkə adlandıran dahi şəxsiyyətin 1997-ci il may ayının 5-i və 8-i aralığında Türkiyə Cümhuriyyətində rəsmi səfərdə olan zaman aidiyyati

sahələr və səlahiyyətli simalarla görüşlərin keçirilməsində olduqca böyük sıxlıq müşahidə olunur. Bir çox sahələr və təyinatı üzrə imzalanan rəsmi və işgüzar sənədlər hər iki dövlət üçün vacib məsələlərin həllini özündə ehtiva edirdi. Heydər Əliyevə Türkiyə Respublikasının “Dövlət nişanı” may ayının 5-də təqdim olunmuşdu. O, cümhuriyyətin ən ali mükafatını böyük məhəbbət və həyəcanla qəbul etmişdi. Hakimiyyətdə olduğu illər ərzində iki qardaş xalq arasında əlaqələrin inkişafını, genişlənməsini, yüksəlməsini bütün vasitələrlə dəstəkləyən və buna çalışan Ulu Öndər mərasimdə çıxış edərək bu sözləri demişdi: “Uzun illər biz Türkiyədən ayrı düşmüşük, xalqlarımız 70 il bir-birindən ayrı düşmüşdür. Bu illər ərzində tək biz yox, bizdən əvvəl yaşamış nəsillər də Türkiyənin həsrətində olublar, Türkiyə ilə qovuşmaq, görüşmək, əl-ələ vermək, Türkiyənin əlini sıxmaq həsrəti ilə yaşayıblar. Nəhayət, biz 1990-cı ilin əvvəllərində buna nail olduq. Bunun özü hər bir Azərbaycan vətəndaşının həyatında, o cümlədən mənim həyatımda böyük bir xoşbəxtlikdir”.

Hər millət öz bacarığı, tərəqqisi və mədəni inkişafı ölçüsündə özünü tanıdır, qəbul etdirir, deyilənlərə uyğun olaraq da yaşamını davam etdirir. Millətin yaşamını təmin edən təməllərdən biri, tam əminliklə demək olar ki, fərdlərin bir-birinə bağlılığıdır ki, bu da maddi bağdan daha çox mənəvi bağla mümkündür. Özündən uzaqlaşmaq kökünə yadlaşmaqdır. N.F.Qısakürəkin dediyi kimi: “Kökünü bəyənməyən budaqlar budaq olmadan quruyar. Budağını bəyənməyən meyvələr meyvə olmadan çürüyər”. Məsələyə bu yöndən baxsaq, tarix yaşasın, həqiqətlər bilinsin deyə gecəsini gündüzünə qatan bir lider nə qədər böyük, həmin liderlə eyni bir millətə mənsubluğunun qürurunu yaşayan xalq, millət nə qədər bəxtiyardır. Bəzən işıqlı, xoşbəxt bir gələcəkdə yaşamaq üçün illər, əsrlər, bəlkə də min illər geri qayıtmaq, geriyə dönmək vacib olur. Hər iki qardaş ölkənin liderlərinin etdiyi kimi. Türklüyü, doğmalığı, birgəliyi qaytarmaq üçün tarixə boylanmaq və söy-kökünə qayıtmaq lazım gəlir.

Heydər Əliyevin “Bir millət – iki dövlət” tezisi bu baxımdan düşüncə və şüurları hərəkətə gətirən, tərəqqiyə yönəldən, qardaşlığın, milli dirçəliş yolunun həmrəylilik, bütünlük məfkurəsindən qaynaqlandığını göstərən müdrik ifadədir. Əsrlər boyu bizlər ortaq mədəniyyətə, yəni ədəbiyyata, musiqiyə, adət-ənənəyə sahib olmuşuq. Artıq türkdilli dövlətlər ortaq ümumtürk dilinə keçid üçün fəaliyyət göstərir, yorulmadan bu istiqamətdə lazımlı işlər görürlər. Bütün bunlar dahi şəxsiyyət Heydər Əliyevin olduqca uzaqgörən insan, gələcəyi öncədən doğru proqnozlaşdırmaqla mükəmməl siyasi düşüncəyə sahib olduğunun göstəriciləridir. “Azərbaycanla Türkiyə bir millət, iki dövlətdir” deyən siyasi lider yaşadığı şərəfli həyatı boyunca bu əlaqələrin genişləndirilməsini özünün mənəvi borcu bilmişdir. Tərəddüdsüz demək olar ki, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk də zamanında “Nə mutlu türküm deyənə!” deyərkən bütün Türkiyə Cümhuriyyətinin vətəndaşlarını və özünü türk sayan hər kəsi nəzərdə tutmuşdu. [3, s. 405-406]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin vəfatından sonra bütün sahələrdə olduğu kimi, qardaş Türkiyə ilə münasibətlərdə də Heydər Əliyev siyasətini tükənməz enerji və məsuliyyətlə davam etdirdi və “Bir millət – iki dövlət” şüarını dövlətlərimizin və xalqlarımızın birgə əlaqələrinin strategiyasına çevirdi. Bu şüar həm regionumuzda, həm də beynəlxalq arenada Azərbaycan-Türkiyə münasibətlərinin işlək və səmərəli hədəfi olaraq keçən hər gün daha da aktuallaşdı, dövlət siyasəti olmaqla yanaşı, qardaş xalqlarımızın ruh və könül birliyi siyasəti kimi də dolğunlaşdı, ölkələrimizin iqtisadi, ticari, mədəni, hərbi-siyasi əlaqələri ilə daha da zənginləşdi və yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu düstur həm də türk dövlətlərinin və toplumlarının bir-birinə yaxınlaşmasını şərtləndirən cazibə mənbəyi keyfiyyəti qazandı.

Həsrətini çəkdiyimiz Vətən torpaqlarının azadlığı uğrunda 44 günlük müharibə başlayan zaman Prezident İlham Əliyevə ilk zəng edən, dövlətimizə bütün imkanları ilə dəstəyini ifadə edən Türkiyə Cümhuriyyəti başçısı Rəcəb Tayyib Ərdoğan oldu. Əgər keçmişə – 1918-ci ilə nəzər

salsaq, Türkiyənin bir dövlət olaraq, o zaman da yanımızda olduğunun şahidi olarıq. İndi də bizim müqəddəs şəhidlər xiyabanında həmin dövrdə Azərbaycanın azadlıq mücadiləsində, erməni terrorizmindən qurtulmasında igidliklə vuruşan və vuruşaraq, şəhid olan türk qardaşlarımızın məzarı var. İndi də – II Qarabağ savaşında dost, qardaş sevgisini yaxından hiss etdik. Dövlətimizə qarşı duran, erməni vəhşiliyini görməzdən gələn və əllərində olan bir çox vasitələrlə onlara yardım edən dünya güclərinə rəğmən biz böyük türk qardaşlarımızın dəstəyi və sevgisi ilə qürurlandıq. Bu hiss tam qələbə qazanmağımıza zəmanət oldu. Cərəyan edən hadisələrin gedişatı göstərir ki, məsələ nə olursa olsun, əgər bu məsələ türkün məsələsidirsə, hər iki qardaş xalq üçün keçilməyən sədd yoxdur və onlar sərt qaya kimi əzəmətli duruşlarını, mövqelərini onlara qarşı olan güclərə nümayiş etdirirlər. Prezident İlham Əliyev Ulu Öndərin "Bir millət – iki dövlət" aforizminin əbədiyyətə qədər Türkiyə və Azərbaycan münasibətlərində günəş kimi işıq saçacağını həmişə xatırladır. Tərəqqi yeni ruhlu, milli düşüncəli, dilini, tarixini sevən, diri fikirli, soy-kökünün mənəviyyatı ilə qidalanan qəhrəmanların əli ilə mümkündür. Bu prizmadan baxsaq, artıq iki xalq arasında olan bağlılıqda möhtəşəm bir mərhələ başlayıb.

Xalqımız üçün mənəvi dəyəri heç bir ölçüyə sığmayan, zəfər tacımız Şuşada 15 iyun 2021-ci il tarixində Azərbaycanla Türkiyə arasında imzalanan "Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin bundan yüz il əvvəl imzalanan Qars müqaviləsinin 100 illiyi ilə eyni zaman kəsiyində uzlaşmasının simvolik mənası var [5, s. 143]. Tarixi ədalət gec-tez baş verəcəkdi. 100 il bundan qabaq qonşusuna, onun verdiyi çörəyə xəyanət edən ermənilər məkrli planlarının baş tutmasını bu müqavilə əsasında bayram edirdilərsə, indi tarixi gedişat azərbaycanlıların xeyrinə dəyişdi. Bu müqavilə gələcək nəsillərin də qürurla tanış olacağı, dərsliklərdən və müəyyən tarixi mənbələrdən oxuyacağı bənzərsiz sənəddir. Artıq bəşəriyyət tarixi zəfərimizlə barışmalı, bütövlüyümüzü, müstəqilliyimizi görməlidir.

**Nəticə**

Ulu öndər Heydər Əliyevin minilliklər üçün söylədiyi "Bir millət – iki dövlət" düsturu həm siyasi doktrina, həm də mənəvi kodeks kimi özünü artıq təsdiq etmişdir. Beləliklə, Azərbaycan-Türkiyə birliyi strategiyasının təməlində qardaşlıq, milli maraqlar, bu birliyi möhkəmləndirən güclü, çevik siyasət dünya diplomatiyasının tərkib hissəsinə çevrilmişdir.

Keçmişdən bu günə misilsiz bir xəzinə kimi miras qalan dostluq və doğmalığın artıq yeni bir mərhələsi başlayıb: səsi-sədası dünyanı ağuşuna alan, ulularımızın ruhaniyyətini sevindirən, dosta fərəh, düşmənə ölüm saçan yenilməz qardaşlıq münasibəti mərhələsi. Bir dövlətin uğuru digər dövlət üçün əsl bayrama çevrilir, hər hansı problemi isə ölkələrimiz və xalqlarımız birgə yaşayır və birlikdə dəf edir. Beləliklə, bu tarixi düstur zamanın çətin sınaqlarından keçərək doğruluğunu, zəruriliyini və inkişafını təsdiq edir, dərin kökləri, ana dili, mənəvi dünyası, adət-ənənələri eyni olan xalqlarımızın birlik və tərəqqisinin təməl daşı rolunu oynayır, Heydər Əliyevin hər zaman böyük sevgiylə dediyi "Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir" ideyasını gerçəyə çevirir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Ələkbərli F. Azərbaycan türk fəlsəfəsi və ictimai fikir tarixi (XIX-XX əsrlər), I hissə. Bakı: Elm və təhsil, 2018, 504 s.

2. Ələkbərli F. Azərbaycan türk fəlsəfəsi və ictimai fikir tarixi (XIX-XX əsrlər), II hissə. Bakı: Elm və təhsil, 2020, 864 s.

3. Demokratik Bilincin Kutsal Bileşenleri". Selçuk Üniversitesi Edebiyat Fakültesi Dergisi (Demirhan, Yılmaz; Öztürk, Musa (15 Haziran 2020). "15 Temmus Darbe Girişimi Sonrasında 43):

4. Qurbanov F., Mədətli E. Bir millət – iki dövlət: fəlsəfi-tarixi təhlil. Bakı: Elm və təhsil, 2020, 232 s.

5. Musa Qasımlı. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016. - 520 s.

## FORMULA OF AZERBAIJANI-TURKISH RELATIONS: "ONE NATION – TWO STATES"

**E.Jafarova**
doctor of phylosophy in political sciences, associate professor
Mingachevir State University

***Abstract:*** *The article discusses the enduring relevance of the statement "One nation, two states" by the national leader Heydar Aliyev, highlighting its historical significance in shaping public ideologies and fostering revolutionary thinking. The author highlights that this formula assesses the significance and potential of the longstanding friendship and fraternal ties between Azerbaijan and Turkey, which have endured for numerous centuries. Within this succinct remark lies a profound ideology that has significantly influenced the course of history, resulting in advantageous outcomes for both Turkey and Azerbaijan. This emblem not only represents our country's sovereignty, but also embodies the cultural ethos of our populace. The profound statement made by Heydar Aliyev transcended national boundaries and assumed a global significance, capturing the interest of nations and individuals worldwide towards the interconnectedness of kindred peoples with a shared historical and political trajectory, as well as the importance of Turkish-Muslim unity and solidarity.*

*As per the author's assertion, this concept does not encompass the mobilization of the Turkish and Muslim populations against a particular hypothetical adversary, nor does it entail the establishment of an oppositional stance or coalition vis-à-vis other global entities. The concept of "one nation – two states" embodies a vision that promotes harmony, fraternity, and reciprocal support, irrespective of linguistic, religious, national, or racial differences. The fundamental essence of the concept and its unwavering backing lies in the Turkish-Azerbaijani alliance.*

***Keywords:*** *genius man Heydar Aliyev, the formula "One nation – two states", Turkish-Muslim unity, Turkish-Azerbaijani tandem, renaissance of Turkic ideas, Shusha Declaration*

## ФОРМУЛА АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ОТНОШЕНИЙ: «ОДНА НАЦИЯ – ДВА ГОСУДАРСТВА»

**Э.Х.Джафарова**
доктор философии по политическим наукам, доцент
Мингячевирский государственный университет

***Резюме:*** *В статье рассказывается о том, как изречение общенационального лидера Гейдара Алиева «Одна нация, два государства», которое никогда не теряло своей актуальности и вписано в историю золотыми буквами, вызвало коренные изменения в содержании общественных представлений и развитии революционного мышления. Автор отмечает, что эта формула определяет важность и перспективы дружбы и братских отношений между Азербайджаном и Турцией, существовавших на протяжении тысячелетий. За этим лаконичным выражением стоит глубокая философия, изменившая колесо истории на благо Турции и Азербайджана. То есть это не только символ нашей национальной независимости, но и образ жизни нашего народа. Это мудрое изречение Гейдара Алиева вышло за пределы одной страны и приобрело глобальный характер,*

*привлекая внимание государств и народов мира к братским народам, имеющим общую историческую и политическую судьбу, турецкое и мусульманское единство и солидарность.*

*По мнению автора, эта идея не предполагает мобилизации турок и мусульман против какого-то конкретного и гипотетического врага и создания оппозиции или фронта другим мирам. Идея одной нации, двух государств – это призыв к миру, братству и взаимопомощи независимо от языка, религии, национальности и расы.  А стержнем идеи и ее незыблемой опорой является турецко-азербайджанский тандем.*

***Ключевые слова:*** *гениальный человек Гейдар Алиев, формула «Одна нация – два государства», турецко-мусульманское единство, турецко-Азербайджанский тандем, ренессанс идей тюркизма, Шушинская Декларация*

**Elmi redaktor: s.e.f.d., dos. A.Məmmədov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 26.06.2023**
**Çapa qəbul edilib: 03.07.2023**

UOT 2:008; 37; 316.37

# HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ TOLERANTLIĞIN YERİ VƏ AZƏRBAYCAN PEDAQOJİ MÜHİTİNƏ TƏSİRLƏRİ

**Fərəh Cabbar qızı Cəlil**
filologiya üzrə elmlər doktoru, professor
Mingəçevir Dövlət Universiteti
farah.calil@mdu.edu.az

***Xülasə:*** *Məqalədə Azərbaycan dövlətçilik ənənəsinin tərkib hissəsi olan tolerantlığın klassik poeziyamızda və nəsrimizdə təbligindən bəhs edilmişdir. Hürufilik ideyalarının əsas tərkib hissəsi olan tolerantlıq düşüncəsinin Nəsimi yaradıcılığında, Ə. Haqverdiyevin "Qacar" tarixi dramında ifadəsi formalarına nəzər salınmışdır. Müasir Azərbaycanının qurucusu Ümummilli lider Heydər Əliyev siyasətinin də əsas tərkib hissəsi olan və bu düşüncənin pedaqoji fikirdə yeri va rolundan bəhs olunmuş, müasir tədrisə tətbiqi məsələlərinə toxunulmuşdur.*

*Eləcə də hazırda müasir gəncliyin bu istiqamətdə formalaşması üçün Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın pedaqoji mühitin dünya standartları səviyyəsində inkişafına xüsusi diqqət ayırdığından bəhs olunur.*

***Açar sözlər :*** *Azərbaycan, dövlət tolerantlıq, pedaqoji, təhsil*

## Giriş

Uzun tarixi inkişaf mərhələsi keçmiş Azərbaycan dövlətçilik ənənəsinin əsas prioritetlərindən biri də tolerant düşüncə tərzi olmuşdur.

Azərbaycanın tarixi ərazilərində qurulan bir çox dövlətlər, o cümlədən, Atropatena, Albaniya, Şirvanşahlar, Səfəvilər və s. dövlətlərinin tərkibində müxtəlif azsaylı xalqlar və etnik topluluqlar yaşamışdır. Azərbaycan ərazisində dövlət qurmuş türk etnosunun bir parçası olan Azərbaycan türkləri ölkə daxilində yaşayan digər xalqlara qarşı hər zaman tolerant münasibət bəsləmiş, xalqımız həmin topluluqların milli mənsubiyyətindən, dilindən və dinindən asılı olmayaraq onlarla ortaq etnomədəni dəyərləri formalaşdırmağa çalışmışdır.

Azərbaycanın islamı qəbul etməsi ilə xalqımız arasında dini-mənəvi amillərimizə yeni kolorit qatılmışdır. İslamın başqa dinlərə nisbətən daha humaist mövqeyi "Quran"ın Bəqərə surəsinin 4-cü və 5-ci ayətlərində də öz əksini tapmışdır.

- O kəslər ki, sənə göndəriLənə ("Quran"a) və səndən əvvəl göndərilənlərə ("Tövrat", "İncil", "Zəbur") iman gətirər və axirətə də şəksiz inanırlar,

- O məhz onlar öz Rəbbi tərəfindən (göstərilmiş) doğru yoldadırlar. Nicat tapanlar (axirət əzabından qurtarıb axirətə qovuşanlar) da onlardır [2].

Bu ideyanı mənimsəyən xalqımız öz dövləti daxilində müxtəlif dinlərə sahib xalqlara qarşı liberal münasibət bəsləmişdir.

Lakin unutmamalıyıq ki, islamaqədərki dövrdə türk etnosunun sahib olduğu şamançılıq ideyasının kökündə də tolerantlıq düşüncəsi geniş yer almaqda idi. Səlcuq, Qaraxanilər dövlətlərinin islamlaşdırdığı Orta Asiya oğuz türkmən boyları daha sonra Səlcuk imperiyasının tərkibində İrana daxil oldu və qam-şaman mədəniyyəti ilə sintez olunmuş düşüncə oğuz türkmənləri vasitəsi ilə İrana və Cənubi Azərbaycan ərazilərinə daşındı. Beləliklə də, Cənubi Azərbaycanda və İranın müxtəlif bölgələrində yaşayan oğuz-türkmən boyları arasında qəbul edilən islam şamançı düşüncə tərzi ilə sintezləşərək, Azərbaycanın tolerantlıq ideyalarına yeni rəng qatmış oldu. Xüsusən Hülakülər dövründə islam islahatları Şamançılığın islamla qarışaraq, ələvilik təriqətinin yaranmasına səbəb oldu.

**Azərbaycanda tolerantlıq ideyasının ən bariz nümunəsi olan təriqətlər**

Azərbaycanda tolerantlıq ideyasının ən bariz nümunəsi olan təriqətlər türk təsəvvüf məktəbinin bir qolu olan hürufilik, bektaşilik və qızılbaşlıq idi.

Hürufilik fəlsəfəsi insanı dininə, milli mənsubiyyətinə, məmləkətinə görə kateqoriyalara ayırmırdı. Hürufilik düşüncəsinə görə kamil, arif, qafil, cahil və div insan var idi. Bu isə tolerantlılığın ən yüksək ifadə forması idi. Fikrimizə aydınlıq gətirmək üçün Nəsimidən bir beytə nəzər salaq:

*"Kim ki, əsrari Nəsimi bilmədi,*
*İzzəti-Fəzli Nəimi bilmədi,*
*Divi Rəhmai Rəhimi bilmədi,*
*Məzhəri-zati qədimi bilmədi.*" [3, s. 29].

Hürufilərin mənimsədiyi Ənəl Həqq sözünü ilk dəfə işlətmiş Şərqin böyük filosofu Mənsur Həllaca görə də bütün dinlər bir ağacın qol budağıdır. Bu böyük sufinin fikirlərinə görə insandan yalnız bir dinə xidmət etməyi tələb etmək olmaz [3, s. 31].

Bu düşüncənin davamçısı olan Nəsimi yaradıcılığında "mən" həyatdır, gözəllikdir, kainatdır, bəşəriyyətin taleyidir. Elə bu səbəblə də Nəsimi yazırdı:

*"Aşiq qatında küfr ilə islam birdir,*
*Hər qanda məslək eyləsə aşiq əmirdir.*
*Bütxanə ilə Kəbəyi vəhdətdə fərq edən,*
*Mənidə baliğ olmamış, ol gərçi pirdir."* [1, s. 28].

Bu şeir nümunəsi hürufilik ideyasının nə qədər tolerant fəlsəfi düşüncə tərzi olduğunun göstəricisidir. Daha bir tolerant baxış tərzinə sahib türk təriqəti ələvi-bektaşilik və onun davamı olan qızılbaşıq idi. Onlar bəşəriyyətə "Gəlin canlar bir olalım" mesajini verməkdə idilər. Yeri gəlmişkən qeyd etməliyik ki, S. Mümtazın qeydlərinə görə Nəsimi hürufilik ideyasını mənimsəmədən öncə ələvi-bektaşilik təriqətinə mənsub olmuşdur. Bu fikri təsdiqləyən bir nümunəyə diqqət yetirək:

*"Surətdə gərçi Bəktaşi çoxdur Nəsimi tək,*
*Mənidə baliğ olmamış gərçi pirdir."* [3, s. 28].

Türk-islam tolerant düşüncə tərzinin ən bariz ifadə formalarından biri də Ələviliyin İsaviliyə münasibəti idi. "Əhdi-Cədid" də İsa peyğəmbərin insanlığa mesajı olan "Yeyin mənim ətimi, için mənim qanımı" yaxud "Mənim cismimi dadan və qanımı içən əbədi həyat qazanır" (İoan:53). Şüarı ələvi bektaşilər tərəfindən mənimsənilmişdi. İsanın qanı isə xristianlıqda şərabın simvolu kimi düşünülürdü. Ələvilər toplandıqları ibadət xarakterli məclislərdə şərabı içmədən şərab dolu badəni əllərinin arxa hissəsi ilə bir birinə toxunduraraq "gəlin canlar bir olalım" ifadəsini işlədirdilər. Bu isə yalnz islam dininə deyil, digər dinlərə o cümlədən dini baxışlarında isavilyə məxsus olan insanların da eyni dini sosial statusa məxsusluğunu göstərirdi. Dilindən, dinindən və irqindən asılı olmayaraq "bütün canların" yer üzündə bir olması ələvilik dünya görüşünün əsas prinsipi idi.

"Quran"ın müxtəlif ayələrində İsa peyğəmbərə böyük sevgi islamın sintezi kimi ələvi bektaşilikdə tolerantlığın ən bariz nümunəsi kimi öz əksini tapmışdı.

"Gəlin canlar bir olalın" şüari ilə çıxış edən Ələviliyin məhz bu keyfiyyətləri Osmanlı dövlətində (Sultan Murad dövründən başlayaraq) xristian əsilli avropalı əsirlərin ələvi təriqətini seçərək osmanlı ordusunun bir parçasına çevrilməsinə xidmət edirdi.

Tarixin sonrakı dövrlərdə Azərbaycan dövlətçiliyinin ən uğurlu şəxsiyyətlərindən olan Şah İsmayıl Xətainin yaratmış olduğu Səfəvi ordusunun böyük əksəriyyəti ələvilik təriqətinə mənsub türkmənlərdən formalaşmışdı. Səfəvi xənədanının yaradılmasına çalışan Şeyx Cüneyd və Şeyx Heydərin ideyalarına sadiq qalaraq Səfəvi dövlətinin yaradıcısı Şah Xətainin ordusunun əsas tərkib hissəsi ələvi qızılbaşları olan türkmən qolları kimi şamlu, ustaclu, türkmən-təkəlü, rumlu, avşar, çəpni və s. tayfalardan ibarət idi. Bu səbəbdən də tolerantlıq Səvəvi dövlətinin əsas ideyasını təşkil edirdi.

Tolerantlıq ənənəsinə sadiq qalanlardan biri də Səfəvi xanədanının ideya davamçılarından olan Şah Qacar idi.

Təsadüfi deyil ki, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar" tarixi dramında müəllif Qacarın Gürcüstanı yenərkən əsgərlərinə etdiyi xəbərdarlığı diqqət çəkir: "Üç gün qoşuna qarət izni verirəm. Amma məbadə kəlisalərə əl vurasınız... Kəlisa Allahın evidir. Ehtiramı müsəlmana vacibdir" [4, s. 182].

Bu ənənə çar Rusiyası dövründə Azərbaycan maarifçilərinin ideyalarında da davam etdirilir, onlar tərəfindən xalqlar arasında dinindən, dinindən asılı olmayaraq, birlik, bərabərlik ideyası təbliğ edilirdi.

**Azərbaycanda tolentrantlıq ideyasının formalaşmasında Heydər Əliyevin rolu**

Yüzillərlə formalaşan bu dövlətçilik ideyanın ən görkəmli varisi isə müasir Azərbaycan dövlətçiliyinin qurucusu Ümummilli lider Heydər Əliyev olmuşdur. Buna ən bariz nümunə Heydər Əliyevin dövlət quruculuğunda xalqçılıq prinsiplərinə əsaslanması və Azərbaycan xalqının milli kimliyini azərbaycanlı olaraq təyin etməsi ilə bağlıdır. "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" şüarı ilə çıxış edən Ümumilli Lider milli kimliyindən asılı olmayaraq, ölkəmizdə yaşayan hər bir vətəndaşın bərabərhüquqlu olduğunu və Azərbaycançılıq ideyaları ətrafında birləşdiyini sübüt etmiş oldu.

Ulu Öndərimizin tolerantlıq ideyasının pedaqoji fikrə təsiri, gəncliyin təlim və tərbiyəsindəki roluna xüsusi əhəmiyyət verirdi. "Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında ən önəmli yerlərdən birini də müasir nəsli milli ruhda, milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Müasir nəslin milli ruhda tərbiyəsi: - soy-kökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri yeniləşdirməkdən, dirçəltməkdən və təlim-tərbiyə prosesində ondan maksimum istifadə etməkdən ibarətdir" [7].

Ümummili lider Heydər Əliyevin milli ideyalarına sadiq qalan İlham Əliyev bu gün Azərbaycan cəmiyyətində tolerantlıqlığın inkişaf etdirilməsi yolunda bir çox tədbirlər planı həyata keçirir. O, Azərbaycanda mövcud tolerantlıq düşüncələrinin milli düşüncə və islam mədəniyyətinin əsas faktorlarından biri olduğunu belə qeyd edir: "Azərbaycanda mutikulturalizm dövlət siyasətinin prioritetlərindən biridir, milli və dini tolerantlıq yüksək dərəcədə təmin edilir" [5].

Eyni zamanda Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondunun nəzdnində təşkil edilmiş "Azərbaycan tolerantlıq məkanı" layihəsi çərçivəsində həyata keçirilən bir çox tədbirlər yalnız Azərbaycanda deyil, Azərbaycan məkanından kənara çıxaraq bir çox ölkələrin eyni fikirdə olan təşkilatları ilə birgə tədbirlər planı həyata keçirməkdədir.

Ulu öndər Heydər Əliyevin Azərbaycançılıq ideyalarının davamçısı olan İlham Əliyevin səyi ilə Azərbaycanda multikulturalizm və tolerantlıq ideyaları gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Bu məqsədlə hazırkı şəraitdə bütün Ali təhsil ocaqlarında "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmin əsasları" fənləri bakalavr və magistratura pillərində tədris edilməkdədir.

Rəşad İlyasovun da qeyd etdiyi kimi, "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin ali təhsil müəssisələrində tədrisi dövlət siyasəti və həyat tərzi olaraq daima əhəmiyyət kəsb edir" [8].

Göründüyü kimi, Azərbaycanda tolerantlıq ideyalarının formalaşması Azərbaycan dövlətçilik tarixinin inkişafı ilə bağlıdır. Bu düşüncə Azərbaycan dövlətçiliyinin inkişaf mərlələrinə uyğun şəkildə formalaşmış bu düşüncə dövlət siyasətinin əsas tərkib hissəsi olmaqla yanaşı ədəbi-bədii prosesin də tərkib hissəsi olmuşdur.

Müasir dövlətçilik ənənəsinin qurucusu Ümummilli lider Heydər Əliyevin də dövlətçilik siyasısininin əsas preoritetlərindən olan tolerantlıq ideyası bu gün də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inkişf etdirilməkdədir. Bu baxımdan müasir pedaqoji fikrin inkişafında tolerantlığın tədrisə tətbiqi günümüzdə qarşıya qoyulan əsas vəzifələrdir. Ulu öndər Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri olan tolirantlıq ideyasının tədrisə tətbiqi gənc nəslin bu ideyanın davamçıları olaraq yetişməsində mühüm rol oynayır.

## İstifadə edilmiş ədəbiyyat

1. Araslı, H. Fədakar şair: İmadəddin Nəsimi: [həyat və yaradıcılığı haqqında] / Həmid Araslı; red. M.Arif. - Bakı: EAAzf, 1942, 19 s.

2. Quran (Tərc. Bünyadov Z. və Məmmədəliyev V.). Bakı: Elm, 2005, 604 s.
3. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Azərbaycan dilinin qaynaqları. Azərbaycan dili və tarixi. Bakı: Avrasiya press, 2006, 440 s.
4. Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri. İki clddə. I cild. Bakı: Lider, 2005, 504 s.
5. Prezident İlham Əliyev: “Azərbaycanda milli və dini tolerantlıq yüksək dərəcədə təmin edilir” [Elektron resurs] URL: https://scwra.gov.az/az/view/news/8422/prezident-ilham-eliyev-azerbaycanda-milli-ve-dini-tolerantliq-yuksek-derecede-temin-edilir-
6. Mehriban Əliyevanın fəaliyyətində multikulturalizm dəyərləri: Qeyri-Maddi İrsin qorunması [Elektron resurs] URL: https://mehribanaliyeva.preslib.az/media-upBG4fVsbT.html
7. Muxtarova N. Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyası. Yeni Azərbaycan URL: https://www.yeniazerbaycan.com/Siyaset_e11386_az.html
8. İlyasov R. Multikulturalizm və onun tədrisi məsələsi [Elektron resurs] URL: https://multikultural.az/az/multikulturalizm/800/multikulturalizm-ve-onun-tedrisi-meselesi/

## THE PLACE OF TOLERANCE IN THE POLICY OF HEYDAR ALIYEV AND ITS IMPACT ON THE PEDAGOGICAL ENVIRONMENT OF AZERBAIJAN

**F.Jalil**
doctor of sciences in philology, professor
Mingachevir State University

***Abstract:*** *The article is devoted to the theme of tolerance, which is an integral part of the tradition of Azerbaijani statehood. Tolerance was the main idea of Azerbaijani classical poetry and prose. The idea of tolerance was also the main component of the ideas of Hurufism, which was spread in the prose of Nasimi, the historical drama "Qajar" by Hakverdiev, etc. e.*

*Further, the idea of tolerance became an important part of the policy of the founder of modern statehood, the national leader Heydar Aliyev. Referring to the ideas of Heydar Aliyev, the current pedagogy applies the ideas of tolerance to modern education in universities.*

*The article also touches upon the topic of developing a pedagogical environment at the level of world standards for the formation of modern youth with the help of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, and the First Vice-President of the Republic of Azerbaijan, Mrs. Mehriban Aliyeva.*

***Keywords:*** *Azerbaijan, state tolerance, pedagogy, education*

## МЕСТО ТОЛЕРАННОСТИ В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА И ЕЕ ВОЗДЕЙСТВИЕ НА ПЕДАГОГИЧЕСКУЮ СРЕДУ АЗЕРБАЙДЖАНА

**Ф.Джалиль**
доктор филологических наук, профессор
Мингячевирский государственный университет

***Резюме:*** *Статья посвящена теме толерантности, которая является неотъемлемой частью традиции Азербайджанской государственности. Толерантность была главной идеей Азербайджансой классической поэзии и прозы. Идея толерантности так же была главной составляющей идей хуруфизма, который распространялся в прозе Насими, исторической драме «Каджар» у Хаквердиева и т.д. Далее идея толерантности стало важной частью политики основателя современной государственности Общенационального лидера Гейдара Алиева. Ссылаясь идеям Гейдара Алиева, нынешняя педагогика применяет идеи толерантности современному обучению в вузах.*

*В статье так же затрагивается тема, о развитии педагогической среды на уровне мировъх стандартах для формирования современной молодежи с помощью Президента Азербайджанской Республики господина Ильхама Алиева и Первого вице-президента Азербайджанской Республики госпожой Мехрибан Алиевой.*

***Ключевые слова:*** *Азербайджан, государственная толерантность, педагогика, образование*

**Elmi redaktor: fil.e.d., dos. F.Namazova**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 28.06.2023**
**Çapa qəbul edilib: 04.07.2023**

UOT 82-2; 316.37

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İLYAS ƏFƏNDİYEV DRAMATURGİYASINA VERDİYİ ÖNƏM

**Flora Kamran qızı Namazova**
filologiya elmləri doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
flora.namazova@mdu.edu.az

***Xülasə:*** *XX əsr Azərbaycan dramaturgiyasında və teatr tarixində özünəməxsus dəsti-xətti ilə seçilən İlyas Əfəndiyev yaradıcılığında nəsr dili yeni və fərqli istiqamət almış, milli və bəşəri dəyərləri aşılayacaq ruhda çiçəklənmişdir. Görkəmli yazıçı İlyas Əfəndiyevin yaradıcılığına yüksək ehtiramını ifadə edən Ulu öndər Heydər Əliyev onun Azərbaycan ədəbiyyatında mövqeyi haqqında dəyərli fikirlər söyləmişdir. Bədii yaradıcılığa hekayə janrı ilə başlayan yazar qələmə aldığı əsərlərdə fərdi keyfiyyət və prinsipləri, bədii və estetik dəyərləri sənətkarlıqla, incəliklə sistemləşdirmişdir.*

*İlyas Əfəndiyevin çoxşaxəli və zəngin yaradıcılığını dram əsərləri, hekayələrlə məhdudlaşdırmaq düzgün olmazdı. Qələmə aldığı əsərlərdə istər mövzu aktuallığı, istərsə də həyati lövhələr təbii, canlı təsvir edilmiş, tariximizin müxtəlif məqamlarını özünəməxsus formada açıb göstərməklə xalqın,oxucuların rəğbətini qazanmışdır.*

*Məqalədə İlyas Əfəndiyev yaradıcılığında yüksək sənətkarlıq, inandırıcılıq, səmimiyyətin nəinki hekayə və pyeslərdə, eləcə də publisistikasında elmiliklə obrazlılığın vəhdəti fonunda spesifikliyi ilə seçilməsindən bəhs olunur. "İlyas Əfəndiyev teatrı"Azərbaycan teatr tarixində fəlsəfi və estetik cəhətləri, tarixi məqamları bədiiləşdirir, həmçinin əbəbi-bədii yaradıcılığının yeni bir mərhələsini özündə əks etdirir. Təbii, aydın, sadə dildə həyat hadisələrini ümumiləşdirən, oxucuların ixtiyarına verən İ.Əfəndiyev poetizmi aktuallığını bu gün də itirməmişdir.*

*Məqalədə 9 mart 2001-ci il tarixində "İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Ümummilli lider H.Əliyevin imzaladığı fərman yer alır.*

***Açar sözlər:*** *yazıçıya ehtiram, görkəmli yazar, dram yaradıcılığı, teatr, ölməz sənət*

"Azərbaycan yazıçıları əsrlər boyu dünya mədəniyyətini zənginləşdirən əsərləri ilə Azərbaycanın yüksək intellektual mülkünü və milli sərvətini yaratmışlar". [1, s. 298]

XX əsr Azərbaycan dramaturgiyasında və teatr tarixində özünəməxsus dəsti-xətti ilə seçilən İlyas Əfəndiyev yaradıcılığında nəsr dili yeni və fərqli istiqamət almış, milli və bəşəri dəyərləri aşılayacaq ruhda çiçəklənmişdir. Xüsusilə hekayə və romanlarında estetik zövqün özünəməxsus formada təzahürü buna əyani nümunədir.Bədii yaradıcılığa hekayə janrı ilə başlayan yazar qələmə aldığı əsərlərdə fərdi keyfiyyət və prinsipləri, bədii və estetik dəyərləri sənətkarlıqla,incəliklə sistemləşdirmişdir. "Bu gün də İlyas Əfəndiyev ədəbi irsi ona görə yaşarlıdır ki,o keçdiyi böyük yaradıcılıq axtarışlarında ilk hekayələrindən ən son xatirə romanlarına qədər öz qəhrəmanlarının mənəvi təkamülünün elə məqamlarını ümumiləşdirmişdir ki,cəmiyyət ilə şəxsiyyət arasındakı münasibətlərin aparıcı xüsusiyyətlərini əks etdirir". [3, s. 7]

Görkəmli yazıçının yaradıcılığı müasirliyi, sənət meyarları, novatorluğu, təbiiliyi ilə həm ideya-estetik, həm mənəvi-əxlaqi, həm də elmi-nəzəri aktuallığını bu gün də qoruyub saxlamaqdadır. Sözsüz ki, dramaturqun əbəbi-bədii yaradıcılıq portreti bədii hədəfini cəmiyyətdəki nöqsan və problemlərin həlli yoluna yönəlmişdir.

Azərbaycan ədəbi mühitinə İlyas Əfəndiyev dramaturgiyasının gəlişi həm Cəfər Cabbarlı, həm də Səməd Vurğun yaradıcılığından sonra bu istiqamətdə yaranmış boşluğu tam doldurdu. Ədəbi-bədii mühitdə, teatr sənətində İlyas Əfəndiyev imzası, adı dramaturgiya ünvanına öz möhürünü vurdu. "İlyas Əfəndiyev teatr"ı Azərbaycan teatr tarixinə, yəni XX əsrin ikinci yarısına şərhsiz və mübaliğəsiz həkk olundu.

Görkəmli yazıçı İlyas Əfəndiyevin yaradıcılığına yüksək ehtiramını ifadə edən Ulu öndər Heydər Əliyev onun Azərbaycan ədəbiyyatında mövqeyi haqqında belə demişdir: "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır, xidmətləri danılmazdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də çox əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini gözəl təsvir edibdir. Beləliklə, həm xalqımızı tarixə hörmət bəsləməyə sövq etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki,xalqımız bu əsərlərdən çox bəhrələnmişdir". [2, s. 157]

İlyas Əfəndiyev 1914-cü ildə Qaryagin (indiki Füzuli) rayonunda dünyaya gəlmişdir. Hələ kiçik yaşlarından anası Bilqeys xanımın onda kitablara, xüsusilə ədəbiyyata maraq oyatması İlyas Əfəndiyevin zəngin yaradıcılıq qələminə təkan vermişdir. O,orta təhsilini ikinci dərəcəli pedaqoji təmayüllü məktəbdə almış, 1933-cü ildə təhsilini əyani formada V.İ.Lenin adına APİ-nin ədəbiyyat fakültəsində davam etdirmişdir. Lakin daha sonra qiyabi formada həmin təhsil müəssisəsinin coğrafiya fakültəsində təhsil alaraq 1938-ci ildə bitirmişdir.

Müxtəlif vaxtlarda "Kommunist", "Ədəbiyyat qəzeti", "Yeni yol" qəzetlərində çalışmış yazıçının ilk mətbu əsəri 1938-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "Buruqlar arasında" adlı oçerkidir. 1939-cu ildə işıq üzü görmüş ilk hekayələr kitabı "Kənddən məktublar", ilk hekayəsi isə "Berlində ilk gecə" adlanır.

Mehdi Hüseynlə birgə 1943-cü ildə qələmə aldığı və 1944-cü ildə Azərbaycan Dövlət Dram Teatrında səhnələşdirilən "İntizar" pyesi yazarın teatrla əməkdaşlığının əsasını qoymuş ilk dram əsəridir. Dramaturqun dram əsərləri estetik dəyərləri ehtiva edərək XX əsr Azərbaycan nəsrinin spesifik, parlaq, özünəməxsus cəhətləri ilə seçilən xüsusiyyətləri işıqlandırır. Olduqca təsirli vasitə sayılan teatr və kino xalqımızın dünyagörüşünün zənginləşməsində, tarixi keçmişimizlə təhrif edilmədən yaxından və əhatəli tanış olmaqda əvəzsiz rol oynayır. Qeyd etdiyimiz məqamlara yazarın dramaturgiyasında və fəaliyyətində birbaşa yer almasının şahidi oluruq.

İlyas Əfəndiyevin çoxşaxəli və zəngin yaradıcılığını dram əsərləri, hekayələrlə məhdudlaşdırmaq düzgün olmazdı. Dramaturqun yaradıcılığına vurğunluğunu xalq yazıçısı S.Rəhimov belə ifadə etmişdir: "Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan İlyas Əfəndiyev yaradıcılığı rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq mahir dramaturqla istedadlı nasiri birləşdirib, birlikdə söykək-söykəyə qaldırır... İlyas dramaturgiyası onun nəsrinə, nəsri isə onun dramaturgiyasına dayaq durur, kömək göstərir. İlyasın dramaturgiyası da, nəsri də cazibədardır, ahəngdardır... Sən İlyas nəsrini oxuyursan, istər onun bir-birindən gözəl hekayəsi olsun, istərsə romanı, povesti olsun, heç birisi səni – oxucunu yormur..." [3, s. 37]

Görkəmli yazıçının zəngin dünyagörüşü, yaradıcı təfəkkürü oçerklərində, məqalələrində, povestlərində, romanlarında yeni nəslin maariflənməsinə yönəlmişdir. 1958-ci ildə "Söyüdlü arx", 1960-cı ildə "Körpüsalanlar", 1963-cü ildə "Dağlar arxasında üç dost", 1978-ci ildə "Sarıköynəklə Valehin nağılı", 1980-ci ildə "Geriyə baxma, qoca", 1981-ci ildə "Üçatılan" və s. romanları, 1948-ci ildə "Bahar suları", 1954-cü ildə "Atayevlər ailəsi", 1964-cü ildə "Sən həmişə mənimləsən", 1968-ci ildə "Unuda bilmirəm", 1969-cu ildə "Məhv olmuş gündəliklər", 1970-ci ildə "Mənim günahım", 1971-ci ildə "Mahnı dağlarda qaldı", 1981-ci ildə "Xurşudbanu Natəvan", 1983-cü ildə "Büllur sarayda", 1986-cı ildə "Şeyx Məhəmməd Xiyabani", 1988-ci ildə "Bizim qəribə taleyimiz" və s. pyesləri ədəbiyyatımızın inciləritək milli teatrımızda əvəzolunmaz, yeni bir mərhələ sayılır.

Süni, real həyatdan kənar təsvir və xarici toqquşmalar, göstərmək xatirinə səhnələrdirilmiş hadisələr İlyas Əfəndiyev dramaturgiyasına yaddır. O, hər zaman əsər qəhrəmanlarının həyata, cəmiyyətə münasibətini müxtəlif cəhətdən araşdırır, ilk baxışda önəmsiz görünən konflikt və münasibətləri genişləndirib fərqli aspektdən zənginləşdirərək təqdim edir.

Dramaturq müasirlərindən fərqli olaraq, yaradıcılığında ziyalı obrazlara və ziyalı mühitə geniş yer verir, gerçəkliyin bədii dərkini həyatdan götürülmüş real obraz fonunda zəngin mənəvi

keyfiyyət daşıyıcısına çevirirdi. Bu cəhətdən təsiredici mübahisə predmetinə çevrilən İlyas Əfəndiyev qəhrəmanları ədəbi aləmdə əks-səda yaradaraq zəngin daxili aləmləri ilə diqqət çəkmişdir.Əsərlərində oxucusunu arxasınca aparan dramatik gərginlik, eləcə də ardıcıllıq ictimaiyyət tərəfindən bəyənilir və sevilirdi. Bu baxımdan xalq yazıçı İlyas Əfəndiyev qələmini yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyevin söylədiyi: "Xalqımız qarşısında öz borcunu,daha doğrusu öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, ədəbiyyatımıza, teatrımıza, mədəniyyətimizə çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki,bu addımı xalqımız heç vaxt unutmayacaqdır" [2, s. 157] fikirləri xalqımızın keçmişi ilə bu gününü qovuşduran dəyərli xəzinədir.

Qələmə aldığı əsərlərdə istər mövzu aktuallığı, istərsə də həyati lövhələr təbii, canlı təsvir edilmiş, tariximizin müxtəlif məqamlarını özünəməxsus formada açıb göstərməklə xalqın, oxucuların rəğbətini qazanmışdır. Beləliklə, xalq yazıçısı İlyas Əfəndiyevin bədii irsinin əbədiləşdirilməsi diqqətdən kənarda qalmamışdır.

"Ümummilli lider Heydər Əliyev dramaturq, xalq yazıçısı mərhum İlyas Əfəndiyevin layiq görüldüyü "Şöhrət" ordenini övladı Elçin Əfəndiyevə təqdim etmişdir". [1, s. 400]

Fərqli janrlarda əsərlər qələmə alan görkəmli yazar roman yaradıcılığının mahiyyətini, əhəmiyyətini oxucuların ixtiyarına verərək xüsusilə tarixi romanların xalqın taleyində oynadığı rolu yüksək dəyərləndirmişdir. Tarixi roman janrında yazmağı məsuliyyətli, zəhmətli, lazımlı və müsbət hadisə hesab edən yazıçı tariximizin ədəbiyyatda zəif əks olunduğundan gileylənmişdir. Dövrün tarixi hadisələrinə dərindən bələd olmaq, hər incəliyi tarixçilər qədər hətta onlardan da artıq tədqiq və təhlil etmək, öyrənmək, duymaq, ona fərqli gözlə baxmağı bacarmağın vacibliyini vurğulamışdır.

Yalnız Azərbaycanda yox, ölkə hüdudlarında da Əfəndiyev yaradıcılığı səhnələri fəth etmiş, oxucu kütləsinin rəğbətini qazanmışdır. "İlyas müəllimin əsərləri hamı tərəfindən sevilir: istər bolqar, ərəb, çex, ingilis, istərsə də eston, rus, ukrayna, latış oxucusu olsun... Orta Asiyadan, Baltik sahillərindən, Uzaq Şərqdən və s. yerlərdən gəlmiş yüzlərlə məktubda oxucular onun qəhrəmanları ilə mübahisəyə girişir, yazıçının laboratoriyası ilə maraqlanır, kimisi isə sadəcə ürək sözlərini, sevincini, kədərini müəllif ilə bölüşür." [5]

İlyas Əfəndiyev yaradıcılığında yüksək sənətkarlıq, inandırıcılıq, səmimiyyət nəinki hekayə və pyeslərində, eləcə də publisistikasında elmiliklə obrazlılığın vəhdəti fonunda spesifikliyi ilə seçilir. Müasir və aktual hesab edilən İ.Əfəndiyevin bədii və publisistik irsi xalqımız və gələcək nəsillər üçün çox dəyərli mənəvi sərvətdir.

"İlyas Əfəndiyev teatrı" Azərbaycan teatr tarixində fəlsəfi və estetik cəhətləri, tarixi məqamları bədiiləşdirir, həmçinin əbəbi-bədii yaradıcılığının yeni bir mərhələsini özündə əks etdirir. Dramaturqun milli Azərbaycan teatrı ilə ötən əsrin 40-cı illərindən başlayaraq çoxcəhətli fəaliyyəti, yaradıcılıq əməkdaşlığı əlli ildən çox bir müddəti əhatə edir. Bu illər ərzində görkəmli yazarın xüsusilə pyeslərinin hər biri səhnələşdirilmişdir. Onun dünyagörüşünün formalaşmasında Bakıdakı ədəbi mühit,xüsusilə çalışdığı Azərbaycan Dövlət Radio Komitəsinin, Bakı kinostudiyası, "Azərnəşr"dəki əbədi ictimai mühitinlə əlaqələrin təsiri az deyil. Geniş və çoxcəhətli yaradıcılıq yolu keçmiş sənətkar ədəbiyyatın müxtəlif janrlarında mükəmməl və sevilən sənət nümunələri yaratmağa nail olmuşdur.

Keçən əsrin altmışıncı illərində səhnəyə qədəm qoyan gənclərin formalaşmasında İ.Əfəndiyev dram məktəbinin xüsusi rolunu qeyd etmək lazımdır. Qaldırılan problemlərin aktual olması, sünilikdən uzaqlıq,real hiss və duyğuların təsviri İlyas Əfəndiyev qələminin özünəməxsusluğudur. Bu keyfiyyətlərinə görə yazarın yaradıcılıq yolu indi də oxucular tərəfindən rəğbətlə qarşılanır, sevilir.

İlyas Əfəndiyevin 1971-ci ildə tarixi mövzuda yazdığı "Mahnı dağlarda qaldı" pyesi ilk dəfə Azərbaycan Dövlət Dram Teatrında səhnələşdirilmiş və "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülmüşdür.

Milli müstəqillik, azadlıq mübarizəsinin ən incə məqamları "Mahnı dağlarda qaldı", "Şeyx Məhəmməd Xiyabani", "Xurşudbanu Natəvan", "Hökmdar və qızı" və s. əsərlərdə yer almasında

yazarın ümdə məqsədi bəşəri nöqsanların aradan qaldırılmasına, milli xüsusiyyətlərin qorunub gələcək nəsillərə ötürülməsinə yönəlmişdir.

Tamaşa təqdim edildikdən sonra "Hökmdar və qızı" dramı barəsində Heydər Əliyevin söylədiyi "Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir. Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir, xalqımızı bu istiqamətdə tərbiyələndirir və əsasən, gəncləri tərbiyələndirir. Əsərin bu baxımdan aktuallığı çox böyükdür," [2, s. 160] dəyərli fikirlər onun tarixi əhəmiyyətini bir daha aktuallaşdrır.

Dramaturq Sovet illərindən fərqli olaraq, müsəqillik illərində toxuna bilmədiyi mövzulara həyat vermiş, həmçinin "Hacı Axundun cənnət bağı necə oldu" hekayəsi, "Dəlilər və ağıllılar", "Tənha iydə ağacı" və s. dramları səhnələşdirilmiş, kitabları işıq üzü görmüşdür. İlk olaraq "Tənha iydə ağacı" dramı ilə ədəbiyyatımıza mühacirət mövzusunu gətirən müəllif o zaman üçün qadağan olunmuş Cənubi Azərbaycan mövzusunda əsərlər yazmaqdan çəkinməmişdir. Eyni zamanda 1990-cı ildə "Bizim qəribə taleyimiz", "Sevgililərin cəhənnəmdə vüsalı" əsərləri ölkə xaricində – İstanbulda, Ankarada tamaşaya qoyulmuş, Türkiyə və yerli mətbuatda əhatəli şəkildə işıqlandırılmışdır.

"İ.Əfəndiyev ədəbi prosesi günün tələbi kimi qavramış və problemi həm elmi-nəzəri,həm də publisistik düşüncə əsasında dəyərləndirmişdir. Ədib zəmanəsi ilə nəfəs aldığından publisistikasında da çağırışçı və operativ olmuş, istəmişdir ki, bədii-publisistik fikrə yön və istiqamət versin. Bu baxımdan görmək çətin deyil ki, İlyas Əfəndiyev publisistik məqalələrində sənət və ədəbiyyat qayğıları ilə yanaşı, həm də zəmanəsi ilə həmsöhbət olmuşdur". [6, s. 16]

Xalq yazıçısı İ.Əfəndiyev haqqında M.Arif, M.Hüseyn, M.Cəfər, M.İbrahimov, İ.Şıxlı, B.Vahabzadə, X.R.Ulutürk, B.Nəbiyev, S.Əsədullayev, F.Hüseynov, V.Osmanlı, V.Arzumanlı,

Y.Qarayev, C.Məmmədov və digər ədəbiyyatşünaslar, həmçinin R.Şahvələd, M.Rəşidov, M.Cavadova, Ə.Səfərova, M.Həmidulla, F.Kərimzadə, A.Babayev, T.Arazl, M.Allahverdiyev və s. publisistlər, yazıçılar tərəfindən qiymətli fikirlər deyilmiş və dramaturqun yaradıcılığını əks etdirən monoqrafiya Y.Seyidov, Y.Qarayev, Y.İsmayılov, A.Salahova, Ə.Əfəndiyev tərəfindən qələmə alınmışdır.

İlyas Əfəndiyev bədii publisistikasınının XX əsrdə araşdırılması Azərbaycan publisistikasının sürətli inkişafını, onun özünəməxsusluğunu elmi-nəzəri baxımdan ümumiləşdirmiş və zənginləşdirmişdir. Beləliklə, görkəmli xalq yazıçısı ilk məqalələrində təsvir etdiyi sadə zəhmət nümayəndələrinin ictimai fəallığını, həmçinin daxili və əxlaqi keyfiyyətlərini özünəməxsus şəkildə təsvir etmişdir.

1938-ci ildə "Buruqlar arasında",1939-cu ildə "Tikintinin adamları", 1948-ci ildə "Gəray Əsədov kolxozu", 1950-ci ildə "Gənc usta", "Yeni kənd,yeni adamlar", 1951-ci ildə "Əmək adamları", "Fədakar neftçi", 1952-ci ildə "Pambıq tarlalarında" və s. məqalələri buna nümunə göstərmək olar.

"İ.Əfəndiyev qələmə aldığı məqalələrində dramaturgiyanı müasirliyə səsləyir, S.Rəhmana, M.İbrahimova, M.Hüseynə, R.Rzaya və Ə.Məmmədxanlıya C.Cabbarlı dramaturgiyasından, onun özünəməxsus forma mükəmməlliyindən öyrənməyi tövsiyə edir, psixoloji dramın incəliklərini Şekspir, Osborn, Rasin, Mirzə Fətəli, Bekket, Anuy, Çexov və Haqverdiyevdən öyrənməyə çağırır". [6, s. 23]

Təbii, aydın, sadə dildə həyat hadisələrini ümumiləşdirən, oxucuların ixtiyarına verən İ.Əfəndiyev poetizmi aktuallığını bu gün də itirməmişdir. "Xoşbəxt gələcək naminə mübarizə" ideyası yazarın yaradıcılığında xüsusilə bədii publisistikasında individuallığı ilə seçilir. Mükəmməl kompozisiya, axıcı, dolğun süjet onun əsərləri üçün əsas etalon sayılır.

Xalq yazıçısı, görkəmli sənətkar, publisist, dramaturq İ.Əfəndiyev 3 oktyabr 1996-cı ildə Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

Sevgi və ehtiram əlaməti olaraq yazarın xatirəsi əbədiləşdirilmiş, 7 cilddə "Seçilmiş əsərləri" Ulu öndər Heydər Əliyevin sərəncamına əsasən nəşr edilmişdir. Eyni zamanda əsərlərinin

üçcildliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən işıq üzü görmüşdür.

Heydər Əliyev cənablarının müvafiq sərəncamına əsasən İ.Əfəndiyevin 80 illik yubileyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd edilmişdir.

9 mart 2001-ci il tarixində "İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Ümummilli lider H.Əliyevin imzaladığı fərmanla tanış olaq:

"1. Bakı Şəhər İcra hakimiyyəti Bakı şəhərinin küçələrindən birinə İlyas Əfəndiyevin adının verilməsini və yaşadığı binaya (Hüsü Hacıyev 19) xatirə lövhəsinin vurulmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbələri üçün İ.Əfəndiyev adına xüsusi təqaüd təsis etsin və orta məktəblərdən birinə onun adını versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, İ.Əfəndiyevin əsərlərindən ibarət oncildliyin nəşrini təmin etsin;

- İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında iki seriyalı bədii filmin çəkilişini təmin etsin;

- Bu sərəncamdan irəli gələn digər məsələləri təmin etsin". [4]

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev xalq yazıçısı İ.Əfəndiyevin yaradıcılığına ehtiram əlaməti olaraq 2004-cü ildə dramaturqun 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

2008-ci ildə "Hökmdar və qızı" pyesi əsasında ekranlaşdırılan " Hökmdarın taleyi" adlı bədii filminin tədqimat mərasimi təşkil edilmişdir. Həmçinin Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının 2014-cü il 16 yanvar tarixli "İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamına əsasən Bakı şəhərində və bölgələrdə silsilə tədbirlər təşkil edilmişdir.

Azərbaycan dramaturgiyasında keçmişlə bu günü qovuşduran, çoxşaxəli və zəngin yaradıcılığı ilə oxucu rəğbəti qazanan İlyas Əfəndiyev öz missiyasını ləyaqətlə yerinə yetirmiş, özündən sonra "İlyas Əfəndiyev məktəbi" yaratmağa nail olmuşdur. Beləliklə, "tarixi mövzuların və müasiri olduğu ictimai gedişatın mahiyyətinə varanda İlyas Əfəndiyevin rəhbər tutduğu estetik prinsip özəlliyi fərdi başlanğıca yer verməsidir. Fərdin taleyini önə çəkməsi, bu fonda həyat hadisələrinin və tarixi gedişatın mahiyyətinə nüfuz etməsi İlyas Əfəndiyev sənətinin poetik sisteminin orijinallığını bir daha müəyyən etmiş olur". [3, s. 11]

Xalq yazıçısının zəngin yaradıcılığına yüksək ehtiram, hörmət və diqqət həmişəyaşar sənətkarın, əlbəttə ki, fəlsəfi-bədii düşüncələrinin özünəməxsusluğu, individuallığından irəli gəlir.

## İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev mədəni irsimizin keşiyində/Azərbaycan Respublikası Prezidentinin Katibliyi. -Bakı: Nurol, 2001. -K.1. -439 s.

2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / Heydər Əliyev; bur.məs. R.Mehdiyev. - Bakı: Azərnəşr, 2004. -K.II. -432s.

3. İlyas Əfəndiyev: biblioqrafiya / tərt. G.Səfərəliyeva; red.və bur. məsul K.Tahirov; ön söz. müəl. Ş.Alışanlı; Azərbaycan Milli Kitabxanası. -Bakı, -2014. -512 s.

4. Kərimov, İ. Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlıq haqqında / İnqilab Kərimov; -Bakı: Ulu, 2005.- 228 s.

5. Səmimiyyət yazıçının ürəyidir: [1982-ci ildə dramaturqun müsahibəsi] /İlyas Əfəndiyev; müsahibəni apardı F.Abbasov / 525-ci qəzet, -2014, -iyun, s. 7. [Elektron resurs] URL: https://525.az/news/20874-semimiyyet-yazicinin-ureyidir

6. Qasımova Y.N. İlyas Əfəndiyevin bədii publisistikası. Dərs vəsaiti. Bakı: ADPU-nəşriyyatı, 2017, 154 s.

7. [Elektron resurs] URL: http://anl.az/el/emb/I.Efendiyev/pdf/serencam-09.03.2001.pdf

## THE IMPORTANCE ATTACHED BY A NATIONAL LEADER HEYDAR ALIYEV DRAMATURGY OF ILYAS EFENDIEV

**F.Namazova**
doctor of phylological scienties, assosiate professor
Mingachevir State Univertsity

***Abstract:*** *Ilyas Efandiyev is one of the creators of the lyrical-psychological style, as well as new characters in the 20th centry of Azerbaijani literature, and he is a prominant figure in the history of theater and drematurgy. Our national leader Haydar Aliyev, who always values art and artists, highly appreciated the creativity of playwright Ilyas Efendiyev.*

*It would not be correct to limit the author's wide and varied creativity to stories and dramatic works. In the works written by him, both the actuality of the topic and life scenes are depicted naturally and vividly.*

*The article talks about the selection of high artistry, believability, and sincerity in the work of Ilyas Efendiyev not only in stories and plays, but also in his journalism, against the background of unity of science and imagery.*

*In the history of Azerbaijani theater, the philosophical and aesthetic aspects of "Ilyas Efendiyev Theater" form a new stage in the history of artistic thought and dramaturgy.*

*Ilyas Efendiyev's poetry, which summarizes life events in a natural way and conveys them to the reader in a simple and clear language, maintains its relevance even today.*

*The article contains the decree of national leader Haydar Aliyev on March 9, 2001 "On the perpetuation of the memory of Ilyas Efendiyev.*

***Keywords:*** *respect to the author, outstanding writer, drama creation, theatr, immortal art*

## ЗНАЧЕНИЕ, ПРИДАВАЕМОЕ ОБЩЕНАЦИОНАЛЬНЫМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ ДРАМАТУРГИИ ИЛЬЯСА ЭФЕНДИЕВА

**Ф.К.Намазова**
доктор наук по филологии, доцент
Мингяччевирский государственный университет

***Резюме:*** *Ильяс Эфендиев является одним из создателей лирико-психологического стилья, а также новых персонажей в азербайджанской литературе XX века, выдающейся личностью с уникальным набором линий в истории театра и драматургии. Наш общенациональный лидер Гейдар Алиев, всегда ценивший искусство и художников , высоко оценил творчество драматурга Ильяса Эфандиева.*

*Было бы неправильно ограничивать широкое и разнообразное творчество автора рассказами и драматическими произведениями. В написанных им произведениях естественно и ярко изображены как актуальность темы так и жизненные сцены.*

*В статье творчество Ильяса Эфендиева характеризуется высоким артистизмом, правдоподобностью и искренностью не только в рассказах и пьесах, но и в его публицистике, основанной на единстве науки и образности, в его произведениях естественно и ярко изображены как актуальность темыб так и жизненные сцены.*

*Философско-эстетические аспекты «Театра Ильяса Эфендиева» в истории азербайджанского театра составляют новый етап истории художественной мысли и драматургии. Поезия Ильяса Эфендиева, естественно обобщающая жизненные события и доносящая их до читателя простым и понятным языком, сохраняет свою актуальность и сегодня.*

*В статье содержится указ общенационального лидера Гейдар Алиева от 9 марта 2001 года «Об увековечивании памяти Ильяса Эфендиева».*

***Ключевые слова:*** *респект автору, известный писатель, создание драмы, театр, бессмертное искусство*

**Elmi redaktor: fil.e.d., prof. F.Cəlil**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 18.09.2023**
**Çapa qəbul edilib: 25.09.2023**

UOT 316.37; b81(091); 81 (092); 316.37

# ANA DİLİNİN İNKİŞAFINA BÖYÜK QAYĞI

**Namaz Rizvan oğlu Manafov**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
namaz.manafov@mdu.edu.az

***Xülasə:*** *Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dövlətin əsas atributlarından biri kimi ana dilinə böyük önəm verirdi.*

*Ulu Öndərin qətiyyəti, sarsılmaz iradəsi nəticəsində hələ sovet hakimiyyəti dövründə Azərbaycan Konstitusiyasında dil haqqında maddə öz əksini tapmışdı.*

*Ümummilli Lider Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini müstəqil dövlətçiliyin başlıca əlamətlərindən biri hesab edir, onun qorunması, tətbiqi və inkişaf etdirilməsinə böyük qayğı göstərirdi.*

*Ulu Öndər Azərbaycan dilini qorudu, daha da inkişaf etdirdi və dövlət dili səviyyəsinə qaldirdı.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ulu Öndər, Azərbaycan dili, ana dili, dövlət dili*

*“*Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir*”*.

Heydər Əliyevin bu sözləri dövlətin əsas atributlarindan biri kimi dilə böyük önəm verir, ana dilinin dəyərini, ana dilinin inkişafına olan qayğını artırır.

Heydər Əliyevin Azərbaycan dilindəki tarıxı çıxışları ölkə başçısının ana dilinə qayğı və ehtiramı idi və “bu proses sonralar milli özünüdərkdə müstəsna rol oynadı. Azərbaycan dili nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı” [4].

12 oktyabr 1977-ci ildə qəbul edilmiş SSRİ Konstitusiyasında dövlət dili haqqında maddə yox idi. “Model”i Moskvada verilmiş Respublika konstitusiyalarının heç birində dil haqqında maddə öz əksini tapmamışdı.

Azərbaycanda isə ölkə rəhbəri öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmiş, Əsas Qanunda dil haqqında maddənin saxlanılmasını zəruri saymışdı.

Sovetlər birliyində bu məsələyə narazılıq edənlər çox oldu, amma Ulu Öndərin qətiyyəti, sarsılmaz iradəsi və ciddi səyləri nəticəsində Azərbaycan Konstitusiyası ölkə rəhbərinin təklif etdiyi şəkildə qəbul olundu:

“Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir.

Azərbaycan SSR-də rus dilinin, habelə əhalinin danışdığı başqa dillərin bütün bu orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad surətdə işlədilməsi təmin edilir.” [2]

Azərbaycan dövlətinə rəhbərlik etdiyi illərdə Ulu Öndər ana dilinin inkişafına daim qayğı göstərmişdir:

- “Kreml”in etirazlarına baxmayaraq, Azərbaycan dilinin rəsmiliyi təmin edilmişdir;
- Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilmişdir;
- Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni etmiş, Azərbaycanın böyük yazıçıları öz əsərlərini ana dilində yazmış, aparıcı mətbuat orqanları – jurnallar və qəzetlər Azərbaycan dilində cıxmışdır;

- Ana dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla tədqiq olunmuş, dilçilərdən Ə.Dəmirçizadə fonetika; S.Cəfərov, leksikologiya; M. Hüseynzadə, morfologiya; Ə.Abdullayev... sintaksis və M.Şirəliyev Azərbaycan dilinin dialektologiyası sahəsindəki tədqiqatlara görə Azərbaycan Dövlət mükafatına layiq görülmüş, ana dili alimlərinin əməyi yüksək qiymətləndirilmiş, Azərbaycan dilinin nüfuzu bir daha təsdiq edilmişdir;

- həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, başqalarına nümunə vermişdir [4].

1991-1992-ci illərdə respublikanın o zamankı rəhbərliyinin səriştəsizliyi nəticəsində dövlət dilinin adı qeyri-qanunu şəkildə dəyişdirildi, buraxılan səhvlər milli dilin – Dövlət dilinin nüfuzuna mənfi təsir göstərdi.

1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxladı.

Ümummilli lider dil məsələsinə azərbaycançılıq ideologiyası prizmasından yanaşdı, bu məsələdə azərbaycançılıq konsepsiyasını əsas götürdü [6].

Xalq öz mövqeyini nümayiş etdirərək, Azərbaycan Respublikasının dövlər dilinin Azərbaycan dili olması müddəasına tərəfdar olduğunu bildirdi. Azərbaycan Respublikasının Konstitusiyasına Dövlət dili ilə bağlı maddə daxil edildi (12 noyabr 1995-ci il, maddə 21):

“- Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

- Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.” [1]

Respublikamızda dil siyasəti birmənalı və yetkin şəkildə formalaşdı, ana dilinin dövlət dili kimi tətbiqi işi möhkəm və sabit qayda-qanunlar, əsaslı təməllər üzərində təkmilləşdi [3].

Heydər Əliyev ana dili məsələsinə yeni səviyyədə yanaşmağın təcrübəsini verdi, bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə nail oldu. Həmin tədbirlər arasında “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarıxlı Fərman xüsusi əhəmiyyətə malikdir. Prezidentin bu fərmanı mükəmməl bir dövlət sənədi olmaqla yanaşı, Azərbaycan dilinin keçdiyi tarıxi yolu və dilimizin müasir vəziyyətini qiymətləndirən elmi mənbə səciyyəsi daşıyır. Fərmanda ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində görüləsi işlər göstərilir, ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tarıximizin tələblərinə cavab verən tədrisi bir vəzifə olaraq qarşıya qoyulur.

Azərbaycan dilinə bu səviyyədə qiymət verən hələ ikinci bir rəsmi sənəd olmamışdır. Eyni zamanda Azərbaycan dilinin tarixi əsasları heç bir elmi mənbədə bu qədər aydın şəkildə göstərilməmişdir [5] .

Ulu Öndərin əsəri olan bu tarixi fərmanda müstəqil Azərbaycan dövlətinin dil siyasətinin mərkəzində iki başlıca ideya dayanırdı. Birincisi, Azərbaycan dilinin dövlət dili kimi qorunması, ikincisi isə – bu dilin dövlət dili səviyyəsində inkişafı üçün hər cür imkan və şəraitin yaradılması [6].

“Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmanın qərarlarında Azərbaycan dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, elmi-tədqiqatın fəallaşdırılması, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi öz əksini tapır.

Ulu öndər Heydər Əliyevin “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarıxli Fərmanı Azərbaycan dili tarixində əlamətdar və tarixi hadisədir. Qərara əsasən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini müstəqil dövlətçiliyin başlıca əlamətlərindən biri hesab edir, onun qorunması, tətbiqi və inkişaf etdirilməsi

qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır, köməklik göstərir.

Ümummilli Liderin 30 sentyabr 2002-ci il tarıxdə imzaladığı ”Azərbaycan Respublikasında Dövlət Dili haqqında Azərbaycan Respublikasının Qanunu” Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, Respublikamızda Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Qanun 3 fəsil, 20 maddədən ibarətdir. Birinci fəsildə “Ümumi müddəalar” göstərilir, dövlət dilinin hüquqi statusu, Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik, dövlət dilinin işlənməsi, qorunması və inkişaf sahəsində dövlətin əsas vəzifələri qeyd olunur.

“Dövlət dilinin işlənməsi, qorunması və inkişafı” adlı ikinci fəsildə Dövlət dilinin rəsmi mərasimlərdə, təhsil sahəsində, televiziya və radio yayımlarında, xidmət sahələrində (reklam və elanlarda), xüsusi adlarda, coğrafi obyekytlərin adlarında beynəlxalq yazışmalarda işlənməsi qaydaları göstərilir, dövlət dilinin normaları, dövlət dilinin əlifbası, dövlət dilinin qorunması və inkişafı qanunları verilir.

“Yekun müddəaları” adlı üçüncü fəsildə qanunun pozulmasına görə məsuliyyət qeyd olunur.

“Azərbaycan Respublikasının dövlət dili haqqında” qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktıdır.

Ulu Öndər Azərbaycan dilini qorudu, yaşatdı daha da inkişaf etdirdi və dövlət dili səviyyəsinə qaldirdı. Azərbaycan dili onun nitqində öz əzəməti ilə səsləndi. Səsləndikcə də zənginləşdi... [5, s. 15]

Heydər Əliyevin dil siyasəti, onun ana dilinin – Azərbaycan dilinin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər, əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996
2. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas qanunu). Bakı, 1978
3. Balayev X.Ə. Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarıxından. Bakı: Elm və Həyat, 2002, 199 s.
4. Cəfərov N. Azərbaycan dövlətinin dili, yaxud Azərbaycan Prezidentının dil siyasətı / “Azərbaycan” qəz., 2001, 18 avqust
5. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003, 100 s.
6. Nağısoylu M. Heydər Əliyev və Azərbaycan dili // Türkologiya, № 2, 2017, s. 36-45

## GREAT CARE FOR THE DEVELOPMENT OF THE MOTHER TONGUE

**N.Manafov**
doctor of philosophy in philology, associate professor
Mingachevir State University

***Abstract:*** *The national leader of the Azerbaijani people, Heydar Aliyev, attached great importance to the mother tongue as one of the main attributes of the state.*

*As a result of the determination and unwavering will of the great leader, the article on language was reflected in the Constitution of Azerbaijan during the Soviet rule.*

*The national leader considered the use of the Azerbaijani language as the state language as one of the main signs of independent statehood, and paid great attention to its protection, application and development.*

*The great leader preserved the Azerbaijani language, further developed it and raised it to the level of the state language.*

***Keywords***: *Heydar Aliyev, great leader, the Azerbaijani language, mother tongue, state language*

**БОЛЪШАЯ ЗАБОТА О РАЗВИТИИ РОДНОГО ЯЗЫКА**

**Н.Р.Манафов**
доктор философии по филологии, доцент
Мигячевирский государственный университет

***Резюме:*** *Общенациональный лидер азербайджанского народа Гейдар Алиев придавал большое значение родному языку, как одному из главных атрибутов государства.*

*В результате решимости и непоколебимой воли великого лидера статья о языке была отражена в Конституции Азербайджана при советской власти.*

*Общенациональный лидер считал использование азербайджанского языка в качестве государственного одним из главных признаков независимой государственности и уделял большое внимание его защите, применению и развитию.*

*Великий лидер сохранил азербайджанский язык, сохранил его, еще больше развил и поднял до уровня государственного языка.*

***Ключевые слова***: *Гейдар Алиев, великий лидер, азербайджанский язык, родной язык, государственный язык*

**Elmi redaktor: fil.f.d., dos. M.İsmayılov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 21.09.2023**
**Çapa qəbul edilib: 28.09.2023**

УДК 331.5; 314; 316.37

# ИСТОРИЧЕСКАЯ РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ПОДГОТОВКЕ ВЫСОКОКВАЛИФИЦИРОВАННЫХ КАДРОВ ЗА ПРЕДЕЛАМИ АЗЕРБАЙДЖАНА

**Мехди Низами оглы Рагимов**
доктор философии по филологии, доцент
Мингячевирский государственный университет
mehdi.rahimov@mdu.edu.az

***Резюме:*** *Гейдар Алиев всегда проявлял заботу и внимание состоянию образования в Азербайджане. Его забота о высшем образовании была особенно уникальна. Поэтому общенациональный лидер был всегда в курсе достижений, проблем и недостатков нашего образования. В результате его дальновидной политики в этой области были достигнуты большие успехи. В статье указано, что с начала 80-х годов до 1000 молодых азербайджанцев были отправлены получать образование в крупные высшие учебные заведения СССР. В промежуток 1970-1976 годов удельный вес обучавшейся за пределами республики азербайджанской молодежи в национальном составе с 40 % вырос до 85 %, а в 1980-е годы достиг 98 %. По сравнению с предыдущими годами быстро увеличивалось количество студентов, вузов и специальностей. Благодаря огромным стараниям Гейдара Алиева были обеспечены необходимые условия для получения высшего образования и подготовки высококвалифицированных специалистов примерно для 15 тысяч молодых юношей и девушек более чем по 250 специальностям в самых престижных вузах крупнейших городов бывшего СССР. Главной целью этой дальновидной политики была не только подготовка национальных кадров по различным специальностям, но и расширение мировоззрения азербайджанской молодежи. В следствие плодотворной работы Президента Азербайджана, достойного преемника мудрой политической стратегии общенационального лидера, образование и наука стали одним из важнейших направлений развития Азербайджана. В настоящее время многие граждане Азербайджана получают образование на уровне бакалавриата и магистратуры высшего образования в престижных высших учебных заведениях за рубежом.*

***Ключевые слова:*** *Великий лидер, образование, подготовка специалистов, высококвалифицированный кадр, высшее учебное заведение*

Целью всей жизни и деятельности архитектора современной Азербайджанской Республики, было создать сильное, демократическое и правовое государство. С его почетным именем и блестящей деятельностью связан целый период новейшей истории Азербайджана.

Главной заслугой Гейдара Алиева перед азербайджанским народом стало развитие им образования и науки, национального кадрового потенциала, а также подготовка большого количества специалистов редких специальностей, в которых нуждался Азербайджан. Великий Вождь, как в период Советского Союза, так и в годы независимости уделял этим направлениям особое внимание и определял их в качестве основных приоритетов на государственном уровне.

В 1982 году общее количество вузов в Азербайджане достигло 17. Благодаря мудрой политике в этой сфере было создано много новых специальностей, кафедр, факультетов, научных лабораторий. Гейдар Алиев хотел, чтобы каждый молодой азербайджанец, независимо от личности его родителей, финансового положения его семьи, если он имеет талант и хочет получить высшее образование, должен этого добиться. Великий Вождь всегда ориентировался на молодых людей, обучающихся за пределами Азербайджана, заботился об их развитии, называя своими детьми.

В более чем 170 самых известных учреждениях высшего профессионального образования более чем 50 крупных городов бывшего СССР были созданы возможности и условия для получения высшего образования и подготовки высококвалифицированных специалистов до 15 тысяч парней и девушек по более чем 250 специальностям, охватывающим более 80 областей народного хозяйства, науки, образования и культуры нашей республики. Ежегодно в конце августа общенациональный лидер проводя встречу со студентами, которые должны были обучаться за границей, давал свои рекомендации. 29 августа 1981 года в своем выступлении на встрече студенческой молодежи с партийным и советским активом республики он говорил: «Меры, принятые ЦК Компартии Азербайджана, полностью оправдывают себя. Это гарантирует, что достойные молодые люди поступают в вузы. Практика направления многих групп молодежи из республики на обучение в вузы различных городов является важным направлением подготовки высококвалифицированных кадров. Сейчас в нашей республике имеется большая группа специалистов, которые получили подготовку в лучших учебных учреждениях Советского Союза по тем специальностям, в которых испытывалась наибольшая потребность. В этом году в вузы других городов направлено 853 человека, в том числе 720 человек на 1 курс. Кроме того, 42 человека были приняты в Киевский институт гражданской авиации. В этом году 3600 молодых людей из Азербайджана будут обучаться по 244 специальностям в различных вузах Советского Союза.»

До прихода к власти Великого лидера Гейдара Алиева ежегодно для получения высшего образования за пределы нашей республики отправляли 47 человек, и незначительную часть из 47 человек составляли азербайджанцы. Представители армян и других национальностей, проживающих в нашей республике, направлялись на места, отведенные для азербайджанцев в известных школах СССР. В результате дальновидной политики Гейдара Алиева эта тенденция за короткое время изменилась. В 1975 году в известные вузы СССР поступило около 700 студентов. Начиная с 1975 года обучение азербайджанской молодежи за пределами республики стало интенсивным. Начиная с 1978 г. ежегодно за границу отправляли 800-900 студентов, которые представляли все слои населения, в частности, те, чьи родители не занимали высоких должностей. А главным критерием выбора были знания и способности.

Среди высших учебных заведений, в которых обучались азербайджанские студенты, были следующие: Московский энергетический институт, Московский химико-технологический институт, Московский машиностроительный институт, Рязанский радиотехнический институт, Ленинградский институт текстильной и легкой промышленности, Московский государственный университет имени Ломоносова, Украинская сельскохозяйственная академия, Московский институт инженеров сельского хозяйства и др.

После обретения Азербайджаном независимости процесс обучения азербайджанцев за границей ускорился. Этот процесс ускорился, когда Великий Вождь по настоянию народа вернулся к политической власти. Обучение азербайджанской молодежи в вузах зарубежных стран стало осуществляться по различным направлениям:

1) обучение за рубежом за счет собственных средств и возможностей;

2) обучение за рубежом за счет стипендий организаций и иных донорских организаций, реализующих различные программы образовательного обмена;

3) обучение за границей, осуществляемое государством за счет стипендий, выделяемых гражданам Азербайджана на основе двусторонних договоров в рамках сотрудничества в области образования;

4) Обучение за рубежом по Государственной программе.

21 мая 1998 года Великий лидер на встрече с членами Общества специалистов, получивших образование за границей, сказал: «Я верил, что придет время, и эти кадры будут нужны Азербайджану. Придет время и эти кадры обеспечат независимость Азербайджана. Я

вижу плоды работы, которую выполнил в свое время. Сегодня я считаю, что я и в целом все, кто находится ныне у власти, должны воспользоваться вашими возможностями, знаниями, способностями, умением. Вместе с тем мы и впредь должны плодотворно использовать возможности университетов, институтов развитых стран мира для подготовки будущих достойных кадров для Азербайджана.» [2]

Заложенную отцом традицию обучения за рубежом достойно продолжает Ильхам Алиев. По его инициативе была утверждена госпрограмма на 2007-2015 годы. В рамках этой программы, направленной на развитие человеческого капитала, 3558 граждан Азербайджана получили право на обучение в 379 ведущих университетах 32 стран при финансировании из Государственного нефтяного фонда. Эти университеты входят в число 500 самых мощных университетов мира.

Большинство студентов, обучавшихся по программе, закончили обучение и вернулись в нашу страну. В настоящее время 60 процентов выпускников работают в частном секторе и 40 процентов в государственном секторе. Ученые программы вносят свой вклад в различные сферы экономики страны, в отдельные государственные учреждения (заместитель министра, депутат), международные организации (ООН), транснациональные компании («Майкрософт», «Гугл», «Блумберг», «Самсунг» и др.) и в частный сектор. Не мало выпускников также занимаются научной деятельностью в наших вузах.

В продолжение этой политики была утверждена «Государственная программа повышения международной конкурентоспособности системы высшего образования Азербайджанской Республики на 2019-2023 годы». Программа предусматривает улучшение содержания и качественных показателей высшего образования за счет международных программ двойных дипломов и привлечения иностранных специалистов, укрепление академического потенциала наших университетов за счет докторантуры за рубежом. [1]

Президент страны Ильхам Алиев утвердил Государственную программу на 2022-2026 годы, что дает возможность азербайджанской молодежи получить образование в престижных вузах за границей. С учетом того, что не менее 80 процентов мест для обучения за рубежом в рамках Госпрограммы будут охватывать магистратуру, соответствующий перечень включает 575 бакалаврских программ, преподаваемых в 186 престижных вузах 28 стран мира по 15 приоритетным направлениям специализации и охватывает в общей сложности 4 126 образовательных программ, в том числе 3 551 степень магистра.

**Список использованной литературы**

1. Ceyhun Bayramov. Uğurlu təhsil islahatlarının banisi / “Azərbaycan” qəz., 2019. [Elektron resurs] URL: https://edu.gov.az/az/news-and-updates/16881

2. Речь Президента Азербайджанской Республики Гейдара Алиева на общереспубликанском собрании специалистов, получивших высшее образование за пределами Азербайджана в 1970-1987 годах - Дворец "Республика", 31 августа 1998 года. “Heydər Əliyev İrsi” Beynəlxalq Elektron Kitabxana. [Elektron resurs] URL: https://lib.aliyevheritage.org/ru/7137751.html

## AZƏRBAYCANDAN KƏNARDA YÜKSƏK İXTİSASLI KADRLARIN HAZIRLIĞINDA HEYDƏR ƏLİYEVİN TARİXİ ROLU

**M.N.Rəhimov**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Heydər Əliyev Azərbaycan təhsilinin vəziyyətinə daim diqqət və qayğı göstərib. Onun ali təhsilə qayğısı xüsusilə özünəməxsus idi. Ona görə də Ümummilli Lider təhsilimizin uğurlarından, problemlərindən, çatışmazlıqlarından daim xəbərdar idi. Onun bu sahədə apardığı*

*uzaqgörən siyasəti nəticəsində böyük uğurlar əldə olunub. Məqalədə bildirilir ki, 80-ci illərin əvvəllərindən 1000 nəfərədək azərbaycanlı gənc SSRİ-nin iri ali təhsil müəssisələrində təhsil almağa göndərilib. 1970-1976-cı illərdə respublikadan kənarda təhsil alan azərbaycanlı gənclərin milli tərkibdə xüsusi çəkisi 40 faizdən 85 faizə, 1980-ci illərdə isə 98 faizə çatmışdır. Əvvəlki illərlə müqayisədə tələbələrin, universitetlərin və ixtisasların sayı sürətlə artıb. Heydər Əliyevin böyük səyləri sayəsində keçmiş SSRİ-nin ən böyük şəhərlərinin ən nüfuzlu ali məktəblərində 250-dən çox ixtisas üzrə 15 minə yaxın gənc oğlan və qızın ali təhsil alması və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün lazımi şərait yaradılmışdır. Bu uzaqgörən siyasətin əsas məqsədi təkcə müxtəlif ixtisaslar üzrə milli kadrların hazırlanması deyil, həm də Azərbaycan gənclərinin dünyagörüşünün genişləndirilməsi idi. Ümummilli liderin müdrik siyasi strategiyasının layiqli davamçısı Azərbaycan Prezidentinin səmərəli fəaliyyəti nəticəsində təhsil və elm Azərbaycanın inkişafının ən mühüm sahələrindən birinə çevrilib. Hazırda bir çox Azərbaycan vətəndaşı xaricdəki nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavr və magistr pillələri səviyyəsində təhsil alır.*

***Açar sözlər:*** *Ulu Öndər, təhsil, ali təhsil müəssisəsi, kadr hazırlığı, yüksək ixtisaslı mütəxəssis*

## HISTORICAL ROLE OF HEYDAR ALIYEV IN PREPATING HIGHLY QUALIFIED PERSONNEL OUTSIDE AZERBAIJAN

**M.Rahimov**
doctor of philosophy in philology, associate professor
Mingachevir State University

***Abstract:*** *Heydar Aliyev always gave close and thoughtful attention to the state of education in Azerbaijan. His concern for higher education was especially unique. Therefore, the national leader was always aware of the achievements, problems and shortcomings of our education. Because of his far-sighted policy in this area, great successes have been achieved. The article states, that in the 1980s, up to 1,000 young Azerbaijanis were sent to study at prestigious higher educational institutions of the USSR. In the period of 1970-1976, the proportion of Azerbaijani youth in the national composition of those who received education outside the republic increased from 40% to 85%, and in the 1980s reached 98%. Compared to previous years, the number of students, universities and specialties increased rapidly. Owing to the great efforts of Heydar Aliyev, the necessary conditions were provided for obtaining higher education and training highly qualified specialists for about 15 thousand young boys and girls in more than 250 specialties in the most prestigious universities of the largest cities of the former USSR.The main purpose of this far-sighted policy was not only the training of national personnel in many specialties, but also the broadening of horizons of Azerbaijani youth. Due to the fruitful work of Ilham Aliyev, a proper adherent of the political course of the national leader, education and science have become one of the most predominant directions in the development of Azerbaijan. Currently, many citizens of Azerbaijan receive education at the level of bachelor's and master's degrees of higher education in prestigious higher education institutions abroad.*

***Keywords:*** *Great leader, higher educational institution, specialist training, highly qualified personnel, high education*

**Elmi redaktor: fil.f.d., dos. M.İsmayılov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 24.09.2023**
**Çapa qəbul edilib: 01.10.2023**

UOT 37.014.5; 378; 316.37

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ALİ TƏHSİL SİSTEMİNİN TRANSFORMASİYASI

**Vəfa Eldar qızı Məhərrəmova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlər Universiteti
vafa.maharramova@mdu.edu.az

***Xülasə:*** *Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra, bir sıra ciddi problemlərlə qarşılaşdı. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi, qısa müddətdə bir sıra problemin həllində dönüş yaranmasına səbəb oldu. Heydər Əliyevin liderliyində yeni dövrün tələblərinə cavab verən kadrların hazırlanmasında mühüm rol oynayan ali təhsil sisteminin yenidən qurulması, yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasının ali təhsil mühitinin dünya ali təhsil mühitinə inteqrasiya olması üçün sürətli işlər görüldü, mütərəqqi islahatlar aparıldı. Məqalədə Heydər Əliyevin ali təhsil sahəsində aldığı qərarlar, həyata keçirdiyi islahatlar araşdırılmışdır.*

*Tədqiqat işində təsvir, izah, müqayisəli təhlil, sistem medotlarından istifadə edilmişdir. Bu məqsədlə mövzuya dair bir sıra əsas və köməkçi elmi mənbələrə istinad edilmişdir.*

*İrəli sürülən əsas elmi yenilik ondan ibarətdir ki, burada ali təhsil sisteminə dair həyata keçirdiyi islahatlara bir bütöv olaraq yanaşılmış, yeni dövrün tələblərinə cavab verən səmərəli ali təhsil mühitinin formalaşdırılması və yüksək ixtisaslı kadrların hazırlanması üçün gənclərin xarici dövlətlərə göndərilməsi kimi məsələlər təhlil edilmişdir.*

*1994-cü ildən başlayaraq, Azərbaycan Respublikasının ali təhsil mühitinin yeni dövrün tələbləri kontekstində yenidən formalaşdırılması prosesi başlamışdır. Bu məqsədlə ali təhsilin hüquqi əsasları yenidən formalaşdırılmış, bu sahədə beynəlxalq əməkdaşlıq genişləndirilmişdir. Nəticədə ali təhsildə keyfiyyət və kəmiyyət göstəriciləri yüksəlmiş, xarici dövlətlərlə tələbə mübadiləsi sahəsində bir sıra proqramlar həyata keçirilmişdir.*

***Açar sözlər:*** *Azərbaycanın ali təhsil sistemi, ali təhsil mühiti, təhsilin transformasiyası*

## Giriş

Ulu öndər Heydər Əliyev Azərbaycan SSR rəhbərliyində olduğu 1969-ci ildən 1980-ci illərə qədər, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə xalqın qayğısına qalmaqla kifayətlənməmiş, ictimai həyatın bütün sahələrində dünyanın inkişaf etmiş dövlətləri ilə rəqabət edəcək səviyyətə inkişafa nail olmaq üçün bütün imkanları səfərbər etmişdir. Bu da öz növbəsində qarşıya qoyulan inkişaf tempini yaxalamaqda böyük dönüş yaratmışdır.

Heydər Əliyevin milli inkişaf və sosial-iqtisadi rifah səviyyəsinin yüksəldilməsi baxımından Azərbaycan Respublikasının ali təhsil sisteminin təkmilləşdirilməsinin əhəmiyyətini yaxşı dərk etmiş və bu məqsədlə istər sövet dövründə, istərsə də müstəqillik illərində bir sıra islahatlar həyata keçirmişdir. Bununla da kifayətlənməyən Ulu Öndər azərbaycanlı gənclərin xarici ölkələrdə ali təhsil alması üçün bir sıra dövlət proqramları qəbul etmişdir. Ulu Öndərin hakimiyyətdə olduğu dövrlərdə, azərbaycanlı alimlərin dünya elm və təhsil sahəsində gedən prosesləri yaxından öyrənmələri üçün ölkəmizin ali təhsil müəssisələri ilə xarici dövlətlərin ali təhsil müəssisələri arasında əməkdaşlıq sahəsində addımların atılması üçün dəstək verilmiş, beynəlxalq elmi-pedaqoji tədbirlərin təşkil edilməsinə şərait yaradılmışdır. Bu məqalədə, Azərbaycan Respublikasının ali təhsil mühitinin transformasiyası problemi və onun həllində Ulu öndər Heydər Əliyevin rolu tədqiq edilmişdir.

**Sovet İttifaqının ali təhsil modelinin mütərəqqi cəhətlərini özündə əks etdirən yeni ali təhsil modelinə keçid**

Yetmiş il kimi uzun bir müddət sovet rejimində yaşayan Azərbaycan xalqı bu müddət ərzində bir sıra çətinliklərlə üzləşmiş, rejimin ağır təsirini dərindən hiss etmişdir. Buna baxmayaraq, istər əhalinin oxuma-yazma səviyyəsinin yüksək göstəriciləri baxımından, istərsə də ali təhsil sisteminin günün tələbləri kontekstində öz fəaliyyətini səmərəli şəkildə təşkil etməsi baxımından Sovet təhsil sistemi dünyanın mütərəqqi təhsil sistemləri arasında öz yerini almışdır. Aydın məsələdir ki, belə təhsil modelinin qısa müddət ərzində tərk edilməsi mümkün olmadığı kimi, onun səmərəli yönlərinə əsaslanan yeni ali təhsil modelinin təşkil edilməsi, yeni yaranan Azərbaycan Respublikasının öz ali təhsil sisteminə görə dünyanın qabaqcıl ölkələri arasında öz yerini almasına səbəb olacaqdı. Bunu Ulu öndər Heydər Əliyev 1998-ci il tarixdə Bakıda təşkil olunan Azərbaycanlı müəllimlərin I konfransındakı nitqində də qeyd etmişdir: "Bu gün biz dünyanın müxtəlif ölkələrində hansı təhsil sisteminin mövcud olduğunu bilirik. Sovet İttifaqı zamanı mövcud olan təhsil sisteminin üstün cəhətləri vardı. Biz bunu başqa ölkələrin təhsil sistemləri ilə müqayisə edərək gördük. Ancaq bu sistem tam olaraq mükəmməl sistem deyildi. Ona görə də həmin sistemi təkmilləşdirmək lazımdır. Burada da bir neçə dəfə qeyd olunduğu kimi, mən 1983-1984-cü illərdə Sovet İttifaqında təhsil islahatlarının aparılması üçün təşkil edilmiş komissiyanın sədri olmuşam. Mənim rəhbərliyim altında fəaliyyət göstərən komissiyada bir sıra reformların hazırlandığını və Ali Sovetdə müzakirə edildiyini bilirsiniz. Mən həmin iclaslarda təhsildə islahatların aparılmasına dair hesabatla çıxış etdim və bundan sonra qanunlar və bir sıra qərarlar qəbul edildi. Yəni bu təhsil, məktəb sistemini mən həm gənclik dövrümdən, həm də Azərbaycana rəhbərlik etdiyim dövrlərdən, eyni zamanda SSRİ rəhbərlərindən biri olaraq həmin sahə ilə maraqlandığım üçün bilirəm [2]. Ulu Öndərin bu nitqi onu göstərir ki, istər təhsildə, istərsə də elmdə varislik mühüm məqam kimi diqqət mərkəzində saxlanılmış, dağılan bir dövlətin bütün dünyada mütərəqqi cəhətləri ilə diqqəti cəlb edən elm və ali təhsil sistemi tam olaraq tərk edilməmişdir. İndi isə Ulu Öndərin rəhbərliyi ilə ali təhsil pilləsində həyata keçirilən islahatlara yaxından nəzər yetirək.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılması ali təhsil sahəsində Sovet dövründə mövcud olan tələbə qəbul sisteminin daha mütərəqqi və şəffaf model ilə əvəz edilməsi istiqamətində atılan ən qərarlı addımdır [8]. Çünki tələbə qəbulunun sovet modeli çoxdan öz etibarlılığını itirmişdi və o, yeni dövrün tələblərinə cavab verən mütərəqqi modellə dəyişdirilməli idi. Azərbaycan Respublikasında ali məktəblərə sənəd qəbulu prosesinin təşkil edilməsi, qəbul intahanlarının təşkil edilməsi, bu imtahanların nəticələrinin elan edilməsi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilməyə başlandığı dövrdən indiyə kimi, bu qurum abituriyentlərin biliklərinə əsaslanan şəffaf qəbul prosesinin həyata keçirilməsi istiqamətində öz işini düzgün qurmuş və xalqın etimadını qazanmışdır. Bu gün Dövlət İmtahan Mərkəzi olaraq fəaliyyət göstərən TQDK, dövrün tələbləri və ölkənin ehtiyacları doğrultusunda öz işini daha da təkmilləşdirir.

Xarici tələbələr isə dövlətin mövcud qanunvericiliyində və beynəlxalq sözləşmələrlə müəyyən edilmədiyi hallar xaricində ödənişli ixtisaslarda təhsil alırlar.

**İslahatlar çərçivəsində atılan ilk addımlar – ikimərhələli ali təhsil modelinin tətbiq edilməsidir.**

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra digər sahələrdə olduğu kimi, təhsildə də əsaslı dəyişikliklərin aparılmasının vacibliyi ortaya çıxmışdır. Öz dövrünü başa vurmuş Sovet təhsil sistemindən müasir və dünyanın mütərəqqi təhsil sisteminə keçid prosesinin başlaması 1990-cı illərin ortalarına rastlayır. Bu doğrultuda atılan ilk əhəmiyyətli addım 1993-cü ildə ikimərhələli (bakalavr və magistr) ali təhsil modelinin qüvvəyə minməsidir. Həmin il ilk dəfə olaraq iyirmi üç ali təhsil müəssisəsində tələbə qəbulu həyta keçirilmişdir. Növbəti ildən etibarən ali təhsil sistemində əsaslı islahatlar üçün start verilmişdir. Əvvəla, bakalavriat pilləsində dövrün tələbləri və ölkənin yeni reallıqlarına əsaslanan dəyişikliklər həyata keçirilmişdir. Burada əsas meyar dünyanın müasir təhsil sisteminin dövrün tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanması üçün tətbiq etdikləri əsaslardı. Bu doğrultuda heç şübhə yox ki, əvvəlcə ölkənin ali təhsil mühitinin yenidən təşkili üçün

qanuni bazanın təkmilləşdirilməsinə ehtiyac vardı. Qaydalar və qanunlar bu tələb doğrultusunda daha da təkmilləşdirilmiş, dünya təhsil sisteminin mütərəqqi mühitinə uyğun standartlar mənimsənilmiş və təhsildə kredit sisteminin tətbiqinə başlanmışdır. 1997-ci ildə ali təhsilin bakalavriat səviyyəsində ilk məzuniyyət olduqdan sonra, universitetlərdə ali təhsilin ikinci səviyyəsinə – magistratura səviyyəsinə qəbul həyata keçirilərək, ilk dəfə magistr hazırlığına başlanmışdır. Bu məqsədlə, 21 may 1997 tarixdə "Ali təhsil müəssisələrinin magistraturasına müsabiqəyə buraxılma və müsabiqənin keçirilməsi barədə nümunəvi qaydalar"ın təsdiqi haqqında əsasnamə qəbul edilmişdir [1, s. 183]. 2005-ci ilə qədər magistratura səviyyəsinə qəbul ali təhsil müəssisələrinin özləri tərəfindən həyata keçirilmiş, bu ildən etibarən isə TQDK tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilən imtahan ilə magistraturaya qəbul həyata keçirilməyə başlanmışdır. Sonraki illərdə bir sahədə müəyyən islahatlar həyata keçirilmişdir.

**Struktur islahatları**

Ulu öndər Heydər Əliyevin Fərmanı ilə 1998-ci ilin martında respublikada milli təhsil quruculuğunun konseptual əsaslarının hazırlanması məqsədilə Dövlət Komissiyası yaradılmışdır. Müstəqil Azərbaycanda üç mərhələli təhsil quruculuğu konsepsiyası və strategiyası hazırlanaraq 1999-cu ildən etibarən onun icrasına başlanmışdır. Bu konsepsiya təkcə orta təhsil səviyyəsini deyil, həmçinin ali təhsil səviyyəsini də əhatə edirdi və burada aparılacaq islahatlar müntəzəmlik kəsb edəcəkdi [6, s. 34]. Belə ki, digər təhsil pillələrində olduğu kimi, ali təhsildə də struktur islahatlar aparıldı, ali təhsil müəssisələrinin idarə edilməsində mütərəqqi üsulların tətbiq edilməyə başlandı, dövrün tələblərinə uyğun olaraq mütəxəssis hazırlığını həyata keçirən proqramlara yeni ixtisaslar əlavə edilmişdir. Sovet dövrünün mərkəzi idarəetmə sisteminin təsirinin azaldılması və ali təhsil müəssisələrinə muxtariyyət verilməsi və onların idarə edilməsində müəyyən müstəqilliyin tanınması ən başlıca yeniliklər olaraq diqqəti cəlb etməkdədir. Ali təhsil müəssisələri elmi şuralarının, dövlət attestasiya komissiyalarının strukturunun, daxili strukturunun müəyyən edilməsi, dövlət təhsil standartları əsasında ixtisaslar üzrə tədris proqramlarının hazırlanması və digər məsələləri də öz daxili qərarları ilə həll etmə səlahiyyəti əldə etdilər. Bundan başqa, altı ali təhsil müəssisəsinə geniş muxtariyyət verildi və onlar öz fəaliyyətlərini özünüidarə prinsipləri əsasında həyata keçirməyə başladılar. Bu ali təhsil müəssisələrinin dövlət budcəsi hesabına ayrı bir maddə ilə maliyyələşdirilməsi 2001-ci ildən başlayaraq həyata keçirilməyə başlanılmışdır.

2000-ci ilin 13 iyununda Ulu öndər Heydər Əliyevin, vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını həyata keçirmək, nəzərdə tutulan islahatları sürətləndirmək, ali təhsil müəssisələrinin idarə edilməsi mexanizmini daha da optimallaşdırmaq, ali təhsil sistemində fəaliyyət göstərən pedaqoji kadrların günün tələbləri səviyyəsində hazırlanmasını həyata keçirmək, maddi-texniki bazadan və kadr potensialından istifadənin səmərəliliyini artırmaq üçün "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır [3; 4]. Həmin fərmanla ölkənin ad etibarilə də sovet dövrünün izlərini hələ də daşıyan ali təhsil müəsissələrinə universitet statusu verilmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının təhsil sisteminin daha da təkmilləşdirilməsi üçün təkcə islahatlarla kifayətlənməmiş, həmçinin xarici təcrübənin öyrənilməsi, təhsil sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi üçün də mühüm işlər həyata keçirmişdir. Başqa sözlə, Azərbaycan öz təhsil mühitini dünya standartlarına çatdırmaq üçün beynəlxalq təşkilatlarla fəal əməkdaşlıqda da maraqlı olmuşdur. Belə ki, Dünya Bankı ile imzalanan müqavilə əsasında ölkədə təhsilin inkişafına xidmət edəcək bir sıra addımlar atılmışdır. Hələ ötən əsrin 90-cı illərinin axırlarından başlayaraq, Dünya Bankı təhsil islahatlarının həyata keçirilməsində ölkəmizin tərəfdaşıdır.

1998-ci ildə bu beynəlxalq qurum, həmçinin İMF ilə Azərbaycan hökuməti arasında təhsil islahatlarının həyata keçirilməsinə dair maliyyə dəstəyinə dair müqavilə imzalanmışdır. Bu müqaviləyə əsasən, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qərarı ilə ölkənin ali təhsil sistemində əsaslı islahatların həyata keçirilməsi üçün yuxarıda da qeyd olunduğu kimi xüsusi komissiya qurulmuşdur. Həmin komissiyanın əsas vəzifəsi Dünya Bankının ayırdığı maliyyə vəsaiti hesabına təhsil sistemində islahat layihəsini hazırlamaq olmuşdur. Dünya Bankı ilə bu əməkdaşlığın

birinci mərhələsi 2003-cü ilə qədər davam etmişdir. 2003-cü ildən etibarən isə əməkdaşlıq çərçivəsində təhsil sistemində növbəti islahatlar paketi həyata keçirilmişdir.

Ali təhsil sistemində həyata keçirilən islahatlar isə əsasən, Avropa təşkilatları ilə, Avropa İttifaqı, Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir. Bu sahədə reallaşan islahatlarda ölkəmizin Bolonya prosesinə qatılmasının böyük təsiri olmuşdur. Bütöv Avropa məkanında vahid ali təhsil məkanının formalaşdırılmasını nəzərdə tutan və 1999-cu ildə başlamış prosesə Azərbaycan 2005-ci ildə qoşulmuşdur.

Ulu öndər Heydər Əliyevin ali təhsil sahəsində həyata keçirdiyi mühüm addımlardan biri də xarici dövlətlərlə ali təhsil sahəsində əməkdaşlıq və tələbə mübadiləsi, diplomların qarşılıqlı tanınması məsələsi sahəsində olmuşdur. Xüsusilə, Türkiyə Respublikası ilə bu sahədə bir sıra beynəlxalq sənəd imzalanmış və ratfikasiya edilərək qüvvəyə minmişdir. Çünki yeni müstəqilliyini əldə etmiş bir respublikanın qısa müddətdə Türkiyə ilə geniş ali təhsil əlaqələrinin yaranması, istər-istəməz bir sıra hüqiqi boşluqların da yaranmasına da səbəb olmuşdur ki, belə boşluqların ən qısa müddətdə aradan qaldırılması üçün hər iki ölkənin rəhbərliyi vaxt itirmədən bir sıra addımlar atmışdır. Heydər Əliyevin iqtidarda olduğu dövrdə hər il ölkəmizdən yüzlərlə gənc başda Türkiyə olmaqla xarici dövlətlərə ölkənin ehtiyacı doğrultusunda ali təhsil almaq üçün göndərilmişdir. Bu gənclər dövlət büdcəsi hesabına maliyyələşdirilmiş və sonraki dövrdə belə tələbələrin sayı artırılmış və dünyanın bir sıra qabaqcıl dövlətlərinə yüksək ixtisaslı kadrların hazırlanması üçün Azərbaycan gənclərinin göndərilməsinə dair dövlət proqramı qəbul edilmişdir. Ulu Öndərin atalıq qayğısı nəticəsində hər il dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində təqribən 160 ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı [7, s. 32].

Heydər Əliyev təkcə xarici dövlətlərə tələbələrin ali təhsil almaları üçün göndərilməsində maraqlı olmamış, həmçinin Azərbaycan ali təhsil müəssisələrində əcnəbi tələbərin də təhsil almasında maraqlı olmuşdur. Onun rəhbərliyi dövründə Azərbaycan universitetlərində hər il minlərlə əcnəbi tələbə ali təhsil almışdır. Həmçinin təhsil sahəsində xarici invertorların cəlb edilməsi, mütərəqqi xarici təcrübənin ölkədə tətbiqi üçün səmərəli nəticələr verə bilərdi. Buna görə də Türkiyənin bir sıra təhsil qurumları ilə ali təhsil sahəsində əməkdaşlıq çərçivəsində bir sıra xarici təhsil qurumları fəaliyyətə başlamışdır [5, s. 26].

**Nəticə**

Bütün bunlar onu göstərir ki, istər ictimai-ictimai formasiyanın dəyişməsi, istərsə də sürətlə inkişaf edən texnologiyanın qarşıya qoyduğu tələbi öz uzaqgörən siyasəti ilə düzgün dəyərləndirən Ulu öndər Heydər Əliyev, Azərbaycanın sürətli inkişafını təmin etmək və qarşıda duran problemləri vaxtında həll etmək üçün ali təhsilə böyük əhəmiyyət vermişdir. Onun ali təhsil sahədində həyata keçirdiyi siyasət həm əvvəlki dövrdən yığılıb qalan problemlərin həll edilməsinə, həm də dünyanın ali təhsil məkanına qarşılıqlı səmərəlilik əsasında inteqrasiya olmuş yeni dövrün ali təhsil sisteminin formalaşdırılmasına hesablanmışdı. Bu məqsədlə, ölkənin ali təhsil sisteminin qanuni əsasları təkmilləşdirilmiş, struktur islahatları həyata keçirilmiş, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilmiş və konkret layihələr həyata keçirilmiş, tələbə mübadiləsi məqsədilə bir sıra dövlətlərlə müqabilələr imzalanmış və ikitərəfli əməkdaşlıq imkanları genişləndirilmişdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Ali təhsil müəssisələrinin magistraturasına buraxılma və müsabiqənin keçirilməsi barədə nümunəvi qaydalar // Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası. – Bakı, – 2001

2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin azərbaycanlı müəllimlərin birinci Konfransında nitqi: [Elektron resurs] // - 26 sentyabr, 1998. URL: https://lib.aliyevheritage.org/tk/3116236.html

3. Azərbaycanda təhsil islahatları: [Elektron resurs] / URL: https://www.azerbaijans.com/content_1729_tr.html

4. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 13 iyun 2000-ci ildə qəbul edilmişdir. – Bakı, – 2000

5. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001-ci illər) / tərt. ed. M.C.Mərdanov. -Bakı: Qafqaz, -2002. -180 s.

6. Əhmədov, T. Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin strateji istiqamətlərindən biridir // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, -Bakı: -2-3 May, -2019, -s. 32-34

7. Səmədov, A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı / A.Səmədov. -Gəncə: GDU, -2010. -499 s.

8. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK): [Elektron resurs] / URL: https://www.azerbaijans.com/content_880_az.html

## HEYDAR ALIYEV AND TRANSFORMATION OF THE HIGHER EDUCATION SYSTEM IN AZERBAIJAN

**V.Maharramova**
doctor of philosophy in philology, associate professor
Mingachevir State University

***Abstract:*** *After gaining its independence, the Republic of Azerbaijan faced a number of serious problems. The coming to power of Heydar Aliyev in 1993 led to a turn around in the solution of a number of problems in a short period of time. Under the leadership of Heydar Aliyev, rapid work was done and progressive reforms were carried out to reconstruct the higher education system, which played an important role in the training of personnel meeting the requirements of the new era, to integrate the higher education environment of the newly independent Republic of Azerbaijan into the world higher education environment. The article examines the decisions and reforms carried out by Heydar Aliyev in the field of Higher Education.*

*Description, explanation, comparative analysis, system methods were used in the research work. For this purpose, a number of basic and auxiliary scientific sources on the topic have been cited.*

*The main scientific innovation put forward is that here the reforms of the higher education system were approached as a whole, issues such as the formation of an efficient higher education environment that meets the requirements of the new era and the sending of young people to foreign countries for the training of highly qualified personnel were analyzed.*

*The result of the study. Since 1994, the process of reshaping the higher education environment of the Republic of Azerbaijan in line with the requirements of the new era has begun. For this purpose, the legal foundations of higher education were reformed, international cooperation in this area was expanded. As a result, qualitative and quantitative indicators in higher education have increased, a number of programs have been implemented in the field of student exchange with foreign countries.*

***Keywords:*** *higher education system of Azerbaijan, higher education environment, transformation of education*

## ГЕЙДАР АЛИЕВ И ТРАНСФОРМАЦИЯ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**В.Э.Магеррамова**
доктор философии по филологии, доцент
Мингячевирский государственный университет

***Резюме:*** *После обретения независимости Азербайджанская Республика столкнулась с рядом серьезных проблем. Приход к власти Гейдара Алиева в 1993 году стал поворотным в*

*решении ряда проблем за короткий период времени. Под руководством Гейдара Алиева осуществлялась реконструкция системы высшего образования, играющей важную роль в подготовке кадров, отвечающих требованиям новой эпохи, и интеграция среды высшего образования новой независимой Азербайджанской Республики в мировой среде высшего образования, были проведены прогрессивные реформы. В статье рассматриваются решения, принятые Гейдаром Алиевым в сфере высшего образования, и проведенные реформы.*

*В исследовательской работе использовались описание, объяснение, сравнительный анализ, системные методы. Для этого привлечен ряд основных и вспомогательных научных источников по данной теме.*

*Основная выдвинутая научная новизна заключается в том, что в ней в целом рассматривались проводимые реформы системы высшего образования, анализировались такие вопросы, как формирование эффективной среды высшего образования, отвечающей требованиям нового времени, и направление молодежи в зарубежные государства для подготовки высококвалифицированных кадров.*

*Результат исследования. Начиная с 1994 года начался процесс преобразования среды высшего образования Азербайджанской Республики в соответствии с требованиями новой эпохи. С этой целью были переформулированы правовые основы высшего образования, расширено международное сотрудничество в этой сфере. В результате выросли качественные и количественные показатели высшего образования, реализован ряд программ в области обмена студентами с зарубежными странами.*

***Ключевые слова:*** *система высшего образования Азербайджана, среда высшего образования, трансформация образования*

**Elmi redaktor: fil.f.d., dos. N.Manafov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 24.09.2023**
**Çapa qəbul edilib: 01.10.2023**

UOT 81'271;;.085; 808.5; 316.37

# HEYDƏR ƏLİYEVİN FENOMENAL NATİQLİK BACARIQLARI

**Rahilə Mirzəli qızı Məmmədova**
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
rahila.mammadova@mdu.edu.az

***Xülasə***: *Natiqlik bacarıqları siyasi sahəsində çalışan hər bir şəxsin səciyyəvi cəhətlərindən biri olmalıdır. Buraya dərin biliklər, analitik təhlil bacarığı, etos ilə bağlı sosial-psixoloji və mənəvi keyfiyyətlər, nitqin bəlağətli olması daxildir. Ümummilli lider Heydər Əliyevin natiqliyinə parlaqlığı onun çıxışlarının strukturu verirdi. Bu, problemin mövcudluğunun təsdiqi, müsbət informasiyanın qəbulu, izahetmə, şərh edilməsi, problemə yeni rakursdan baxılması, həmçinin problemin həlli yolunun göstərilməsidir. Burada müsbət qiymətləndirməli sözlərdən istifadə etməklə müsbət informasiyanın vurğulanması taktikası müəyyən rol oynamışdır. H.Əliyevin rəhbərliyi altında iqtisadi və sosial sahədə qazanılan uğurların nümayişinə istinad edən çıxışlarının mətnlərində belə hallar çoxdur.*

*Ulu Öndərin nitqlərində, onların məzmununa uyğun diskursiv ritorikanın imkanlarından geniş istifadə edilir. Sosial praktika, real vəziyyət hər hansı bir sosial-siyasi terminin istifadə edilməsi konteksti olduqca zəngin olmuşdur. İnandırmaq sənətində onun əldə etdiyi zirvə xalqın siyasi liderimizə qarşı olan dərin hörmətdə və ehtiramda özünü göstərirdi. Natiqlik sənətinin daha bir təzahürü onda idi ki, H.Əliyev dialoqun cavab nitqində, bir qayda olaraq, "kəskin" problemə toxunan sualla bağlı bu problemi şifahi şəkildə təsdiqləyən vasitələrdən istifadə edərkən problemin mövcudluğunu etiraf etmək taktikasından istifadə edirdi.*

*Ümummilli lider öz nitqlərində auditoriyanın diqqətini cəlb etmək və saxlamaq üçün kommunikativ vasitələrlə yanaşı, monoloqun dialoqlaşdırılması üsullarını da daxil edirdi. Çıxış zamanı o, auditoriya ilə fəal ünsiyyətdə olub. Heydər Əliyev nitqini onu dinləyənin dəyər yönümlərini nəzərə alaraq konkret ünvana yönəldirirdi.*

***Açar sözlər***: *Heydər Əliyev, natiqlik sənəti, siyasi fəaliyyət, siyasi proseslər, dil və nitq, məntiq, diskurs, bəlağət*

## Giriş

Düzgün və inandırıcı danışmaq bacarığı həmişə istedadlı insanların üstünlüyü hesab edilib. Məhz bunun sayəsində onlar inandıra, kütləni idarə edə və qələbə qazana biliblər. Burada dilçilik baxımından diskursiv ritorika xüsusi əhəmiyyət kəsb edir.

Məlumdur ki, diskursiv ritorika natiqlik praktikasında müstəsna rol oynayan nitq təcrübəsidir. Düzgün və inandırıcı danışmaq bacarığında natiqin çox yaxşı hiss etməli və dərk etməli olduğu sosial mühit müstəsna əhəmiyyət kəsb edir.

Təəssüf ki, müasir dil təcrübəsi natiqin düzgün və inandırıcı danışmağı öyrənməsi üçün lazımi şərait yaratmır. Məktəblərdə dilin, qrammatikanın, ədəbiyyatın, natiqlik sənətinin müəyyən elementlərinin öyrənilməsinə baxmayaraq, eyni zamanda, cəmiyyət üzvləri arasında sadə danışmağın zərurəti və bunu hər kəsin bacara biləcəyi fikri geniş yayılmışdır. Bunun üçün sadəcə vurğu, qrammatik qaydalar və s. kimi şeyləri bilmək kifayətdir. Yəni danışan "nəyi nəzərə almalı, nədən danışmalı, necə danışmalıdır, nə vaxt və kimə danışmalıdır?", - deyə düşünmür. Bu gün biz harada olursa-olsun, nitqin şərtləri, məqsədi, imkanları arasında fərq qoymadan danışırıq. Məhz buna görə də Maks Veber bir vaxtlar liderlər arasında belə bir kateqoriyanı ayırmışdır: demaqoq-lider. Söhbət inkişafa, fəaliyyətə, qələbəyə, məqsədə çatmağa çağırış kimi səslənə bilən düzgün nitq sənətindən gedir.

Nitqin mahiyyəti, məzmunu, məcazlardan, müxtəlif fiqurlardan və bədii bəzəklərdən istifadə olunması birbaşa bu və ya digər natiqin, ictimai xadimin yaşadığı dövrlə bağlıdır. Üstəlik, nitq

müəllifi adi nitqdə bütün bu imkanlardan sərbəst istifadə edə bilir, baxmayaraq ki, bir çox insanlarda bunun yalnız bədii nitq üçün xarakterik olduğu təəssüratları yaranır. Əslində fikrin formalaşması, onun ifadəsi və dinləyiciyə çatdırılmasının yaradıcı prosesi var. Burada xüsusidən ümumiyə, yaxud əksinə, ümumidən xüsusiyə doğru bir proses gedir, düşüncə inkişaf edir, bir fikrin digər fikrə proyeksiyası yaranır, müqayisə, qarşı-qarşıya qoyulma, hadisənin təsviri, digər ritorik imkanlar var. Məhz bənzətmə, analogiya və modelləşdirmə vasitəsilə biz yeni ideyalar əldə edə, gözlənilməz postulatlar və fərziyyələr irəli sürə bilərik ki, bu da nitq modelləşdirmə imkanları çərçivəsində həyata keçirilə bilər.

Müasir dövrün görkəmli liderləri, o cümlədən Ümummilli lider Heydər Əliyev kimi adları tarixdə qalmış ictimai-siyasi xadimlər öz fikirlərini ifadə etmək üçün yaradıcı yanaşma imkanlarından böyük məharətlə istifadə edirdilər. Bunu dinləyiciyə çatdırmaq, onu inandırmaq və hərəkətlərinə rəhbərlik etmək üçün edirdilər. Bu məqalədə Ümummilli Liderin ictimai-siyasi fəaliyyətində istifadə etdiyi natiqlik bacarıqlarından bəhs edəcəyik.

**Problemin işlənmə dərəcəsi**

Heydər Əliyev şəxsiyyətinə maraq bu gün formalaşmayıb. Heydər Əliyev uzun illər yalnız Azərbaycanda deyil, həm də Sovet İttifaqının ali rəhbərliyində mühüm vəzifələrdə çalışmış, müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik etmişdir. Onun həyat və fəaliyyəti təkcə daxili siyasi fəaliyyət çərçivəsində deyil, həm də qlobal siyasi proseslər fonunda ölkənin inkişafının məqsəd və vəzifələrini aydın dərk edən siyasi liderin inkişafı və formalaşması nümunəsidir. Bu baxımdan, Ulu Öndərin şəxsiyyətinə, fəaliyyətinə, o cümlədən çıxışlarına, bəyanatlarına, xalqla, rəsmi şəxslərlə, diplomatik korpusun nümayəndələri ilə ünsiyyəti prosesində formalaşan dialoqların mahiyyətinə və məzmununa olduqca böyük diqqət yetirilmişdir. Heydər Əliyevin siyasi bəlağəti, çıxışları, çıxışlarının mahiyyəti və məzmunu çoxsaylı tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Heydər Əliyevin həyatının müxtəlif sahələri və siyasi proseslərin istiqamətləri ilə bağlı ayrı-ayrı fikir və ideyalarını qısa şəkildə əks etdirən kifayət qədər əsərlər vardır. Bu toplular ölkəmizlə bağlı problemlərin, proseslərin, eləcə də xarici siyasətin əhatə dairəsinin genişliyi baxımından böyük maraq doğurur [1].

Heydər Əliyevin istər sadə xalq qarşısında, istərsə də yüksək tribunalarda verdiyi bəyanatlar, nitqlər, çıxışlar kifayət qədər ətraflı təhlil olunub.

Hələ 1998-ci ildə Heydər Əliyevin dilindən, respublikada gedən dil proseslərinə münasibətindən, ölkənin dil siyasətinin formalaşmasında iştirakından bəhs edən kitab nəşr olundu. Müəlliflər qeyd edirlər ki, H.Əliyev ictimai həyatın bir çox sahələrində dərin bilik nümayiş etdirib. Onun maraq dairəsi o qədər geniş, yaddaşı isə o qədər dərin idi ki, onun yanında belə parlaq biliyə, qabiliyyətə, geniş yaddaşa malik başqa birini təsəvvür etmək çətindir [2, s. 5].

Ulu Öndərin dil xüsusiyyətləri əhatəli və geniş şəkildə N.Zamanov tərəfindən təhlil edilmişdir. Müəllif Heydər Əliyevin əsərlərinin, xüsusən də onun nitqlərinin bədii dəyərini, üslub xarakterini müəyyən etmək üçün mühüm işlər görüb. Liderin keyfiyyətləri ilə bağlı olan neologizmlər, metaforalar, xarakterik şəxsiyyət xüsusiyyətləri, onun ölkəyə və xalqa münasibətini müəyyən edən ifadə və fikirlər, frazeoloji vahidlər, ümumiyyətlə, Ümummilli Liderin nitq və çıxışlarının dil xüsusiyyətlərini səciyyələndirən faktları ümumiləşdirilmiş və təhlil edilərək nəzərdən keçirilmişdir. Bütün bu fikirlər Heydər Əliyevin dili ilə bağlı özünəməxsusluqlara həsr olunmuş çoxcildlik monoqrafiyada, eləcə də N.Zamanovun çoxsaylı məqalələrində öz əksini tapmışdır [3; 4]. Mənz buna görə problemin bu aspekti tədqiqat obyekti kimi təyin edilmişdir.

**Müasir dövrdə siyasi natiqliyin metodoloji və sosial əsasları**

Heydər Əliyevin nitqlərinin xüsusiyyətlərinə dair geniş ədəbiyyatın olmasına baxmayaraq, onun çıxışları hələ də diskurs, ritorik xüsusiyyətlər baxımından tam təhlil olunmamışdır.

Məlumdur ki, istənilən inzibati fəaliyyətin əsasında kommunikativ-nitq fəaliyyəti dayanır. Bu fəaliyyətin köməyi ilə informasiya ötürülür, idarəetmə prosesi təşkil edilir, istehsal komandası daxilində münasibətlər tənzimlənir. Kommunikativ proses insan həyatının və bütün insan cəmiyyətinin vacib tərkib hissəsidir. Bir çox humanitar elmlər bu mürəkkəb fenomenin öyrənilməsi ilə bağlıdır.

Nitq üslubiyyatı məsələləri ilə üslubiyyat, poetika, məntiq, ədəbiyyat nəzəriyyəsi, dilçilik, psixologiya, sosiologiya və s. kimi elmlər məşğul olur. Lakin cəmiyyətdə siyasi sistemin formalaşdığı dövrdən inandırmaq qabiliyyəti yüksək qiymətləndirilib. Burada Aristotel, Platon, Sokrat, Siseron və s. kimi görkəmli ictimai-siyasi xadimləri misal kimi göstərə bilərik. Sosial qruplardakı ünsiyyət prosesinin özü, liderlərin kütlə qabağında çıxışlarında onlardan ifadələrdə müstəsna dəqiqlik və eyni zamanda, nitqin bəzəkləri, təqdimat məntiqi, eləcə də ədəbi-bədii yanaşma ilə əldə edilən inandırıcılıq tələb edirdi. Üstəlik burada natiqin özünün müəyyən əxlaqi keyfiyyətləri və qabiliyyətləri böyük önəm hesab edilirdi.

Siyasi texnologiyaların inkişafının müasir şəraitində nitqin yaranmasının psixolinqvistik və psixoloji problemləri, nitq mexanizmləri, nitqin yaradılması qanunları, səmərəli ünsiyyət şəraiti fəal şəkildə öyrənilməyə başlandı. Aydın oldu ki, formalaşmış aydın və inandırıcı nitq bacarıqlarının strukturu və məzmunu, peşəkar ritorik səriştənin zəruri səviyyəsi müasir siyasətçinin peşə fəaliyyətinin məqsədləri, məzmunu və xüsusiyyətləri ilə müəyyən edilir. Peşəkar yönümlü nitq ünsiyyətinin tələblərinə uyğun qurulmuş xüsusi məşqlərin bütöv bir sistemi var.

Həm də yadda saxlamaq lazımdır ki, şifahi nitqlə ümumi humanitar, təbiətşünaslıq, ümumi peşə və xüsusi fənlər arasında inteqrativ əlaqələr mövcuddur. Ümumi mədəni və xüsusi biliklər natiqin imkanlarını, nitqinin inandırıcılığını və parlaqlığını müəyyən edir. Çoxsaylı tədqiqatlar təsdiq edir ki, formalaşmış natiqlik bacarıqların strukturu və məzmunu, peşəkar siyasi nitqin tələb olunan səviyyəsi peşəkar fəaliyyətin məqsədləri, məzmunu və xüsusiyyətləri ilə müəyyən edilir [5, s. 25]. Beləliklə, hər hansı bir nitqin səmərəliliyi ifadənin aktuallığı, nitqin məntiqi, emosionallığı və ifadəliliyi ilə müəyyən edilir. Ən böyük təəssürat şifahi nitqdir, yəni kağız üzərindən oxunmur. Dinləyicidə nitqin məhz nitq anında baş verdiyi təəssüratını yaratmaq vacibdir ki, bu da auditoriya ilə ünsiyyət, adi söhbət kimi səslənməlidir.

İnandırıcı nitq fenomeni, xüsusən də siyasi proseslərlə əlaqəli, ilk növbədə insanın özü, onun fiziki və psixo-emosional xüsusiyyətləri ilə əlaqələndirilir. Məlumdur ki, danışan adam yaxşı nəfəs almalıdır, yəni düzgün nəfəsalma vərdişlərinə sahib olmaq yaxşı, zəngin nitq nüansları üçün ilkin şərtdir. Düzgün danışan insan 10 dəqiqə keçsə də, yorularaq fasilə verməz. Nitq aydın və mənalı olmalıdır. Natiqin səsi yaxşı eşidilməlidir. Səsin gücü, vurğusu, temp, tembr, rezonans vəziyyətə uyğun tənzimlənir, nəticədə nitqin hamarlığına nail olunur. Tarixdə öz şəxsiyyətləri və diksiyaları sayəsində çox uğur qazanan natiqlər məlumdur.

**Heydər Əliyevin natiqlik bacarıqları**

Məlum olduğu kimi, Heydər Əliyev hündürboylu, yaxşı bədən quruluşlu, mükəmməl diksiyaya, intonasiyaya və artikulyasiyaya malik bir insan idi. Bütün bunlar onun nitqinin sadə kütlə və ya siyasi elitanın yüksək rütbəli nümayəndələri olmasından asılı olmayaraq, bütün dinləyicilər tərəfindən aydın qəbul edilməsinə kömək edirdi. Bundan əlavə, nitqin ümumi quruluşu, məntiqi, onun məqsədi, mətndəki ardıcıllıq, nitqin xarakteri, eləcə də həmin an onu dinləyən auditoriyanın xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edirdi.

Bir nümunəyə müraciət edək: "Hörmətli qonaqlar! Sizi səmimi qəlbdən salamlayıram. Minsk qrupu həmsədrlərinin, sizin Azərbaycana, ümumiyyətlə, bizim regiona bu səfəriniz çox əlamətdardır və əhəmiyyətlidir. Təəssüf ki, Minsk qrupunun fəaliyyəti 1999-cu ildə istənilən səviyyədə olmamışdır. Mən bu barədə fikrimi ATƏT-in İstanbul sammitindəki çıxışımda da bildirdim və bu gün bir daha deyirəm. 1998-ci ilin sonunda Minsk qrupu tərəfindən təqdim olunmuş "ümumi dövlət" formulasını Azərbaycan qəbul etməyəndən sonra, təəssüflər olsun ki, Minsk qrupunun fəaliyyəti müəyyən qədər dayandı, zəiflədi. Biz bundan narazıyıq. Mən bunu bir daha bildirmək istəyirəm" [6, s. 6]. Bu parçada biz yığcam, son dərəcə informativ, məntiqi dayanıqlı, siyasi və praktiki cəhətdən məqsədəuyğun, ardıcıl olaraq konkret məqsədə, nitqə aparan sözlər görürük. Salamlaşmadan sonra dərhal ATƏT-nin fəaliyyətinin qiymətləndirilməsi aparılır, problem xüsusi qeyd olunur, mərhələlərlə, məsələnin tarixi ilə, yekun nəticələrlə xarakterizə olunur. Bu nitq müqəddimə xarakteri daşısa da, bütün dialoqa, danışıqlara istiqamət vermiş, onun müzakirə predmetini təyin etmişdir.

H.Əliyev nitqi söyləyərkən heç vaxt tələsməmişdir. Hansı dildə danışmasından asılı olmayaraq, sait və samitləri aydın tələffüz edirdi. Onun səsi güclü, yaxşı rezonanslı idi. Vurğu cümlənin ən vacib komponentidir. Hər cümlədə yalnız bir vurğu zirvəsi var. Bunu H.Əliyevin nitqlərində aydın şəkildə müşahidə etmək olur. Daha sonra, vurğu düzgün qoymaq düzgün danışmaqdır. Azərbaycan dilində vurğunun böyük əhəmiyyəti var. Ulu Öndər bunu gözəl bilirdi.

H.Əliyev dinləyicilərə təsir etmək üçün həm məntiqi, həm də emosional arqumentlərdən məharətlə istifadə edirdi. Məlum olduğu kimi, məntiqi arqumentlər faktlar və onların ümumiləşdirilməsi (induksiya), analogiya (yalnız hadisələrin müqayisəsi məqsədəuyğun olduqda istifadə olunur), səbəb asılılığı haqqında nəticəçıxarma (onun iki növü var: səbəbdən nəticəyə nəticə və nəticədən səbəbə nəticə), bir də əqli nəticə və ya deduksiyadan ibarətdir [7]. Məsələn, 20 yanvar faciəsinin 10-cu ildönümü haqqında danışarkən o, öz çıxışını belə başlamışdır: "1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı ağır cinayət törədilmişdir. Azərbaycanın ərazi bütövlüyünün pozulması cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı apardığı ədalətsiz və qərəzli siyasətə, yerli rəhbərliyin yarıtmaz fəaliyyətinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədi ilə Bakıya və respublikanın bir neçə rayonuna qanunsuz olaraq sovet qoşun hissələri yeridildi. Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı və qətlə yetirildi. Bununla Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi" [6, s. 21]. Burada ümumiləşdirmələrdən ("Azərbaycan xalqına qarşı ağır cinayət", "görünməmiş qəddarlıq", "Azərbaycan xalqına qarşı kütləvi terror aktı"), analogiya (terror aktı), əqli nəticənin ("Bununla Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi") imkanlarından istifadə edilib.

Natiqlik sənətinin daha bir qrup xüsusiyyətləri var ki, bunlardan da istifadə edilməsində H.Əliyev böyük ustalıq nümayiş etdirirdi. Bunlar emosional (psixoloji) arqumentlərdir, yəni fiziki rifah (həyat və təhlükəsizliyin qorunması), auditoriyanın sərbəstliyi, rahatlığı, vərdişləri, insanların maddi, iqtisadi və sosial maraqları, dinləyicilərin özünə hörməti, ləyaqət hissi, bir də onların həqiqət və ədalət istəyi [8]. Belə xüsusiyyətləri H.Əliyevin iştirak etdiyi hər bir hadisədə, prosesdə görmək olar. Diskurs baxımından da hər hansı bir sözü, ifadəni, söz birləşməsini götürməli olsaq, görə bilərik ki, burada sosial amillər əsaslı şəkildə hər bir canlı ünsiyyət halında iştirak edir. Bir misal gətirək. Elm adamları, ziyalılar onunla görüş barədə belə yazırlar: "Təbii ki, çox narahat idim. Lakin Heydər Əliyev ilk dəqiqələrdən mənimlə çox səmimi danışmağa başladı, səhhətimlə maraqlandı, dedi ki, az da olsa, əsərlərimlə, televiziyadakı çıxışlarımla tanışdır və çox keçmədən hər şey öz yerinə düşdü və həyəcanım keçdi..." [2, s. 5].

Heydər Əliyev ədəbi Azərbaycan dilində dialektizmlərdən istifadə etmədən danışır, üstəlik, oxuduğu və ya eşitdiyi müxtəlif mətnlərin, həmsöhbətinin nitqinin mənasını iki-üç sözlə sakitcə dinləyiciyə çatdırırdı. Yəni o, eşitdikləri əsasında müstəqil şəkildə nitq formalaşdırırdı. Bu onu deməyə əsas verir ki, o, öz yaradıcılığı ilə daim müəyyən nitq təfəkkürü əsasında və mətndə işlənmək üçün olan açar sözlər əsasında nitqin formalaşmasına həmişə hazır idi. Bu onu göstərir ki, Ulu Öndərin təfəkküründə təfəkkürlə nitq arasında aydın əlaqə var idi, yəni nitq zamanı təfəkkür prosesi gedirdi və bu düşüncə zamanı nitq formalaşırdı. Praktiki olaraq, bu o deməkdir ki, bu prosesdə fikrin əsas hissəsi açar söz və ya açar sözlər silsiləsi ilə təmsil olunur. Nitqi formalaşdıran zehnə impuls verən açar sözdür. Buradan belə nəticəyə gəlmək olar ki, Ümummilli Liderin nitq praktikasında aydın diskurs var. Öz fikrini daha aydın ifadə etmək və onu dinləyiciyə çatdırmaq üçün açar sözlərlə əlaqəli sözləri sərbəst, inandırıcı şəkildə ifadə etmək – bu, yalnız liderə xas olan keyfiyyətdir!

Qeyd edildiyi kimi, natiqin nitqinin sosial-psixoloji və fonoloji xüsusiyyətləri də böyük əhəmiyyət kəsb edir. Söhbət nitq zamanı düşüncələrin, fikirlərin tədricən hazırlanmasından gedir. Nəticədə ifadəliliklə birləşən üslub tərzi əmələ gəlir. H.Əliyevin timsalında təkcə ayrı-ayrı adamla deyil, minlərlə insan kütləsi ilə də inandırıcı danışa bilən, əhval-ruhiyyəni dəyişə bilən, yeni baxış bucağı formalaşdırıb inandıran, sonda insanları öz ardınca apara bilən parlaq natiq obrazı formalaşmışdır. Bunun bariz nümunəsi 1994-cü ildə Surət Hüseynovun başçılıq etdiyi separatçı nümayişlər zamanı (1993-cü ildə AXC hakimiyyətinə qiyam edən Surət Hüseynov 1994-cü ilin

oktyabrında Heydər Əliyevə qarşı idi. Buna etiraz olaraq, oktyabrın 4-5-də Bakıda aksiyalar keçirilirdi [9]) Heydər Əliyevin prezident aparatı qarşısında etdiyi nitqdir. Onun xalqa bir dəfə teleekrandan xalqa müraciət etməklə, iki saat ərzində prezident aparatının qarşısındakı meydana toplaşan çoxminli izdiham düşmən qarşısında birliyə, dövlət suverenliyi və müstəqilliyinin qorunub saxlanması çağırışını birmənalı şəkildə dəstəkləyib.

Heydər Əliyev müəyyən mövzuda danışarkən öz təəssüratlarından, öz fikrindən obrazlı, valehedici danışa bilir, problemlə bağlı bəzi əhvalatları, bəzi halları yada salır, müsbət əhval-ruhiyyəni yaratmağı, dinləyicilərin diqqətini bu mövzuya yönəltməyi bacarırdı, burada doğru istiqamət seçərək məqsədini həyata keçirirdi. Eyni zamanda, bütün diqqətini problem üzərində cəmləşdirirdi, ondan yayınsa belə, söhbətin təbii və rahat getməsi üçün bunu dəqiq edirdi. Bununla belə, o, çıxışının əsas konturunu və məntiqini itirmirdi. O, dinləyicidə gərginlik yaratmalı olan başlanğıca diqqət yetirir, bununla yanaşı gərginliyin ən yüksək nöqtəyə çatdığı kulminasiyanı, gərginliyin rahatlamasına şərait yaradan sonluğu da nəzərə alırdı. Eyni zamanda nitqin məqsədini yaxşı xatırlayır və müəyyən nitq qüsurlarına, tıxaclara fikir vermir, vaxtında pauza verirdi.

Yuxarıda verilmiş birinci nümunədə biz sadəcə belə bir başlanğıc prosedurunu görə bilərik. Yəni nitqin başlanğıcı, kulminasiyası və sonu var. H.Əliyev çıxış edərkən heç vaxt tələsmirdi. Onun nitqi rəvan idi, lakin eyni zamanda çox da cilalanmış deyildi, təsadüfi dayanmalar, təsadüfi dönüşlər olurdu, amma onlar fikrin düzgün ifadəsini təhrif etmirdi və bunun müqabilində nitq müəyyən ifadəlilik və canlılıq qazanırdı.

Ulu Öndərin çıxışları yarı-sərbəst, sakit, hətta axıcı idi və təbii ki, dinləyiciyə müstəsna dərəcədə böyük təsir bağışlayırdı. Cümlələr Heydər Əliyev tərəfindən yenidən qurulmadan, cümlə hissələri uzadılmadan və fasiləsiz sona qədər tələffüz olunurdu. Yəni o, lüzumsuz pauzalar və dayanmalar olmadan sakit nitq axınını təmin edirdi. Münasibətlərində təfərrüatları necə təqdim etməyi, müxtəlif problemlərdən ifadəli danışmağı bacarıq, onları dinləyiciyə yaxın, anlaşıqlı obrazlarda təqdim edir, eyni zamanda uyğun müqayisələr aparırdı. Heydər Əliyev söz ehtiyatını daim genişləndirirdi. O bun vəzifəsindənkənar edirdi. O, öz biliklərini daim genişləndirən, hər bir sosial məsələ ilə maraqlanan bir insan idi. Bundan əlavə, onun fenomenal yaddaşı var idi, onilliklər əvvəl onunla ünsiyyətdə olan insanları xatırlayırdı və bu, onun böyük üstünlüyü idi.

Məlumdur ki, çap nitqi danışıqla yaxşı uyğunlaşmır. Təbii ki, hər iki halda struktur, kompozisiya var, lakin eyni zamanda çıxışlar və mətnlər bir-birindən aydın şəkildə fərqlənir. Daimi nitq təcrübəsi, müzakirələr, dərk edilməli və sonra təşkilati fəaliyyətlə, insanlarla ünsiyyət yolu ilə həll edilməli olan problemlər şifahi nitq bacarıqlarının formalaşmasına kömək edir. Siyasi fəaliyyətdə bunun müstəsna əhəmiyyəti var. Həm də təkcə seçkilər zamanı deyil, birbaşa həyatın müxtəlif sahələrində çalışarkən.

Heydər Əliyev çox quru və cəlbedici olmayan mətnlərdən, çıxışlardan uzaq durmağa çalışırdı. Yəni, obrazlı desək, quru faktlara əməli iş donu geyindirir, real faktlarla işin real vəziyyətini göstərirdi. O, nitqini gözlənilməz sualla və ya müraciətlə başlaya bilərdi, yəni düşünməyə vadar edən motivlər axtarır və sonra təqdim olunan faktlara əsaslanaraq, müzakirə olunan problemi həll etməyə çalışırdı. Təbii ki, xalqın iradəsi, maraqları, milli inkişafın ümumi strategiyası ilə üst-üstə düşən fikrini bildirdi. O, fenomenal yaddaşı sayəsində əqli cəhətdən müqayisə, analogiyalar apara, məntiqi nəticələr çıxara bilirdi. Ölkənin ali rəhbərliyinin yorulmaz zehni işi onun yaddaşının daim məşq edilməsinə, müxtəlif problemlər üzrə ümumiləşdirmə və nəticə çıxarmaq üçün fəaliyyət göstərməsinə öz töhfəsini verirdi.

Heydər Əliyev yaddaşı ilk növbədə bir neçə hadisənin kompleks təsiri ilə gücləndirmişdir: cəmləmə və ümumiləşdirmə (qavrayış qabiliyyətinin artırılması); müqayisə və assosiasiyaların yaradılması (yaddaş körpüləri); təkrarlar. Onun yaddaşı həm də maraq dərəcəsi və konsentrasiya qabiliyyəti, əlavə mülahizələr, eləcə də ətrafdakı hadisələrlə əlaqəni kəsmək imkanı ilə müəyyən edilirdi: “Azərbaycan mahnı sənətinin zəngin ənənələrini özündə əks etdirən nəğmələriniz estrada tarixinə həmişəlik daxil olmuşdur. Əgər XX əsrin birinci yarısında sizin atanız, Azərbaycanın peşəkar vokal sənətinin banisi böyük Bülbül öz yaradıcılığında Azərbaycan muğam sənəti ilə Avropa ifaçılıq məktəbinin əvvəllər misli görünməmiş vəhdətini yaratmağa nail ola bilmişdisə,

əsrin ikinci yarısında sizin yaradıcılığınız müasir estrada mahnı sənətinin milli xalq melodiyalarımızın ritmləri ilə birləşməsinin rəmzinə çevrildi" [6, s. 433].

Bu nümunədən göründüyü kimi, H.Əliyev müsiqi sənətini geniş müqayisələr, xatirələr, analogiyalar əsasında qiymətləndirərək nəticəyə gəlir.

Heydər Əliyev həmsöhbətini fəal dinləyirdi. O, həmsöhbətinin ifadəsini orijinal mətnə yaxın təkrarlaya bilirdi. Bundan əlavə, o, müdaxilə yolu ilə söhbətin gedişatını bu və ya digər istiqamətə yönəldə, onu həmsöhbətin ifadə etdiyi fikirlərdən birinə yönəldə bilərdi. Bundan əlavə, o, öz ifadəsində həmsöhbəti orijinal ifadəni deməyə vadar edən motivlər barədə fərziyyə irəli sürə bilərdi. Ümumiyyətlə, H.Əliyev iradları ilə həmsöhbətinin nitqinə mane olmadan, sükutla diqqətlə dinləməyi bacarırdı. Bu da müəyyən xarakter, iradə, həyat mövqeyi tələb edir. Səssiz dinləmək qabiliyyəti fiziki və psixoloji diqqət tələb edən aktiv bir prosesdir. Elə olur ki, bu, həmsöhbətə məlumat təqdim etməkdə kömək etmək üçün yeganə fürsətdir, xüsusən də emosionaldırsa, həyəcanlıdırsa, fikirlərini formalaşdırmaq onun üçün çətindirsə, eşidilmək istəyirsə və s.

Heydər Əliyev beynəlxalq görüşlərdə tez-tez polemikaya girir, qədər mürəkkəb bu və ya digər kifayət problemi müzakirə edirdi. Bunu mübahisə adlandırmaq olmaz, çox güman ki, hər kəsin öz mövqeyini müdafiə etdiyi müzakirədir. Həqiqət naminə arqument ideyanı, düşüncəni əsaslandırmaq üçün sınaqdan keçirmək, onun lehinə olan dəlilləri və ona etirazları aydınlaşdırmaq, həqiqəti axtarmaq vasitəsidir. Belə bir mübahisədə arqumentlər diqqətlə seçilir və təhlil edilir, qarşı tərəfin mövqeləri və baxışları diqqətlə qiymətləndirilir, yəni həqiqətin birgə axtarışı gedir. Belə dialoq ancaq problemi bilən və onun həllində maraqlı olan səriştəli insanlar arasında mümkündür. Burada əsas motiv ədalətli işi müdafiə etmək, ictimai mənafeləri qorumaq, haqlı olduğuna əmin olmaq və prinsipial mövqe tutmaqdır. Heydər Əliyevin mövqeyi həmişə onun əqidəsinə uyğun olub. O, öz mövqeyini təkcə xidmət zamanı və ya hər hansı şəraitə görə müdafiə etməyib. Heydər Əliyev eyni zamanda mübahisənin ümumi mənzərəsini daim diqqətdə saxlayırdı, tutduğu mövqedən, həmin anda nə edildiyindən, nə üçün edildiyindən xəbərdar idi, yəni bu işlərə nəzarət edirdi. O, bilirdi ki, nə üçün mübahisə etdi, hansı mövqelərini qeyd etdi və hərəkətlərini əvvəlcədən necə hesabladı.

Bu da polemikanın bir nümunəsi: "Şadam ki, Sizin parlamentin sədri ilə görüşə bildim. Çünki parlamentlər arasında münasibətlər də çox vacibdir və biz bu istiqamətdə də əlaqələr yaratmaq istərdik. Siz sərmayələr haqqında danışdınız. Öz iqtisadiyyatını gələcəkdə daha fəal inkişaf etdirmək üçün sərmayələr Slovakiyaya da çox gərəklidir. Xarici sərmayələrə böyük ehtiyacımız var, buna görə də Qərbin banklarının və ya iri şirkətlərinin Slovakiyaya gəlməsini, onların ölkəmizə sərmayə qoymasını təşviq edəcək qanunlar qəbul etmişik. Siz dediniz ki, təsərrüfatınızın inkişafı üçün bu da lazımdır. Xarici sərmayələrə bizim də ehtiyacımız çoxdur və ümidvarıq ki, onlar Slovakiya iqtisadiyyatını irəlilətməyimizə kömək edəcəkdir" [6, s. 409]. Burada çıxış edən Eduard Kukanın mülahizələrinə verilən cavabın nə dərəcədə dəqiq və öz ölkəmizin maraqlarına cavab verdiyini əyani şəkildə görmək olar.

Heydər Əliyev həm də təlqinçiliyə (suggestivliyə) malik idi. Suggestivlik həmsöhbətin təxəyyülünə, emosiyalarına, təhtəlşüuruna sosial statusu, cazibəsi, iradəsi, intellektual və xarakteroloji üstünlüyü, güclü biosahəsi, həmçinin nitqinin qurulması metodu (arqumentasiya səviyyəsi, təbiəti) ilə təsir etmək qabiliyyətidir. Burada məntiqi və emosional komponentlərin birləşməsi, bioloji enerji ilə gücləndirilməsi vəziyyəti yaranır. Bunu xalq ilə bütün görüşlərində, söhbətlərində əyani şəkildə görmək olar. H.Əliyev təhlil etdiyi materialla səthi, diqqətsiz yanaşmağa imkan verə bilməzdi. Bütün dövrlərdə natiqdən ədəb, yüksək əxlaq, doğruluq, fəzilət kimi keyfiyyətlər tələb olunurdu. Bu keyfiyyətləri sayəsində insanlar natiqin çıxışını dinləyir, onun arxasınca gedirdilər. Azərbaycan xalqı öz rəhbərinə inanır, onun məsləhət və çağırışlarına əməl edirdi.

Ümummilli Lider öz çıxışlarında yarı həqiqətlərdən, çaşdırmaqdan çəkinirdi. O, diqqətli idi və dinləyicilərini yersiz söhbətdən, demaqoq yayınmalardan, səs-küylü ifadələrdən qoruyurdu. O, əsassız açıqlamalar verməzdi, əksinə, dediklərini mümkün qədər aydın və inandırıcı sübutların köməyi ilə təsdiq etməyə çalışırdı. Heydər Əliyev heç vaxt ümumi sözlərlə danışmayıb. Onyn çıxışları konkret və əsaslı, inandırıcı və cəlbedici olub.

**Nəticə**

Ümummilli lider Heydər Əliyevin şifahi nitqlərində natiqlik problemlərinə ictimai və elmi maraq onun mətnlər üzərində apardığı nəhəng iş, nəticədə natiqlə dinləyicinin maraqlarının üzvi şəkildə uzlaşdırılması ilə əlaqəlidir. H.Əliyevin çıxışlarında ön planda Vətən, xalq, ölkənin müstəqilliyi dayanırdı. O, hər bir insanın öz daxili dünyasının əksi olduğunu aydın dərk edir, xalqın ona etimad göstərməsi üçün çalışırdı. O, öz borcunu yerinə yetirməkdən həzz alırdı, bunun da təzahürünü onun parlaq natiqlik bacarığında görmək olur.

Heydər Əliyevin inandırma sənəti illər ərzində formalaşmış və öz əqidəsi və həyati mövqeləri ilə tamamlanmışdır. Ulu Öndərin təsəvvüründə sözün qüdrəti ilə dinləyici kütləsini özünə cəlb etmək, onların rəğbətini qazanmaq, iradəsini istədiyin yerə yönəltmək və onu istədiyin yerdən çevirmək bacarığından gözəl bir şey yox idi. O, başa düşürdü ki, natiq danışmaq istədiyi mövzuya yiyələnməyibsə, natiqlik mümkün ola bilməz. Nitq mövzu haqqında bilikdən irəli gəlməli və inkişaf etməlidir.

Heydər Əliyevin natiqlik məharətinin əsas xüsusiyyətlərini elmi mənada müəyyən etmək ölkənin siyasi elitasının, Ümummilli Liderin böyük işini davam etdirməyə layiq kadrların yetişdirilməsinə kömək edə bilər. Bu, insanları inandırmaq və onlara rəhbərlik etmək bacarığıdır. Natiqlikdə peşəkar bacarıqların formalaşdırılması zəmanəmizin böyük natiqlərinin, o cümlədən Heydər Əliyevin təcrübəsinin öyrənilməsinə əsaslanmalıdır.

İctimai və işgüzar ünsiyyət müasir insanın gündəlik həyatına fəal şəkildə daxil olunub. Konfranslarda, görüşlərdə iştirak edir, səsli messencerlər vasitəsilə bir-birimizlə əlaqə saxlayır və informasiyanı mənimsəyirik. Bu proses çox aktivləşib və natiqlik hər bir insana cəmiyyətdə layiqli yer tutmaq bir zərurətə çevrilib. Anlaşıqlı, zəkalı və sərbəst nitq siyasətçilərlə yanaşı istənilən peşə sahibinin peşəkar bacarıqlarından biri olmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev. Müdrik fikirlər. İyun 1993-1998 oktyabr. Birinci kitab. Regionların inkişafı ictimai birliyi. Bakı: Çaşıoğlu, 2008, 203 s.
2. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Bakı: Elm, 1998, 196 s.
3. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2020, 225 s.
4. Zamanov N. Heydər Əliyev nitqində qətiyyət / "Təbib" qəz., № 11(1543), 2012, 14 iyun
5. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 2013, 277 s.
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Kitab 24. Bakı: Azərnəşr, 2008, 504 s.
7. Məntiq. Mühazirələr toplusu. Dərs vəsaiti. Bakı: Azərtədrisnəşr, 2016. 354 s.
8. Həmzəyev M.Ə., Əmiraslanova C.F. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti. Bakı: Nurlan, 2007, 180 s.
9. Bir şəklin tarixçəsi: Heydər Əliyevin qələbəsi, Surət Hüseynovun həbsi... [Elektron resurs] URL: https://modern.az/

## THE PHENOMENAL SPEAKING ABILITIES OF HEYDAR ALIYEV

**R.Mammadova**
doctor of philosophy in philology
Mingachevir State University

***Abstract:*** *Public speaking skills should be one of the important qualities of every person working in the political sphere. They include deep knowledge, the ability for qualitative analysis, socio-psychological and moral qualities associated with ethos, eloquence. The brilliant oratory of national leader Heydar Aliyev also came from the structure of his speeches. This is confirmation of the existence of a problem, acceptance of positive information, explanation, interpretation, a look at*

*the problem from a new point of view, as well as an indication of the way to solve the problem. Here, the tactic of emphasizing positive information with the help of positive words played a certain role.*

*There are many such cases in the texts of Heydar Aliyev's speeches, since it is about demonstrating the successes achieved in the economic and social spheres. In the speeches of the great leader, the possibilities of discursive rhetoric are widely used in accordance with the content. Social practice, the real situation, the context of the use of any socio-political term was used in a complex way. The pinnacle that he reached in the art of persuasion was manifested in the deep respect and reverence of the people for our political leader. Another manifestation of the art of public speaking was that H. Aliyev used the tactic of recognizing the existence of a problem when he used the means of verbal confirmation of this problem in the response speech of the dialogue, as a rule, in connection with a question concerning an "acute" problem.*

*In addition to communicative means to attract and hold the attention of the audience, the national leader included monologue and dialogue techniques in his speeches. During the performance, he actively communicated with the audience. Heydar Aliyev sent his speech to a specific address, taking into account the value orientations of those who listened to him.*

***Keywords****: Heydar Aliyev, oratory, political activity, political processes, language, speech, logic, discourse, eloquence*

## ФЕНОМЕНАЛЬНЫЕ ОРАТОРСКИЕ СПОСОБНОСТИ ГЕЙДАРА АЛИЕВА

**Р.М.Мамедова**
*доктор философии по филологии*
*Мингячевирский государственный университет*

***Резюме:*** *Навыки публичных выступлений должны быть одним из важных качеств каждого человека, работающего в политической сфере. Они включают в себя глубокие знания, способность к качественному анализу, социально-психологические и нравственные качества, связанные с этосом, красноречие. Блестящее ораторское искусство общенационального лидера Гейдара Алиева исходило также из структуры его выступлений. Это подтверждение существования проблемы, принятие положительной информации, объяснение, интерпретация, взгляд на проблему с новой точки зрения, а также указание пути решения проблемы. Здесь определенную роль сыграла тактика подчеркивания положительной информации с помощью положительных слов. Таких случаев в текстах выступлений Г.Алиева много, поскольку речь идет о демонстрации успехов, достигнутых в экономической и социальной сферах.*

*В выступлениях великого лидера широко используются возможности дискурсивной риторики в соответствии с содержанием. Социальная практика, реальная ситуация, контекст употребления любого социально-политического термина использовались в комплексном виде. Вершина, которой он достиг в искусстве убеждения, проявилась в глубоком уважении и благоговении народа к нашему политическому лидеру. Другим проявлением искусства публичного выступления было то, что Г.Алиев использовал тактику признания наличия проблемы, когда использовал средства вербального подтверждения этой проблемы в ответной речи диалога, как правило, в связи с вопросом, касающимся «острой» проблемы.*

*Помимо коммуникативных средств для привлечения и удержания внимания аудитории, общенациональный лидер включил в свои выступления монолого-диалогические приемы. Во*

*время выступления он активно общался со зрителями. Гейдар Алиев направлал свое выступление на конкретный адрес, учитывая ценностные ориентации тех, кто его слушал.*

***Ключевые слова:*** *Гейдар Алиев, ораторское искусство, политическая деятельность, политические процессы, язык, речь, логика, дискурс, красноречие*

**Elmi redaktor: fil.e.d., dos. F.Namazova**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 25.09.2023**
**Çapa qəbul edilib: 02.10.2023**

UOT 94(479.24); 316.37

# AZƏRBAYCANIN MİLLİ İNTİBAHININ HEYDƏR ƏLİYEV DÖVRÜ

**Anar Nadir oğlu İsmayılov**
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
anar.ismayilov@mdu.edu.az

***Xülasə:*** *Məqalədə Vətən tarixinin ən mühüm dövrlərindən biri – yeni tarixi terminologiya ilə üçüncü intibah dövrü adlandıra biləcəyimiz zamanın hadisə və prosesləri təhlil olunmuşdur. Həmin dövrün Heydər Əliyevin adı ilə birbaşa bağlı olması məsələsi mötəbər mənbələrdən əldə edilmiş faktların dili ilə əsaslandırılmışdır. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi iki dövrdə – həm sovet hakimiyyəti, həm də müstəqillik illərində baş vermiş hadisə və proseslər arasında müqayisəli təhlillər və paralellər aparılmış, dövrlər arasında səbəb-nəticə əlaqəsi qurulmuşdur. Azərbaycanın hazırki intibahını təmin edəcək siyasi xəttin əsaslarının Ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə daha da möhkəmləndirildiyi aydınlaşdırılmışdır. Belə bir qənət irəli sürülmüşdür ki, Ulu Öndər bu cür siyasi fəaliyyəti ilə nəinki Azərbaycanı yeni intibaha qovuşduran təməlləri müəyyənləşdirmiş, həm də intibahı öz fəaliyyəti ilə gerçələşdirəcək siyasi lideri – İlham Əliyevi yetişdirmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, Bakı, sovet, milli intibah, müəssisə, fabrik*

Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətini Azərbaycanın 5000 ildən artıqdır ki, mövcud olan dövlət ənənələri kontekstində tədqiq etdikdə aydın olur ki, o, fəaliyyəti ilə milli intibahı təmin edən nadir liderlərdən biri olmuşdur. Aparılan təhlillər Azərbaycanın Heydər Əliyevə qədərki dövlətçilik tarixində ancaq iki dönəmi milli renessans – intibah dövrü kimi xarakterizə etməyə imkan verir. Bunlardan biri Atabəy Şəmsəddin Eldənizlə başlayan Eldənizlər intibahı, digər isə Şah İsmayıl Xətainin vahid Azərbaycan dövlətini qurması ilə başlayıb, I Şah Abbasın hakimiyyətinin sonuna qədər davam edən Səfəvi intibahı dövrüdür. Qəti vurğulamaq olar ki, Səfəvilərin zəifləməsindən və süqutundan sonra milli intibahı təmin etmək Heydər Əliyevə qədər heç bir siyasi liderə və dövlət xadiminə qismət olmamışdır. XVII əsrdən XIX əsrin 70-ci illərinə qədər davam edən dönəmdə də ictimai-siyasi, mədəni-iqtisadi tariximizdə ayrı-ayrı tarixi hadisələr baş vermiş, cüzi də olsa hansısa nailiyyətlərə imza atmaq mümkün olmuşdu. Lakin milli intibah mahiyyət etibarilə bu nailiyyətlərdən çox-çox yüksəkdə durur. Milli intibah anlayışının mahiyyətində həm siyasi, həm iqtisadi, həm mədəni nailiyyətlərin kompleksi dayanır. Ən əsası bu nailiyyətlərin millətin inkişafına xidmət etməsi nəzərdə tutulur.

XX yüzilliyin 60-cı illərinin sonundan 80-ci illərin əvvəllərinə qədər Azərbaycan SSR-ə rəhbərlik etmiş Heydər Əliyev Azərbaycanın Milli İntibahını təmin etmək üçün məqsədyönlü fəaliyyətə başlamış, Sovet rəhbərliyinin yaratdığı bütün maneələrə baxmayaraq, mümkün görünən və görünməyən ən müxtəlif vasitələrdən istifadə etməklə, Azərbaycanda kompleks inkişafı təmin edə bilmişdi. O zamana qədər Azərbaycan SSR-in dövlət sistemində kök salmış yad ünsürlərin sayının tədricən azaldılması, azərbaycanlı kadrların önə çəkilməsi, strateji əhəmiyyət daşıyan sahələrə onların təyin edilməsi diqqəti cəlb edirdi. Müdrik dövlət xadimi eks-imperiyanın müttəfiq respublikalarının, sosialist quruluşlu digər ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə Azərbaycan övladlarını təhsil almaqdan ötrü göndərərək, gələcəkdə ölkənin siyasi və dövlət idarəçiliyində iştirak edəcək milli kadrların yetişdirilməsinə çalışmışdır.

O zaman Azərbaycanda xalq təsərrüfatının davamlı inkişafının təmin olunmasından ötrü SSRİ miqyasında bir çox qərarların qəbuluna, ölkədə ən müxtəlif tələbat mallarına olan tələbi ödəyəcək fabrik və zavodların tikilməsinə, əhalinin iş yerləri ilə təmin olunmasına, sosial rifahın yüksəlməsinə məhz Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində nail olmaq mümkün olmuşdur. 1969-cu ildən 1982-ci ilə qədər keçən illər ərzində Azərbaycanın xalq təsərrüfatının çiçəklənməsinə

töfhə verən 173-dən artıq yeni sənaye müəssisəsi inşa olunaraq istifadəyə verilmişdi. Eyni zamanda ölkədə əvvəlki illərdən mövcud olan istehsal müəssisələrinin fəaliyyətinin o dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə yenidənqurma işləri aparılmışdı. Yeni istehsalat sahələri yaradılmış və əhalinin istifadəsinə verilmişdi. Həmin iqtisadi qurumlar içərisində keçmiş SSRİ-də ən böyük olan Bakı Məişət Kondisionerləri zavodu xüsusi yer tuturdu. Bu müəssisənin qurulmasında iştirak edənlər sonralar Heydər Əliyevin xarici ölkələrin təcrübəsinin öyrənilməsi istiqamətində atdığı addımları xüsusi qeyd edirlər. Həmin illərdə Azərbaycanda Bakı radioquraşdırma, "Azon", Elektron Hesablama Maşınları, Süni gön-dəri və Dulus boruları zavodları yaradılmışdır. Mühüm məsələlərdən biri mənzillərin inşası idi. Bakıda və Mingəçevirdə iripanelli evtikmə kombinatları məhz bu illərdə fəaliyyətə başlamışdı. Yaradılan zavodların əhalinin təsərrüfat ənənələrinə uyğunluğuna xüsusi önəm verilirdi. Həmçinin xammal mənbəyinə yaxınlıq nəzərə alınırdı. Yevlaxda yunun ilkin emalı fabrikləri, Lənkəranda və Xaçmazda konserv, Masallıda keramzit çınqıl zavodları, Bakıda və Xankəndində ayaqqabı fabrikləri, Ələtdə ağac emalı kombinatı, Gəncədə qənnadı fabriki və ət kombinatı, Şəkidə tütün fermentləşdirmə müəssisələri yaradılarkən məhz bu məqamlar nəzərə alınmışdı. Həmin illərdə Naxçıvan MSSR ərazisində 13, respublikanın ən iri sənaye şəhərlərindən olan Bakıda 28, Gəncədə 7, Sumqayıtda 6, Mingəçevirdə 5 və Şirvanda 3 xüsusi əhəmiyyətli olan yeni sənaye müəssisələri inşa olunmuş və fəaliyyətə başlamışdı [1, s. 16-17].

Heydər Əliyev zəngin neft və təbii qaz sərvətlərinə malik olan Bakıda, zəngin su ehtiyatlarına və təbii gözəlliklərə sahib olan Qarabağda əhalinin etnodemoqrafik tərkibinin azərbaycanlılarının əleyhinə dəyişdirilməsinin qarşısını almışdır. XX əsrin 20-ci illərindən etibarən Bakıda bolşeviklərin həyata keçirdiyi məqsədli siyasət ondan ibarət idi ki, şəhər əhalisinin tərkibində rusların, ermənilərin xüsusi çəkisi artsın, bu əslində gələcəkdə Bakı şəhərinin Azərbaycandan ayrılması planının tərkib hissəsi idi. Heydər Əliyev Bakıda çoxsaylı ali təhsil müəssisələri – universitet və institutların, fabrik və zavodlarının açılmasına nail olmaqla rayon və kəndlərdən safqanlı azərbaycanlıların Bakıya axınını təmin edirdi. Nəticədə təhsil və iş dalınca Bakıya gələn gənclərin hesabına şəhər əhalisinin tərkibi yenidən azərbaycanlıların xeyrinə dəyişirdi. Şəhərin milli siması özünə qayıdırdı. Qarabağın dağlıq hissəsində 1923-cü ildə süni surətdə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətində də ermənilərin xeyrinə həyata keçirilən tədbirlərin qarşısını alınırdı. Bu rayonlardan azərbaycanlı əhalinin miqrasiyasının qarşısını almaq üçün çoxsaylı müəssisələr yaradılır, yol-nəqliyyat infrastrukturu formalaşdırılırdı.

Mədəni intibahın təmin edilməsi də vacib vəzifələrdən biri idi. Azərbaycan dilinin inkişafı, onun rəsmi statusunun gücləndirilməsi, Azərbaycan ziyalılarının sovet repressiyalarından qorunması milli düşüncənin inkişafına təkan verirdi. Həmin illərdə milli özünüdərkin qaytarılması üçün görkəmli dövlət xadimi Heydər Əliyev sovetlər ölkəsi ilə münasibətləri tərs gələn milli istiqlalçıları – Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovu, Xalq yazıçısı Mirzə İbrahimovu, böyük vətəndaş-alim Abbas Zamanovu, Xalq şairi Bəxtiyar Vahabzadəni, Xəlil Rzanı və başqalarını qorumuşdu [4]. Azərbaycan kinosu XX əsrin 70-80-ci illərində özünün intibah dövrünü yaşayırdı. Azərbaycan mədəniyyəti nəinki ittifaq hüdudlarında, ondan kənarda da uğurla təmsil olunurdu. Ölkənin ən müxtəli regionlarında teatrlar, musiqi məktəbləri, yaradıcılıq klubları yaradılırdı.

Bütün bunlar ümumilikdə Azərbaycan intibahını təmin edən amillər idi. Təbii ki, bu Sovet rəhbərliyinin diqqətindən yayına bilməzdi. Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifəsinə irəli çəkilməsinin bir səbəbi də bununla bağlı idi. Lakin təəssüf ki, Heydər Əliyev Moskvaya getməsindən sonra milli intibahı təmin edən amillər tormozlandı, ölkənin yeni idarəçiləri bu milli inkişafın davamlılığını təmin etməyi bacarmadılar. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinə qədər və ondan sonrakı ilk illərdə əvvəllər qazanılmış nailiyyətlər itirildi, yaradılmış infrastrukturu ciddi şəkildə dağıntıya məruz qaldı. Azərbaycan üçün, Azərbaycan naminə yetişdirilmiş kadrların ölkədən kənara axını baş verdi. Nəticədə müstəqilliyin ilk iki ili ərzində respublika ağır böhrana yuvarlandı. Bundan xilas isə yalnız 1993-cü ildə mümkün oldu. Heydər Əliyevin Azərbaycanda 2-ci dəfə hakimiyyətin zirvəsinə yüksəlişindən sonra sovet

dövründə əsası qoyulmuş, lakin bitirilməmiş işlərin yekunlaşdırılması üçün addımlar atıldı. Eyni zamanda Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi həyata keçirilməyə başlandı, Müstəqil dövlət üçün vacib olan siyasi institutlar formalaşdırıldı. 1995-ci ildə ölkənin ilk əsas qanunu – Azərbaycan Respublikasının konstitusiyası qəbul olundu. Yeni dövr həm də müstəqillik dövrünə layiq olan parlament institutunun formalaşdırılmasını zəruri edirdi. Bu məqsədlə həmin ilin noyabrında Azərbaycan Respublikası Milli Məclisinə də müstəqillik dövründə ilk seçkilər oldu. Naxçıvan MR-in əsas qanunu isə 3 il sonra – 1998-ci ildə qəbul edildi. Ölkədə insan və vətəndaşların həm azadlıqları, həm də hüquqlarını reallaşdırılmalarına yüksək səviyyədə şəraitin yaradılmasından ötrü reformlara başlanıldı. Bu cür islahatlar ölkənin sürətli şəkildə demokratikləşməsinə imkan verirdi. Məhz bunun sayəsində 2001-ci ildə Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv oldu. Siyasi institutların inkişaf etdirilməsi ilə bərabər Heydər Əliyev iqtisadi məsələlərə də xüsusi diqqət yetirirdi. Güclü iqtisadiyyata sahib olmadan güclü siyasi dövlət təsisatlarını formalaşdırmaq mümkünsüz idi. Heydər Əliyev ölkənin karbohidrogen resurslarını müstəqilliyin qarantına çevirdi, oradan gələn gəlirləri milli intibaha yönəltdi. Ayrı-ayrı dövlətlərin qlobal maliyyə gücünə və nüfuza malik olan enerji korporasiyaları ilə müqavilələrə imza atıldı. Bu Azərbaycana gəlir və sərmayə formasında maliyyə axınını təmin etdi. Azərbaycanı yaxın gələcəkdə Qafqaz və Mərkəzi Asiya bölgəsinin lider dövlətlərindən birinə çevirəcək enerji projelərinin icrasına start verildi.

Ermənistanla atəşkəs imzalamaqla Heydər Əliyev ordu quruculuğu və iqtisadiyyatın inkişafı üçün Azərbaycana fürsət qazandırdı. Karbohidrogen ehtiyatlarının satışından əldə olunan vəsaitlərin bir hissəsi milli ordunun müasir standartlar əsasında qurulmasına və davamlı inkişafına yönəldildi.

1993-cü ildə Azərbaycan diplomatiyasının və xarici siyasətində də yeni bir mərhələ başladı. Məqsəd də, hədəflər də Azərbaycan naminə idi. Bu mərhələ dünyanın geosiyasi güclərinin strateji və iqtisadi maraqlarının kəsişdiyi regionda yerləşən Azərbaycanın xilası mərhələsi idi [5, s. 131]. Ulu öndər Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin qurulmasını başlıca məsələ kimi irəli sürdü. Regionda və ondan kənarda yerləşən iri güc mərkəzləri ilə münasibətləri yaxşılaşdırdı. Praqmatik, balanslaşdırılmış xarici siyasət xətti Azərbaycanı bir çox bəlalardan xilas etdi.

Milli intibaha mane olan ən böyük amillərdən biri kimi, Ümummilli lider Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllinə çalışırdı. Bunun üçün beynəlxalq təşkilatlarda və xarici ölkələrdə Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi əsas şərtlərdən biri idi. 1994-cü ilin 5-6 dekabrında ATƏT-in Budapeşt sammitində bu istiqamətdə Heydər Əliyev diplomatiyası ilk qələbəsini qazandı. Budapeşt sammitində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamə qəbul edildi.

ATƏT-in 1996-cı il dekabrın 2-3-də keçirilən Lissabon sammiti Heydər Əliyev diplomatiyasının Ermənistana beynəlxalq diplomatik savaşda vurduğu daha bir zərbə oldu. Münaqişə ilə bağlı xeyli dərəcədə Azərbaycanın mövqeyini əks etdirən ATƏT-in fəaliyyətdə olan sədrinin ayrıca bəyanatı qəbul edildi. Münaqişənin həlli ilə bağlı bəzi prinsiplər, o cümlədən Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması, Qarabağın işğalda olan ərazisinin məhz Azərbaycanın tərkibində olması təsdiqləndi. Sonralar Ulu Öndər həmin sammit barədə deyirdi: "...Həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik." [2, s. 9].

Heydər Əliyev eyni zamanda ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən müxtəlif dövrlərdə irəli sürülən Anti-Azərbaycan mövqeli sənədləri bütün təkidlərə baxmayaraq qəbul etmədi.

Müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də Ümummilli lider Heydər Əliyev dövlətin bütün imkanlarından istifadə edərək milli mədəniyyətimizin inkişafı, çiçəklənməsi üçün addımlar atdı. Ölkədə mədəni çiçəklənməni təmin etməkdən ötrü ilk növbədə hüquqi baza yaradıldı. 1993-2003-cü illər ərzində mədəniyyət sahəsinə dair Milli Məclisdə qəbul edilmiş 21 qanunun altında məhz Heydər Əliyevin imzası vardır. Bu qanunlar sırasında "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında",

"Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" Qanunlar xüsusi yer tutur [3, s. 8] və sözsüz ki, Heydər Əliyev bu sahədə qəbul edilmiş əksər sənədlərin baş müəllifi olmuşdur.

Bu illərdə milli intibah üçün başlıca ünsürlərdən biri olan dil amilinə Heydər Əliyev xüsusi diqqət yetirmiş, Azərbaycan dilinin inkişafı üçün bir sıra tədbirlər həyata keçirilmişdir. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmin ilin avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününü təsis edilməsi haqqında" fərmanlar imzalanmış, 2003-cü il yanvar ayının 2-də isə Heydər Əliyevin digər bir fərmanı ilə "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdi [6, s. 16].

Təhlillərdən və yuxarıda qeyd olunanlardan da aydın olduğu kimi, hazırda yaşamaqda olduğumuz XXI əsr Azərbaycan intibahının təməlləri məhz Ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə qoyulmuşdur. Ulu Öndər uzaqgörən şəxsiyyət kimi nəinki Azərbaycanı yeni intibaha qovuşduran təməlləri müəyyənləşdirmiş, həm də intibahı öz fəaliyyəti ilə gerçələşdirəcək siyasi lideri – İlham Əliyevi yetişdirmişdir. Bu mənada Ulu Öndərin yeni siyasi lider İlham Əliyev barəsində "Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o gerçəkləşdirəcəkdir" deməyi heç də təsadüfi olmamışdır. Gerçəkdən də, İlham Əliyev Azərbaycanı qüdrətinin zirvəsinə yüksəltmiş, milli intibaha qovuşdurmuşdur.

## İstifadə edilmiş ədəbiyyat

1. 1969-1982-ci illər: [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı, -2023. URL: www.stat.gov.az/ source/others/H.Aliyev/Pdf/14-21.pdf. –s. 16-17
2. Bədəlov, Ə. ATƏT-in Lissabon sammitində / "Xalq qəzeti", –2020, 2 dekabr. –s. 9
3. Ələkbərova, N. Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti / "Xalq qəzeti", –2014, 11 may. –s. 8
4. Kəlbizadə, E. Azərbaycanı Azərbaycana qaytarmaq missiyası: [Elektron resurs] / "Şərq qapısı" qəz., –2014, 11 iyun. URL: http://85.132.16.133/index.php/ictimai-siaysi/4368-azaerbaydzan-azaerbaydzana-zhaytarmazh-maeram
5. Kəlbizadə, E. Heydər Əliyev Azərbaycanın balanslaşdırılmış xarici siyasət konsepsiyasının müəllifi kimi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, -2013, Xüsusi buraxılış. –s. 130-135
6. Sadıqlı, A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. –Bakı: Mütərcim nəşriyyatı, -2001. -180 s.

## HEYDAR ALIYEV'S PERIOD IN NATIONAL RENAISSANCE OF AZERBAIJAN

**A.Ismayilov**
doctor of philosophy in history
Mingachevir State University

***Abstract:*** *In the article, the events and processes of one of the most important periods in the history of our country Azerbaijan, which we can call the 3rd renaissance period, if we express it with new historical terminology, are examined. The issue that that period was directly related to the name of Heydar Aliyev is justified by the language of the facts obtained from reliable sources. Comparative analyzes and parallels have been made between the events and processes experienced during the years of Soviet rule and independence, the two periods in which Heydar Aliyev continued to lead the country, and a cause-effect relationship was established between the periods. It was announced that the foundations of the political line that will provide the current renaissance of Azerbaijan were further strengthened by the national leader Heydar Aliyev in 1993-2003. It has been argued that the great leader not only determined the foundations that led Azerbaijan to a new renaissance with his political activities, but also trained the political leader – Ilham Aliyev, who would realize the renaissance with his activities.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, Baku, Soviet, national renaissance, enterprise, factory*

## AZERBAYCAN'IN ULUSAL RÖNESANSININ HAYDAR ALİYEV DÖNEMİ

**A.N.İsmayılov**
tarih üzre felsefe doktoru
Mingecevir Dövlet Univetsitesi

***Özet:*** *Makalede, yeni tarihsel terminoloji ile ifade edecek olursak, 3. rönesans dönemi diyebileceğimiz, yurdumuz Azerbaycan tarihinin en önemli dönemlerinden birinin olay ve süreçleri incelenmektedir. O dönemin Haydar Aliyev adıyla doğrudan ilgili olduğu konusu, güvenilir kaynaklardan elde edilen olguların diliyle gerekçelendirilmektedir. Haydar Aliyev'in ülkenin liderliğini sürdürdüğü iki dönem olan Sovyet yönetimi ve bağımsızlık yıllarında yaşanan olaylar ve süreçler arasında karşılaştırmalı analizler ve paralellikler yapılmış ve dönemler arasında neden-sonuç ilişkisi kurulmuştur. Azerbaycan'ın bugünkü rönesansını sağlayacak siyasi çizginin temellerinin 1993-2003 yıllarında milli lider Haydar Aliyev tarafından daha da sağlamlaştırıldığı açıklanmıştır. Büyük liderin siyasi faaliyetleriyle sadece Azerbaycan'ı yeni bir rönesansa götüren temelleri belirlemediği, faaliyetleriyle rönesansı gerçekleştirecek siyasi lideri – İlham Aliyev'i de yetiştirdiği öne sürülmüştür.*

***Anahtar kelimeler:*** *Haydar Aliyev, Azerbaycan, Bakü, sovyet, ulusal rönesans, işletme, fabrika*

**Elmi redaktor: s.e.f.d., dos. E.Cəfərova**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 27.09.2023**
**Çapa qəbul edilib: 04.10.2023**

UOT 47.82.9; 82-93; 087.5; 316.37

# UŞAQ ƏDƏBİYYATINDA HEYDƏR ƏLİYEV OBRAZI

**Səadət Arif qızı Ağakişiyeva**
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
saadat.aghakishiyeva@mdu.edu.az

***Xülasə:*** *Tarixin yetişdirdiyi böyük tarixi liderlərdən olan Heydər Əliyevin şəxsiyyəti, siyasi ideologiyası uşaq ədəbiyyatına gətirilmiş, tərənnüm edilmişdir.*

*Məqalədə uşaq ədəbiyyatında Ümummilli Liderin obrazına həm nəsrdə, həm də poeziyada müraciət edildiyi qeyd olunur. Nəsrlə yazılan əsərlərə nisbətən poeziyadan yaranan nümunələrin sayının nisbətən çox olduğu müəyyənləşdirilmişdir. Yaradılan bədii nümunələrdə Ulu Öndərin bədii obrazına müxtəlif istiqamətlərdən yanaşılır. Heydər Əliyev haqqında yazılan şeirlərdə Ümummilli Lider həm tarixi yaradan, həm də tarixin yaratdığı şəxsiyyət kimi təsvir edilir, onun xilaskarlıq missiyası önə çəkilir. Ulu Öndər haqqında yazılan şeirlərdən bəzi nümunələr verilərək, təhlil olunur. Zahid Xəlil silsilə şeirlərində ümummilli liderə "el babası", Mirvarid Dilbazi "oğul" deyə müraciət edir. Xəlil Rza Ulutürkün Heydər Əliyevə həsr etdiyi silsilə şeirlərdə Ulu Öndərə olan sevgisi, sədaqəti, onu siyasi lider kimi qiymətləndirmək əzmi sona qədər özünü hiss etdirir. "Dədə Heydər – Atatürk" şeirində şair Heydər Əliyev və Atatürk şəxsiyyətini eyniləşdirir.*

*Heydər Əliyev obrazı həmçinin uşaqların bir şəxsiyyət kimi formalaşmasında, tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.*

*Nəticədə belə qənaətə gəlinir ki, Ulu Öndərin uşaq ədəbiyyatında yaradılan Azərbaycanın bütövlüyünü təmin edən, güclü, müstəqil, demokratik dövlət qurmağı bacaran, vətəninə, elinə, ədəbiyyatına, mədəniyyətinə ürəkdən bağlı olan, bütün zərbələrə sinə gərən qəhrəman kimi görünür.*

***Açar sözlər:*** *uşaq ədəbiyyatı, Ulu Öndər, Heydər baba, şəxsiyyət, tərbiyə*

## Giriş

Bir xalqın tarixini, məişətini, mədəniyyətini, yetişdirdiyi tarixi şəxsiyyətlərin həyatını araşdırarkən tədqiqatçılar başqa elm sahələri ilə yanaşı ədəbiyyata da müraciət edirlər. Çox zaman bədii ədəbiyyat tədqiqatçılar üçün zəngin material verir, çünki burada xalqın çoxəsrlik tarixi, mədəniyyəti tərənnüm edilir, tarixi şəxsiyyətləri, tarixin böyük fatehləri ədəbi qəhrəmana çevrilir. Tarixin yetişdirdiyi böyük tarixi liderlərdən olan Heydər Əliyevin də şəxsiyyəti, siyasi ideologiyası ədəbiyyata gətirilmiş, tərənnüm edilmişdir. Ümummilli Liderin həyatını tam şəkildə əks etdirən bütöv bədii əsər olmasa da, onun xilaskarlıq missiyası, məğlubedilməz şəxsiyyəti poeziyamızda yeni istiqamət formalaşdırmışdır.

## Heydər Əliyev obrazı uşaq ədəbiyyatında

Heydər Əliyevin uğurlu siyasətinin bir istiqamətini gənclər və uşaqlar siyasəti təşkil edirdi. Ümummilli lider bütün ağır və çətin iş rejimində uşaqları diqqətindən kənarda saxlamırdı. Bu məsələ Azərbaycan ideologiyasının tərkib hissəsi idi, çünki uşaqlar gələcək Azərbaycanı qoruyacaq, onun adını zirvələrə qaldıracaqdı. Ümummilli lider uşaqların qayğıları, problemləri, mənəvi-əxlaqi tərbiyəsi məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı keçirilən tədbirlərdə mütəmadi olaraq, hər il iştirak edən Heydər Əliyev çıxışlarında Azərbaycanın sabahı olan uşaqların sağlamlığının qorunmasını, onların təhsil almasını, layiqli vətəndaş kimi formalaşmalarını prioritet məsələ kimi dilə gətirirdi.

Azərbaycan adını yüksəklərə qaldırmaq, dünyaya tanıtmaq, bu adı əbədi qoruyub saxlamaq kimi müqəddəs bir amala ömrünü həsr etmiş Heydər Əliyev obrazının yaradılması, onu təhrif etmədən olduğu kimi oxucuya təqdim edilməsi çətin və qürurverici bir prosesdir. Sənətkar ciddi səylə çalışmalı, gerçək Heydər Əliyevi, onun ideologiyasını xalqa olduğu kimi çatdırmalıdır. Bu iş

kiçik oxucular üçün görülürsə, sənətkardan daha çox məsuliyyət tələb olunur, işin ağırlığı daha da artmış olur. Ulu Öndərin obrazı yaradılarkən kiçik oxucuların yaş, qavrama xüsusiyyətləri nəzərə alınmalı, sənətkar həqiqətlərlə oxucunu maarifləndirməklə yanaşı, onu sevdirməli, rəğbət oyatmalıdır.

Heydər Əliyevin uşaq ədəbiyyatındakı obrazına nəzər yetirsək o, xilaskar, varlığı ümid və nicat vəd edən, Azərbaycanın özünəqədərki milli dövlətçilik, idarəçilik təcrübəsini təkcə həmfikirlərinə deyil, həm də opponentlərinə qəbul etdirən bir şəxsiyyət, xalqının qəhrəmanı, müdrik lider, ulu öndər kimi görünür [1, s. 99]. Uşaq ədəbiyyatında Ümummilli Liderin obrazına həm nəsrdə, həm də poeziyada müraciət edilmişdir. H. Əliyev haqqında onlarla hekayələr, şeirlər yazılıb. Uşaq ədəbiyyatına nəzər yetirdikdə nəsrə nisbətən poeziyada Heydər Əliyevin lirik qəhrəman kimi tərənnümünə daha çox rast gəlinir. Xəlil Rza Ulutürkün "Dədə Heydər-Atatürk", "Vətən oğlu", "O bizimlədir", "Heydərdi", Həsən Kamiloğlunun "Ey Ulu Öndər", "Sönməz, əbədidir Heydər Əliyev", Rafiq Yusifoğlunun "Rəhbərin heykəli", "Ulu Öndər", Rüstəm Sadiqlinin "Bir işıq doğdu yurda o vətənə gələndə", Qabil Ədalətin "Ulu bir sərkərdə, ulu bir öndər", Zəlimxan Yaqubun "Bir dahi doğulub gəldi dünyaya", Leyla Əliyevanın "Ulduzlar", Fəridə Ləmanın "Onu zaman seçib", Elşad Baratın "Heydər baba", Oqtay Zəngilanlının Ulu Heydər", "Millət atası", "Bir millət, iki dövlət", Zahid Xəlilin "O gecə", "Heydər körpüsü", "Oxu, Surxay" və s. şeirlərdə Ulu Öndərin bədii obrazına müxtəlif istiqamətlərdən yanaşılır. Bu şeirlərdə müxtəlif fikirlərə diqqət çəkilir. Heydər Əliyev haqqında yazılan şeirlərdə ümummilli lider həm tarixi yaradan, həm də tarixin yaratdığı şəxsiyyət kimi təsvir edilir. Ulu Öndər xalqdan güc alan, xalqına arxalanan, xalqın inandığı, tarix yazan, xalqı gələcəyə səsləyən bir sərkərdə, general kimi müxtəlif rakurslardan oxuculara təqdim olunur. Bu fikirlərə bəzən eyni nümunədə, bəzən də müxtəlif nümunələrdə rast gəlinir.

*"Vətənin dar günündə*
*Onun dadına çatdın.*
*Üçrəngli bayrağımı*
*Zirvələrə ucaltdın."* [7].

Rafiq Yusifoğlundan gətirdiyimiz nümunədə Heydər Əliyev xalqın xilaskarı, dar günündə onu xilas edən, bu gün özü olmasa da əməlləri ilə yaşayan bir qəhrəman kimi tərənnüm edilir.

Qabil ədalətin "Ulu bir sərkərdə, ulu bir öndər" şeirində də eyni missiya təkrarlanır. Heydər Əliyevin vətəndaş mövqeyi, xilaskarlıq missiyası təhrif edilmədən oxucuya təqdim edilir. Heydər adı dastan çevrilir, onun qüdrətini tək Azərbaycan xalqı deyil, bütün dünya bilir.

*"Heydər adı dastanlara çevrildi,*
*Onun qüdrətini yer üzü bildi.*
*Allah onu yurdumuza yetirdi,*
*Ulu bir sərkərdə, ulu bir öndər."* [3].

Xəlil Rza Ulutürkün Heydər Əliyevə həsr etdiyi silsilə şeirlərdə Ulu Öndərə olan sevgisi, sədaqəti, onu siyasi lider kimi qiymətləndirmək əzmi sona qədər özünü hiss etdirir. "Dədə Heydər – Atatürk" şeirində şair Heydər Əliyev və Atatürk şəxsiyyətini millətin qüruru kimi rəngarəng əksini verə bilmişdir. Şeirdə iki qardaş dövlətin ortaq milli-mənəvi dəyərləri müstəsnalığı ilə diqqəti cəlb edir, həm də iki dövlət başçısının tərənnümü mühüm əhəmiyyət kəsb edir.

*"Azərbaycan, Türkiyə...*
*Daş qala – qoşa səngər,*
*Bütün qasırğalara birləşməklə*
*Sinə gər.*
*Bu birlik qarşısında düşmən*
*Tük salacaq, tük...*
*Qucur iki sahili Dədə Heydər –*
*Atatürk."* [6].

Azərbaycan uşaq ədəbiyyatının inkişafında müstəsna xidməti olan sənətkarlardan biri də Mirvarid Dilbazidir. Mirvarid Dilbazinin yaradıcılığının böyük bir hissəsi sovet dövrünə təsadüf

etsə də, sənətkarın yaradıcılığında Heydər Əliyev sevgisi özünü bariz şəkildə göstərir. Həmçinin Ulu Öndər də Mirvarid Dilbaziyə yüksək dəyər verirdi. Ümummilli Liderin sənətkarın 85 illik yubileyində dediyi fikirlər diqqətəlayiqdir: “Şair olmaq asan deyil. Təkcə bizim xalqımızın tarixində yox, bütün dünya xalqlarının tarixində şairlər, yazıçılar, alimlər, adətən, kişilərdən olubdur. Ancaq qadınlardan olan şairlər xüsusi hörmətə malikdirlər. Onlar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyədə, bəlkə onlardan da üstün səviyyəyə qalxaraq, şeirlər yazaraq, böyük şairlər dəstəsinə qoşula bilsinlər.

Əziz bacım Mirvarid Dilbazi, Siz məhz belə insansınız, qadınsınız, şairsiniz...” [5]

Mirvarid Dilbazı şeirlərində Ulu Öndərə “oğul” deyə müraciət edirdi. Bu bir ananın övladına ola sevgisindən doğurdu, bir növ sənətkar sanki Heydər Əliyevə “ərk” edirdi. “Vətənsiz oğul olmasın” şeirində o, Heydər Əliyevə minnətini, təşəkkürünü bildirir, xalqın rəhbərə olan ümidini, sonsuz sevgisini, inamını dilə gətirirdi. Mirvarid Dilbazi “Qurtardın bölümdən Azərbaycanı” şeirində Heydər Əliyevin Azərbaycana, hakimiyyətə qayıdışını alqışlayır, bunu Vətən və millət miqyasında fədailik adlandırırdı.

*“Sən xalqa endikcə yüksələcəksən.”*
*”Getdi sinəmizdən Cavidin dərdi.”*
*“Sən ey ağlı umman, ürəyi incə!”*
*“Qoymadın tökülsün sən qardaş qanı,*
*Qurtardın bölümdən Azərbaycanı!”* [2, s. 58]

Zahid Xəlilin yaradıcılığında Heydər Əliyevə həsr etdiyi silsilə şeirləri (“Oxu, Surxay”, “Bulaq”, “O gecə”, “Əl”, “Heydər körpüsü”, “Azərbaycan xiyabanı”, “Uçaq”, “Dağlar”) var. Bu şeirlərdə müəllif Ulu Öndərdən el babası kimi bəhs etmişdir. Zahid Xəlil yalnız ümummilli liderin bədii portretini yaratmır, həmçinin onun adına salınan parklardan, bağlardan söz açır, onların gözəlliyini, əsrarəngizliyini vəsf edir. «Heydər körpüsü» şeirində uşaqlar Kür çayının üzərində yeni körpü salındığını görürlər, bu körpüyə Heydər adı verilir. Şeirdə uşaqların dilindən Heydər babanın da körpülər qurduğu, bu körpülərin Azərbaycanla uzaq ellər arasında qurulduğu deyilir. Balaca oxucular gələcəkdə bu körpülərin Ayla, Günəşlə qurulacağını ümid edilər.

Sevinc Nuruqızının “Yaradılış” hekayəsi nəsr sahəsində Ulu Öndərin bədii portretinin yaradılmasına nümunədir. Yazıçı hekayədə xalçaçı qadınla uşaqların dialoqu vasitəsilə Heydər Əliyevin bütün həyatını xalqının rifahına həsr etdiyi, vətənin dar günündə kömək əlini uzatdığı, xalqı bir yumruq kimi birləşdirdiyi, böyük, kiçik – hamının dostu olduğunu kiçik oxucularına çatdırır.

Ulu öndər Heydər Əliyev uşaq və gənclərin müsbət mənəvi-əxlaqi keyfiyyətlərə malik bir şəxsiyyət kimi yetişməsini, onların həyatda fəal mövqe qazanmalarının böyük əhəmiyyəti olduğunu daim vurğulayırdı.

Uşaqlara məhz müsbət, insani keyfiyyətləri aşılamaqla onları xeyirxah, mərhəmətli, ədalətli, zəhmətsevər, vətənpərvər, igid, vicdanlı insan kimi tərbiyə etmək olar. Bu müsbət keyfiyyətlərin formalaşmasında ədəbiyyatın rolu danılmazdır. Uşaqlar oxuduqları bədii nümunələrdəki qəhrəmanları özlərinə örnək alır, ideallaşdırır, onlara bənzəməyə çalışırlar. Heydər Əliyevin bədii ədəbiyyatdakı obrazı uşaqların tərbiyəsində böyük rola malikdir. Ailə dəyərlərinə, doğma xalqına, torpağına, vətəninə bağlılıq kimi yüksək ali keyfiyyətləri uşaqlar məhz Ulu Öndərin timsalında görüb, öyrənirlər.

**Nəticə**

Ulu Öndərin uşaq ədəbiyyatında yaradılan Azərbaycanın bütövlüyünü təmin edən, güclü, müstəqil, demokratik dövlət qurmağı bacaran, vətəninə, elinə, ədəbiyyatına, mədəniyyətinə ürəkdən bağlı olan, bütün zərbələrə sinə gərən qəhrəman kimi görünür. Heydər Əliyev haqqında bu günə qədər onlarla əsər yaranmış, bu gündən sonra da mənəvi-əxlaqi dəyərləri özündə əks etdirən, uşaqların yaş və qavrama səviyyəsinə uyğun əsərlər yaranmaqda davam edəcəkdir. Bu əsərlər uşaqların vətənpərvərlik, azərbaycançılıq ruhunda tərbiyəsində, milli-mənəvi keyfiyyətlərə malik şəxsiyyət kimi yetişməsində mühüm rol oynayacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bağırlı A. Azərbaycan uşaq şeirində Heydər Əliyev obrazı: tarixi gerçəkliyin bədii inikası // Azərbaycan məktəbi, № 1 (702), 2023. s. 97-102
2. Dilbazi M. Seçilmiş əsərləri. Bakı: Lider, 2004. – 280 s.
3. Qabil. Ulu bir sərkərdə, ulu bir öndər. [Elektron resurs] URL: https://portal.azertag.az/az/node/23862
4. Məmmədli L. Ümummilli Lider Heydər Əliyev nümunəsində tərbiyə // Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər, cild 90, № 2, 2023. s-5-10
5. Mirvarid Dilbazinin 85 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - 24 aprel 1998-ci il. [Elektron resurs] URL: https://lib.aliyev-heritage.org/az/7311707.html
6. Ulutürk X.R. Dədə Heydər – Atatürk / Yeni Azərbaycan.- 2013.- 15 iyun. s. 11
7. Yusifoğlu R. Ulu Öndər. [Elektron resurs] URL: https://kayzen.az/blog/seirler_edebiyyat/27646/ulu-öndər-%7C-heydər-əliyevə-həsr-olunmuş-şeir.html#cut

## THE IMAGE OF HEYDAR ALIYEV IN CHILDREN'S LITERATURE

**S.Aghakishiyeva**
doctor of philosophy in philology
Mingachevir State University

***Abstract:*** *The personality and political ideology of Heydar Aliyev, one of the great historical leaders produced by history, was brought to children's literature and glorified.*

*In the article, it is noted that the image of the national leader is addressed in children's literature both in prose and poetry. In the created artistic examples, the artistic image of the Great Leader is approached from different directions. In the poems written about Heydar Aliyev, the national leader is described as both the creator of history and the personality created by history, and his rescue mission is highlighted. Some examples of poems written about the Great Leader are given and analyzed. In his series of poems, Zahid Khalil addresses the national leader as "grandfather" and Mirvarid Dilbazi as "son". In the series of poems dedicated to Heydar Aliyev by Khalil Reza Ulutürk, his love and loyalty to the Great Leader and his determination to appreciate him as a political leader are felt until the end. In the poem "Grandfather Heydar-Atatürk", the poet identifies Heydar Aliyev and Atatürk.*

*As a result, it is concluded that the Great Leader created in the children's literature is seen as a hero who ensures the integrity of Azerbaijan, who is able to build a strong, independent, democratic state, who is devoted to his homeland, hand, literature, and culture, and who withstands all blows.*

***Keywords:*** *Children's literature, Great Leader, Heydar baba, personality, upbringing*

## ОБРАЗ ГЕЙДАРА АЛИЕВА В ДЕТСКОЙ ЛИТЕРАТУРЕ

**С.А.Агакишиева**
доктор философии по филологии
Мингячевирский государственный университет

***Резюме:*** *Личность и политическая идеология Гейдара Алиева, одного из великих исторических деятелей, созданных историей, были перенесены в детскую литературу и прославлены.*

*В статье отмечается, что образ общенационального лидера обращается в детской литературе как в прозе, так и в стихах. В созданных художественных образцах*

*художественный образ Великого Вождя рассматривается с разных сторон. В стихотворениях, написанных о Гейдаре Алиеве, общенациональный лидер описывается и как творец истории, и как созданная историей личность, подчеркивается его спасательная миссия. Приведены и проанализированы некоторые примеры стихотворений, написанных о Великом Вожде. В своей серии стихов Захид Халил называет общенационального лидера «дедушкой», а Мирварида Дилбази – «сыном». В цикле стихов Халила Резы Улутюрка, посвященных Гейдару Алиеву, до конца чувствуется его любовь и верность Великому Лидеру и его решимость ценить его как политического лидера. В стихотворении «Дедушка Гейдар – Ататюрк» поэт отождествляет Гейдара Алиева и Ататюрка.*

*Образ Гейдара Алиева также важен в формировании и воспитании детей как личности.*

*В результате делается вывод о том, что созданный в детской литературе Великий Вождь рассматривается как герой, обеспечивающий целостность Азербайджана, способный построить сильное, независимое, демократическое государство, преданный своей Родине, руке, литературы и культуры, и кто выдерживает все удары.*

***Ключевые слова:*** *детская литература, Великий Вождь, Гейдар-баба, личность, воспитание*

**Elmi redaktor: fil.f.d., dos. N.Manafov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 27.09.2023**
**Çapa qəbul edilib: 04.10.2023**

UOT 47.82.30; 316.37

# ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV İDEALININ TƏSVİR VƏ TƏRƏNNÜMÜ

**Ayna Çingiz qızı Babazadə**
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
ayna.babazade@mdu.edu.az

***Xülasə:*** *Məqalədə çağdaş Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli lider Heydər Əliyevin böyük rolu və xidmətləri qeyd olunur və bu missiyanın onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurlu şəkildə davam etdirildiyi bildirilir. Daha sonra Heydər Əliyev idealının təsvir və tərənnüm olunduğu əsərlərin adları qeyd olunaraq, onların bir qismi üzərində təhlillər aparılır. Əsərlər müxtəlif aspektdən təhlilə cəlb edilir. İstər sağlığında, istərsə də əbədiyyata qovuşandan sonra Heydər Əliyevlə bağlı bir çox əsərlər qələmə alınmışdır. Hakimiyyətə gəlişinin həm birinci, həm də ikinci mərhələləri ədəbi əsərlərin mövzu obyekti olmuşdur. Ulu Öndər daha çox xilaskarlıq missiyasının daşıyıcısı kimi təsvir və tərənnüm edilir. Sonda isə Heydər Əliyevlə bağlı hələ çox əsərlərin yazılacağı qeyd olunur.*

***Açar sözlər:*** *Heydər Əliyev, ədəbiyyata qayğı, ideal obraz, xilaskarlıq missiyası, əbədiləşmək*

## Giriş

Heydər Əliyevin bir şəxsiyyət kimi yetişməsində, dünyagörüşünün formalaşmasında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin böyük rolu olmuşdur. Söz sənətinə yüksək dəyər verən Ulu Öndər bədii sözün insan ağlına, ürəyinə daha tez yol tapdığı, ona böyük təsir etdiyini qeyd edirdi.

Tarixə nəzər saldıqda bir danılmaz faktorun şahidi oluruq. Belə ki, bəzən silah gücü ilə həll olunmayan məsələlər, söz gücü ilə öz həlli yolunu tapmışdır. Heydər Əliyevin istər həyatında, istərsə də siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri və rolu geniş miqyası əhatə etmişdir. Həm Azərbaycan ədəbiyyatını, həm də dünya ədəbiyyatını dərindən mütaliə edən Heydər Əliyevin həyatında ədəbiyyat amili ayrıca yer tutmuşdur.

## Ulu Öndərin ədəbiyyata münasibəti

Heydər Əliyev Azərbaycan yazıçılarının 1971-ci ildən təşkil olunan V qurultayından başlayaraq, 1997-ci ildə keçirilən X qurultayınadək bütün tədbirlərində iştirak etmiş, tarixi çıxışlarında ədəbiyyata sonsuz sevgisini dilə gətirmişdir. 1997-ci ildə təşkil olunan Azərbaycan yazıçılarının X qurultayında Ulu Öndərin nitqinə nəzər yetirək: *"Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyatın böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum...O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu, "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənavi qida almışam"* [1]. Heydər Əliyevin yüksək natiqlik qabiliyyətinə malik olmasında mütaliənin, ədəbiyyatın da böyük rolu olmuşdur.

Ulu Öndər xalqın milli-mənəvi özünüdərk məsələləri əks olunan əsərlərə (C.Məmməd-quluzadənin "Ölülər" tragikomediyasına, H.Cavidin "İblis"inə, S.Vurğunun "Azərbaycan" şeirinə, Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" əsərinə və s.) xüsusi önəm vermişdir. O, 1971-ci ildə keçirilmiş Azərbaycan yazıçılarının V qurultayında qeyd edirdi: *"Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır."* [2]

Tarixə, xalqın keçmişinə müraciət son bir əsrdə yazıçılar üçün ən aktual mövzulardan biri olmuşdur. Bu, həm də sovet siyasi sistemində unutdurulmağa çalışılan tariximizin yenidən bədii

şəkildə yazılması, tarixi-bədii salnaməsinin yaradılması deməkdir. Hələ Sovet hakimiyyəti illərində Heydər Əliyev bu məsələyə xüsusi diqqət yetirirdi. Yazıçılarla, alimlərlə görüşlərində tariximizin elə məqamlarına toxunur, elə qatlarını qaldırırdı ki, onun genişmiqyaslı mütaliəsinə heyran olmamaq mümkün deyildi. Azərbaycan yazıçılarının VII qurultayında tarixi mövzuda yazmağın ciddiliyini önə çəkərək demişdir: "...tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır." [3, s. 2]

Ulu Öndərin ölkə başçısı kimi özəlliyi bir də onda idi ki, o, Azərbaycan tarixinə, mədəniyyətinə, dəyərlərə böyük önəm verirdi. Eyni mövqeni Azərbaycan ədəbiyyatına da sərgilədiyini görürük. Böyük siyasətçi, dövlət adamı olan Heydər Əliyevin eyni zamanda ədəbiyyatlaşan obrazı da var. Onun ədəbiyyatdakı bu obrazı böyük mənalar ifadə edir. İlk öncə ədəbiyyata sevgi və qayğını ifadə edir. Zamanla şair və yazıçılarla təşkil olunan görüşlər, onlarla maraqlı söhbətlər, ədibləri böhtanlardan qoruma, istedadlı hər kəsin dəyərini vermək, onu diqqətdən kənarda qoymamaq, imzalanan fərmanlar, qeyd olunan yubileylər, tədbirlər, ucaldılan abidələr və s. ədəbiyyata olan böyük diqqət və qayğının nəticəsi idi. Onun ədəbiyyata xidmətləri saymaqla bitməz. Bu, Heydər Əliyevin xarakterində başlıca amil idi. Bütün bu dayaq və dəstək durmalar ədəbiyyat nümayəndələrini ürəkləndir, onları motivə edir və qələmlərinə daha da sarılmağa ilhamlandırırdı. Ulu Öndər ədəbiyyatı sevirdi və bu böyük sevgini çıxışlarının birində birmənalı şəkildə vurğulayırdı: "... ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur". Nəriman Həsənzadənin sözləri ilə desək: "təkcə sevmək deyildi, nəfəs alırdı". Məhz bu sevginin nəticəsidir ki, ədəbiyyat Ulu Öndərin siyasi xəttinin bir tərkib hissəsi olmuşdur.

Heydər Əliyevin ədəbiyyata diqqət yetirməsi, şair və yazıçılara qayğısı Sovet hakimiyyəti illərindən (1969-cu ildən) başlamışdır. 1969-cu il 12 avqust tarixli iclasda Qazaxda Molla Pənah Vaqifin ev muzeyinin yaradılması ilə bağlı qərar qəbul edilmişdir. 1978-ci ildə Şamaxıda ədəbiyyat muzeyinin, 1980-ci ildə isə Naxçıvanda Hüseyn Cavidin ev muzeyinin yaradılması ilə bağlı qərar qəbul edilmişdir. Həmçinin bir çox şairlərin – 1970-ci ildə Rəsul Rzanın anadan olmasının 60, 1980-ci ildə isə 70 illiyi, 1973-cü ildə Nigar Rəfibəylinin anadan olmasının 60 illiyi, Nəbi Xəzrinin 50 illiyi, 1982-ci ildə Mirvarid Dilbazinin anadan olmasının 70 illiyinin və s. keçirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Bunlar H.Əliyevin sovet hakimiyyəti illərində həyata keçirdiyi tədbirlərin çox az bir hissəsidir. Bu xidmətlər ikinci dəfə hakimiyyətə gələndən sonra da davam etmişdir. 1994-cü ildən başlayaraq, M.Füzulinin, M.Cəlilin yubileylərinin, 1999-cu ildə isə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin keçirilməsi ilə bağlı fərmanlar verilmişdir.

**Çağdaş ədəbiyyatda Heydər Əliyev idealının yaradılması**

Heydər Əliyev idealının yaradılması müasir Azərbaycan ədəbiyyatının əsas mövzularından birinə çevrilmişdir. İstər sağlığında, istərsə də əbədiyyata köçəndən sonra bədii ədəbiyyatda Heydər Əliyev şəxsiyyətinin miqyasını əks etdirən qiymətli ədəbi əsərlər yazılmışdır. Bu nümunələrdə Heydər Əliyev obrazı müstəqillik uğrunda və milli dövlətçiliyin möhkəmləndirilməsi yolunda şərəfli mübarizənin fonunda canlandırılmışdır. Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərlərində onun keşməkeşli həyat və mübarizəsi ilə yanaşı Azərbaycanın taleyi və müqəddəratı da paralel olaraq əks olunmuşdur. Başqa sözlə desək, ədəbiyyatda Heydər Əliyevin obrazı eyni zamanda Azərbaycanın obrazını da əks etdirir.

Xalqın xilaskarı, yüksək amallar daşıyıcısı kimi təsvir və tərənnüm edilən Ulu Öndər xalqının əbədi qəhrəmanı, baş ucalığı və şah vüqarıdır. Onun böyük şücaət və etdiyi böyük fədakarlıqlar nəinki Azərbaycan xalqını, hətta bütün türk dünyasını xilas etdi. Əslində Heydər Əliyev öz misilsiz obrazını özü yaratmışdır. Azərbaycanın çətin, təlatümlü günlərində xalqına köməyə, onu qorumağa gələn Heydər Əliyevin sarsılmaz inamı poetik nümunələrdə aydın şəkildə əks olunmuşdur. Xalq şairi Zəlimxan Yaqubun odlu-alovlu misralarında həmin inamın parlaq ifadəsini görürük:

*"Qoy səsi guruldasın bu gün altı qitədə,*
*Odur məndən ötəri ATƏT də, BMT də!*
*Gəlib, o kişi gəlib!*
*Xalqın xeyrinə sarı çarxın gərdişi gəlib.*

*Millətinə, xalqına birləş deyir, qalx deyir!*
*Öz xalqına güvənir, haqq danışır, haqq deyir.*
*Əlli milyona çatmış Azərbaycan dünyası,*
*"Qurtuluş nəğməsi"ni oxuyur bir himn kimi!*
*Bir səslə, bir avazla "Heydər" deyir, "Xalq" deyir."*

Müstəqilliyin bərpasından sonra müxtəlif dönəmlərdə qələmə alınmış bir çox poemalarda Heydər Əliyev obrazı yaradılmışdır. 1990-cı illərin əvvəllərində Elman Həbib "Həqiqət günəşi", "Heydərnamə" və "Naxçıvannamə" əsərlərini Heydər Əliyevə həsr etmişdir. Sonrakı dönəmlərdə yazılan əsərlərə Zəlimxan Yaqubun "Əbədiyyət dastanı", Fikrət Qocanın "Gərək bu günləri görəydin özün", Cabir Novruzun "İxtiyarım olsa idi", Sabir Mustafanın "Qayıdış", Abdulla Qurbaninin "Millətin oyaq gecəsi", Ramiz Məmmədzadənin "Zirvə", Əli Rza Xələflinin "İnsan, tarix və zaman", Elxan Zal Qaraxanlının "Anıt məzar dastanı", Fəridə Ləmanın "Onu zaman seçib", Ramiz Heydərin "İlhamlı gələcək", Rəfiq Zəkanın "Heydər baba", Ramiz Duyğunun "Prezidentin ürəyi", Mirkazım Seyidovun "Heydər dühası" və başqalarını qeyd etmək olar.

Ümummilli Liderin ikinci dəfə hakimiyyətə gəlməsi xalqı çox sevindirmiş və bu sevinc ədəbi əsərlərə də yansımışdı. Hələ sağlığında ikən yazılan əsərlərdən Fəridə Ləmanın "Onu zaman seçib" və Abdulla Qurbaninin "Millətin oyaq gecəsi" poemalarını vurğulamaq olar. Bu məqamda onu da xatırlatmaq yerinə düşərdi ki, "Onu zaman seçib" poemasına bəstəkar Cövdət Hacıyev simfoniya yazmışdır.

Fəridə Ləmanın "Onu zaman seçib" poemasının əvvəlində Heydər Əliyevin hakimiyyətə gəlişinin birinci mərhələsinin təsviri verilir. 1970-ci il xatırlanaraq Ulu Öndərin məqsədinin, məramının yalnız xalq və vətən olduğu, hakimiyyətə gəlişindən sonra ölkədə qısa zaman içərisində canlanmanın baş verdiyi qeyd olunur. "Heydər quran dövlətin təməli dağ, əyilməz!", - deyən müəllif Azərbaycanın parlaq gələcəyinə inamını ifadə edir:

*"O, Qorqud atadır,*
*el yiyəsidir.*
*Onun yollarına çökərmi durman*
*Onu zaman seçib!"* [4]

Heydər Əliyevin xilaskarlıq missiyasını digər əsərlərdə də görə bilirik. Məsələn, Elxan Zalın "Anıt məzar" poemasında daha geniş şəkildə təqdim olunur. Poema ilə tanışlıqdan məlum olur ki, Heydər Əliyev hələ sovetlər dönəmindən başlayaraq, Azərbaycanı müstəqilliyə hazırlamışdır. "Qayıdış" poemasında Sabir Mustafa Ulu Öndərin hakimiyyətinin hər iki mərhələsini: 1970-ci illərdəki quruculuq işlərini və 1993-cü ildən sonrakı rəhbərlik müddətini əks etdirir. Fikrət Qoca əsərində xalqın dar məqamında bir səhər çağı Heydər Əliyevin Naxçıvandan gəlməsini və bununla da imdada çatmasını təsvir edir.

Poemalara nəzər yetirdikdə və onlar üzərində təhlillər apardıqda aydın olur ki, müəlliflər Heydər Əliyevin bir sıra özəlliklərini, məsələn, onun hadisələrə operativ münasibətini, hakimiyyətə istər birinci gəlişində, istərsə də ikinci gəlişində xalqı üçün etdiyi fədakarlığı, qardaş Türkiyənin əvəzedilməz lideri olmuş Atatürklə bənzərliyi və s. məqamları əks etmişdilər.

Heydər Əliyev əbədiyyata qovuşandan sonra onun vəfatından doğan kədəri ifadə edən bir-birini təkrarlamayan əsərlər yazılmağa başlandı. Bu məqamda Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poemasını qeyd etmək yerinə düşərdi. "Böyük ömrün dastanı" və "Böyük ömrün davamı" adlı iki hissədən ibarət poemada Ulu Öndərin şərəfli həyatından və titanik fəaliyyətindən, xüsusən də müstəqil dövlətimizin inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edir. "Böyük ömrün dastanı" adlı elegiyanı şair 15 günə tamamlamışdır. Poemanın yaranmasını şair özü belə xatırlayır: "Ölümünə heç vaxt inanmadığım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı döyən qəfil qara xəbər hamı kimi məni də dərindən sarsıtdı. Bu sarsıntılar içərisində əlimə nə vaxt qələm götürdüyümdən heç özümüm də xəbərim olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb, son hissəsini tamamlamışam" [6, s. 4]. "Səndən sonra" başlığı ilə verilən parçada şair hamını Ulu Öndərdən yadigar qalan müstəqil dövlətimizi qorumağa səsləyir. Eyni zamanda ədibimiz Heydər Əliyev irsinin onun oğlu tərəfindən layiqincə davam

etdiriləcəyinə inamını ifadə edərək, xalqın İlham Əliyevə Heydər Əliyev qədər inandığını və güvəndiyini bildirir. “Böyük ömrün davamı” adlı bölümün “Davam edir bu tarix” başlıqlı parçasında şairin xalqının, dövlətinin gələcəyinə ümidlə baxdığının şahidi oluruq:

*“Dövləti qurmaq asan, onu yaşatmaq çətin*
*Yox, çətin olmayacaq*
*bu dövləti yaşatmaq,*
*Çünki onun başında ilhamlı rəhbər durur!*
*Çünki onun yanında millət səfərbər durur!*
*Getməlidir bu yolu millət onunla birgə,*
*Qarşıda mübarizə,*
*qarşıda zəfər durur!”* [6, s. 186].

Ulu Öndərlə bağlı söylənmiş “Xalq “Heydər” söyləyəcək” epitafiyası (Baba Vəziroğlu) layiqli davamçı İlham Əliyev hakimiyyətə gəldikdən sonra “Ölkə əmin əllərdədir, davam edir mübarizə” (Vahid Əziz) ifadəsinə keçid aldı.

Dramaturgiyada Hidayətin “Burdan min atlı keçdi”, İftixar Piriyevin “Qurtuluş dastanı”, Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı”, Aqşin Babayevin “Xilaskar” pyeslərində ümummilli liderin obrazının konturları görülür. Əsərlərdə Ulu Öndərin xilaskar və lider obrazları daha çox qeyd olunan məqamdır.

Müstəqillik dövrünün memuar ədəbiyyatında isə Heydər Əliyevin ədəbiyyat, mədəniyyət hamisi obrazına diqqət çəkilir. Bu istiqamətdə yazan müəlliflər birbaşa Heydər Əliyevlə ünsiyyətdə olmuş şəxslərdir. Bu istiqamətdə yazılan əsərlərə nümunə olaraq Hafiz Paşayevin “Bir səfirin manifesti”, Anarın “Unudulmaz görüşlər”, Elçinin “Tarixlə üz-üzə dayanmış adam”, Mövlud Süleymanlının “Qırx ilin yeddi görüşü”, İsa Hüseynovun “Həyatımdan səhifələr”, Vidadi Babanlının “Unutmadığım günlər” və s. qeyd edə bilərik. Ədəbi əsərlərdə Ulu Öndərin bədii obrazını, idealını yaratmaq şərəfli olduğu qədər də məsuliyyətli bir işdir. Bu mövzuda qələmini sınayanlar ümummilli liderlə ünsiyyətdə olmuş yaxud da onun siyasi fəaliyyətini yaxından izləmiş, gənclik, yetkinlik dövrü həmin illərə təsadüf etmiş şəxslərdir.

Hidayət Orucovun memuar ədəbiyyatı nümunəsi olan “Burdan bir atlı keçdi” pyesi Heydər Əliyevin bədii obrazını geniş miqyasında canlandıran ilk dram əsəri idi. Əsərdə 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Ümummilli Liderin Qərbi Azərbaycandakı tarixi abidələrə və buradakı tanınmış sənət adamlarının əziz xatirəsinin əbədiləşməsinə göstərdiyi diqqətdən geniş şəkildə bəhs olunur.

“Zirvə” poemasının müəllifi Ramiz Məmmədzadə əsərində Heydər Əliyevin anadan olmasını, məktəb illərini, pedaqoji fəaliyyətini, oxuduqdan sonra vətənə geri dönüşünü, yüksək rütbəyə qalxmasını və siyasi fəaliyyətini əks etdirmişdir. Fikrət Qocanın “Gərək bu günləri görəydin özün” poemasında Heydər Əliyevin uşaqlıq illərini, gəncliyini, qeyri-adi bir insan kimi yetişməsini və s. tərənnüm edir.

Heydər Əliyevin 20 Yanvar hadisələrinə münasibəti, kəskin etirazı da onunla bağlı əsərlərdə öz əksini tapmışdır. Bu istiqamətdə Sabir Mustafa, Ramiz Məmmədzadə, Elxan Zal və digərləri yazmışdılar. 20 Yanvarla bağlı məsələlərə Fəridə Ləmanın poemasının birinci hissəsində rastlaşırıq. Əsərin ikinci hissəsində mənfur düşmənlərimiz tərəfindən torpaqlarımızın ələ keçirilməsindən bəhs olunur.

Əsərlərdə Heydər Əliyevin nəinki siyasi fəaliyyətinin, həmçinin şəxsi həyatının da gənc nəslə örnək olduğunu görürük. “Gələn nəsillərə dərs olasıdı Zərifə sevgisi, Heydər sevinci” kimi misraların müəllifi Zəlimxan Yaqub Ümummilli Liderlə Zərifə xanımın böyük eşqini tərənnüm etmişdir. Ramiz Məmmədzadənin “Zirvə” poemasında isə Fəxri xiyabanın təsvirində Heydər Əliyevlə Zərifə xanımın millətin tarixinə düşməsindən bəhs edilir.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişini Sabir Mustafanın “Qayıdış” və Z.Yaqubun “Əbədiyyat dastanı”nda görürük. Bu əsərlərdə həmin dönəmlərdə ölkədəki ümumi siyasi durumun təsviri ilə yanaşı ermənilərin torpaqlarımızda gözü olması, amma Heydər Əliyevin gəlişi ilə onların bu planlarının məhv olması və s. təsvir edilmişdir.

Ulu Öndərin ölkənin dar məqamında, xaosların tüğyan etdiyi bir dönəmdə xalqının yanına qayıtması ona arxa, dayaq olması əsərlərin əsas mövzularından biri olmuşdur. Abdulla Qurbaninin "Millətin oyaq gecəsi" poeması qeyd olunan mövzuya aiddir.

Heydər Əliyev bədii ədəbiyyat nümunələrində bir tarixi şəxsiyyət kimi tanınmış tarixi şəxsiyyətlərlə müqayisəli şəkildə təsvir edilmişdir. Elxan Zal və Sabir Mustafa müqayisə edərkən Səfəvilər dövlətini nümunə olaraq qeyd etmişdilər. Elxan Zal Səfəvilər dövlətinin Azərbaycan tarixində böyük izini xatırladaraq, Şah İsmayılın ata adının da Heydər olduğunu qeyd etmişdir. Həmçinin Sabir Mustafa da Səfəvilər dövlətini xatırladaraq Şah İsmayılın siyasi fəaliyyəti ilə Heydər Əliyevin siyasi fəaliyyəti arasındakı oxşar məqamları qeyd etmişdir. Şah İsmayıl hakimiyyətə gələrək, xalqı vahid bir bayraq altında birləşdirdiyi kimi, Heydər Əliyev də xalqının dar məqamında yetişmiş, hakimiyyətə gələrək onu başına gələcək bəlalardan qorumuşdur.

Fəridə Ləman, Zəlimxan Yaqub, Elxan Zal və başqalarının poemalarda Şah İsmayıl Xətai ilə yanaşı, Atatürklə Heydər Əliyevin bənzərliyini də görürük. Fəridə Ləman xalqın "Hanı Atatürküm – Heydər Əliyev! Gəlsin bəlalardan qurtarsın bizi" çağırışına səs verən liderdən bəhs edir. Zəlimxan Yaqubun poemasında "Ata Heydər – Atatürk" adlı ayırıca bir bölüm var. Bu bölümdə iki liderin tale bənzərliyini, oxşar tərəflərini qeyd etmişdir. Elxan Zalın yaradıcılığında isə bu bənzərlik daha geniş şəkildə əks olunmuşdur. Belə ki, o, Azərbaycanın qurucusu olan Heydər Əliyevi rusların Pyotruna, amerikalıların Vaşinqtonuna, Türkiyənin Fatehinə və Atatürkünə bənzədir. Atatürklə oxşar taleli insanlar olmasına diqqət çəkən müəllif hər ikisinin xalqın dar günündə imdadıa gəlməsini qeyd edir.

İşğal altında olan torpaqlarımız azad edildikdən sonra həmin torpaqlarda Heydər zirvələrinin yaradılması arzusu Ulu Öndərlə bağlı yaradılan əsərlərdə maraqlı məqamlardan biridir. Ramiz Məmmədzadə "Zirvə" əsərinin sonunu belə bir arzu ilə yekunlaşdırmışdır: "Gün gələcək Şuşada Orda – Cıdır düzündə... Heydər zirvələnəcək". 2020-ci ildə qazandığımız şanlı zəfərlə şairin proqnozları da gerçəkləşir.

Çağdaş nəsrimizin hekayə janrında Heydər Əliyevin obrazı yaradılan əsərlər içərisində Qalib Şəfahətin "Xilaskar" hekayəsini xüsusi qeyd etmək istərdik. Bu əsərdə Heydər Əliyevin xilaskarlıq missiyası fərqli aspektdən işlənmişdir. Adətən, xilaskarlıq missiyasını deyəndə hakimiyyətə gəldiyi birinci və ikinci dövrlər nəzərdə tutulur, ancaq bu hekayədə xilaskarlıq missiyasının Ulu Öndərin əbədiyyata qovuşduqdan sonra da davam etdiyi bildirilir. Maraqlı məzmuna malik hekayədə bildirilir ki, atası 2020-ci ildə II Qarabağ müharibəsinə yollanan şagird atası geri dönməyincə müharibənin bitməsi üçün dərsdən çıxandan sonra Heydər Əliyevin məktəbin həyətindəki heykəlinə yaxınlaşıb ona "Qarabağı tez al, qoy atam evimizə tez qayıtsın" deyib ağlayır. Heykəli qucaqlayıb ağlayan şagirdi görən polis uşağa yaxınlaşaraq məsələdən halı olub ona təskinlik verir: "Heydər Əliyev ümummilli liderimizdir. Prezident də Heydər babanın oğludur, onun siyasətinin davamçısıdır. Heydər baba sənin səsini eşitdi. Prezidentə deyəcək ki, Qarabağı tez alın! O da atasının dediyini yerinə yetirəcək. Get evdə rahat yat, yuxudan duranda görəcəksən ki, Qarabağı almışıq" [5]. Hekayədə müəllimin ümummilli liderin ideyalarının həmişəyaşarlılığı ilə bağlı fikirləri də təsirli məqamlardan biridir. Nihad adlı şagirdin "Axı, o, rəhmətə gedib. Ölən adam Qarabağı necə xilas edə bilər?" sualına müəllim təmkinlə cavab verir: "– Nihad, sən səhv düşünürsən. Heç vaxt dahi insanlar ölmür. Onların əməlləri bizi bu çətin yolda da xilas edir" [5]. Həqiqətən də, polisin dediyi kimi də olur. Uşaq yuxudan duranda anası ona qalibiyyət müjdəsini verib, artıq Şuşanın azad edildiyini, düşmənin təslim olduğunu, atasının tezliklə evlərinə dönə biləcəyini söyləyir. Sonda xoş xəbər müjdəsini alan uşağın "Var olsun Heydər baba, mənim sözümü eşidib. Qarabağ bizimdir!" deyir və bu nida bütövlükdə Ulu Öndərə və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ümumxalq sevgisini, inamını və güvənini simvolizə edir.

**Nəticə**

Beləliklə, təhlillərdən də göründüyü kimi ədəbi əsərlərdə Heydər Əliyevin obrazı hərtərəfli şəkildə işlənmiş, onun şəxsi həyatı, siyasi fəaliyyəti, xalqına xidməti uğurlu şəkildə təsvir və tərənnüm edilmişdir. Heç şübhəsiz ki, bundan sonra da çağdaş ədəbiyyatımızda Heydər Əliyevin

hərtərəfli şəkildə işlənmiş parlaq obrazının yaradılacağı əsərlər olacaq, çünki Heydər Əliyevin bədii obrazı geniş mənada bədii düşüncədə müasir Azərbaycanın obrazını əks etdirmək deməkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında nitqi – Prezident sarayı, 30 oktyabr 1997-ci il. [Elektron resurs] URL: https://lib.aliyevheritage.org/az/9165216.html
2. Əliyev, Heydər.. Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidir (Azərbaycan yazıçılarının V qurultayında nitq) / "Ədəbiyyat və incəsənət" qəz., 1971, 5 iyun
3. Əliyev, Heydər. Azərbaycan yazıçılarının VII qurultayında çıxışı / Kommunist. – 1981, 8 iyun. – s. 1-3.
4. Fəridə Ləman. Onu zaman seçib. [Elektron resurs] URL: http://qafqazpress.az/medeniyyet/5107-feride-leman-onu-zaman-seib.html
5. Qalib Şəfahət. Xilaskar. Hekayə. [Elektron resurs] URL: https://kiriminsesigazetesi.com/xilaskar-qalib-s%C9%99fah%C9%99t/
6. Zəlimxan Yaqub. Əbədiyyat dastanı. - Bakı: Pedaqogika, - 2008. - 264 s.

## DESCRIPTION AND GLORIFYING OF THE IDEAL OF HEYDAR ALIYEV IN LITERATURE

**A.Babazadeh**
doctor of philosophy in philology
Mingachevir State University

***Abstract:*** *The article mentions the great role and services of the national leader Heydar Aliyev in the development of contemporary Azerbaijani literature, and it is reported that this mission was successfully continued by his worthy successor, the President of the Republic of Azerbaijan, Ilham Aliyev. Later, the names of the works in which Heydar Aliyev's ideal is described and glorified are noted, and some of them are analyzed. The works are analyzed from different aspects. Many works related to Heydar Aliyev were written both during his lifetime and after his death. Both the first and second stages of his rise to power have been the subject of literary works. The great leader is mostly portrayed and glorified as the bearer of the rescue mission. In the end, it is noted that many more works will be written about Heydar Aliyev.*
***Keywords:*** *Heydar Aliyev, care for literature, ideal image, rescue mission, immortalization*

## ОПИСАНИЕ И ПРОСЛАВЛЕНИЕ ИДЕАЛА ГЕЙДАРА АЛИЕВА В ЛИТЕРАТУРЕ

**А.Ч.Бабазаде**
доктор философии по филологии
Мингячевирский государственный университет

***Резюме:*** *В статье отмечается большая роль и заслуги общенационального лидера Гейдара Алиева в развитии современной азербайджанской литературы и отмечается, что эта миссия была успешно продолжена его достойным преемником Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Затем отмечаются названия произведений, в которых описывается и воспевается идеал Гейдара Алиева, проводится*

*анализ некоторых из них. Произведения анализируются с разных сторон. Многие произведения, связанные с Гейдаром Алиевым, были написаны как при его жизни, так и после его смерти. И первый, и второй этапы его прихода к власти были предметом литературных произведений. Великий лидер чаще всего изображается и прославляется как носитель спасательной миссии. В конце отмечается, что о Гейдаре Алиеве будет написано еще много произведений.*

***Ключевые слова:*** *Гейдар Алиев, забота о литературе, идеальный образ, миссия спасения, увековечивание*

**Elmi redaktor: fil.f.d., dos. M.İsmayılov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 28.09.2023**
**Çapa qəbul edilib: 05.10.2023**

# MƏQALƏLƏRƏ QOYULAN TƏLƏBLƏR

**1.** Məqalə Azərbaycan, türk, ingilis və ya rus dillərindən birində yazılmaqla aid olduğu sahə üzrə son tədqiqatların nəticələrini və elmi yenilikləri əks etdirməlidir.

**2.** Mətn A4 formatında, Times New Roman 12 şrifti ilə, sətirlərarası məsafə 1 interval olmaqla, soldan 30 mm, sağdan 20 mm, yuxarıdan 20 mm və aşağıdan 20 mm məsafə saxlamaqla yazılmalıdır.

**3.** Məqalənin həcmi cədvəl, qrafik, diaqram, şəkil və əlavələr də daxil olmaqla 8 səhifədən artıq olmamalıdır.

**4.** Məqalədə aşağıdakılar qeyd olunmalıdır:

- Universal Onluq Təsnifat (UOT) indeksi;
- müəllif(lər)in soyadı, adı və atasının adı, onların elmi dərəcəsi və elmi adı, vəzifəsi, çalışdığı təşkilat (müəssisə), elektron poçt ünvanı, mobil telefon nömrəsi;
- 3 dildə açar sözlər (20 sözdən artıq olmamaqla);
- 3 dildə xülasə (hər biri 200 sözdən artıq olmamaqla);
- məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da istinad olunan ədəbiyyatın mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməlidir. Mətndə istinadlar kvadrat mötərizədə işarə olunmalıdır (məsələn, [1] və ya [1, s. 119]);
- mənbə kimi son 10 ildə işlənmiş elmi əsərlərə (məqalə, dissertasiya, monoqrafiya və s.) istinadlara üstünlük verilməlidir. Mənbənin biblioqrafik təsviri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları” barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin tələblərinə uyğun olmalıdır;
- qrafik və diaqramlar Excel proqramında qurulmalıdır, bununla bağlı ədədi məlumatlar faylın özündə saxlanılmalıdır. Qrafik xüsusi proqramda işlənmişdirsə, o halda vektor formatında (*.pdf, *.eps, *.ai, *.cdr) yaddaşda saxlanılmalıdır.

**5.** Məqalə unikal olmalı və əvvəllər hər hansı jurnal və ya məcmuələrdə dərc edilməmiş olmalıdır. Məqalənin unikallığı StrikePlagiarism (www.strikeplagiarism.com) antiplagiat proqramı ilə yoxlanılır (OƏ1 50 %-dən, OƏ2 5 %-dən artıq olmamalıdır). Yoxlamanın hesabatı məqalə ilə birlikdə təqdim edilir.

**6.** Redaksiya məqalədə düzəlişlər və ixtisarlar aparılmasını zəruri bildiyi halda müəllif(lər)ə müraciət edə bilər. Müəllif(lər) redaksiya ilə razılaşmadıqda məqalənin çap olunmasından imtina edilə bilər.

**7**. Redaksiyanın poçt ünvanı: AZ4500, Azərbaycan Respublikası, Mingəçevir ş., Dilarə Əliyeva 21, Mingəçevir Dövlət Universiteti.

Redaksiyanın elektron poçt ünvanı: dayanıqlı.inkishaf@mdu.edu.az

Jurnalın internet saytı: https://scientific.mdu.edu.az

Əlaqə telefonu: (02427) 5 23 75

# MAKALELERDE YER ALAN GEREKSİNİMLER

**1.** Makale: Azerice, Türkçe, İngilizce veya Rusça dillerinden birinde yazılmalı ve ait olduğu alandaki en son araştırma ve bilimsel yeniliklerin sonuçlarını yansıtmalıdır.

**2.** Makale: A4 formatında, Times New Roman yazı tipi ve 12 punto, 1 satır aralığında yazılmalıdır.

**3.** Sayfa kenarlıkları soldan 30 mm, sağdan 20 mm, üstten 20 mm ve alttan 20 mm olmalıdır.

**4.** Makale: tablo, grafik, diyagram, şekil ve ekler dahil 8 sayfayı geçmemelidir.

- Makalede olması gerekenler:
- Evrensel Ondalık Sınıflandırma (UOT) endeksi;
- yazar(lar)ın soyadı, adı ve baba adı, akademik derecesi ve bilimsel unvanı, çalıştığı yer (kurum-işletme), e-posta adresi, cep telefonu numarası;
- 3 dilde anahtar kelimeler (en fazla 20 kelime);
- 3 dilde özet (her biri 200 kelimeden fazla olmayacak);
- Makalede kaynak olarak kullanılan her referanslar belirtilmelidir. Referanslar, alfabetik sıraya göre veya alıntı yapılan literatürün metinde bulunduğu sıraya göre numaralandırılmalıdır. Metin içindeki referanslar köşeli parantez içinde belirtilmelidir (örneğin, [1] veya [1, s. 119]);
- Kaynak olarak son 10 yılda yazılmış bilimsel eserler (makale, tez, monograf vb.) tercih edilmelidir. Kaynakça, Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı'na bağlı Yüksek Tasdik Komisyonu'nun "Tezleri derleme kuralları" hakkındaki mevcut talimatının "Kullanılmış literatür" bölümünün gereklerine uygun olmalıdır;
- Grafikler ve çizelgeler Excel'de oluşturulmalı ve kullanılan sayısal bilgiler dosyada saklanmalıdır. Eğer grafikler özel bir program kullanılarak geliştirildiyse, vektör formatında (*.pdf, *.eps, *.ai, *.cdr) saklanmalıdır.

**5.** Makale benzersiz olmalı ve daha önce herhangi bir yerde yayınlanmamış olmalıdır. Makalenin benzersizliği, anti-intihal programı StrikePlagiarism (www.strikeplagiarism.com) tarafından kontrol edilmelidir (SC(%)1 50'yi, SC(%)2 5'i geçmemelidir). İnceleme raporu makale ile birlikte sunulmalıdır.

**6.** Editörlük, makalede düzeltme veya değişiklik gerekli gördüğü takdirde yazar(lar)a başvurabilir. Yazar(lar)ın editörler ile anlaşamaması durumunda makalenin yayınlanması reddedilebilir.

**7.** Yazışma adresi: AZ4500, Azərbaycan Respublikası, Mingəçevir ş., Dilarə Əliyeva 21, Mingəçevir Dövlət Universiteti.

Editörlük e-posta: dayanıqlı.inkishaf@mdu.edu.az

Derginin internet sayfası: https://scientific.mdu.edu.az

İrtibat telefonu: (02427) 5 23 75

## REQUIREMENTS FOR THE ARTICLES

**1.** The article should be written in one of the Azerbaijani, Turkish, English or Russian languages and reflect the results of the recent research and scientific innovations in the field to which it belongs.

**2.** The text should be written in A4 format, in Times New Roman 12 font, with 1 line spacing, 30 mm left, 20 mm right, 20 mm top and 20 mm bottom.

**3.** The volume of the article should not exceed 8 pages, including tables, graphs, diagrams, figures and appendices.

**4.** The followings should be noted in the article:

- Universal Decimal Classification (UDC) index;
- surname, name and patronymic of the author (s), their scientific degree and scientific title, position, organization (enterprise), e-mail address, mobile phone number;
- Keywords in 3 languages (not more than 20 words);
- Abstract in 3 languages (not more than 200 words each);
- The article should contain references to scientific sources. The bibliography should be numbered either in alphabetical order or in the order in which the cited literature is found in the text. References in the text should be indicated in square brackets (for example, [1] or [1, p. 119]);
- References to scientific works (articles, dissertations, monographs, etc.) written in the last 10 years as a source should be preferred. Bibliographic description of the source must comply with the requirements of the section "Used literature" of the current instruction of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan on "Rules for compiling dissertations";
- graphs and diagrams must be built in Excel, numerical information must be stored in the file. If the graphic was developed in a special program, then it must be stored in vector format (* .pdf, * .eps, * .ai, * .cdr).

**5.** The article must be unique and not previously published in any journal or collection of articles. The uniqueness of the article is checked by the anti-plagiarism program StrikePlagiarism (www.strikeplagiarism.com) (SC 1 should not exceed 50%, SC 2 should not exceed 5%). The inspection report is submitted together with the article.

**6.** The editorial office may apply to the author (s) if it deems it necessary to make corrections and reductions in the article. If the author (s) do not agree with the editors, the publication of the article may be refused.

**7.** Postal address of the editorial office: AZ4500, Republic of Azerbaijan, Mingachevir, Dilara Aliyeva 21, Mingachevir State University.

E-mail address of the editorial office: dayaniqli.inkishaf@mdu.edu.az

Website: https://scientific.mdu.edu.az

Contactphone: (02427) 5 23 75

## ТРЕБОВАНИЯ К СТАТЬЯМ

**1.**Статья должна быть написана на одном из азербайджанского, турецкого, английского или русского языков и отражать результаты последних исследований и научные новизны в области, к которой она относится.

**2.** Тексты статей составляются в формате А4, шрифтом Times New Roman 12. Расстояние между строками должно быть 1 интервал. Расстояния от краев должны быть в следующем порядке: слева - 30 мм, справа - 20 мм, сверху - 20 мм, снизу - 20 мм.

**3.** Размер статей вместе с графиками, диаграммами, рисунками и приложениями не должен превышать 8 страниц.

**4.** В статьях должны быть отмечены следующее:

- индекс УДК (Универсальная десятичная классификация);

- фамилия, имя и отчество автор(ов)а, его (их) ученая степень, научное звание, должность, организация (предприятие), где работае(ю)т автор(ы), адрес электронной почты и номер мобильного телефона;

- ключевые слова (не более 20 слов) в трех языках;

- резюме (150-200 слов) в трех языках;

- соответствующие ссылки и примечания на научные источники;

- список литературы должны быть пронумерованы в алфавитном порядке или в порядке ссылок на литературу, обозначенной в тексте статьи. В тексте статьи ссылки должны быть указаны в квадратных скобках (например, [1] или [1, с. 119]);

- в качестве источника предпочтение должно быть сделано ссылкам на научные труды (научные статьи, диссертации, монографии и т.д.), разработанные в последние 10 лет. Библиографическое представление всех источников должно соответствовать всеобщим требованиям раздела «Использованная литература», ныне действующей инструкции о «Правилах составления диссертаций» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики;

- графики и диаграммы должны быть установлены с использованием программы Excel и в связи с этим все цифровые информации должны быть сохранены в самом файле. Если графика разработана в специальной программе, тогда она сохраняется в памяти в формате вектор (*.pdf, *.eps, *.ai, *.cdr).

**5.** Статьи должны быть уникальными и доселе не должны быть опубликованы в каких-нибудь журналах или других научных изданиях. Уникальность статей будут проверяться с помощью программы антиплагиат (КП1 не должен превышать 50%, а КП2 не более 5%) StrikePlagiarism (www.strikeplagiarism.com). Результаты проверки представляются вместе с текстом статей.

**6.** Редакция журнала при необходимости коррективов и сокращений может обращаться к автор(ам)у. Автор(ы) в случае не согласия с редакцией может отказаться от публикации статьи.

**7.** Почтовый адрес редакции: AZ4500, Азербайджанская Республика, г. Мингячевир, ул. Дилары Алиевой 21, Мингяевирский государственный университет.

Адрес электронной почты редакции: dayanıqlı.inkishaf@mdu.edu.az

Интернет сайт журнала: https://scientific.mdu.edu.az

Контактный телефон: (02427) 5 23 75

**DAYANIQLI İNKİŞAF**

Yığılmağa verilib: 18.10.2023
Çapa imzalanıb: 14.11.2023
Format: 60 x 84 1/16

F.Ç.V. 38

Tiraj 150

"OPTİMİST" MMC-2023